# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# YETMİŞ ALTINCI KİTAB

## SENTYABR 2016 - OKTYABR 2016

**AZƏRNƏŞR**
**BAKI - 2018**

# İLHAM
# ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR
## BƏYANATLAR * MÜSAHİBƏLƏR
## MƏKTUBLAR * MƏRUZƏLƏR
## MÜRACİƏTLƏR

**AZƏRNƏŞR**
**BAKI – 2018**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbulda, Rio de Janeyroda keçirilən XV Yay Paralimpiya oyunlarında iştirak etmiş idmançılarla görüşündə, V Bakı Beynəlxalq Humanitar Forumun təntənəli açılışı mərasimində nitqləri və «Rossiya seqodnya» Beynəlxalq İnformasiya Agentliyinin «Sputnik Azərbaycan»a geniş müsahibəsi verilmişdir.

Kitabda dövlət başçısının Türkiyə Respublikasına səfəri, həmçinin Roma Papası Fransiskin və Venesuela Bolivar Respublikası Prezidentinin Azərbaycana səfərləri zamanı bu ölkələrin dövlət və hökumət rəhbərləri ilə din, mədəniyyətlərarası dialoq mövzusunda, enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələr və hərtərəfli əməkdaşlıq məsələlərinin müzakirəsinə dair çıxış və nitqləri də toplanmışdır. Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır.

Cilddə, həmçinin ölkə başçısının bölgələrə səfərləri, regionların sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsi, ölkənin sosial, iqtisadi, kənd təsərrüfatı və mədəni cəhətdən inkişafına həsr olunmuş nitqləri yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\dfrac{0801000000}{\text{М} - 651(07) - 2018}$ **ББК - 32**

© Azərnəşr, 2018

# MİNGƏÇEVİR ŞƏHƏRİNƏ SƏFƏR

*21 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Mingəçevir şəhərinə səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzin ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu.*

*Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov son dövrdə Mingəçevirdə görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.*

*Bildirildi ki, ümummilli liderin adını daşıyan parkın ərazisi 3 hektardır. Parkda şəlalə kompleksi və yeni kafe tikilib, mövcud «Ana və uşaq» kafesi müasir üslubda yenidən qurulub, xeyli yaşıllıq işləri görülüb.*

## Tarix Muzeyində əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Mingəçevir Şəhər Tarix Muzeyində əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Mingəçevir Şəhər Tarix Muzeyi 1968-ci ildə Mingəçevir Dövlət Dram Teatrının binasındakı bir otaqda fəaliyyətə başlayıb. 1985-ci ildən 2015-ci ilədək isə doqquzmərtəbəli yaşayış binasının birinci mərtəbəsində fəaliyyətini davam etdirib. Lakin sonradan Heydər Əliyev prospektində yerləşən əvvəlki Heydər Əliyev Muzeyinin binası yenidən quruldu və Mingəçevir Şəhər Tarix Muzeyi də həmin binaya köçürüldü. Yenidənqurma işlərindən sonra indi binanın ümumi sahəsi 810 kvadratmetr təşkil edir.*

*Muzeydə xalqımızın ümummilli lideri Heydər Əliyevin və prezident İlham Əliyevin həyat və fəaliyyətindən, ölkəmizin inkişafı istiqamətindəki xidmətlərindən bəhs edən fotoguşə yaradılıb.*

*Bildirildi ki, 3 fond otağından, 50 nəfərlik müşavirə və 2 ekspozisiya zalından ibarət olan muzeydə 16 min eksponat qorunur və onlardan 400-ü ekspozisiya zallarında nümayiş etdirilir. Bu son dərəcə qiymətli eksponatlar ölkəmizin dünyanın qədim insan məskənlərindən olduğunu bir daha təsdiqləyir.*

*Diqqətə çatdırıldı ki, muzeydə nümayiş etdirilən eksponatların bir çoxu ötən əsrin ortalarında Mingəçevir Su-Elektrik Stansiyasının tikintisi zamanı aparılan qazıntı işləri zamanı tapılıb.*

# MİNGƏÇEVİR SƏNAYE PARKININ TƏMƏLQOYMA MƏRASİMİNDƏ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*21 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Mingəçevir Sənaye Parkının təməlqoyma mərasimində iştirak etmişdir.*

*Azərbaycan Prezidentinin Bakı, Gəncə, Sumqayıt və Mingəçevir şəhərlərində sənaye zonalarının təşkil olunması ilə bağlı irəli sürdüyü təşəbbüsün mahiyyətində dayanan mühüm amillərdən biri də sənaye parklarının yaradılmasıdır. Bunu prezident İlham Əliyevin 2015-ci ilin fevralında Mingəçevir Sənaye Parkının yaradılması və bu parkın fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında imzaladığı sərəncamlar da təsdiqləyir. Bununla da əsas diqqət ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsinə, sahibkarlığın dəstəklənməsinə, müasir texnologiyalara əsaslanan rəqabətqabliyyətli sənaye müəssisələrinin təşkilinə və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasına yönəlib.*

*Mingəçevir Sənaye Parkının fəaliyyətinin təşkili, idarə olunması və inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsi İqtisadiyyat Nazirliyinin tabeliyində yaradılmış «Sumqayıt Kimya Sənaye Parkı» MMC-yə həvalə olunub. Sənaye parkının fəaliyyətinin təmin edilməsi məqsədilə Əmlak Məsələləri Dövlət Komitəsinin tabeliyində olan «Mingəçevir–Toxucu» ASC ləğv edilib və onun 15 hektara yaxın torpaq sahəsi icarə hüququ ilə «Sumqayıt Kimya Sənaye Parkı» MMC-nin daimi istifadəsinə verilib.*

*Dövlətimizin başçısı sənaye parkının baş planını, burada yaradılacaq müəssisələrlə bağlı məlumatları əks etdirən stendlərə baxdı.*

*İqtisadiyyat naziri Şahin Mustafayev məlumat verdi ki, Mingəçevir Sənaye Parkının tikinti sahəsi 120 min kvadratmetr təşkil edəcək. İnşaat işlərinə 60 milyon manatdan artıq, avadanlıq və dəzgahların alınmasına 150 milyon dollardan çox investisiya qoyulması, parkda ilkin mərhələdə 2000, sonra 5500-dən artıq yeni iş yerinin açılması nəzərdə tutulub.*

*Layihə rəhbəri Mehriban Axundova bildirdi ki, Mingəçevir Sənaye Parkının nəzdində 9 müəssisə inşa ediləcək. Pambıq ipliyi istehsalı müəssisəsində ilkin mərhələdə ildə 10 min ton, növbəti mərhələdə isə 20 min ton iplik istehsalı nəzərdə tutulub. Azərbaycanda böyük tələbat olan akril ipliyi istehsalı müəssisəsində ilkin mərhələdə il ərzində 3 min ton məhsul hazırlanacaq. Bu, idxaldan asılılığı qismən aradan qaldıracaq. Yun ipliyi istehsalı müəssisəsində ildə 3 min ton məhsul istehsal ediləcək.*

*Diqqətə çatdırıldı ki, corab istehsalı müəssisəsinin tikintisi ilə ilkin mərhələdə Azərbaycanın corab məhsullarına tələbatının 50 faiz ödənilməsi, illik 35 milyon, növbəti mərhələdə isə 70 milyon cüt corabın istehsalı nəzərdə tutulub. Ayaqqabı istehsalı müəssisəsində illik 1,5 milyon cüt dəri ayaqqabı istehsal ediləcək.*

*Qabaqcıl texnologiyaların tətbiq olunacağı bu müəssisələrdən başqa, sənaye parkında tibbi kosmetika məhsulları istehsalı müəssisəsinin yaradılması da planlaşdırılıb. Müəssisədə pambıq mahlıcının və ipliyin tullantılarının təkrar emalı nəzərdə tutulub. Tullantılardan sterilləşdirilmiş pambıq, tibbi sarğı bezləri və bandajları, qulaqtəmizləyən çöplər və makiyaj bezləri istehsal olunacaq.*

*Diqqətə çatdırıldı ki, toxuculuq müəssisəsində pambıq parçalar istehsal ediləcək. Azərbaycanda növbəti 5 il ərzində xam pambığın istehsalının 700 min tona çatdırılacağını nəzərə alsaq, o zaman sənaye parkının nəzdində fəaliyyət göstərəcək pambıq ipliyi istehsalı müəssisəsinin əhəmiyyəti aydın görünür. İllik istehsal gücü 15 milyon metr təşkil edəcək müəssisə müasir avadanlıqlarla təchiz olunacaq. Bununla yanaşı, hazırlanacaq xam parçanın boyanması üçün parkın nəzdində illik gücü 15 milyon metr olan boyama müəssisəsi inşa ediləcək.*

*Ölkədə hazır geyim məhsullarına olan tələbatı ödəmək və idxaldan asılılığı azaltmaq məqsədilə Azərbaycanın və bütövlükdə Qafqazın ən nəhəng tikiş müəssisəsi də Mingəçevir Sənaye Parkında inşa ediləcək. Müəssisədə 2000-ə yaxın yeni iş yeri açılacaq.*

*Sonra dövlətimizin başçısı Mingəçevir Sənaye Parkının təməlini qoydu.*

*Daha sonra Azərbaycan Prezidenti Mingəçevir şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz dostlar, əziz mingəçevirlilər, mən sizi ürəkdən salamlayıram. Bu gün Mingəçevir şəhərinin həyatında, ümumiyyətlə, ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün Mingəçevir Sənaye Parkının təməl daşı qoyulub. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu doğrudan da çox əlamətdar tarixi bir hadisədir. Bu hadisə onu göstərir ki, Azərbaycan uğurla inkişaf edir, bütün regionlar, iqtisadiyyatımız, sənayemiz inkişaf edir. Bu onu göstərir ki, bizim planlarımız və qəbul etdiyimiz qərarlar həyatda öz əksini tapır. Mən keçən il Mingəçevir Sənaye Parkının yaradılması ilə bağlı fərman imzalamışam. Müəyyən vəsait ayrılıb ki, bu ərazidə təmizlik işləri aparılsın. Artıq bütün hazırlıq işləri görülüb və bu gün biz bu böyük, genişmiqyaslı layihəyə start veririk.

Bu parkın yaradılması Mingəçevir üçün çox böyük əhəmiyyət daşıyır. Deyə bilərəm ki, bu gündən Mingəçevirin yeni inkişaf dövrü başlanır. Bu sənaye parkında görüləcək işlər bizim ümumi iqtisadi potensialımızı gücləndirəcək. Burada 9 fabrik yaradılacaq. Bu fabriklərdə işləyənlərin sayı 5-6 minə çatacaq. Bu sənaye parkında görüləcək işlərin həcmi təqribən 150–200 milyon dollar səviyyəsindədir. Bu çox böyük investisiya layihəsidir. Bu layihəni icra etdikcə, əminəm ki, yeni təşəbbüslər ortaya çıxacaq. Çünki bu layihənin şəhərin inkişafına, iş yerlərinin yaradılmasına,

ümumiyyətlə, kənd təsərrüfatımızın, sənaye potensialımızın inkişafına çox böyük xeyri olacaq.

Mingəçevir sənaye şəhəridir. Mingəçevir energetiklər şəhəridir. Bundan sonra isə, eyni zamanda, Mingəçevir nəinki Azərbaycanın, ümumiyyətlə, Cənubi Qafqazın yüngül sənaye mərkəzlərindən birinə, bəlkə də birincisinə çevriləcək. Mən ölkəmizin sənaye inkişafı ilə bağlı öz fikirlərimi dəfələrlə bildirmişəm. Biz bütün planlarımızı yerinə yetiririk. Ölkəmizin hər bir yerində, hər bir rayonda sənaye zonaları yaradılmalıdır və artıq bu istiqamətdə işlər gedir. Eyni zamanda, Bakı ilə birlikdə ölkəmizin 4 əsas sənaye mərkəzi olmalıdır. Bu mərkəzlərdə işlər daha da sürətlə getməlidir. Sumqayıt Cənubi Qafqazda sənaye potensialına görə ikinci mərkəzdir. Gəncə və Mingəçevir şəhərlərində ən müasir standartlara cavab verən, ən son texnologiya ilə işləyən yeni müəssisələr yaradılır və yaradılacaq. Bu sənaye parkı Bakıda da, başqa yerdə də yaradıla bilərdi. Ancaq mən qərara gəldim ki, bu, mütləq Mingəçevirdə olmalıdır. Çünki Mingəçevir böyük şəhərdir. Şəhərin əhalisi artır. Mingəçevirdə kənd təsərrüfatı sahəsi, demək olar ki, yoxdur. Eyni zamanda, şəhər əhalisi həm hazırlıqlıdır, peşəkardır, həm də Mingəçevirdə kifayət qədər böyük əmək qüvvəsi vardır. Baxmayaraq ki, biz ölkə miqyasında işsizliyi xeyli aşağı sala bilmişik, ümumi rəqəm təqribən 5 faiz ətrafındadır, Mingəçevirdə işsizlik problemi var. Burada yaradılacaq yeni müəssisələr bu problemi də aradan qaldıracaq. 5-6 min iş yerinin yaradılması, özü də qısa müddət ərzində yaradılması özlüyündə gözəl göstəricidir.

Bu sənaye parkında fəaliyyət göstərəcək müəssisələr ixrac-yönümlü müəssisələrdir. Bizim qarşımızda duran əsas vəzifələrdən biri də ondan ibarətdir. Son illərdə gördüyümüz işlər bu məqsədi güdür ki, Azərbaycanın qeyri-neft potensialını artıraq və ixracyönümlü məhsullar istehsal edək. Bu müəssisələrdə istehsal olunacaq pambıq ipliyi, yun ipliyi, dəri məmulatları, akril ipliyi ixracyönümlü məhsullardır. Xüsusilə pambıq və yun ipliyi müəssisələrində istehsal olunacaq məhsullar üçün bazar axtarmağa ehtiyac yoxdur. Çünki bu məhsullar dünya birjalarında satılır. Bu

sənaye parkının üstünlüyü ondan ibarətdir ki, ölkəmizə böyük həcmdə xarici valyuta gətirəcək. Bu sənaye parkının digər üstünlüyü də ondan ibarətdir ki, burada fəaliyyət göstərəcək müəssisələrin əksəriyyətində yerli xammaldan istifadə olunacaq.

Yaxşı bilirsiniz ki, son müddət ərzində Azərbaycanda pambıqçılığın inkişafına böyük təkan verilib. Qısa müddət ərzində görülmüş tədbirlər nəticəsində biz əkin sahələrini təxminən 3 dəfə artıra bilmişik. Gözlənilən məhsul da bu il keçən ilə nisbətən 3 dəfə artıq olacaq. Gələn il isə bu ilə nisbətən 8–10 dəfə artıq olacaq və Pambıq İpliyi fabrikinin xammal bazası Azərbaycan pambığıdır.

Bütün bu məsələlər bir-biri ilə uzlaşmalıdır və müvafiq qurumlar bu işlərlə məşğul olurlar. Bizim pambıq istehsalımız artdıqca burada emal olunan məhsul da təbii ki, artacaq. Mən artıq Sabirabadda pambıqçılıqla bağlı müşavirədə qeyd etdim, bir daha demək istəyirəm ki, biz yaxın illərdə yeni pambıqtəmizləmə zavodlarını işə salmalıyıq. Çünki mövcud pambıqtəmizləmə zavodlarımızın istehsal gücü təqribən 300–350 min tondur. Biz isə pambıqçılığı tam bərpa edərək, əlbəttə ki, bundan qat-qat çox məhsul yetişdirəcəyik. Bu fabriklərin fəaliyyəti eyni zamanda, yun tədarükünə də müsbət təsir göstərəcək. Əfsuslar olsun ki, bu sahə Azərbaycanda tənəzzülə uğrayıb. Halbuki bunun çox böyük potensialı var. Sovet vaxtında bu sahə bizim respublikamıza çox böyük gəlir gətirirdi. Ona görə yun tədarükü Yun İplik fabriki ilə uzlaşma səviyyəsində fəaliyyət göstərməlidir.

Burada Ayaqqabı fabriki yaradılacaq. Azərbaycanda dəri istehsalı artmalıdır. Biz əksər hallarda dəridən çox səmərəsiz istifadə edirik. Demək olar ki, ya xammal kimi xarici ölkələrə aşağı qiymətlə satılır, ya da ki, məhv edilir, yandırılır və beləliklə, biz böyük gəlir itiririk. Hər bir sahə inkişaf etdikcə, onun digər sahəyə də böyük təsiri olacaq. Sevindirici hal ondan ibarətdir ki, Mingəçevir Sənaye Parkının xammal bazasının əsas hissəsi Azərbaycanda yaradılacaq. Beləliklə, bu fabriklərin fəaliyyəti kənd təsərrüfatına da çox güclü dəstək olacaq. Bizim əsas məqsədimiz bu gün kənd təsərrüfatının, sənayenin inkişafına nail olmaq və bu

inkişafı daha da sürətləndirməkdir. Ona görə bu sənaye parkında görüləcək işlər həm kənd təsərrüfatı sahəsini, həm də sənaye istehsalı sahəsini birləşdirir. Əslində bu park bizim siyasətimizi özündə əks etdirir. Çünki bizim siyasətimiz qeyri-neft sektorunun inkişafıdır. Bax, bu gün biz bunu görürük. Bizim siyasətimiz investisiyaları cəlb etməkdir. Biz görürük ki, buraya çox böyük həcmdə sərmayə qoyulacaq. Mənə verilən məlumata görə, avadanlığın alınmasına 150 milyon və inşaat işlərinə 60 milyon dollar sərmayə qoyulacaq. Bu onu göstərir ki – mən bunu həmişə demişəm – ölkəmiz investisiyalar üçün çox cəlbedici ölkədir və hətta böhranlı illərdə belə, Azərbaycan iqtisadiyyatına böyük həcmdə sərmayə qoyulur. Ən sevindirici hal ondan ibarətdir ki, bu, qeyri-neft sektoruna qoyulur. Biz neft-qaz sektoruna qoyulan sərmayələrə öyrəşmişik, bu təbiidir. Çünki bu çox böyük gəlir gətirən sahədir və xarici investorlar özləri maraq göstərirlər və bizə müraciət edirlər. Qeyri-neft sektoruna isə investorları biz özümüz cəlb etməliyik. Həm dövlət orqanları, həm yerli icra orqanları, investorlar, sahibkarlar – biz burada bir nöqtəyə vurmalıyıq. İnvestisiyaların təşkili və böyük həcmdə buraya gətirilməsi bizim siyasətimizin təzahürüdür.

Bu sənaye parkı Mingəçevirdə yaradılır. Bizim regional inkişaf proqramımız orada öz əksini tapır. 2004-cü ildə birinci regional inkişaf proqramı qəbul olunub. O gündən bu günə qədər on minlərlə yeni müəssisə, 1 milyondan çox yeni iş yeri yaradılıb. Bölgələrimiz inkişaf edir, şəhərlərimiz abadlaşır, infrastruktur layihələri icra edilir, sahibkarlığın inkişafı, dövlət–özəl sektor tərəfdaşlığı burada özünü göstərir. Mən Prezident kimi, sənaye parkının yaradılması ilə bağlı fərman imzalamışam. İlkin vəsait ayrılıb ki, infrastruktur işləri görülsün. İnvestorlar isə qalan işləri görəcək və yaxın illərdə Mingəçevirdə ən müasir standartlara cavab verən sənaye müəssisələri zonası – klasteri yaradılacaq. Bu bir daha onu göstərir ki, Azərbaycan düzgün istiqamətdə inkişaf edir. Baxmayaraq ki, gəlirlərimiz azalıb, dünyada iqtisadi və maliyyə çətinlikləri davam edir, biz öz yolumuzla gedirik. Çünki bizim yolumuz milli maraqlar əsasında qurulub. Biz inkişaf yolu ilə

gedirik. Biz ölkəmiz üçün bütün lazımi tədbirləri görürük ki, ölkəmiz daha da sürətlə inkişaf etsin, inkişaf dayanıqlı olsun. Neftdən asılılıq minimum səviyyəyə düşsün və bizim ixrac potensialımız artsın. Ona görə bu gün böyük və kiçik sənaye müəssisələri yaradılır, kənd təsərrüfatına böyük təkan verilir.

Aparılan islahatlar, ilk növbədə idarəetmə, kənd təsərrüfatının, ixracın təşviqi ilə bağlı atılan addımlar artıq öz bəhrəsini verir. Təsadüfi deyil ki, Mingəçevirdə bu sənaye parkının təməlini biz məhz bu il qoyuruq. Çünki bu il bütün dünya üçün bəlkə də son onilliklər ərzində iqtisadi cəhətdən ən gərgin illərdən biridir. Biz isə öz yolumuzla gedirik. Bütün çətinliklərə baxmayaraq, Azərbaycan inkişafdadır, bölgələrimiz inkişaf edir, ölkəmiz uğurla irəliyə gedir və inkişaf dayanıqlı olmalıdır.

Bu parkın özəlliyi ondan ibarətdir ki, bundan sonra onilliklər ərzində həm insanlara, həm Mingəçevir şəhərinə, həm ölkəmizə böyük xeyir gətirəcək. Burada çox böyük Tikiş fabriki yaradılacaq və təkcə bu fabrikdə 2000 iş yeri açılacaq. Tikiş fabriklərində, adətən, qadınlar işləyir. Bu onu deməyə əsas verir ki, indi qadınlar üçün də yeni iş yerləri yaradılır. Biz çalışmalıyıq ki, ailədə hər iki valideyn işlə təmin edilsin. Bu fabriklərin yaradılması, əlbəttə ki, Mingəçevirin inkişafına böyük təkan verəcək.

Mingəçevirin inkişafı daim diqqət mərkəzindədir. Son illər ərzində şəhərdə gedən quruculuq-abadlıq işləri hamımızı sevindirir. Bu mənim Mingəçevirə altıncı səfərimdir. Əvvəlki illərdə bir çox işlər görülüb. Mingəçevirin infrastrukturu ilə bağlı önəmli layihələr icra edilib. İndi Bakı–Mingəçevir avtomobil yolu ən yüksək standartlara cavab verir, çox gözəl, hamar yoldur. Mingəçevirdə digər yol layihələri də icra edilib.

Qazlaşdırmanın səviyyəsi 96 faizdir. Çox yaxşı göstəricidir. İçməli su, kanalizasiya layihəsi icra edilir. Çox güman ki, bu layihə gələn il başa çatacaq. Hələ ki, içməli su ilə bağlı problemlər var və onlar aradan qaldırılacaq. Elektrik enerjisinə gəldikdə, Mingəçevir özü ölkəmizin böyük hissəsini elektrik enerjisi ilə qidalandırır. Burada da heç bir problem yoxdur. Sosial infrastrukturun yaradılması istiqamətində işlər gedir. Keçən il şəhər xəstəxanası

əsaslı təmir edilib. Köçkünlər üçün böyük şəhərcik salınıb və köçkünlər o evlərdə artıq yaşayırlar. Mingəçevir Dram Teatrının binası təmir edilib. Mingəçevir Dövlət Universitetinin yaradılması ilə bağlı sərəncam imzalanıb. Biz Kür Avarçəkmə bazasını yenidən qurduq. Mən xatırlayıram, ilk dəfə 2000-ci illərin əvvəllərində Milli Olimpiya Komitəsinin prezidenti kimi, bazaya baş çəkmişdim. Əlbəttə, indiki mənzərə ovaxtkından müqayisəedilməz dərəcədə fərqlənir. O vaxt o bazadan, demək olar ki, əsər-əlamət qalmamışdı, köçkünlər orada yerləşmişdi. Biz onların da problemlərini həll etdik. Onlara da gözəl şərait yaratdıq və bazanı yenidən qurduq. Gözəl hotel, məşq zalları fəaliyyət göstərir. Avarçəkmə ilə məşğul olmaq üçün bütün imkanlar vardır. Siz mingəçevirlilər yaxşı bilirsiniz ki, bu bazanın çox böyük əhəmiyyəti var. Sovet İttifaqında və postsovet məkanında bu, bütün mövsümlərdə istifadə edilə biləcək yeganə avarçəkmə bazasıdır. Buraya xaricdən də idmançılar gəlirlər, məşq edirlər. Bu da özlüyündə şəhərin inkişafına bir töhfədir.

Mingəçevirin gözəl turizm potensialı var. Artıq burada bir neçə hotel fəaliyyətə başlayır. Hesab edirəm ki, həm şəhər rəhbərliyi, həm də ümumiyyətlə, bizim turizmlə bağlı olan qurumlar Mingəçevirə daha çox turist cəlb etməlidir. Çünki bu gün turizmin inkişafı prioritetlər sırasındadır. Vizalarla bağlı dəyişikliklər bu il turizmin inkişafına çox böyük təkan verdi. Xarici turistlər də Mingəçeviri tanımalıdır. Çünki Mingəçevirin gözəl təbiəti, təmiz havası var. Kür çayının ən gözəl və təmiz hissəsi də Mingəçevirdədir. Kür çayı böyük çaydır. Suyun rəngi də, keyfiyyəti də bir az fərqlidir. Kür çayı burada tərtəmiz, gözəl, gözoxşayan rəngdədir. Burada çox gözəl təbii şərait, infrastruktur vardır. Gəncə və Qəbələ Beynəlxalq aeroportları da yaxınlıqdadır. İndi Bakıdan buraya gəlmək üçün gözəl imkanlar vardır. Ona görə də gələcəkdə burada turizm potensialı inkişaf etməlidir.

Mingəçevir energetiklər şəhəri, Cənubi Qafqazın yüngül sənaye mərkəzi və müasir, abad şəhər kimi, bundan sonra da sürətlə inkişaf edəcək. Bu gün tarixi bir gündür, əlamətdar bir gündür. Bu gün çox böyük layihəyə start verildi. Hazırda ölkəmizdə bir neçə

sənaye parkı var. Onlardan ikisi Sumqayıtdadır. Sumqayıt Texnologiya Parkı fəaliyyət göstərir. Sumqayıt Kimya Sənayesi Parkı isə fəaliyyətə başlayır. Üçüncü böyük sənaye parkı Mingəçevirdə yaradılacaq. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm, sizə yeni uğurlar arzulayıram.

* * *

**M e h r i b a n A x u n d o v a** (*layihənin rəhbəri):* Möhtərəm cənab Prezident!

Hörmətli qonaqlar!

Böyük qürur hissi ilə bildirmək istəyirik ki, bu gün Mingəçevir şəhəri və Azərbaycan Respublikasının yüngül sənaye sahəsi üçün tarixi və əlamətdar bir gündür. Bu gün Mingəçevir Toxuculuq Kombinatının ərazisində cənab prezident İlham Əliyevin iştirakı ilə Mingəçevir Sənaye Parkının təməli qoyulur.

Keçmiş SSRİ dövrünün tarixçəsinə diqqət yetirsək görərik ki, Mingəçevir Toxuculuq Kombinatı 1960-cı ildə fəaliyyətə başlayıb. Ötən əsrin 80-ci illərində ümummilli liderimiz Heydər Əliyevin kənd təsərrüfatı və yüngül sənaye sahəsinə göstərdiyi xüsusi diqqəti və səyləri nəticəsində həmin kombinat ən böyük inkişaf illərini yaşayıb. Həmin illərdə Mingəçevir Toxuculuq Kombinatı gündəlik 55 ton pambıq iplik, 220 min metr parça isthesal edir, Azərbaycanın bütün trikotaj istehsalı müəssisələrini ipliklə təmin edirdi. Kombinatda 4000 nəfərdən çox işçi çalışırdı.

Bu gün həmin tarixi ərazidə təməli qoyulan Mingəçevir Sənaye Parkı Azərbaycanın və Zaqafqaziyanın ən nəhəng müəssisə parkı olacaq. Sənaye parkının nəzdində 9 fabrik – pambıq iplik, akril iplik, yun iplik, corab məhsulları, ayaqqabı istehsalı, toxuma, parça boyama, tikiş və tibbi kosmetika fabrikləri inşa edilib, istifadəyə veriləcək.

Mingəçevir Sənaye Parkı nəzdində açılacaq Pambıq İplik fabrikində ilkin mərhələdə illik 10 min ton, növbəti mərhələdə isə 20 min ton pambıq iplik istehsalı nəzərdə tutulur. Hazırda Azərbaycanda ildə 17 min ton pambıq iplik istehsal olunur. Sənaye parkı nəzdində açılacaq yeni İplik fabriki Azərbaycanda pambıq

iplik üzrə istehsalı 115 faiz artırmaqla yanaşı, idxaldan asılılığı tam aradan qaldıracaq və böyük ixrac imkanları yaradacaq. İstehsal olunan 10 min tona qədər iplik ixrac edilməklə, ölkəmizə ildə 25 milyon ABŞ dollarından çox xarici valyuta gətirəcək. Bu fabrikdə 460 yeni iş yeri açılacaq. Fabrik Avropa və Yaponiya ölkələrinin qabaqcıl texnologiyaları əsasında tam avtomatlaşdırılmış müasir avadanlıqlarla təchiz olunacaq.

Sənaye parkı nəzdində pambıq iplikla yanaşı, Azərbaycanda böyük tələbat olan akril iplik və yun iplik fabrikləri də inşa ediləcək. Akril İplik fabrikinin ilkin mərhələdə istehsal gücü 3 min ton olacaq və bu fabrik fəaliyyətə başladıqdan sonra akril iplik üzrə idxaldan asılılıq tam aradan qaldırılacaq. Fabrikin Avropanın qabaqcıl texnologiyaları – Fransanın NSC Schlumberger, Almaniyanın Zinger, İtaliyanın Savio şirkətlərinin ən müasir avadanlıqları ilə təchiz olunması nəzərdə tutulub.

Yun İplik fabrikinin illik istehsal gücü 3 min ton nəzərdə tutulub. Yunun ilkin emalı Azərbaycanın Aran bölgəsində, emal olunmuş yundan iplik istehsalı isə Mingəçevir Sənaye Parkının Yun İplik fabrikində həyata keçiriləcək. Akril və Yun İplik fabriklərində 800-dən çox iş yerinin açılması nəzərdə tutulur.

Mingəçevir Sənaye Parkı nəzdində inşa ediləcək Corab Məhsulları fabriki ilkin mərhələdə Azərbaycanın corab məhsulları üzrə tələbatının 50 faizini təmin edəcək, burada ildə 35 milyon cüt corab istehsal olunacaq. 533 toxuma dəzgahı quraşdırılacaq həmin fabrikdə Avropanın ən qabaqcıl texnologiyaları tətbiq olunmaqla, dünyada yeganə tikişsiz corab hörgü avadanlığının istehsalçısı İtaliyanın Lonatti və Technopea şirkətlərinin dəzgahları quraşdırılacaq. İlkin mərhələdə 500 cüt corab hörgü dəzgahı gətiriləcək, növbəti mərhələdə isə dəzgahların sayı ikiqat artırılaraq, 1000-ə çatdırılmaqla, illik 70 milyon cüt corab istehsal olunacaq. Bu sahə üzrə idxaldan asılılıq tam aradan qaldırılacaq. Corab Məhsulları fabrikində 650 yeni iş yeri açılacaq.

Parkın nəzdində inşa ediləcək Ayaqqabı fabriki illik 1,5 milyon cüt dəri ayaqqabı və xüsusi təyinatlı işçi ayaqqabıları istehsal edərək, idxaldan asılılığı qismən azaldacaq. Fabrikdə ayaqqabı

istehsalında ən yeni texnologiyalar tətbiq olunmaqla, Avropanın qabaqcıl şirkətlərinin avadanlıqları quraşdırılacaq. Fabrikə 300 işçinin işə qəbul edilməsi nəzərdə tutulub.

Mingəçevir Sənaye Parkı nəzdində inşa ediləcək Tibbi Kosmetika fabrikində İplik fabrikinin pambıq mahlıcı və iplik tullantıları təkrar emal edilərək, steril pambıq, tibbi sarğı bezləri və bandajları, qulaq təmizləmə çöpləri və makiyaj bezləri istehsal olunacaq. Fabrikdə illik 55 milyon ədəd hazır məhsul buraxılacaq. Burada 270 yeni iş yerinin açılması planlaşdırılır.

Azərbaycanda növbəti 5 il ərzində xam pambıq istehsalının 700 min tona çatdırılması nəzərə alınaraq, sənaye parkı nəzdində fəaliyyət göstərəcək İplik fabrikində istehsal olunan pambıq ipliyin hazır məhsula çevrilib dəyərinin artırılması məqsədilə müxtəlif təyinatlı və geniş çeşidli 100 faiz pambıq toxuma məhsulları istehsal ediləcək. Fabrikin illik istehsal gücü 15 milyon metr toxuma məhsulları təşkil edəcək. Toxuma fabrikində Avropanın aparıcı şirkətlərinin çözgü və toxuma avadanlıqları quraşdırılacaq. Fabrikdə 450 yeni iş yerinin açılması nəzərdə tutulub.

İstehsal olunan xam parçanın boyanması məqsədilə sənaye parkının nəzdində, həmçinin Parça Boyama fabriki istifadəyə veriləcək. Fabrik tam fəaliyyətə başladıqdan sonra Azərbaycanda boyalı toxuma məhsulları üzrə ümumi istehsal həcmini 100 faiz artırmaqla yanaşı, idxaldan asılılıq tam aradan qalxacaq və böyük ixracat imkanları yaranacaqdır. İldə 10 milyon metrə qədər toxuma məhsulları MDB ölkələri və Türkiyə Respublikasına ixrac edilməklə, ölkəyə ixracatdan və satışdan xarici valyuta cəlb olunacaq. Parça Boyama fabrikində 260 yeni iş yerinin açılması gözlənilir.

Sənaye parkı nəzdində ölkəmizdə hazır geyim məhsullarına olan tələbatı ödəmək və idxaldan olan asılılığı azaltmaq məqsədilə Azərbaycanın və bütövlükdə Qafqazın ən nəhəng Tikiş fabriki yaradılacaq. Fabrikdə Almaniya və Yaponiya istehsalı olan müasir tikiş avadanlıqları quraşdırılacaq və ildə 2 milyon ədəddən çox geniş çeşidli və müxtəlif təyinatlı geyim və tekstil məhsulları istehsal olunacaq. Bununla da hazır tekstil məhsulları və geyim

üzrə idxaldan asılılıq ən azı 30 faiz azalacaq. Tikiş fabrikində 2000-dən çox yeni iş yeri açılacaq.

Beləliklə, Mingəçevir Sənaye Parkı Azərbaycan Respublikasının yüngül sənaye sahəsində idxaldan asılılığın aradan qaldırılmasında və ixrac potensialının artırılmasında, milli tekstil brendlərin yaradılmasında, ixtisaslı kadrların hazırlanmasında və yeni iş yerlərinin açılmasında əhəmiyyətli rol oynayacaq. Mingəçevir Sənaye Parkında ilkin mərhələdə 2000 yeni iş yeri yaradılacaq. Park tam gücü ilə fəaliyyətə başladıqdan sonra isə iş yerlərinin sayı ümumilikdə 5,5 minə çatdırılacaq. Park üzrə orta əməkhaqqı 450 manat – fəhlə heyəti üçün 350 manat, operator heyəti və ustalar üçün 450 manat, sahə rəhbərləri üçün 800 manat, istehsalat rəhbərləri üçün 1500 manat orta əmək haqları nəzərdə tutulur. Professional və ixtisaslı kadrların hazırlanması məqsədilə park nəzdində müasir tədris-təlim mərkəzi açılacaq və xaricdən dəvət olunacaq təcrübəli mütəxəssislərin iştirakı ilə yeni müasir istehsal texnologiyaları və prosesləri üzrə yerli peşəkar gənc kadrların hazırlanması üçün bütün şərait yaradılacaq. Gənc kadrlarla yanaşı, vaxtilə Toxuculuq kombinatında çalışan ixtisaslı kadrlar üçün də iş imkanları yaranacaq. Mingəçevir Sənaye Parkı işçilərini pulsuz keyfiyyətli nahar yeməyi, fərdi mühafizə vasitələri ilə təmin etməklə yanaşı, onların həyat və sağlamlığının müdafiəsi üçün yüksək səviyyədə sığorta xidmətləri də təşkil edəcək.

Mingəçevir Sənaye Parkı Azərbaycanın yüngül sənayesinin inkişafında əvəzolunmaz rol oynayacaq və ölkəmizi dünyaya parkın nəzdində fəaliyyət göstərəcək fabriklərdə quraşdırılan qabaqcıl texnologiyalar vasitəsilə istehsal ediləcək məhsulları ilə tanıdacaq.

Cənab Prezidentə respublikamızda yüngül sənaye sahəsinin inkişafı üçün göstərdiyi diqqət və qayğıya görə böyük təşəkkürümüzü bildirir və bu əlamətdar hadisə münasibətilə hamını təbrik edirik!

**Arif Mahmudov** (*şəhər sakini*): Möhtərəm cənab Prezident!

Sizi Mingəçevir şəhərinin sakinləri adından salamlayıram!

Bildiyiniz kimi, qədim yaşayış məskəni olan Mingəçevir ötən əsrin 50-ci illərində su-elektrik stansiyasının tikintisi ilə əlaqədar salınmağa başlanıb, 1948-ci ildə şəhər statusu alıb. Lakin Mingəçevirin böyük sənaye şəhəri kimi formalaşması, xüsusən də ölkənin energetika mərkəzinə çevrilməsi bilavasitə ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun Azərbaycana rəhbərlik etdiyi dövrdə Mingəçevir sürətlə inkişaf edərək, respublikanın dördüncü sənaye şəhəri səviyyəsinə yüksəlib. O illərdə burada tikilən iri sənaye müəssisələrində yüksəkixtisaslı mütəxəssislər ordusu çalışırdı. Onların arasında gənclər xüsusilə üstünlük təşkil edirdi. Ölkəmizin müxtəlif bölgələrindən insanlar axışaraq, bu şəhərə işləməyə gəlirdi. Bu müəssisələrdə çalışanlar təkcə özlərinə iş tapmırdı, eyni zamanda, şəhər həyatına, şəhər mühitinə uyğunlaşırdı, həmçinin burada yeni nəsil formalaşırdı.

Mən özüm ali təhsil aldıqdan sonra, 1984-cü ildə təyinatla bu gün sənaye parkının təməli qoyulan ərazidə yerləşən Toxuculuq kombinatına işləməyə gəlmişəm. 31 il fasiləsiz çalışdığım həmin müəssisədə usta köməkçisindən direktor vəzifəsinə qədər yüksəlmişəm. Bu müəssisə o dövrdə şəhərin həyatında xüsusi yer tuturdu. Kombinatda 4 mindən çox işçi çalışırdı. Burada istehsal olunan məhsullar keçmiş SSRİ-nin müxtəlif şəhərlərinə göndərilirdi.

1981-ci ildə ulu öndərimiz Heydər Əliyev Mingəçevir şəhərinə səfəri zamanı Toxuculuq kombinatında da olmuş, əmək kollektivi ilə görüşmüşdü. Ulu öndərin səfərindən sonra kombinatın işçilərində yüksək əhval-ruhiyyə və coşqunluq yaranmışdı. Məhz həmin illərdə Mingəçevir səhəri sənaye sahəsində ən yüksək nəticələr əldə etmişdi.

Sovetlər birliyi dağılanda digər ittifaq tabeli müəssisələr kimi, Toxuculuq kombinatı da bağlandı və minlərlə insan işsiz qaldı.

Cənab Prezident, Sizin müəllifi olduğunuz regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində şəhərimizin yeni yüksəliş dövrü başlandı. Siz də Mingəçeviri sənaye şəhəri kimi inkişaf etdirərək, əsası ulu öndərimiz tərəfindən qoyulmuş həmin ənənəni davam etdirdiniz. Şəhərimizdə yeni-yeni

müəssisələr yaradıldı, bir çox mövcud müəssisələrin fəaliyyəti bərpa olundu.

Bu gün biz çox böyük sevinc hissləri yaşayırıq, çünki Siz mingəçevirlilərin çoxdankı arzusunu reallaşdırırsınız. Böyük bir sənaye parkının təməlini qoydunuz. Bu parkda 9 yeni müəssisə yaradılacaq, minlərlə yeni iş yeri açılacaq. Belə bir nəhəng kompleksin bizim şəhərdə tikilməsi ağlımıza belə, gəlməzdi. Bu sevinci bizə Siz bəxş etdiniz, cənab Prezident. Burada yaradılacaq müəssisələrin fəaliyyətə başlaması şəhərimizdə işsizlik problemini tamamilə aradan qaldıracaq. Bu müəssisələr, həmçinin şəhərimizin sənaye potensialının artırılmasına və onun çoxşaxəli inkişafına xidmət edəcək. Sənaye parkında yaradılan müəssisələrdə minlərlə işçi çalışacaq ki, bu da eyni zamanda, onların ailələrinin maddi rifahının yüksəlməsi deməkdir. Bütün bunlara görə, şəhərimizə göstərdiyiniz böyük diqqət və qayğıya görə mingəçevirlilər adından Sizə dərin minnətdarlığımı bildirirəm.

Cənab Prezident!

Bir neçə kəlmə də şəhərimiz haqqında danışmaq və ictimaiyyətin fikirlərini Sizə çatdırmaq istəyirəm.

Son illər Azərbaycanın bütün bölgələri kimi, Mingəçevir şəhəri də Sizin xüsusi diqqətiniz sayəsində günbəgün inkişaf edir, gözəlləşir, abadlaşır, küçə və meydanlarımız, park və xiyabanlarımız əsaslı şəkildə yenidən qurulur. İnsanların rahat yaşaması və istirahəti üçün hər cür şərait yaradılır, bir sözlə, şəhər öz əvvəlki ahənginə qovuşur. Təsadüfi deyil ki, son dövrlər şəhərdə çoxlu sayda xarici turistlərə rast gəlirik. Onlar söhbət zamanı şəhərimizin necə gözəl, yaraşıqlı olduğunu etiraf edirlər. Biz bundan qürur hissi keçirir və bilirik ki, bu şəraiti bizim üçün Siz yaradırsınız.

Cənab Prezident!

Bizə göstərdiyiniz diqqət və qayğıya görə bütün mingəçevirlilər adından Sizə bir daha dərin minnətdarlığımızı bildirir, xalqımızın və dövlətimizin gələcəyi naminə yorulmaz fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

Diqqətinizə görə çox sağ olun.

## Şəhərdə aparılan abadlıq və tikinti işləri ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Mingəçevir şəhərində aparılan abadlıq və tikinti işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı görülən işləri əks etdirən stendlərə baxdı.*

*Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov prezident İlham Əliyevə Sahil və Füzuli parklarında görülən işlər, habelə Kür çayının sol sahilində kiçik gəmilər və qayıqlar üçün yanalma platforması, digər layihələr barədə məlumat verdi.*

*Diqqətə çatdırıldı ki, Nigar Rəfibəyli küçəsində yerləşən Sahil parkının ərazisi 380 metr uzunluqda genişləndirilib. Bu ilin aprel ayında başlanılmış inşaat işləri artıq başa çatıb. Daxili imkanlar hesabına həyata keçirilmiş tədbirlər nəticəsində parkın genişləndirilmiş sahəsi 1,2 hektara çatdırılıb. Genişləndirilmiş parkda 3500 kvadratmetr sahəyə dekorativ tamet tavaları döşənib, 30 dekorativ işıq dirəyi quraşdırılıb, yeni oturacaqlar və digər lazımi avadanlıqlar qoyulub. Parkın ərazisində 1000 ağac, 5000-ə yaxın gül kolu əkilib. Yamacboyu 1860 kvadratmetr yaşıllıq sahəsi salınıb, 940 kvadratmetr sahədə çay daşlarından bərkitmə işləri aparılıb. Yeni su təchizatı şəbəkəsi yaradılıb, 1,2 hektar sahəyə su xətti çəkilib.*

*Prezident İlham Əliyevə şəhərdəki Füzuli parkı haqqında da məlumat verildi. Bildirildi ki, şəhərdə Füzuli küçəsi boyunca 450 metr uzunluğunda park salınıb. Parkda inşaat işlərinə 2015-ci ilin may ayında başlanılıb və 2016-cı ilin sentyabr ayında başa çatdırılıb. Dövlət büdcəsi hesabına həyata keçirilmiş işlərin ümumi dəyəri 2 milyon manatdır. Ümumi sahəsi 3 hektar olan parkın girişində Məhəmməd Füzulinin büstü qoyulub, 2 dairəvi və düzbucaqlı fəvvarə, uşaq-əyləncə, idman qurğuları quraşdırılıb, mini-futbol meydançası salınıb. İstirahət üçün bütün lazımi avadanlıqlar quraşdırılıb. Ərazidə çoxlu sayda dekorativ ağac və gül kolları əkilib, 10740 kvadratmetr sahədə çəmənlik salınıb.*

## II AZƏRBAYCAN BEYNƏLXALQ MÜDAFİƏ SƏRGİSİNİN İŞTİRAKÇILARINA

Hörmətli sərgi iştirakçıları!

Sizi «ADEX–2016» II Azərbaycan Beynəlxalq müdafiə sərgisinin açılışı münasibətilə ölkəmizin paytaxtı Bakı şəhərində səmimi-qəlbdən salamlayıram.

Qloballaşma prosesinin geniş vüsət aldığı daim dəyişən dünyamızda dövlətlər intensiv şəkildə təhlükəsizlik çağırışları ilə üzləşirlər. Bu istiqamətdə həyata keçirilən tədbirlər sırasında hərbi-texniki əməkdaşlıq, müasir texnologiyaların və təhlükəsizlik vasitələrinin mübadiləsi məsələlərinin aktuallığı durmadan artmaqdadır.

Ölkəmizin ərazi bütövlüyünə qarşı yönəlmiş xarici təcavüz və terrorizmin nəticəsi olaraq, Azərbaycan dövləti təhlükəsizlik sisteminin möhkəmləndirilməsini və dövlətlərarası əməkdaşlığın inkişaf etdirilməsini daim diqqət mərkəzində saxlayır. Qəbul edilmiş Hərbi Doktrina beynəlxalq müstəvidə ümumbəşəri prinsip və normaları rəhbər tutan Azərbaycanın həm müdafiə potensialını, həm də dost və tərəfdaş dövlətlərlə əlaqələrini gücləndirmişdir. Azərbaycan hazırda regionda ən böyük hərbi potensialı olan ölkədir. Bölgədə ilk mötəbər Beynəlxalq müdafiə sərgisi də məhz Bakı şəhərində keçirilmişdir.

İnanıram ki, iştirakçısı olduğunuz sərgi hərbi-texniki əməkdaşlıq məsələlərinin müzakirə edildiyi nüfuzlu məkan kimi, müasir təhlükəsizlik çağırışlarına cavab verən yeni yanaşmalara, xüsusilə müdafiə sənayesi sahəsində mühüm təşəbbüslərə yol açacaq və yeni imkanlar üzə çıxaracaqdır. Hər birinizə gələcək işlərinizdə uğurlar, ölkələrinizə sülh və əmin-amanlıq arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 sentyabr 2016-cı il*

# XV YAY PARALİMPİYA OYUNLARINDA İŞTİRAK ETMİŞ İDMANÇILAR İLƏ GÖRÜŞ

*23 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev sentyabrın 23-də Braziliyanın Rio de Janeyro şəhərində keçirilən XV Yay Paralimpiya oyunlarında iştirak etmiş idmançılar və onların məşqçiləri ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Bir neçə gün bundan əvvəl Rioda Paralimpiya oyunları başa çatıb. Bizim komandamız Vətənə qayıdıb. Bu gün mən sizi dəvət etmişəm ki, sizi təbrik edim. Komandamız çox yaxşı çıxış edib. Biz bu oyunlarda 24 idmançı ilə təmsil olunmuşuq və 11 medal qazanmışıq – 1 qızıl, 8 gümüş, 2 bürünc. Bu çox yaxşı göstəricidir. Bu bir daha onu göstərir ki, bizim paralimpiyaçılarımız güclü komandalar sırasındadır.

Bildiyiniz kimi, sizdən əvvəl bizim olimpiya komandamız da Rioda çox yaxşı nəticələr göstərmiş, 18 medal qazanmışdır. Olimpiya və Paralimpiya oyunlarında Azərbaycan idmançıları 29 medal qazanıblar. Bu bir daha onu göstərir ki, Azərbaycan güclü idman ölkəsidir. İdman Azərbaycanda sürətlə inkişaf edir və hər bir mötəbər beynəlxalq yarışda idmançılarımız bizi sevindirir.

Bildiyiniz kimi, idmanın inkişafına böyük diqqət göstərilir. Bu bizim siyasətimizin əsas prioritetlərindən biridir. Hər bir ölkənin gücünü əks etdirən həm də onun idman potensialıdır, idman nailiyyətidir. Azərbaycanda hər sahədə olduğu kimi, idmanda da böyük inkişaf var. Şadam ki, idmanla məşğul olmaq istəyənlərin sayı artır. İdmançılar Azərbaycanda böyük hörmətə layiqdirlər və ictimaiyyət tərəfindən onların fəaliyyətinə yüksək qiymət verilir.

Dövlət idmançıları həmişə qayğı ilə əhatə edir və bizim idmançılarımız həm idman yarışlarında, həm də məişətdə nümunəvi davranış qaydaları göstərirlər. Çünki idman elə bir fəaliyyət növüdür ki, burada güclü qalib gəlməlidir, burada daim ədalət zəfər çalmalıdır. Bəzən biz görürük ki, bəzi yarışlarda ədalətsiz qərarlar qəbul edilir, o cümlədən bizim idmançılara qarşı. Əlbəttə, bu bizi çox narahat edir və incidir. Buna baxmayaraq, Azərbaycan dəfələrlə müxtəlif beynəlxalq yarışlarda sübut edib ki, biz doğrudan da güclü idman ölkəsiyik, güclü idmançılarımız var və idmançılar Azərbaycanın şöhrətini daim yüksəklərdə saxlayırlar.

İdmanın inkişafı ilə bağlı kompleks tədbirlər görülür. Məhz bunun nəticəsidir ki, bu gün biz Avropa, dünya çempionatlarında, Olimpiya və Paralimpiya oyunlarında yüksək nəticələr göstəririk. Həm təlim-məşq prosesi düzgün təşkil edilir, həm də idman infrastrukturu yaradılır. Bizim bölgələrimizdə 40-dan çox regional Olimpiya Mərkəzi fəaliyyət göstərir. Bir neçə Olimpiya Mərkəzində tikinti işləri gedir və gələn il bu işlər davam etdiriləcək. 2008-ci ildə paralimpiyaçılar üçün xüsusi Olimpiya İdman Mərkəzi yaradılıb və orada bizim idmançılarımız məşq edirlər. Digər infrastruktur yaradılır. Bakıda ən yüksək beynəlxalq yarışları qəbul edə biləcək idman obyektləri vardır. Keçən il Avropa oyunlarının keçirilməsi zamanı bütün dünya bunu gördü. Yeri gəlmişkən, ötən il Avropa oyunlarının keçirilməsi də bizim idman potensialımızı əks etdirir. Çünki bu qərarın qəbul edilməsində Avropa Olimpiya Komitəsi eyni zamanda, bizim idman potensialımızı da nəzərə almışdı. Əlbəttə, bizim ölkəmiz də, Bakı şəhəri də bu oyunların keçirilməsinə hazırlıqlı idi və bütün qonaqlar, Azərbaycana gələn minlərlə idmançı bunu gördü. Əlbəttə ki, bu, Azərbaycanda idman sahəsində əldə edilmiş uğurların da nəticəsi idi. Bizim komandamız tarixi qələbə qazanaraq, 50 milli olimpiya komandası arasında ikinci yerə layiq görüldü, o cümlədən paralimpiyaçılar da bizi sevindirdilər.

Bütövlükdə ölkəmizin inkişafı ilə bağlı lazımi addımlar atılır. Bu, inkişafla bilavasitə bağlı olan, əlbəttə ki, ölkəmizin dünyaya tanıdılmasıdır və burada idmanın xüsusi yeri var. Misal üçün, Av-

ropa oyunları bütün Avropanın diqqətini Azərbaycana cəlb etdi. Bu il keçirilmiş «Formula-1» yarışının auditoriyası 500 milyon insandır. Bu 500 milyon insan gördü ki, Bakı şəhəri bu yarışı keçirməyə qadirdir. Onlar Bakının gözəlliyini, abadlığını, şəhərimizin, sakinlərimizin həyatını gördülər və bu, bir çoxları üçün sürpriz idi. Təsəvvür edə bilmirdilər ki, Azərbaycan bu dərəcədə inkişaf edib, Bakı şəhəri dünya miqyasında ən gözəl şəhərlərdən birinə çevrilib.

Bu il eyni zamanda, Ümumdünya Şahmat Olimpiadası Bakıda keçirildi. İştirak edən komandaların sayına görə bu, rekord nəticə idi. Beynəlxalq Şahmat Federasiyasının rəhbərlərinin fikrinə görə bu, ən yaxşı təşkil edilmiş Ümumdünya Şahmat Olimpiadası idi. Yəni bizim bu sahədə gözəl təcrübəmiz var, bütün təşkilati işlər yüksək səviyyədə həll olunur və bu gün Azərbaycan dünya miqyasında güclü dövlət, güclü idman ölkəsi kimi tanınır. İdmançılar əldə etdikləri medallarla idman şöhrətimizi ucaldırlar. Bakıda keçirilən beynəlxalq yarışlar bütün dünyaya Azərbaycanı gözəl, inkişaf etmiş, mütərəqqi ölkə kimi təqdim edir.

Ölkəmizdə beynəlxalq yarışların keçirilməsi davam edir. Gələn il İslam Həmrəyliyi oyunları keçiriləcək. Əgər keçən il biz Avropa idmançılarını Azərbaycana yığmışdıqsa, gələn il müsəlman idmançılarını Bakıda bir yerə toplayacağıq. Bu, ölkəmizin inkişafını, bizim niyyətimizi göstərir. Mən əminəm ki, idman xalqlararası, dinlərarası əlaqələrin inkişafına çox əhəmiyyətli töhfə verir. Bizim ölkə idman yarışlarının keçirilməsi ilə eyni zamanda, bu məqsədi də güdür.

İdmanın cəmiyyətə çox böyük müsbət təsiri var. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması üçün idmanın çox böyük rolu var. Gənc nəslimiz – uşaqlar, yeniyetmələr sizə baxıb nümunə götürürlər ki, siz dövlətimizi necə ləyaqətlə təmsil edirsiniz, bayrağımızı yüksəklərə qaldırırsınız. Bizim paralimpiyaçılarımız Rioda bayrağımızı 11 dəfə qaldırmışlar. Gənc nəsil həm bilikli, peşəkar, eyni zamanda, mütləq vətənpərvər olmalıdır. Çünki vətənpərvərlik dövlətçiliyimizin əsasıdır.

Biz bu il müstəqilliyimizin bərpasının 25 illiyini qeyd edəcəyik. Bu illərin mütləq əksəriyyəti şanlı-şöhrətli illərdir. Fəxr edirik ki, bu gün bu səviyyəyə qalxmışıq. Gənc nəsil bu dəyərləri mütləq gələcəkdə yaşatmalıdır ki, inkişafımız dayanıqlı olsun, Azərbaycan daim müstəqil ölkə kimi, yüksək zirvələrdə olsun. Sizin Rioda gözəl çıxışınız eyni zamanda, gənclərə də gözəl bir nümunədir. Əminəm ki, bu yarışlardan – Olimpiya, Paralimpiya oyunlarından sonra bizim idman bölmələrimizə müşahidə olunan axın daha da güclənəcək.

Mən bu gün sizi bir daha ürəkdən təbrik edirəm, sizə öz minnətdarlığımı bildirmək istəyirəm. Oyunlarda fərqlənən idmançılar dövlət mükafatları ilə təltif olunublar. İndi isə təltifetmə mərasiminə keçək.

* * *

*Sonra təltifetmə mərasimi keçirildi.*

*Prezident İlham Əliyevin Azərbaycan milli paralimpiya komandasının üzvlərinin təltif olunması ilə bağlı sərəncamları elan edildi.*

*Dövlətimizin başçısı Azərbaycan idmanının inkişafındakı xidmətlərinə və XV Yay Paralimpiya oyunlarında göstərdikləri yüksək nailiyyətlərə görə təltif edilmiş idmançılara və onların məşqçilərinə «Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu»nu, «Tərəqqi» medallarını, «Vətənə xidmətə görə» və «Şöhrət» ordenlərini təqdim etdi, onlara bir daha uğurlar arzuladı.*

**İlham Zəkiyev** *(cüdo üzrə ikiqat Paralimpiya, ikiqat dünya, beşqat Avropa çempionu, I Avropa oyunlarının qalibi):* Çox sağ olun, cənab Prezident. Allah Sizin köməyiniz olsun. Sizə bir daha minnətdaram.

Mən kapitan və bayraqdar olduğuma görə, Paralimpiya oyunlarının açılışında bizim komandanın rəhbərliyi qərara aldı ki, arenaya milli geyimdə çıxım. Bu da hamının xoşuna gəldi. Bir kapitan kimi, mən də çıxışımla bağlı demək istəyirəm ki, cənab Prezident, səhhətimdə bir az problemlər oldu. Təzyiqim düşmüşdü,

qızdırmam da var idi. Amma Azərbaycan əsgəri heç vaxt təslim olmur. Mən axıra qədər döyüşdüm.

Allah Sizin köməyiniz olsun. Siz mənə həmişə belə yüksək diqqət və qayğı göstərirsiniz. Siz idmançılarımızı mükafatlara layiq görəndə, biz hələ Rioda idik. Bu böyük qiymətə görə Sizə minnətdaram.

Siz Bişkekdə o yalançı Sarkisyanı susdurdunuz. Allah Sizi qorusun. Biz Sizinlə fəxr edirik. Var olsun Azərbaycan Prezidenti! Allah Sizin köməyiniz olsun.

**İ l h a m Ə l i y e v:** Çox sağ ol. İlham bizim fəxrimizdir. İki dəfə Paralimpiya çempionudur, Avropa oyunlarının qalibidir. Mən çox şadam ki, bu gün biz İlhamı burada təbrik edirik və Fəxri diplom da təqdim olunur.

*«Rio–2016»da nizəatma yarışlarının gümüş medalçısı İradə Əliyeva təltifə görə dövlətimizin başçısına təşəkkür etdi.*

**İ l h a m Ə l i y e v:** Yaxşı çıxış etdiniz. Biz sizə azarkeşlik edirdik. Bu gənc yaşda yüksək mükafat münasibətilə sizi təbrik edirik.

**İ r a d ə Ə l i y e v a:** Qazanılan bütün 11 medaldan 5-i atletikanın payına düşür və 4 medalı qızlar qazanıb. Dəstəyinizə görə çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Afərin! Bizim qızlar mübarizdirlər. Siz ikiniz 4 medal qazanmısınız. Afərin!

**İ r a d ə Ə l i y e v a:** Yelena Çebanu 3 növdə medal qazanıb. Mənim bir medalım var.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. Bu uğur münasibətilə sizi təbrik edirəm.

**İ b r a h i m İ b r a h i m o v** *(cüdo komandasının baş məşqçisi):* Möhtərəm cənab Prezident, bu gün bizi qəbul etdiyinizə görə Sizə minnətdarlığımı bildirirəm. Biz cüdo komandası olaraq, bu oyunlarda 3 medal qazandıq – 1 qızıl, 1 gümüş və 1 bürünc. Bunların hər biri idmanın inkişafına Sizin göstərdiyiniz diqqət və qayğının nəticəsidir. Buna görə Sizə minnətdarıq. Bu gün idman sahəsində lider dövlət olan Azərbaycanın Sizin kimi prezidenti var. Digər ölkələrin idmançıları bizə həsəd apararaq deyirlər ki, sizə

kömək göstərən, sizin qayğınıza qalan prezidentiniz var. Biz həmişə Sizinləyik, Sizin siyasətinizi dəstəkləyirik.

**İlham Əliyev:** Çox sağ olun.

**Ramil Qasımov** *(XV Yay Paralimpiya oyunlarının qızıl medalçısı):* Çox sağ olun, cənab Prezident! Bizə göstərdiyiniz yüksək diqqətə görə Sizə çox minnətdaram. Mən Gəncə şəhərindənəm. Gəncə şəhərinə ikinci qızıl medalı aparıram. Minnətdaram ki, şəhərimizi də o cür abadlaşdırmısınız. Fəxr edirik ki, bizim prezidentimiz Sizsiniz. Çox minnətdaram, sağ olun.

**İlham Əliyev:** Əziz dostlar, sizi bir daha ürəkdən təbrik edirəm. Doğrudan da bu, böyük qələbədir. Siz xalqımızı bir daha sevindirmisiniz. Gələcəkdə yeni yarışlar, yeni döyüşlər olacaq. Əminəm ki, siz bütün yarışlarda xalqımızı, millətimizi, dövlətimizi ləyaqətlə təmsil edəcəksiniz, bizi sevindirəcəksiniz.

Növbəti böyük yarışlar 4 ildən sonra Tokioda keçiriləcək. Ondan əvvəl də yarışlar olacaq. Əsas odur ki, bizim komandamız həmişə belə gözəl, vətənpərvər komanda olsun. Siz həmişə çalışasınız, dövlətimizi, xalqımızı sevindirəsiniz və bir daha bütün dünyada göstərəsiniz ki, Azərbaycan qüdrətli dövlətdir. Bizim gücümüz xalqımızın gücünə əsaslanır. İdman yarışlarında, bütün digər sahələrdə Azərbaycan yalnız qabağa gedəcək. Sizi bir daha təbrik edirəm.

*Sonda xatirə şəkli çəkdirildi.*

## ALEKSANDR NİKOLSKİNİN RƏHBƏRLİK ETDİYİ AŞPA-nın REFERENDUMU DƏYƏRLƏNDİRMƏ MİSSİYASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*25 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Aleksandr Nikolskinin rəhbərlik etdiyi və AŞPA-nın Azərbaycan üzrə həmməruzəçiləri Stefan Şennak və Sezar Florin Predanın daxil olduqları Avropa Şurası Parlament Assambleyasının Referendumu Dəyərləndirmə Missiyasını qəbul etmişdir.*

*Dövlətimizin başçısı sentyabrın 26-da Azərbaycan Konstitusiyasında dəyişikliklər edilməsi məqsədilə keçiriləcək referendumla bağlı Azərbaycan hökumətinin maksimum şəffaflığın təmin edilməsi üçün işlər gördüyünü bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan xalqı azad şəkildə öz iradəsini ifadə edəcək və bunun üçün bütün tədbirlər görülüb. Dövlətimizin başçısı Avropa Şurası Parlament Assambleyasının Referendumu Dəyərləndirmə Missiyasının ölkəmizə böyük nümayəndə heyəti ilə səfər etməsinin əhəmiyyətini vurğulayaraq Azərbaycanın Avropa Şurasının çox fəal üzvü olduğunu, 15 ildən artıq müddətdə bu təşkilatla tarixi əməkdaşlıq həyata keçirdiyini məmnunluqla qeyd etdi. Azərbaycan Prezidenti bildirdi ki, bu illər ölkəmiz üçün inkişaf, müasirlik və transformasiya baxımından əhəmiyyətli illər olub. Prezident İlham Əliyev ölkəmizin Avropa təsisatları ilə müxtəlif formatlarda sıx əməkdaşlıq etdiyini vurğuladı.*

*Avropa Şurası Parlament Assambleyasının Referendumu Dəyərləndirmə Missiyasının rəhbəri Aleksandr Nikolski başçılıq etdiyi nümayəndə heyətinə müxtəlif siyasi qrupların daxil olduğunu dedi. Aleksandr Nikolski referendumu müşahidə etmələri üçün yaradılan şəraitə görə Azərbaycan rəhbərliyinə, Azərbaycan parla-*

*mentinə minnətdarlığını bildirdi. O, referendumun keçirilməsi üçün bütün lazımi şəraitin yaradıldığını dedi və qeyd etdi ki, Azərbaycan Avropa Şurası üçün çox önəmli ölkədir.*

*Görüşdə Azərbaycanla Avropa Şurası Parlament Assambleyası arasında əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## RUSİYA FEDERAL MƏCLİSİNİN FEDERASİYA ŞURASININ SƏDR MÜAVİNİ İLYAS UMAXANOV İLƏ GÖRÜŞ

*25 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Rusiya Federal Məclisinin Federasiya Şurasının sədr müavini, MDB Parlamentlərarası Assambleyasının Müşahidə Missiyasının rəhbəri İlyas Umaxanovu qəbul etmişdir.*

*İlyas Umaxanov Rusiya Federal Məclisinin Federasiya Şurasını və Dövlət Dumasını, eləcə də 6 ölkəni təmsil edən nümayəndə heyəti ilə ölkəmizə səfər etdiyini vurğuladı. İlyas Umaxanov başçılıq etdiyi missiyanın Azərbaycanın müxtəlif regionlarında müşahidələr aparacağını dedi. O, referendumun yüksək standartlara uyğun şəkildə təşkil olunmasından məmnunluğunu ifadə etdi.*

*Prezident İlham Əliyev Rusiya Federal Məclisinin Federasiya Şurasının sədr müavini İlyas Umaxanovun rəhbərliyi ilə MDB Parlamentlərarası Assambleyasının Müşahidə Missiyasının ölkəmizə səfərinin önəmini vurğuladı. Dövlətimizin başçısı referendumun şəffaf keçirilməsi üçün bütün lazımi şəraitin yaradıldığını bildirdi.*

*Görüşdə əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ÜMUMXALQ SƏSVERMƏSİNDƏ İŞTİRAK

*26 sentyabr 2016-cı il*

*Müasir müstəqil Azərbaycan Respublikasının tarixində sentyabrın 26-sı növbəti ümumxalq səsverməsi (referendum) günü kimi qalacaq.*

*Müstəqil Azərbaycan Respublikasının ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış ilk Konstitusiyasının qəbul edilməsindən 21 il keçir. Bu müddət ərzində ölkəmiz böyük inkişaf yolu keçib, geniş hüquqi islahatlar aparılıb və bütün bunlar demokratik vətəndaş cəmiyyəti quruculuğu üçün möhkəm təməl yaradıb. Lakin ölkədə, cəmiyyətdə gedən proseslər zaman-zaman yeni tələblər irəli sürür. Konstitusiya isə elə bir sənəddir ki, o, cəmiyyətlə birlikdə inkişaf etməlidir. Bu baxımdan 2002-ci və 2009-cu illərdə Azərbaycan Konstitusiyasına edilmiş dəyişikliklərdən sonrakı dövrdə əldə olunmuş uğurlar bu islahatların təsirli və səmərəli olduğunu sübut edib. Hazırda Azərbaycan öz inkişafının elə bir mərhələsinə daxil olub ki, ölkənin Əsas Qanununa müəyyən əlavələr və dəyişikliklər edilməsi zərurətə çevrilib.*

*Sentyabrın 26-da ümumxalq səsverməsinə çıxarılan Referendum Aktında Konstitusiyanın 23 maddəsinə dəyişikliklər edilməsi və onun 6 yeni maddə ilə tamamlanması nəzərdə tutulur. Əlavələr və dəyişikliklər insan haqlarının və azadlıqların müdafiəsini təmin edən əsasların təkmilləşdirilməsini, effektiv və çevik dövlət idarəçiliyi mexanizminin formalaşmasını, həyata keçirilən iqtisadi islahatların səmərəliliyini və ardıcıllığını təmin etmək üçün iqtisadi idarəçilik mexanizminin təkmilləşdirilməsini, qanunverici hakimiyyətin fəaliyyəti ilə bağlı yeni tələblərin müəyyən edilməsini, dövlətin təhlükəsizliyi, cəmiyyətdə sabitlik üçün əlavə təminatların yaradılmasını nəzərdə tutur. Bütövlükdə dəyişikliklər cəmiyyətin*

*inkişafının müasir mərhələsində onun həyat fəaliyyətinin əsas sahələrini əhatə edir.*

*Sentyabrın 26-da səsvermə prosesinin başlandığı ilk dəqiqələrdən 6 saylı seçki məntəqəsində xüsusi canlanma müşahidə olunurdu.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xanımı Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə seçki məntəqəsinə gəldi.*

*Prezident İlham Əliyev seçki məntəqəsinə daxil olub səsvermə bülletenini alaraq, kabinəyə keçdi və sonra bülleteni qutuya saldı.*

*Bu anı respublikamızın və xarici ölkələrin mətbuat orqanlarının, televiziya kanallarının nümayəndələri izlədilər.*

*Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri də səs verdilər.*

## AVROPA XALQ PARTİYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Mərkəzçi Demokratlar İnternasionalının vitse-prezidenti və Genişlənmə Komitəsinin sədri, Avropa Xalq Partiyasının sabiq sədr müavini David Marionun başçılıq etdiyi, Avropa Parlamentinin, Avropa ölkələrinin deputatlarının və bir sıra beynəlxalq təşkilatların əməkdaşlarının daxil olduğu nümayəndə heyətini qəbul etmişdir.*

*Avropa Xalq Partiyasının böyük nümayəndə heyəti ilə Azərbaycana səfərindən məmnunluğunu ifadə edən dövlətimizin başçısı ölkəmizin müvafiq strukturları ilə Avropa Xalq Partiyası arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev nümayəndə heyətinin Azərbaycan üçün tarixi əhəmiyyət daşıyan bir gündə ölkəmizə səfərini yaxın tərəfdaşlıq əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı əməkdaşlığımızın bundan sonra da genişləndiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*4 il bundan əvvəl Bakıya səfər etdiyini vurğulayan Mərkəzçi Demokratlar İnternasionalının vitse-prezidenti və Genişlənmə Komitəsinin sədri David Mario ötən dövr ərzində paytaxtda böyük dəyişikliklərin şahidi olduğunu və həyata keçirilən sürətli inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını dedi.*

*David Mario bu gün səhər artıq bir neçə seçki məntəqəsində müşahidə apardıqlarını dedi və gün ərzində Bakıda və ölkəmizin müxtəlif regionlarında müşahidələri davam etdirəcəklərini bildirdi. Azərbaycan üçün əsas məsələlərdən biri olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan qonaq ötən səfərində nümayəndə heyəti ilə birlikdə cəbhə bölgəsində olduğunu xatırlatdı və Avropa Xalq Partiyasının nümayə-*

*ndələri olaraq, münaqişə ilə bağlı əsl həqiqətlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması işinə töhfə verə biləcəklərini vurğuladı. O, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın beynəlxalq hüquqa əsaslanan konstruktiv mövqeyini dəstəklədiklərini bildirdi.*

## AVROPA SEÇKİLƏRİN MÜŞAHİDƏSİ AKADEMİYASI MİSSİYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Avropa Seçkilərin Müşahidəsi Akademiyası Missiyasının prezidenti, AŞPA-nın fəxri üzvü Goris Emiel Stefanın başçılıq etdiyi Malta parlamentinin spikeri, Avropa Seçkilərin Müşahidəsi Akademiyası Missiyası Müşahidə Missiyasının rəhbəri Farrugia Angelonun, eləcə də Malta, Serbiya, İtaliya, Fransa, Monteneqro, Bosniya və Herseqovina, Rumıniya parlamentləri deputatlarının və Avropa Şurası Parlament Assambleyasının üzvlərinin daxil olduğu nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Avropa Seçkilərin Müşahidəsi Akademiyası Missiyası kimi önəmli bir qurumu təmsil edən qonağın böyük nümayəndə heyəti ilə ölkəmizə səfər etməsindən və referendumun monitorinqi prosesində iştirakından məmnunluğunu ifadə etdi. Referendum zamanı müşahidələr aparmaq üçün 30-dan çox dövlətdən, həmçinin mühüm beynəlxalq təşkilatlardan çoxlu sayda müşahidəçilərin Azərbaycana gəldiyini vurğulayan prezident İlham Əliyev onların səsvermənin gedişini izləmələrinin önəmini qeyd etdi. Dövlətimizin başçısı səsverməyə çıxarılan hər bir məsələ ilə bağlı ayrılmış müddət ərzində əhali arasında maarifləndirmə işlərinin aparıldığını, referendumun yüksək səviyyədə təşkil olunması istiqamətində bütün lazımi tədbirlərin görüldüyünü bildirdi. Prezident İlham Əliyev Avropa Seçkilərin Müşahidəsi Akademiyası Missiyasının təkcə Bakıda deyil, bölgələrdə də müşahidələr aparmasının əhəmiyyətini qeyd etdi.*

*Avropa Seçkilərin Müşahidəsi Akademiyası Missiyasının prezidenti, AŞPA-nın fəxri üzvü Goris Emiel Stefan səhər saatlarından başlayaraq, missiya nümayəndələrinin ayrı-ayrı məntəqələrdə*

*müşahidələr apardıqlarını qeyd etdi. Görüşdən sonra missiyalarını davam etdirəcəklərini deyən Goris Emiel Stefan günün axırında aparılacaq yekun qiymətləndirmələrdən sonra qurumun müşahidələrin nəticələri ilə bağlı bəyanatla çıxış edəcəyini bildirdi.*

*Malta parlamentinin spikeri, Avropa Seçkilərin Müşahidəsi Akademiyası Missiyası Müşahidə Missiyasının rəhbəri Farrugia Angelo müşahidə apardıqları məntəqələrdə səsvermənin dinc və mütəşəkkil şəkildə keçdiyinin, seçicilərin referenduma çıxarılan hər bir məsələyə diqqətlə yanaşdıqlarının şahidi olduqlarını dedi.*

## BELARUS RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ ANDREY RAVKOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Belarus Respublikasının Müdafiə naziri Andrey Ravkovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Belarusun Müdafiə nazirinin Azərbaycan Beynəlxalq müdafiə sərgisində iştirak etmək üçün böyük nümayəndə heyəti ilə Bakıya səfərinin önəmini vurğuladı. Ölkələrimiz arasında hərbi əməkdaşlığın bir çox illərdir ki, uğurla inkişaf etdiyini deyən prezident İlham Əliyev bu sahədə əlaqələrimizin razılıq doğurduğunu bildirdi. Dövlətimizin başçısı bunu Azərbaycan ilə Belarus arasında yüksək səviyyəli etimadın göstəricisi, ölkələrimizin iqtisadi, siyasi, hərbi və digər sahələrdə çoxplanlı əməkdaşlığa əsaslanmasının yaxşı təzahürü kimi dəyərləndirdi. Son illər Belarusdan alınan texnikanın çox yüksək standartlara cavab verdiyini deyən dövlətimizin başçısı bu barədə Belarus prezidenti Aleksandr Lukaşenko ilə görüşü zamanı da danışdıqlarını, azərbaycanlı mütəxəssislərin də bu texnikaların yüksək keyfiyyətindən və etibarlılığından razı qaldıqlarını qeyd etdi. Prezident İlham Əliyev bütün bunları Belarusun hərbi-texniki sahədə əldə etdiyi böyük uğurların göstəricisi kimi dəyərləndirdi. Ölkələrimiz arasında tarixən əlaqələrin mövcud olduğunu qeyd edən dövlətimizin başçısı əməkdaşlığımızın gələcək inkişafı üçün yaxşı perspektivlərin olduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycan Beynəlxalq müdafiə sərgisində Belarus hərbi texnikasının nümayiş etdirilməsinin ölkəmizin bu sahədəki yeniliklərlə tanış olması və birgə əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi baxımından önəmini qeyd etdi. Belarusun Müdafiə nazirinin Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdiril-*

*məsinə xidmət etdiyini deyən dövlətimizin başçısı səfərin əməkdaşlığımızın gələcək inkişafı ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını söylədi.*

*Belarus Respublikasının Müdafiə naziri Andrey Ravkov Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun salamlarını böyük dostu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Azərbaycan xalqına çatdırdı.*

*O, ölkəsinin prezidentinin daim söylədiyi sözləri xatırladaraq bildirdi ki, Azərbaycan Cənubi Qafqazda Belarusun güvəndiyi dost ölkədir, Belarus isə Azərbaycan üçün Avropanın mərkəzində etibarlı dost və dayaq ola biləcək ölkədir. Ölkəsinin çətin bir dövründə Azərbaycanın Belarusa dəstək verdiyini vurğulayan Andrey Ravkov buna görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Ölkəmizə səfərinin Azərbaycan üçün əhəmiyyətli bir günə təsadüf etdiyini vurğulayan Andrey Ravkov keçirilən referendumu mühüm hadisə kimi dəyərləndirdi.*

*Prezident İlham Əliyev Belarus prezidenti Aleksandr Lukaşenkonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Belarus Prezidentinə çatdırmağı xahiş etdi.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ MÜDAFİƏ SƏNAYESİ NAZİRİ RANA TANVİR HUSSAİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Pakistan İslam Respublikasının Müdafiə Sənayesi naziri Rana Tanvir Hussainin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Pakistanın Müdafiə Sənayesi nazirinin ölkəmizə səfərinin əhəmiyyətinə toxunan prezident İlham Əliyev pakistanlı nazirin Azərbaycan Beynəlxalq müdafiə sərgisində iştirakının önəmini qeyd etdi. Dövlətimizin başçısı Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin Azərbaycana səfərini məmnunluqla xatırladaraq, bu səfəri ölkələrimiz arasında səmimi və qardaşlıq əlaqələrinin yaxşı göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev Pakistanın Baş naziri ilə Davosda keçirdiyi görüşü də məmnunluqla xatırlatdı. Dövlətimizin başçısı Azərbaycan ilə Pakistan arasında münasibətlərin yüksək səviyyədə olduğunu, ölkələrimizin bir-birilərini bütün beynəlxalq təşkilatlarda daim dəstəklədiklərini vurğulayaraq, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə verdiyi dəstəyə görə qardaş ölkəyə minnətdarlığını ifadə etdi. Prezident İlham Əliyev öz növbəsində, Azərbaycanın da Pakistanı həmişə Kaşmir məsələsində dəstəklədiyini qeyd edərək, Pakistanın ölkəmiz üçün dünyada ən yaxın və böyük dost ölkələrdən biri olduğunu dedi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Pakistan arasında müdafiə və hərbi sənaye sahəsində əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə etdi.*

*Pakistan İslam Respublikasının Müdafiə Sənayesi naziri Rana Tanvir Hussain yenidən ölkəmizə səfər etməsindən məmnunluğunu bildirdi.*

*Rana Tanvir Hussain Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərifin adından prezident İlham Əliyevi ölkəsinə səfərə dəvət etdi. O, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərifin prezident İlham Əliyevə olan yüksək ehtiramını məmnunluqla qeyd etdi.*

*Prezident İlham Əliyev Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərifin dəvətini minnətdarlıqla qəbul etdi.*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ
ZATİ-ALİLƏRİ
CƏNAB Sİ CİNPİNƏ**

Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı – Çin Xalq Respublikasının Yaranması Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Mən Azərbaycan–Çin münasibətlərinə böyük əhəmiyyət verirəm. Dostluq əlaqələrimizin gündən-günə genişlənməsi, ikitərəfli əməkdaşlığımızın bütün sahələrdə dinamik inkişafı məmnunluq doğurur. Birgə səylərimizlə uğurla həyata keçirdiyimiz Şərq–Qərb nəqliyyat dəhlizi layihəsi isə münasibətlərimizə xüsusi xarakter verir.

İnanıram ki, ölkələrimiz arasında davamlı siyasi təmasların, qarşılıqlı faydalı əməkdaşlığın və mədəni mübadilələrin möhkəmləndirilməsi və genişləndirilməsi bundan sonra da xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çin xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 sentyabr 2016-cı il*

## SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*27 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Sumqayıt şəhərinə səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov prezident İlham Əliyevə abidənin yerləşdiyi Heydər Əliyev parkında və ümumiyyətlə, şəhərdə görülən işlər barədə ətraflı məlumat verdi. Bildirildi ki, burada şəhər sakinlərinin və qonaqların istirahəti üçün hər cür şərait yaradılıb. Heydər Əliyev Mərkəzinin, Şahmat məktəbinin, Uşaq incəsənət məktəbinin, balacalar üçün əyləncə və istirahət guşələrinin burada inşa edilməsi ərazini daha da cəlbedici məkana çevirib.*

### Dənizkənarı bulvarın və şəhər çimərliyinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Sumqayıtda Dənizkənarı bulvarın və şəhər çimərliyinin açılışında iştirak etmişdir.*

*Bu gün ölkəmizdə həyata keçirilən sosial-iqtisadi layihələrin tərkib hissələrindən biri də yeni istirahət guşələrinin, park və xiyabanların yaradılmasıdır. Son dövrlərdə prezident İlham Əliyevin tapşırığına əsasən, Bakı ilə yanaşı, bütün şəhər və rayonlarda yeni parkların, xiyabanların, istirahət guşələrinin yaradılması, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması istiqamətində olduqca mühüm layihələr icra edilir. Bu məsələyə Sumqayıtda da xüsusi diqqətlə yanaşılır. Burada həmin istiqamətdə reallaşdırılan ən mühüm layihələrdən biri də Dənizkənarı bulvarın və şəhər çimərliyinin yaradılmasıdır. Bu kompleksdəki şərait sübut edir ki, Azər-*

*baycan dövləti vətəndaşların istirahətini mənalı təşkil etmək, asudə vaxtlarını səmərəli keçirmək üçün bütün zəruri addımları atır. Bu həm də dünyada hökm sürən iqtisadi böhran dövründə ölkəmizdə sosial layihələrin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirildiyini nümayiş etdirir. Xəzərin sahilindəki bu kompleks Sumqayıt şəhərinin simasının daha da gözəlləşdirilməsi baxımından da olduqca əhəmiyyətlidir. Bu cür layihələrin icrası bir daha sübut edir ki, Sumqayıtın abadlaşdırılması istiqamətində görülən işlər davamlıdır, onlar yüksək keyfiyyətlə və vaxtında yerinə yetirilir. Bir sözlə, müasir üslubda, orijinal dizaynda yaradılan həmin istirahət məkanı Sumqayıtın görməli yerlərinə daha bir ünvanın əlavə edilməsi deməkdir.*

*Dövlətimizin başçısı Dənizkənarı bulvarın və şəhər çimərliyinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, Xəzər dənizinin sahili boyunca 4 kilometr uzunluğu olan bulvar kompleksinin ümumi sahəsi 106 hektardır. Bu istirahət məkanının tikintisinə ötən ilin oktyabrında başlanılıb.*

*Dövlətimizin başçısı elektromobillə bulvarın ərazisini gəzdi.*

*Sumqayıt bulvarı və dənizkənarı parkı həm ərazisinə, həm də landşaftına görə ölkəmizdə mövcud olan əksər parklardan seçilir. Bu parkın çimərliyə birbaşa çıxışının olması onu digər bulvarlardan fərqləndirir. Sahəsi 12 hektar olan çimərlik zonasında şəhər sakinlərinin və qonaqların istirahəti üçün zəruri şərait var.*

*Bulvarda Bayraq Meydanı inşa olunub. Azərbaycan Respublikasının Dövlət bayrağı meydanda 42 metr hündürlüyündəki bayraq dirəyi üzərində dalğalanır.*

*Bildirildi ki, burada 100 min ağac, 500 mindən çox müxtəlif gül kolu əkilib, 60 min kvadratmetr sahədə çəmənlik salınıb, işıqlandırma sistemi qurulub. Park-bulvar kompleksində 10 min oturacaq qoyulub. 5 yerdə böyük fəvvarə kompleksi tikilib, su təchizatı və kanalizasiya şəbəkəsi yaradılıb. Kompleks boyunca 12 min poqonmetr uzunluğunda piyada yolu salınıb, mühafizə kameraları, monitorlar quraşdırılıb.*

*Qeyd olundu ki, bulvarda kiçikölçülü gəzinti avtobusları və avtomobil yolu ilə yanaşı, velosiped idmanı ilə məşğul olmaq*

*istəyənlər üçün də 3 metr enində xüsusi hərəkət zolağı salınıb. Bununla yanaşı, 3 kafe-çay evi, istirahət obyektləri, attraksionlar, kinoteatr, tennis kortu, futbol meydançaları, yay musiqi səhnəsi, ticarət və uşaqlar üçün əyləncə mərkəzləri yaradılıb. Ərazidə 2 yay uşaq-əyləncə mərkəzi tikilib, balacalar üçün 10 attraksion quraşdırılıb.*

*Diqqətə çatdırıldı ki, sahil hissədə estakada qurulub və şəhərin akvatoriyasında gəzinti gəmilərinin hərəkətinin təmin olunması üçün işlər aparılır. Burada 500-dən çox yeni iş yeri açılacaq.*

*Bulvarın ərazisində 4,2 kilometr uzunluğunda yeni yol çəkilib. Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bulvar boyunca salınan yeni asfalt yolun eni 16 metrdir. Bundan başqa, 4,2 kilometr uzunluğunda istinad divarı tikilib, mərmərlə üzlənib. Müasir səviyyədə salınan yolda işıqlandırma sistemi də quraşdırılıb.*

*Sonra dövlətimizin başçısına bulvar ərazisində inşa edilən «Kristal Abşeron» yaşayış kompleksi barədə də məlumat verildi.*

*Bildirildi ki, bu kompleksdə ehtiyacı olan sakinlər mənzilləri 20 illik ipoteka yolu ilə də ala bilərlər. Beləliklə, kompleks sürətlə dəyişən Sumqayıtda əhalinin mənzil probleminin həllində mühüm rol oynayacaq.*

## Səid Rüstəmov adına Sumqayıt şəhər 3 saylı Uşaq incəsənət məktəbinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Səid Rüstəmov adına Sumqayıt şəhər 3 saylı Uşaq incəsənət məktəbinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı məktəb binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyev məktəblə tanış oldu.*

*Bildirildi ki, məktəb əvvəllər doqquzmərtəbəli yaşayış binasının birinci mərtəbəsində və əlavə tikilmiş qeyri-yaşayış sahəsində yerləşirdi. Məktəbdənkənar tədris üçün uyğunlaşdırılmış binada fəaliyyət göstərən məktəbin zamanın tələbinə uyğun daha müasir və geniş binada yerləşdirilməsi yüksək səviyyədə həyata keçirilib.*

*Yeni binanın inşasına keçən ilin noyabrında başlanılıb. Tikinti işləri bu ilin sentyabrında başa çatdırılıb.*

*Binanın foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin Sumqayıta səfərlərini əks etdirən fotoguşələr yaradılıb. Ümumi sahəsi 2950 kvadratmetr olan bina üçmərtəbəlidir. Burada 27 sinif otağının hamısı müasir avadanlıqlarla, təlim-tədris ləvazimatları ilə təchiz olunub. 120 yerlik akt zalında müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılıb. Kitabxana, rəsm otağı və emalatxanalarda dərslərin keçirilməsi üçün bütün imkanlar nəzərə alınıb. Hazırda Uşaq incəsənət məktəbində 730 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 217 müəllim məşğuldur.*

*Prezident İlham Əliyev məktəbin xor kollektivinin ifasını dinlədi.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## Şahmat məktəbinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Sumqayıtda Şahmat məktəbinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Şahmat məktəbinin binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycan Prezidentinə məlumat verildi ki, tikintisinə ötən ilin dekabrında başlanılan ikimərtəbəli binanın sahəsi 1000 kvadratmetrdir.*

*Prezident İlham Əliyev Şahmat məktəbində yaradılan şəraitlə tanış oldu. Uşaqların və yeniyetmələrin idmanın bu qədim növünün sirlərinə dərindən yiyələnmələrini təmin etmək üçün məktəbdə hər cür şərait yaradılıb. Burada dərslərin yüksək səviyyədə keçirilməsinə imkan verən əsas yarış zalı, 6 tədris sinfi, müəllimlər otağı və xidməti otaqlar var.*

*Dövlətimizin başçısı burada bu məktəbin yetirmələri olan Azərbaycanın qadınlardan ibarət milli komandasının üzvləri Zeynəb və Türkan Məmmədyarova bacıları ilə görüşdü.*

*Azərbaycan Prezidenti balaca şahmatçılara uğurlar arzuladı.*

*Qeyd edildi ki, burada şahmatla bağlı biliklərin əldə olunması və müasir yeniliklərin qavranılması üçün ayrıca kompüter guşəsi də mövcuddur. Bu da dərslərin innovativ vasitələrin köməyi ilə keçirilməsinə və ən son yeniliklərin qısa müddətdə öyrənilməsinə şərait yaradır. Şahmat məktəbi bir sıra respublika səviyyəli yarışlara da ev sahibliyi etməyə hazırdır. Məktəbdə şahmat üzrə 43 dərnək fəaliyyət göstərəcək. Həmin dərnəklərdə 520 nəfərin məşğul olması üçün hərtərəfli imkan yaradılıb.*

## Əsaslı təmir edilərək yenidən qurulan Heydər Əliyev parkı ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Sumqayıtda əsaslı təmir edilərək yenidən qurulan Heydər Əliyev parkı ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı elektromobillə parkın ərazisini gəzdi.*

*Məlumat verildi ki, son dövrlərdə Sumqayıtda əsaslı təmir olunaraq, yenidən qurulan istirahət məkanlarından biri də Heydər Əliyev parkıdır. Parkın ümumi sahəsi 8 hektardır. Bu park 1995–1996-cı illərdə salınıb. Ötən ildən başlanan əsaslı təmir və yenidənqurma işlərindən sonra parkın ərazisi genişləndirilərək, 15 min kvadratmetrə çatdırılıb. Görülən işlər çərçivəsində parkın girişi və saat qülləsi yenidən qurulub. Burada Bayraq Meydanı da yaradılıb və bayraq dirəyinin hündürlüyü 67 metrdir.*

*Qeyd edildi ki, parkın ərazisində aparılan geniş abadlıq işləri çərçivəsində 5 mindən çox ağac əkilib, 25 min kvadratmetr ərazi yaşıllaşdırılıb. Şəhər sakinlərinin və qonaqların istirahəti üçün parkda hər cür şərait yaradılıb. Heydər Əliyev Mərkəzi, Şahmat məktəbi, Uşaq incəsənət məktəbi bu parkın ərazisində yerləşir.*

## Sumqayıt Dövlət Dram Teatrının binasında yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də əsaslı təmir olunaraq yenidən qurulan Sumqayıt Dövlət Dram Teatrının binası ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, bina 1956-cı ildə istifadəyə verilib. Burada yenidənqurma işlərinə ötən ilin dekabrında başlanılıb. Əsaslı təmir və yenidənqurma tədbirləri zamanı binanın bütün mühəndis-texniki qurğuları tamamilə yenidən qurulub. Binanın 500 yerlik tamaşa və 100 yerlik akt salonu ən müasir avadanlıqlarla təchiz olunub. Tamaşaları bədii və texniki cəhətdən yüksək səviyyədə təqdim etmək üçün 360 dərəcə hərəkət edən səhnə, müasir akustika və işıqlandırma sistemləri və digər avadanlıqlar quraşdırılıb.*

*Teatrın interyerinin daha cəlbedici görünməsi üçün milli memarlıq ənənələrindən geniş istifadə edilib. Binanın bütün xidməti, dekorasiya və qrim otaqları müasir üslubda tərtib olunub, mebellər tətbiqi sənətin qədim növü olan oyma üsulu ilə işlənib. Binanın müasir üslubda yenidən qurulması sakinlərin teatra marağının artmasına, şəhərin mədəni həyatının daha da canlanmasına təkan verəcək. Teatrın qarşısındakı meydanda 15 min kvadratmetr sahəyə mərmər döşənib, 2 yeni fəvvarə və monitor quraşdırılıb.*

*Yenidənqurma işləri Sumqayıt Dövlət Dram Teatrının 150 nəfərlik kollektivinə işlərini günün tələbləri səviyyəsində qurmaq üçün maksimum şərait yaradır. Ümumilikdə, teatrın binasının əsaslı təmiri və yenidən qurulması Azərbaycan dövlətinin mədəniyyət sahəsinin inkişafına göstərdiyi diqqət və qayğını təcəssüm etdirir. Bu layihənin icrası son dövrdə Sumqayıtda gedən sürətli sosial-iqtisadi inkişafa təkan verməklə yanaşı, şəhərin ümumi görünüşünə də əlavə çalarlar qatır.*

## Sülh küçəsində əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Sumqayıt şəhərinə əsas giriş yolunda – Sülh küçəsində əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Prezident İlham Əliyev görülən işləri əks etdirən stendə baxdı.*

*Məlumat verildi ki, bu ilin fevralında başlanılan yenidənqurma işləri sentyabrın əvvəlində yekunlaşıb. Bakı–Quba avtomobil yolundan başlanaraq şəhərdəki «Göyərçin» abidəsinə qədər bu küçənin uzunluğu 5,2 kilometrdir.*

*Diqqətə çatdırıldı ki, yenidənqurmadan əvvəl burada səki yox idi. Tikinti işləri zamanı yeni səkilər salınıb, yolun hər iki tərəfində yağış sularını axıdan kanalizasiya xətti çəkilib. Yol boyunca yaşıllıqlar salınıb, ağac və gül kolları əkilib, avtomatik suvarma sistemi qurulub. Yeni işıqlandırma sistemi də müasirliyi ilə diqqəti çəkir. Küçə boyunca dekorativ istinad divarları tikilib.*

*Bildirildi ki, küçəyə 15 santimetr qalınlığında polimer asfalt örtüyü döşənib. Müasir texnologiya əsasında hazırlanan bu asfaltın özəlliyi yükgötürmə qabiliyyətinin yüksəkliyində, elastikliyinin etibarlılığında və uzun müddət davamlı olmasındadır. Eni 14 metr olan küçənin hərəkət hissəsi yenidənqurmadan sonra 22 metrə çatdırılıb. Sülh küçəsinin əsaslı təmiri və yenidən qurulması Bakıdan Sumqayıta və əks istiqamətə nəqliyyatın rahat və maneəsiz hərəkətinə hərtərəfli imkan yaradır.*

## Yeni sərnişin avtobuslarının təqdim edilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Sumqayıt şəhərində istifadə ediləcək yeni sərnişin avtobuslarının təqdim edilməsi mərasimində iştirak etmişdir.*

*Türkiyədə istehsal edilən «AKİA» markalı bu avtobuslar 27 oturacaqlıdır. Ümumiyyətlə, avtobuslarda 72 sərnişin daşına bilər. Avtobuslarda əlillər üçün yer və onların rahat minib-düşmə-*

*ləri üçün xüsusi qurğu quraşdırılıb. Yüksək texniki göstəricilərə malik avtobuslarda mərkəzləşdirilmiş havalandırma sistemi, həmçinin daxili və xarici müşahidə kameraları vardır.*

*Yeni sərnişin nəqliyyat vasitələrinin istifadəyə verilməsi ilə Sumqayıtda sərnişindaşımanın keyfiyyətini daha yüksək səviyyəyə çatdırmaq mümkün olacaq.*

**Sahil küçəsində yenidənqurmadan sonra görülən işlərlə tanışlıq**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Sumqayıtın Sahil küçəsində yenidənqurmadan sonra görülən işlərlə tanış olmuşdur.*

*Sahil küçəsinin yenidən qurulması son illərdə Sumqayıtda yol-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində görülən işlərin ardıcıl xarakter aldığını göstərir. Yenidən qurulan Sahil küçəsi Sumqayıtın yol-nəqliyyat infrastrukturunun inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.*

*Prezident İlham Əliyevə küçənin yenidən qurulması çərçivəsində görülən işlər barədə məlumat verildi.*

*Bildirildi ki, burada yenidənqurma işləri müasir səviyyədə və qısa vaxtda aparılıb. Küçənin uzunluğu 7,5 kilometrdir. Mövcud yol keçən əsrin 80-ci illərinin əvvəllərində salınıb. Burada təmir-tikinti işlərinə ötən ilin noyabrında başlanılıb. Yolun eni orta hesabla 8 metrdən 13 metrə qədər genişləndirilib. Yolun 4000 metrinə «Azəryoltikinti» ASC, 3500 metrinə isə daxili imkanlar hesabına asfalt örtüyü döşənib.*

*Yolboyu hər iki tərəfdə əhalinin sərbəst hərəkəti üçün səkilər salınıb, bir çox yerlərdə istirahət guşələri yaradılıb, dekorativ ağac və gül kolları əkilib. Təhlükəsizlik məqsədilə istinad divarları, hasarlar yenidən tikilərək, aqlay daşlarla üzlənib. Bu yolda Sumqayıt şəhərində ilk dəfə olaraq, velosiped sürmək üçün xüsusi hərəkət zolağı salınıb. Sahil küçəsində aparılan yenidənqurma işləri həm avtomobillərin rahat hərəkətini, həm də piyadaların təhlükəsiz gediş-gəlişini təmin edəcək.*

## HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ SUMQAYIT ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*27 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Sumqayıt şəhərində Heydər Əliyev Mərkəzinin yeni binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.*

*Binanın foyesində ümummilli lider Heydər Əliyevin büstü ucaldılıb. Foyedə, həmçinin ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə gənclərə göstərdikləri yüksək diqqət və qayğını əks etdirən fotolardan ibarət guşələr yaradılıb.*

*Məlumat verildi ki, Heydər Əliyev parkında inşa olunan Mərkəzin binasının tikintisinə ötən ilin noyabrında başlanılıb. 3 mərtəbədən və mansardadan ibarət olan binanın ümumi sahəsi 5 min kvadratmetrdir. Mərkəzdə ulu öndərin həyatının və çoxşaxəli dövlətçilik fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən materiallar nümayiş etdirilir. Ümummilli lider Heydər Əliyevin ölkəmizdə, o cümlədən Sumqayıtda müxtəlif obyektlərin açılışında iştirakının, ictimaiyyətin nümayəndələri ilə görüşlərinin əks olunduğu fotolar da böyük maraq doğurur. Heydər Əliyev Mərkəzində müxtəlif tədbirlərin keçirilməsi üçün 420 yerlik böyük konfrans zalı yaradılıb. Mərkəzdə kompüter və digər ən müasir avadanlıqlarla təchiz olunmuş xidməti otaqlar var. Müxtəlif təyinatlı bölmələrdən ibarət olan Mərkəzdə sərgi zalı, xalçaçılıq dərnəyi, 40 nəfərlik iclas zalı, smart sinif, rəsm və fotostudiyalar, elektron kitabxana, kompüter, rəqs, intellektual oyun dərnəkləri fəaliyyət göstərəcək. Son illər respublikamızda fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində yeni ailə quran gənclərin nikah mərasimlərinin təşkili kimi xoşməramlı*

*tədbirlər də keçirilir. Sumqayıtdakı Heydər Əliyev Mərkəzində də bu məqsədlə müvafiq şərait yaradılıb.*

*Bina ilə tanışlıqdan sonra prezident İlham Əliyev Mərkəzin iclas zalında şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz sumqayıtlılar, əziz dostlar, mən sizin hamınızı ürəkdən salamlayıram. Mən yenidən Sumqayıtda olmağımdan çox məmnunam. Əvvəlki illərdə dəfələrlə Sumqayıtda olmuşam. Sumqayıtın inkişafı daim diqqət mərkəzindədir. Biz bu gün Sumqayıtda bir çox gözəl obyektlərin açılışını qeyd edirik. Onların arasında, əlbəttə ki, öz əzəməti, möhtəşəmliyi ilə seçilən Heydər Əliyev Mərkəzidir. Bu Mərkəz həm memarlıq, həm də funksionallığı baxımından çox gözəl abidədir, ulu öndərin adına yaraşan bir Mərkəzdir.

Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisidir. Məhz onun rəhbərliyi ilə Azərbaycan inamla müstəqillik həyatına qədəm qoyub. Əgər 1991-ci ildə Heydər Əliyev hakimiyyətdə olsaydı, heç vaxt Azərbaycan problemlərlə üzləşməzdi, heç vaxt bizdə vətəndaş müharibəsi olmazdı, heç vaxt torpaqlarımız işğal altına düşməzdi. Bizim xoşbəxtliyimiz isə ondan ibarətdir ki, 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəldi və ondan sonrakı müstəqillik dövrü sabitlik, tərəqqi və inkişaf dövrüdür. O ağır illərdə Azərbaycanda aparılan islahatlar, təhlükəsizliyin təmin edilməsi, neft müqaviləsinin imzalanması, dövlətçiliyin möhkəmləndirilməsi, yeni Konstitusiyanın qəbulu ölkəmizin gələcək inkişafını müəyyən etdi. O vaxt ölkəmizin gələcək inkişafı ilə bağlı strateji seçim edildi ki, Azərbaycan dövləti müstəqil həyatını qoruyacaq, ölkədə azərbaycançılıq məfkurəsi təmin ediləcək, Azərbaycan öz beynəlxalq əlaqələrini qarşılıqlı hörmət əsasında quracaq, dərin iqtisadi-sosial islahatlar həyata keçiriləcək və Azərbaycan xarici investorlar üçün açıq qapılar siyasəti aparacaq. Bu strateji seçim özünü doğrultdu. Biz bu gün bunu bir

daha əyani şəkildə görürük. Bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan bir ölkədir. Bizimlə hesablaşırlar, bizim fikrimiz, rəyimiz nəinki regional müstəvidə, hətta dünya miqyasında böyük önəm daşıyır.

Gələn ay biz müstəqilliyimizin bərpasının 25 illiyini qeyd edəcəyik. Bu 25 ilin 23 ili inkişaf, tərəqqi və dirçəliş illəri olmuşdur. 1991-ci ildə Azərbaycan müstəqilliyə qovuşanda digər müttəfiq respublikalar da müstəqillik əldə etmişdi və ilk 2 il xalqımız üçün, dövlətimiz üçün çox ağır, faciəvi illər olmuşdur. O vaxt hakimiyyəti zəbt edən antimilli qüvvələr ölkəmizi faktiki olaraq, dağıdırdılar və Azərbaycan xalqı böyük əziyyət içində, narahatlıq içində yaşayırdı. Azərbaycan xalqı cəmi 1 il AXC–Müsavat cütlüyünün hakimiyyətinə dözərək, bu mənfur ünsürləri tarixin arxivinə göndərdi. Bu gün Azərbaycanda gedən proseslər, ölkəmizin inkişafı və dünən keçirilmiş referendum bir daha xalqımızın iradəsini göstərdi. Bir daha göstərdi ki, Azərbaycan xalqı aparılan siyasətə öz dəstəyini verir. Bir daha onu göstərdi ki, Azərbaycan xalqı təhlükəsizliyi, sabitliyi, inkişafı, ləyaqəti və müstəqilliyi seçir.

Dünən keçirilən referendum bir daha bizim siyasətimizə xalq tərəfindən böyük etimadın göstəricisidir. Bu etimad bizə güc verir. Bu etimad olmasaydı, ölkəmizin milli maraqlarını beynəlxalq müstəvidə müdafiə etmək çətin olardı. Bizim siyasətimiz milli maraqlar üzərində qurulub. Bizim siyasətimizin təməlində Azərbaycan xalqının maraqları, milli dəyərlər durur. Bu gün istənilən beynəlxalq forumda Azərbaycan öz sözünü deyir, öz yolu ilə gedir, müstəqillik, ləyaqət yolu ilə gedir, heç kimin qarşısında gözükölgəli deyil, heç kimin diktəsi ilə oturub-duran deyil. Bu siyasət xalq tərəfindən dəstəklənir, bəyənilir və beynəlxalq aləmdə bizə çox böyük şöhrət qazandırıb.

Dünən keçirilən referendum ölkəmizin gələcək inkişafını müəyyən edir. Azərbaycan xalqının mütləq əksəriyyəti referenduma birmənalı şəkildə «hə» deyib, bizim təkliflərimizi dəstəkləyib, bəyənib. Buna görə mən bir daha bütün Azərbaycan xalqına dərin minnətdarlığımı bildirmək istəyirəm.

Mən son 13 il ərzində çalışmışam ki, bu yüksək etimadı öz işimlə, fəaliyyətimlə doğruldum. Şadam ki, bu gün Azərbaycan doğrudan da dünyada seçilən ölkələrdəndir. Təhlükəsizlik təmin edilir, Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşayır, beynəlxalq nüfuz artır, ordu quruculuğu uğurla gedir. Aprel döyüşləri bir daha Azərbaycan Ordusunun gücünü göstərdi. Baxmayaraq ki, dünyada iqtisadi böhran davam edir, Azərbaycan iqtisadi sahədə inamla inkişaf edir, bütün sosial layihələr icra olunur. Enerji siyasətimiz nəinki ölkəmiz üçün, regionumuz, dünya üçün böyük əhəmiyyət daşıyır. Azərbaycan enerji təhlükəsizliyinin təmin edilməsində lider dövlətdir. Biz nəhəng sənaye layihələrini icra edirik.

Bildiyiniz kimi, Azərbaycanda bu il «Multikulturalizm ili» elan edilib. Ölkəmizdə bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bax, budur bugünkü Azərbaycan reallıqları. Xalq bu reallıqları yüksək qiymətləndirir və referendumun nəticələri məhz buna əsaslanır. Bizə gələcəkdə kimsə xaricdən nə isə diktə etmək istəyəndə iki dəfə fikirləşməlidir. Birincisi, biz heç kimlə diktat dili ilə danışmırıq. Bu yanaşmanı qəbul etmirik. İkincisi və ən önəmlisi, biz heç kimdən asılı deyilik. Bizim apardığımız siyasət bundan ibarətdir ki, ancaq öz gücümüzə arxalanaq, nə siyasi cəhətdən, nə maliyyə cəhətdən heç kimdən asılı olmayaq, heç kimə borclu olmayaq və öz taleyimizi özümüz həll edək.

Bu gün Azərbaycan reallıqları göstərir ki, müstəqillik illəri bizim üçün nə qədər qiymətlidir və nə qədər böyük xeyir gətirir. Heç vaxt tarixdə Azərbaycan indiki qədər güclü, indiki qədər azad və müstəqil olmamışdır. Biz tarixi yaxşı bilirik, müxtəlif dövrlərdə Azərbaycan ərazisində dövlətlər, müxtəlif ictimai idarəetmə formaları olub. Ancaq bugünkü dövr əsl müstəqillik dövrüdür. Heç kimdən asılı deyilik, öz taleyimiz öz əlimizdədir, inamla irəliyə gedirik və perspektivlər də çox açıqdır, aydındır. Biz bilirik nə istəyirik. Cəmiyyətdə Azərbaycanın inkişafı ilə bağlı fikir ayrılığı yoxdur və dünənki referendum bunu bir daha təsdiq etdi.

Azərbaycan regionlarının inkişafı prioritet məsələ olaraq qalır. Bu təşəbbüsü 2004-cü ildə mən irəli sürmüşdüm və o gündən bu

günə qədər bütün şəhərlər, rayonlar inkişaf edir, abadlaşır. Regional inkişaf proqramımız bizə imkan verir ki, ölkəmiz həm iqtisadi, həm coğrafi baxımdan çoxşaxəli şəkildə inkişaf etsin.

Sumqayıtın bu proqramın icrasında xüsusi yeri var. Sumqayıt böyük sənaye şəhəridir. Sumqayıtın əhalisi də kifayət qədər çoxdur. Sumqayıt Bakıdan sonra Azərbaycanın ikinci şəhəridir. Sumqayıtın inkişafına daim böyük diqqət göstərilib. Əminəm ki, Sumqayıtın bugünkü vəziyyəti, bugünkü görkəmi həm şəhər sakinlərini, həm də bütün Azərbaycan xalqını sevindirir. Son illər ərzində Sumqayıtda çox böyük işlər görülüb. Bu gün iştirak etdiyim açılışlar onu əyani şəkildə göstərir. Cəmi 8-9 ay ərzində belə möhtəşəm Heydər Əliyev Mərkəzi yaradılıb. Bu gün Şahmat məktəbinin, Uşaq incəsənət məktəbinin açılışını qeyd etdik. Gözəl, əzəmətli binalardır və bu binalarda uşaqlar oxuyur, dərs alır. Sumqayıt bulvarı isə hesab edirəm ki, bir möcüzədir. Sumqayıt bulvarının yaradılması ilə bağlı mən hələ bir neçə il bundan əvvəl şəhər rəhbərliyi qarşısında vəzifə qoymuşdum. Sumqayıtlılar yəqin ki, xatırlayırlar, hətta o vaxt mənim üçün təqdimat da keçirilmişdi.

Hər zaman maraqlanırdım ki, işlər necə gedir. Məlumat verilirdi ki, orada çətinlik, burada çətinlik var. Ancaq bu gün Sumqayıt bulvarı artıq açılıb. Bu bulvarın yaradılmasında şəhər rəhbərliyinin xüsusi rolu, Sumqayıt sakinlərinin böyük rolu vardır. Mən çox istəyirdim ki, Sumqayıtda Bakı bulvarına bənzər bir bulvar olsun. Bu gün biz buna nail olduq. Sumqayıt bulvarı cəmi 1 il ərzində, bəlkə də ondan da az bir vaxtda yaradılıb. Məsafəsi 4 kilometrdən çox olan bu bulvar göz oxşayır. Burada həm plyaj, həm də bulvar hissələri var, yol çəkilib və bütün infrastruktur, istirahət zonaları yaradılıb. Əminəm ki, bulvar Sumqayıt sakinlərini və şəhərin qonaqlarını sevindirəcək. Bu nəyi göstərir? Bu onu göstərir ki, biz Azərbaycanda istənilən işi görə bilərik. Sumqayıt sovet vaxtında kimya sənayesi mərkəzi idi. Kimin ağlına gələ bilərdi ki, Sumqayıt belə gözəl, ekoloji cəhətdən təmiz şəhərə çevriləcək. İndi Sumqayıtın havası çox təmizdir, ekoloji problemlər öz həllini tapıb. Şəhərin abadlaşdırılması işi böyük zövqlə və böyük məhəbbətlə aparılır. Küçələr salınır, Sumqayıta giriş küçəsində

abadlıq işləri aparılır, yaşıllıq zolaqları yaradılır, ağaclar əkilir. Bunu ancaq öz şəhərini, öz xalqını sevən insanlar edə bilər.

Mən çox şadam ki, bizim siyasətimizdə qarşıya qoyulan vəzifələr icra edilir. Bizim problemlərimizdən biri də ondan ibarətdir ki, qarşıya qoyulan vəzifələr bəzi hallarda icra edilmir, yaxud da ki, səhlənkarlıq edilir, yarımçıq icra olunur. Mən dövlət işində işləyənləri məcbur edirəm ki, bu işləri görsünlər. Ancaq Sumqayıtda siz özünüz təşəbbüs göstərirsiniz. Özünüz istəyirsiniz ki, Sumqayıt daha da gözəl şəhərə çevrilsin, daha da abadlaşsın.

Onu da qeyd etməliyəm ki, mən dəfələrlə bəyan etmişəm – bizim paytaxtımız Bakı şəhəri dünyanın ən gözəl şəhərlərindən biridir. Çalışmaq lazımdır ki, bütün şəhərlər Bakıya oxşasın. Yəni memarlığa görə yox, çünki hər bir şəhərin öz tarixi, öz siması var. Ancaq abadlıq, rahatlıq, insanların yaşayış səviyyəsi baxımından hər bir şəhər çalışmalıdır ki, Bakıya yaxınlaşsın. Hesab edirəm ki, Sumqayıt artıq Bakının səviyyəsinə gəlib çatıb. Bu münasibətlə mən sizi ürəkdən təbrik edirəm.

Sumqayıtda infrastruktur layihələri uğurla icra edilir. Mənə verilən məlumata görə, qazlaşmanın səviyyəsi təqribən 100 faizə yaxındır. Şəhər əhalisinin 80 faizi fasiləsiz içməli su ilə təmin edilir. Çalışmalıyıq ki, bu, 100 faizə çatsın. Elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Çünki mənim təşəbbüsümlə birinci böyük elektrik stansiyası Sumqayıtda tikilmişdir və biz onun açılışını qeyd etdik. Gücü 525 meqavat olan bir stansiya  o vaxt ona görə tikildi ki, mən Sumqayıtın uğurlu inkişafını görürdüm, buna əmin idim və bilirdim ki, Sumqayıta daha böyük həcmdə elektrik enerjisi lazım olacaq.

Sumqayıtda yolların salınması işi gedir, sosial infrastruktur yeniləşir, Olimpiya, Paralimpiya kompleksləri, «ASAN xidmət» Mərkəzi yaradılıb, xəstəxana təmir olunub. Şəhər hərtərəfli inkişaf edir və bu, əlbəttə, məni və əminəm ki, sizi çox sevindirir.

Sumqayıt tarixən kimyaçılar şəhəri kimi salınmışdır, Sovet İttifaqının kimya sənayesinin mərkəzi olmuşdur. Bu gün isə Sumqayıt müasir, dünya səviyyəli sənaye mərkəzinə çevrilib. Qarşıya məhz belə vəzifə qoyulub ki, Sumqayıtda ən müasir sənaye müəssisələri

yaradılmalıdır. Bu bizim ümumi sənaye potensialımızı gücləndirəcək, minlərlə, on minlərlə yeni iş yeri yaradacaq. Mən çox şadam ki, bu gün Sumqayıtda artıq icra edilmiş və icrada olan sahələr bu məqsədi təmin edib.

Son illər ərzində Sumqayıtın sənaye potensialı böyük dərəcədə artıb və əsas məsələ ondan ibarətdir ki, ekoloji məsələlərə çox böyük diqqət göstərilir. Sumqayıt sovet vaxtında həmişə ekoloji problemlərlə dolu bir şəhər kimi təqdim edilirdi və xarici mətbuatda da ekoloji cəhətdən çətin şəhərlərin sırasına həmişə Sumqayıtı da salırdılar. Müəyyən həqiqət var idi. Siz sumqayıtlılar bunu yaxşı bilirsiniz. Amma bu gün Sumqayıt dünya miqyasında ən ekoloji təmiz şəhərlərdən biridir. Bu gün bulvarda, şəhərdə gəzərkən həm gözəlliyi görürsən, həm də havanın çox təmiz olmasını hiss edirsən. Yəni Sumqayıtın havası kurort havasını xatırladır.

Əminəm ki, Sumqayıtın gələcək inkişafında turizm sektoru da öz rolunu oynayacaq. Bunu bir neçə il bundan əvvəl təsəvvür etmək çətin idi ki, Sumqayıtı turizm mərkəzi kimi görmək istəyirik. Bu gün bu reallıqdır – gözəl sahil zonası, plyaj, təmiz hava, parklar, ictimai zonalar, istirahət zonaları. İndi Sumqayıt parklar şəhəridir. Mənə bu gün məlumat verildi ki, yeni inşaat layihələri icra ediləcək, bulvara yaxın yerdə yeni yaşayış binaları, hotellər tikiləcək. Ona görə Sumqayıt gələcəkdə Azərbaycanın turizm zonası kimi də özünü göstərməlidir.

Yeni inşa olunan sənaye müəssisələrində əsas şərt ondan ibarətdir ki, ekologiyaya tam riayət edilsin və ekoloji təmiz sənaye müəssisələri yaradılsın.

Sumqayıtın sənaye potensialı ölkəmizi gücləndirir. Sumqayıt bu gün nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzidir. Bu gün çıxışlarda həm görülən, həm də görüləcək işlər haqqında məruzələr səslənəcək. Mən xüsusi göstəriş vermişəm ki, bu məruzələrdə həm sumqayıtlılara, həm də respublika əhalisinə görülən və görüləcək işlər haqqında hesabat verilsin. Çünki, əlbəttə, siz yaxşı bilirsiniz ki, şəhərinizdə hansı işlər görülüb. Ancaq bu təqdimatlar bu gün daha da geniş formada veriləcək. Hər

kəs görəcək ki, Sumqayıt bu gün əgər Cənubi Qafqazın ikinci sənaye şəhəridirsə, bu şərəfli adı daim daşıyacaq. Çünki Sumqayıtda təməlini qoyduğumuz böyük sənaye layihələri, müəssisələr dünya səviyyəli layihələrdir.

Sumqayıt Texnologiyalar Parkı artıq neçə ildir ki, fəaliyyət göstərir. Sumqayıtda Kimya Sənaye Parkı yaradılır. Artıq müəssisələr fəaliyyətə başlayıb, o cümlədən boru istehsalı müəssisələri xaricə məhsul ixrac edir. Bu bizim üçün xüsusilə əhəmiyyətlidir. Çünki biz ixracyönümlü məhsullar istehsal etməliyik.

Polimer zavodu artıq inşa edilir. Onun təməlini şəxsən mən qoymuşam. Təqribən 1 milyard manata yaxın sərmayə qoyuluşu nəzərdə tutulub. Azot gübrələri zavodu yaradılır. Bu da həm ölkə tələbatını ödəyəcək, həm də böyük ixrac potensialı yaradacaq. Yüngül sənaye ilə bağlı olan müəssisələr fəaliyyət göstərir. Qida sənayesi inkişaf edir. Sumqayıtın inkişafı hərtərəflidir, ilk növbədə, şəhər infrastrukturu. Çünki nəqliyyatla bağlı yeni layihələr var. Mənə bu gün yeni avtobuslar göstərildi. Bu da çox vacib olan sahədir. İnsanlar şəhər nəqliyyatından razı olmalıdırlar. Abadlıq işləri, ictimai zonalar, istirahət mərkəzləri, sənaye potensialı, bax, budur əsas vəzifələr.

Hər bir ölkə, hər bir şəhər üçün əsas vəzifələr bundan ibarətdir – iş yerləri olsun, insanlar yaxşı maaş alsınlar, yaxşı məktəblər, uşaq bağçaları, tibb xidməti olsun, təhlükəsizlik təmin edilsin, şəhər nəqliyyatı yaxşı işləsin, ədalət həmişə zəfər çalsın. Bax, biz bu gün bu yolla gedirik və son illər ölkəmizdə qazandığımız nailiyyətləri, həyata keçirdiyimiz siyasəti Sumqayıtın timsalında əyani şəkildə görürük.

Mən 16-cı dəfədir ki, Sumqayıta gəlirəm və bundan sonra da gələcəyəm. Sumqayıtın inkişafı daim diqqət mərkəzində olacaq. Bu gün isə sumqayıtlıları, şəhər rəhbərliyini əldə edilmiş bütün uğurlar münasibətilə bir daha təbrik etmək istəyirəm.

* * *

**Z a k i r  F ə r ə c o v** *(Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı):* Möhtərəm cənab Prezident!

Hörmətli qonaqlar!

Hər bir sumqayıtlı yaxşı bilir ki, şəhərimizin sosial-iqtisadi inkişafında, əhalinin yaşayışının, güzəranının yaxşılaşmasında ümummilli liderimiz Heydər Əliyevin misilsiz xidmətləri vardır. Azərbaycana rəhbərliyi dövründə 16 dəfə şəhərimizdə olmuş ulu öndərin xeyir-duası ilə iri sənaye müəssisələri, elm, təhsil, mədəniyyət, səhiyyə və digər sosial obyektlər istifadəyə verilib, yeni yaşayış məhəllələri və mikrorayonları salınıb. Sumqayıtın müasir şəhər kimi formalaşması və inkişafı məhz ulu öndərin adı ilə bağlıdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin şəhərimizə olan həmin münasibəti bu gün, cənab Prezident, Sizin tərəfinizdən də uğurla davam etdirilir. Siz Sumqayıtın əvvəlki şöhrətinin özünə qaytarılmasında və sosial problemlərin həllində bizə yüksək qayğı göstərirsiniz. Qədirbilən Sumqayıt sakinləri yaxşı dərk edirlər ki, şəhərdə gedən quruculuq prosesləri məhz Sizin yüksək diqqətiniz sayəsində həyata keçirilir.

Sizin rəhbərliyinizlə müstəqil Azərbaycanımızın bütün bölgələri kimi, Sumqayıt şəhəri də bu gün öz dinamik inkişaf dövrünü yaşayır. Görülmüş tədbirlər nəticəsində şəhərimizin həyatı yüksək dərəcədə canlanıb, insanların güzəranı yaxşılaşıb, nikbinliyi artıb.

Sizin son illərdə Sumqayıtda açılışını etdiyiniz zavod və fabriklərin, yaratdığınız sənaye parklarının hesabına minlərlə yeni iş yerləri açılıb, təkcə son 6 ay ərzində 6 mindən çox şəhər sakini işlə təmin edilib.

Möhtərəm cənab Prezident, Sizin tapşırığınıza əsasən şəhərin yeni, ümumi inkişaf konsepsiyası hazırlanıb. Tapşırığınıza uyğun olaraq, bütün abadlıq-quruculuq işləri şəhərin baş planı və gələcək perspektivi nəzərə alınmaqla aparılır. Məlumat vermək istəyirəm ki, biz bu işlərə ilk olaraq, şəhərin hər iki tərəfdən olan giriş yollarından başladıq. Hər iki istiqamətdə yollar genişləndirilərək, yenidən qurulub, yaşıllıq zolaqları salınıb, milli memarlıq üslubunda qala divarları çəkilib.

Şəhərin əsas giriş yolu olan Sülh küçəsi 4,2 kilometr məsafədə hər iki tərəfə iki dəfədən artıq genişləndirilib, mövcud yolun asfalt

örtüyü 90 min kvadratmetrə çatdırılıb və nəqliyyatın rahat hərəkətinə tam şərait yaradılıb. Yolun hər iki tərəfində ümumi uzunluğu 7 kilometr olan yağış sularının qəbuledicisi, su, kanalizasiya, kommunikasiya xətləri, küvetlər çəkilib, 100 min kvadratmetr sahəyə yaşıl örtük salınıb və təkcə bu ərazidə 120 mindən çox ağac və dekorativ kollar əkilib. 16 min kvadratmetr hasar çəkilib, gecə işıqlandırma sistemi, 110 ədəd müasir işıq dirəkləri quraşdırılıb. Yolun giriş hissəsində Bayraq Meydanı tikilib.

Sumqayıtın ikinci giriş yolu hesab olunan Sahil küçəsi də yenidən qurulub, dəniz kənarı ilə Novxanı istiqamətində 7,5 kilometr uzunluğunda yol əsaslı təmir olunub. Yolun eni 2 dəfə genişləndirilərək, 13 metrə çatdırılıb, 112 min kvadratmetr sahəyə asfalt döşənib. Yolboyu hər iki tərəfdə əhalinin sərbəst hərəkəti üçün piyada yolu çəkilib və 7 min kvadratmetr səki daşları düzülüb. Elə bu küçədə kommunikasiya xətləri çəkilib, bir çox yerlərdə istirahət guşələri yaradılıb, dekorativ ağaclar, kollar, güllər əkilib və yaşıllıqlar salınıb. Yolboyu 5 kilometr uzunluğunda istinad divarları çəkilib, hasarlar aqlay daşı ilə üzlənib, yolkənarı obyektlər təmir olunub. Yolun Corat qəsəbəsindən keçən hissəsində sakinlərin istirahəti üçün parklar salınıb, işıqlandırma sistemi quraşdırılıb.

Sizə məruzə etmək istəyirəm ki, şəhərin üçüncü giriş qapısı olan Metallurq küçəsinin də abadlaşdırılması işlərinə başlamışıq. Sizin yüksək diqqət və qayğınız sayəsində şəhərin digər küçələrində də genişmiqyaslı abadlıq işləri aparılıb. Şəhərin mərkəzi yollarında, mikrorayon və məhəllədaxili ərazilərdə, bağlar massivində asfalt işləri görülüb. 1,5 milyon kvadratmetr əraziyə asfalt döşənib ki, bu da 200 kilometrə bərabərdir. Eyni zamanda, 50 min poqonmetr səki daşları dəyişdirilib, 30 kilometr yeni piyada yolları salınıb. Tapşırığınıza uyğun olaraq, şəhərin bütün məhəllə və mikrorayonlarında da küçə və səkilərin, məhəllədaxili ərazilərin abadlaşdırılmasını gələcəkdə mərhələli şəkildə həyata keçirəcəyik.

Möhtərəm cənab Prezident, 2011-ci ilin iyun ayında Siz Sumqayıt şəhərinə növbəti gəlişiniz zamanı dəniz kənarında müasir Bulvar kompleksinin mütləq yaradılmalı olduğunu vurğu-

lamışdınız. Məlumat verirəm ki, bu gün artıq ümumi sahəsi 106 hektar, uzunluğu 4,2 kilometr olan ərazidə müasir Sumqayıt bulvarı yaradılıb.

Bulvar ərazisinin səviyyəsi dəniz səviyyəsindən 2,5 metr qaldırılıb, təkcə bu işlər üçün 3 milyon kubmetrdən çox torpaq daşınıb, 4,2 kilometr uzunluğunda, özülü 80 santimetr, yer səthindən 1,5 metr hündürlüyündə istinad divarı tikilib. Bulvarda 55 hektar ərazidə yaşıllıq zolağı salınıb, 160 mindən çox ağac və dekorativ kol, 2 milyon ədəd gül və çiçək əkilib, avtomat suvarma sistemi yaradılıb. Həmçinin 76 hektar ərazidə kommunikasiya xətləri çəkilib, 1500 ədəd müxtəlifölçülü işıq dirəkləri və işıqlandırma sistemi quraşdırılıb. İnsanların rahat istirahəti üçün 600-dən çox oturacaq qoyulub, 50 kölgəlik yaradılıb, 5 ədəd rəngli fontan inşa edilib.

Bulvarın ərazisində velosipedçilər üçün xüsusi hərəkət zolağı və 12 min poqonmetr piyada yolu salınıb, 4,2 kilometr və ya 100 min kvadratmetr asfalt işi görülüb, 30 hektar əraziyə daş döşənib. Ərazidə Bayraq Meydanı tikilib, hazırda isə gəzinti gəmilərinin yan alması üçün dənizin içərisinə doğru 500 metr uzunluğunda tərsanənin tikintisi aparılır.

Möhtərəm cənab Prezident, əhalinin asudə vaxtının səmərəli təşkili, insanların rahat istirahət etmələri üçün, demək olar ki, şəhər ərazisində olan bütün park və meydanlar yenidən qurulub. Şəhərdə ekoloji mühitin sağlamlaşdırılması məqsədilə 250 mindən çox ağac, 2 milyona yaxın gül əkilib, küçə və prospektlər boyunca yolların kənarlarına, eləcə də park və xiyabanlara 400 min kvadratmetrdən çox sahədə yaşıllıq zolağı salınıb.

Ulu öndərimizin adını daşıyan parkda da yenidənqurma işləri aparılıb, ərazisi 8 hektardan 10 hektara qədər genişləndirilib. Parkda 200-dən çox müasir işıq dirəkləri, oturacaqlar quraşdırılıb, 5 mindən çox ağac, dekorativ kol əkilib, 20 min kvadratmetrdən çox sahədə yaşıllıq zolağı salınıb, 30 min kvadratmetr daş döşənib, rəngli fontan kompleksi və Bayraq Meydanı tikilib, uşaqlar üçün əyləncə mərkəzi inşa olunub.

Cənab Prezident, vaxtilə şəhərimiz barədə dediyiniz «Sumqayıt bu gün parklar və bağlar şəhəridir» sözləri həqiqətən də Sizin köməyinizlə görülən işlərin hesabına reallığa çevrilib.

Parkın ərazisində ümumi sahəsi 5 min kvadratmetr olan dördmərtəbəli, hazırda toplaşdığımız Heydər Əliyev Mərkəzi inşa edilib. Bu möhtəşəm Mərkəz gənclərimizin daim toplaşacağı, öz maraqlarına uyğun məşğuliyyətlərini tapacağı məkana çevriləcək. Eyni zamanda, bu Mərkəz sumqayıtlı gənclərin Vətənə sədaqət, torpağa sonsuz məhəbbət və vətənpərvərlik ruhunda tərbiyə olunmalarında müstəsna rol oynayacaq.

Mərkəzdə ümummilli liderimizin həyat və fəaliyyətini əks etdirən eksponatlardan ibarət muzey, 400 yerlik iclas, 50 yerlik konfrans, rəqs, sərgi və kompüter zalları, elektron kitabxana, xalçaçılıq dərnəyi, rəsm və linqafon otaqları, smart sinfi, foto və videostudiya, gənclər üçün diskussiya zalları fəaliyyət göstərəcək. Dərnəklərlə yanaşı, dördüncü mərtəbədə nikah mərasimləri zalı fəaliyyət göstərəcək. Burada ailə quran hər bir sumqayıtlı gənc üçün ulu öndərin həyat və fəaliyyəti bir örnək olacaq. Nikah və qeydiyyat idarəsi də bu binada yerləşdirilib və nikah bağlanması üçün bütün şərait yaradılıb.

Parkın ərazisində müasir memarlıq üslubunda Şahmat məktəbi tikilib. Məktəbdə 25 qrup olmaqla, 550–600 şagirdin dərs keçmələri, həmçinin müxtəlif irimiqyaslı yarışların keçirilməsi üçün lazımi şərait yaradılıb. Eyni zamanda, parkın ərazisində Uşaq incəsənət məktəbi inşa edilib. Məktəbdə 60 sinif otağı fəaliyyət göstərəcək, 700-dən çox şagird təhsil alacaq və 210 müəllim çalışacaqdır.

Cənab Prezident, Sumqayıt Dövlət Dram Teatrının təmiri ilə bağlı tapşırığınıza uyğun olaraq, dərhal işlərə başlanılıb, dördmərtəbəli, 3000 kvadratmetr sahəsi olan teatr zirzəmidən tutmuş, damınadək əsaslı təmir olunub, müasir avadanlıqlarla təchiz edilib. 150 nəfərədək personalı olan teatr binasında 500 yerlik tamaşa, 100 yerlik akt zalları, bütün xidməti, dekorasiya, qrim, iş otaqları əsaslı təmir edilib, işıqlandırma sistemi müasir üslubda yenidən qurulub.

Teatrın qarşısındakı meydana 15 min kvadratmetr qranit daş döşənib, 2 fontan və monitor quraşdırılıb.

Möhtərəm cənab Prezident, Sizin hər zaman Sumqayıt və sumqayıtlılara göstərdiyiniz köməyin nəticəsi olaraq, ayrılmış vəsait hesabına 323 çoxmənzilli yaşayış binasının dam örtükləri yenidən qurulub və hazırda bu işlər davam etdirilir. 200 çoxmənzilli yaşayış binasının isə liftləri dəyişdirilərək, yenisi ilə əvəz olunub. Yaşayış binalarının memarlıq və dizayn baxımından müasir görkəminin saxlanması məqsədi ilə 77 binanın fasadı yenidən qurulub, Azərbaycan prospektində 21 bina aqlay daşları ilə üzlənib. Qarşımızda daha 400 binanın təmiri məsələsi dayanır ki, bu işləri də davam etdirəcəyik.

250 çoxmənzilli yaşayış binasının istiliklə təmin olunması üçün müvafiq işlər görülüb, qazanxanalar mövsümə tam hazırlanıb. Hazırda 18-ci mikrorayonda 20 yaşayış binasını istiliklə təmin edəcək yeni qazanxananın tikintisi işləri aparılır. Şəhərdə daha 600 yaşayış binasının istiliklə təchiz olunması üçün də müvafiq tədbirlər görüləcək.

Sizin tapşırığınızla şəhərdaxili avtomobillə sərnişindaşıma xidməti Sumqayıt Şəhər İcra Hakimiyyətinin tabeliyinə verilib. Bu iş pilot layihə olaraq, əhaliyə nəqliyyat xidmətinin lazımi səviyyədə qurulmasını təmin edəcək. Hazırda bu məqsədlə növbəti il ərzində şəhərimizə 150 ədəd müasir avtobusların gətirilməsi üçün tədbirlər görülür.

Möhtərəm cənab Prezident, şəhərdə məktəb, uşaq bağçaları ilə bağlı problemlərin aradan qaldırılması sahəsində də müəyyən işlər görülüb. Belə ki, 56 uşaq bağçasından 48-nin dam örtüyü dəyişdirilib, istilik sistemi bərpa edilib, 8 uşaq bağçası əsaslı təmir olunub, ərzaq təminatı məsələləri tam qaydaya salınıb. Biz uşaq sıxlığını nəzərə alaraq, Sizə söz veririk ki, növbəti ildə daha 10 uşaq bağçasını tikib istifadəyə verəcəyik.

Ümumtəhsil məktəblərinin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində şəhərdə 6 məktəb əsaslı təmir edilib. Qarşımıza məqsəd qoymuşuq ki, şəhərin daxili imkanları hesabına növbəti ildə məktəblərin təmirində əsaslı dönüş yaradaq.

Şəhərin səhiyyə ocaqları da diqqətdən kənarda qalmayıb, cari ildə 5 xəstəxana və poliklinikada təmir işləri aparılıb.

Cənab Prezident, Sizin bilavasitə köməyiniz və dəstəyiniz sayəsində Sumqayıt şəhərində xeyli işlər görülüb. Ancaq qarşımızda hələ həlli vacib olan bir çox məsələlər dayanır ki, onları da ardıcıllıqla həll edəcəyik.

Planlaşdırmışıq ki, əhalinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq üçün yaxın dövrdə Kimyaçılar və İnşaatçılar yaşayış sahəsində ötən əsrin 40–50-ci illərində tikilmiş, istismar müddətini başa vurmuş, kommunal şəraiti olmayan və qəzalı vəziyyətdə olan 100-ə yaxın taxta konstruksiyalı yaşayış binalarının sökülməsi və əhalinin köçürülərək, yeni mənzillərə yerləşdirilməsi məsələsini həll edək. Həmçinin mərhələli şəkildə 100-dən çox yataqxana binasının əsaslı təmiri, 120 kilometr uzunluğunda şəhərdaxili yolların, 1,5 milyon kvadratmetr mikrorayon və məhəllədaxili sahələrin yenidən qurulması, 40 minə yaxın əhalinin yaşadığı ərazidən keçən, əhalinin və sənaye müəssisələrinin kanalizasiya xətti kimi istifadə etdiyi 7,5 kilometr uzunluğunda Acı Dərə kanalının boruya alınması kimi, vacib işləri görməliyik.

Bundan əlavə, sənaye zonasında yerləşən Superfosfat, Alüminium, Kompressorlar zavodlarının, Xovlu iplik fabrikinin fəaliyyətini bərpa etmək, şəhərin perspektiv inkişafı və genişləndirilməsi, sosial obyektlərin tikintisi üçün şəhər ərazisində fəaliyyətsiz qalmış onlarla idarə və təşkilatların yüz hektarlarla torpaq sahələrindən səmərəli istifadə etmək istəyirik. Sizi əmin edirik ki, bu işləri də ardıcıllıqla yerinə yetirəcəyik.

Möhtərəm cənab Prezident!

Dünən Azərbaycanda ümumxalq səsverməsi – referendum keçirildi. Bu referendumda insanlar Azərbaycanın sabahına, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, ölkəmizin Sizinlə birlikdə olan gələcəyinə, həyata keçirəcəyiniz islahatlara səs verdilər. Onlar bir daha təsdiq etdilər ki, Sizin ətrafınızda hamılıqla sıx birləşmişlər.

Müdrik ölkə başçısı kimi, xalqımızın xoşbəxtliyi naminə əzmkar fəaliyyətinizə, insanlara sonsuz məhəbbətinizə cavab olaraq,

Sumqayıt sakinləri də Sizə hər zaman yüksək məhəbbət və sədaqətini nümayiş etdirəcək, əzmlə çalışacaq və Sizin bizə göstərdiyiniz yüksək diqqət və qayğıya öz əməli fəaliyyətimizlə cavab verəcəyik.

Diqqətinizə görə çox sağ olun.

**Ş a h i n  M u s t a f a y e v** *(İqtisadiyyat naziri):* Möhtərəm cənab Prezident!

Hörmətli tədbir iştirakçıları!

Dünyada mürəkkəb siyasi və iqtisadi proseslərin davam etdiyi hazırkı şəraitdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iqtisadi strategiyası çərçivəsində qeyri-neft sektorunun inkişafına yönəlmiş sistemli tədbirlər, aparılan islahatlar ölkənin dayanıqlı inkişafı baxımından strateji əhəmiyyət kəsb edir.

Bu iqtisadi strategiyanın əsas istiqamətlərindən biri rəqabətqabliyyətli qeyri-neft sənayesinin inkişaf etdirilməsidir. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə ölkəmizdə ciddi sənaye potensialı formalaşdırılıb, Bakı ilə yanaşı, Sumqayıt, Gəncə və Mingəçevir də sənaye mərkəzlərinə çevrilib.

Prezident İlham Əliyevin iqtisadi siyasətinin mühüm tərkib hissəsi olan sənayeləşmənin həyata keçirilməsi nəticəsində son illərdə yüzlərlə müasir sənaye müəssisəsi fəaliyyətə başlayıb, yeni sənaye sahələri yaradılıb, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, idxaldan asılılıq azalıb, ixrac potensialı yüksəlib və beləliklə, sənaye yeni inkişaf mərhələsinə qədəm qoyub. Ümumilikdə, görülən işlər nəticəsində qeyri-neft sənayesində məhsul istehsalı 2014-cü ildə 6,9 faiz, 2015-ci ildə 8,4 faiz, cari ilin yanvar–avqust aylarında isə 3,3 faiz artıb.

2014-cü ilin «Sənaye ili» elan edilməsi, sənayenin inkişafına dair 2015–2020-ci illər üçün Dövlət Proqramının qəbul edilməsi bu sahədə işlərin kompleks şəkildə ardıcıllıqla aparılmasını təmin edir. Proqramın icrası məqsədilə biznes və investisiya mühitinin davamlı olaraq təkmilləşdirilməsi, sənayenin rəqabətqabliyyətinin artırılması, sənaye sahəsində fəaliyyət göstərən sahibkarlara dövlət dəstəyinin göstərilməsi, bu sahəyə yerli və xarici investisiyaların

cəlb edilməsi və infrastruktur təminatının yaxşılaşdırılması istiqamətlərində tədbirlər həyata keçirilib.

Xüsusilə də investisiya fəaliyyətinin genişləndirilməsi məqsədilə investisiya təşviqi mexanizmi yaradılıb və qısa müddətdə ümumi dəyəri təxminən yarım milyard manat olan 58 layihəyə investisiya təşviqi sənədi verilib. Qeyd olunan layihələr çərçivəsində 4 mindən çox yeni iş yeri açılacaq. Hazırda investisiya təşviqi sənədinin alınması məqsədilə təqdim olunmuş ümumi dəyəri 200 milyon manatdan çox olan investisiya layihələrinin qiymətləndirilməsi aparılır. Bununla yanaşı, istehsalı stimullaşdırmaq məqsədilə yerli istehsalçılar tərəfindən təklif edilən mal və xidmətlərə xarici istehsalçılarla müqayisədə 20 faiz qiymət güzəşti tətbiq edilib.

Qeyd etmək lazımdır ki, dövlət başçımızın sentyabrın 15-də imzaladığı fərmana əsasən, icra hakimiyyəti orqanları və dövlət büdcəsindən maliyyələşən təşkilatlar tərəfindən satınalmalar zamanı idxal mallarının alınmasına yalnız zərurət olduğu təqdirdə razılıq veriləcək ki, bu da yerli məhsulların istehsalının artırılmasına və müəssisələrin inkişafına əlavə stimul verəcək.

Sənayenin inkişafına yönəlmiş mexanizmlərdən biri də sənaye parkları və sənaye məhəllələrinin yaradılmasıdır. Son dövrlər ölkəmizdə bu istiqamətdə real addımlar atılıb. Neftçala rayonunda yaradılmış ilk sənaye məhəlləsində bütün zəruri infrastruktur qurulub, 6 rezident qeydiyyatdan keçib və bunlardan 3-ü ilin sonunadək, digərləri isə gələn il fəaliyyətə başlayacaq. Layihələrin icrası nəticəsində 40 milyondan yuxarı investisiya qoyulacaq və 500-dən çox iş yeri açılacaq.

Növbəti sənaye məhəlləsinin Masallı rayonunda yaradılması istiqamətində işlər davam edir. Sənaye məhəlləsində fəaliyyət göstərmək istəyən sahibkarlar tərəfindən ümumi dəyəri 31 milyon manatdan çox olan 33 layihə təklifi daxil olub.

Sənaye parklarının qurulmasına isə daha əvvəl başlanılıb. Belə ki, tullantıların təkrar emalı sahəsində ixtisaslaşan Balaxanı Sənaye Parkında ümumi dəyəri 23 milyon manat olan və 300 iş yerinin açılmasını nəzərdə tutan layihələrin icrası məqsədilə 5 rezident

qeydiyyatdan keçib. Gələn ilin ilk yarısında parkda infrastruktur işlərinin tamamlanması və bütün müəssisələrin fəaliyyətə başlaması planlaşdırılır.

Gəmiqayırma sahəsində ixtisaslaşan Qaradağ Sənaye Parkında həyata keçirilən investisiya layihəsinin dəyəri 470 milyon ABŞ dolları təşkil edir. Park 2 min nəfərin işlə təmin olunmasına imkan verir.

Yeni yaradılmış Pirallahı Sənaye Parkı əczaçılıq məhsullarının istehsalının təşkili və bu sahədə idxaldan asılılığın azaldılması baxımından əhəmiyyətlidir. Parkda Rusiya və İran şirkətləri ilə birgə həyata keçiriləcək dərman vasitələrinin istehsalı üzrə ilk 2 layihə çərçivəsində 90 milyon dollara yaxın investisiya qoyulacaq və 300-dək iş yeri yaradılacaq. Bu ilin sonunadək müəssisələrin tikintisinə başlanılacaq.

Bir neçə gün əvvəl dövlət başçısının təməlqoyma mərasimində iştirak etdiyi Mingəçevir Sənaye Parkında yüngül sənaye məhsulları, o cümlədən iplik, parça, ayaqqabı və geyim istehsalı üzrə 9 fabrikin yaradılması ilə 200 milyon dollardan çox investisiya qoyuluşu və 5500-dən çox iş yerinin açılması nəzərdə tutulur.

Vacib amillərdən biri də odur ki, yaradılacaq müəssisələr əsasən yerli xammalla təmin olunacaq. Pambıqçılığa göstərilən dövlət dəstəyi istehsalın xammala tələbatını ödəməklə, xammaldan son məhsuladək sənaye klasterinin yaradılmasına xidmət edir.

Məlum olduğu kimi, Sumqayıt şəhərinin olduqca zəngin sənaye ənənələri vardır. Təsadüfi deyildir ki, ilk sənaye parkı da, cənab Prezident, Sizin fərmanınızla 5 il əvvəl məhz Sumqayıtda yaradılıb.

Sumqayıt Kimya Sənaye Parkı ərazisinin genişliyinə, rezidentlərin sayına, investisiya qoyuluşuna, istehsal ediləcək məhsulun çeşidi və həcminə görə ölkədə ən böyük sənaye parkıdır. Parkda yüksək səviyyəli infrastruktur təminatı həyata keçirilir. İlk növbədə, buradan 1,9 milyon kubmetr torpaq tullantı, o cümlədən 41 min kubmetr təhlükəli tullantı çıxarılıb, parkın ərazisi ekoloji tələblərə cavab verən vəziyyətə gətirilib.

Artıq parkın 168 hektar ərazisində xarici elektrik verilişi və bütün yeraltı kommunikasiya xətlərinin tikinti-quraşdırma işləri tamamlanıb, 128 hektar ərazidə isə söküntü və düzənlənmə işləri başa çatdırılıb. Hazırda parkın daxili avtomobil yollarının, Peşə Tədris Mərkəzinin, ərazidaxili elektrik xətlərinin və yarımstansiyanın tikinti-quraşdırma işləri davam etdirilir.

Parkın ilk rezidenti olan, boru və hidrotexniki avadanlıq istehsalçısı «Azərtexnolayn» MMC-də 700 nəfər işləyir. Müəssisədə cari ilin 8 ayı ərzində istehsal edilmiş 55 milyon manatlıq məhsulun 85 faizi ixrac olunub.

Növbəti rezident «SOCAR Polimer» MMC-nin istehsalı olan polipropilen və yüksək sıxlıqlı polietilen ixrac olunmaqla yanaşı, yerli müəssisələrin, kiçik və orta sahibkarlığın xammala olan tələbatını ödəyəcək və onların inkişafına stimul verəcək. Nəticədə hazırda idxal olunan yüzlərlə adda məhsul ölkə daxilində istehsal ediləcək.

«MST Engineering» MMC tərəfindən yüksək təzyiqə davamlı xortumların və fitinqlərin istehsalı layihəsi üzrə 40 nəfər daimi iş yeri ilə təmin olunacaq.

«Aqrokimya Azərbaycan» MMC tərəfindən aqrokimyəvi məhsulların, o cümlədən pestisidlərin istehsalı layihəsi üzrə 100 nəfər daimi iş yeri ilə təmin ediləcək. Layihənin icrası nəticəsində bu sahədə idxaldan asılılıq aradan qaldırılacaq, ixrac potensialı yaranacaq.

«Alco Lubricant Company» MMC tərəfindən yüksəkkeyfiyyətli sintetik və yarısintetik sürtkü yağlarının istehsalı layihəsi üzrə 100 daimi iş yeri açılacaq.

İsveçrənin tanınmış «SİKA» şirkəti tərəfindən müxtəlif tipli tikinti məhsullarının istehsalı layihəsi üzrə 60 nəfər daimi iş yeri ilə təmin olunacaq.

Bu 4 layihənin hamısı 2017-ci ildə fəaliyyətə başlayacaq.

Bakı Ferroərintilər zavodu tərəfindən metallurgiya sənayesində istifadə olunan ferroərintilərin istehsalı layihəsi üzrə 70 daimi iş yeri yaradılacaq. Bu layihənin isə 2018-ci ildə fəaliyyətə başlaması nəzərdə tutulur.

Parkın digər rezidentləri «Azerbaijan Fibro Cement» MMC və «AzerFloat» QSC tərəfindən müvafiq olaraq fibro-sement lövhələrin və şüşə vərəqələrin istehsalı planlaşdırılır.

Qeyd olunan layihələrin icrası nəticəsində parkın 9 rezidenti tərəfindən qoyulan investisiyaların həcminin 1,1 milyard ABŞ dollarını keçəcəyi və 2 mindən çox yeni iş yerinin açılacağı gözlənilir.

Həmçinin Sumqayıt Texnologiyalar Parkında emal sənayesinin müxtəlif sahələri, o cümlədən elektrotexniki avadanlıqlar, yüksəkgərginlikli elektrik kabelləri, maşın və avadanlıqlar, polietilen borular, alüminium və PVC profillər, sendviç panellər və polikarbonat lövhələr istehsalı üzrə 17 zavod fəaliyyət göstərir. Bununla yanaşı, Karbamid zavodunun tikintisi davam edir.

Qeyd olunan layihələrin icrası idxaldan asılılığın əhəmiyyətli dərəcədə azaldılmasına və ixrac potensialının artırılmasına xidmət edəcək.

Möhtərəm cənab Prezident!

Qeyd olunanlar Sizin rəhbərliyiniz altında həyata keçirilən islahatlar kursunun qarşıdakı illərdə də iqtisadiyyatın dayanıqlı və davamlı inkişafının təminatçısı olduğunu bir daha əyani şəkildə göstərir.

Diqqətinizə görə minnətdaram.

**M u x t a r B a b a y e v** *(«Azərikimya» İstehsalat Birliyinin Müşahidə Şurasının sədri):* Möhtərəm cənab Prezident!

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş yeni neft strategiyasının bu gün Sizin rəhbərliyinizlə uğurla davam etdirilməsi ölkəmizdə neft-kimya sənayesinin dinamik inkişafı üçün böyük perspektivlər açıb. Sizin Azərbaycan neft-kimya sənayesinin tarixində yeni bir mərhələ açmış 2010-cu il 2 aprel tarixli Sərəncamınız kimya sənayesində SOCAR-ın əsas fəaliyyət proqramıdır. Tövsiyə və tapşırıqlarınıza uyğun olaraq, «Azərikimya»nın SOCAR-ın tərkibinə verildiyi ilk gündən insan amili, kimyaçıların və bütövlükdə, sumqayıtlıların sağlamlığı prioritet təşkil edib, fiziki və mənəvi cəhətdən köhnəlmiş, zərərli qurğular istismardan çıxarılıb, istehsalat sahələrində əsaslı təmir və yenidənqurma işləri aparılıb. Qeyd etmək lazımdır ki, «Azəri-

kimya»nın əsas istehsal sahəsi olan «EP-300» qurğusunun inşasına 1981-ci ildə başlanılmışdır. O dövrdə bu istehsalat kompleksinin əhəmiyyətini və perspektivini düzgün qiymətləndirən ulu öndər Heydər Əliyevin rəhbər qətiyyəti və prinsipiallığı sayəsində qurğunun Sumqayıtda tikintisinə nail olundu. Əslində sovet rəhbərliyi bu qurğunun tikintisini İttifaqın başqa bir şəhərində planlaşdırmışdı.

Ötən 6 il ərzində Etilen-polietilen zavodunda yeni azot-oksigen kompleksi, susoyutma kompleksi, mütləqləşdirilmiş izopropil spirti qurğusu, istehsalata və keyfiyyətə nəzarət laboratoriyası tikilib. Həmçinin ötən il oktyabrın 25-də Sizin iştirakınızla propan-propilen fraksiyasının təmizlənməsi və butan-butilen fraksiyasının hidrogenləşməsi qurğuları istismara verilib. Xüsusən qeyd etmək lazımdır ki, əgər əvvəllər istehsalatlarımızda xammal kimi yalnız naftadan istifadə olunurdusa, bu gün 4 növdə xammaldan istifadə edilir və bunun üçün Neft emalı zavodundan ayrıca boru kəmərləri çəkilib.

Kimyaçılarımızın iş və məişət şəraiti yaxşılaşdırılıb, istehsalatda onların əməyinin və sağlamlığının mühafizəsi sahəsində də ciddi dəyişikliklərə nail olunub. Müasir tibbi avadanlıqlarla təmin edilmiş «Kimyaçı» poliklinikası və təcili yardım mərkəzi istifadəyə verilib. SOCAR-ın tibbi sığorta proqramı çərçivəsində hər bir kimyaçı sığortalanıb.

«Azərikimya»da ixtisaslı gənc fəhlə kadrların hazırlanması da diqqət mərkəzindədir. Sizin göstərişiniz əsasında 2012-ci ildə Sumqayıtda müasir tipli Təlim-Tədris Mərkəzi yaradılıb. Mərkəz həm «Azərikimya», həm də SOCAR-ın digər zavodları üçün beynəlxalq təhsil standartlarına uyğun yüksəkixtisaslı fəhlə kadrları hazırlayır. Artıq mərkəzi bitirmiş 500-ə yaxın gənc kadr SOCAR-ın müəssisələrində işlə təmin olunub. Hər il burada 1000 nəfərə yaxın əməkdaşımız müxtəlif kurs və təlimlərdə iştirak edir.

Aparılmış yenidənqurma işləri nəticəsində istehsal edilən məhsullar üzrə göstəricilər xeyli yaxşılaşıb və bütün sahələr üzrə dinamik artım müşahidə olunmaqdadır. Əmtəəlik məhsul istehsalı 2010-cu illə müqayisədə 64 faiz artıb. Son 6 il ərzində orta aylıq

əməkhaqqı 3 dəfədən çox artaraq, 205 manatdan 626 manata yüksəlib. «Azərikimya» Dövlət Şirkətinin 2010-cu ilə qədər yığılıb qalmış bütün yerli və xarici kreditor borcları qısa zamanda tərəfimizdən ödənilib. Müəssisəmiz 2013-cü ildən başlayaraq, mənfəətlə işləyir və bu artan dinamika davam etməkdədir.

2015-ci ildə istehsal edilən kimya məhsullarının 88 faizi ixrac olunub, daxili bazar isə 12 faiz təşkil edib. İxracdan söz düşmüşkən qeyd edim ki, Türkiyənin «Petkim» şirkəti ilə inteqrasiya əlaqələrinin qurulması nəticəsində istehsal etdiyimiz kimyəvi məhsulların xarici bazarlarda, xüsusilə də Avropa ölkələrində satış şəbəkəsi getdikcə genişlənməkdədir. Bu məqsədlə son illərdə kimya məhsullarımızın dünya bazarına əsas ixrac istiqamətlərindən biri kimi, Gürcüstanın Kulevi terminalından istifadə edilir. Orada qaz məhsullarının gəmilərə yüklənməsi üçün yeni terminal 2013-cü ildə istismara verilib.

Bakı–Tbilisi–Qars dəmir yolu da neft-kimya məhsullarının Türkiyəyə, oradan da Avropa və dünya bazarına çıxarılmasında mühüm rol oynayacaq.

Neft emalı və neft-kimya zavodlarında modernləşmə işləri çərçivəsində 2015–2019-cu illər ərzində önəmli layihələr həyata keçiriləcək. Hədəfimiz mövcud istehsalat gücünün artırılması, yeni bir neçə qurğunun tikintisi, hazır məhsul parkının yenidən qurulması və «EP-300» istehsalatının effektliliyinin artırılmasıdır. Bu da imkan verəcək ki, «SOCAR Polimer» layihəsi çərçivəsində Kimya Sənaye Parkında inşa olunan polipropilen və polietilen zavodlarını lazım olan miqdarda yüksəkkeyfiyyətli xammalla təmin edə bilək. Bu zavodlar «Azərikimya» tərəfindən propilen, etilen, hidrogen, buxar və digər xammal ilə təmin olunacaq.

Kimya Sənaye Parkının 30 hektarlıq ərazisində həyata keçirilən «SOCAR Polimer» layihəsi öz növünə və miqyasına görə son dövrdə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk layihədir. Bir məqama toxunum ki, bu qurğuların əvvəlcə «Azərikimya»nın tərkibində tikilməsi nəzərdə tutulmuşdu. Lakin Kimya Sənaye Parkının rezidenti statusu bu qurğuların parkın ərazisində inşa olunmasını daha cəlbedici etdi. Hazırda layihə üzrə

tikinti işləri tam sürətlə gedir. 2018-ci ilin birinci rübündə polipropilen qurğusunun, son rübündə isə polietilen qurğusunun istismara verilməsi üçün bütün qüvvələr səfərbər olunub.

EP zavodunda icra olunan layihələrdən biri də 15 il bundan öncə yapon texnologiyası ilə tikilib istifadəyə verilmiş buxar-generator kompleksinin modernləşdirilməsidir. Bu nadir qurğunun tikintisi də ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu dahi insanın uzaqgörənliyi sayəsində buxar-generator kompleksi nəinki kimya sənayesini tənəzzüldən xilas edib, hətta «Azərikimya»nın bu günü üçün etibarlı enerji təminatının yaradılmasına bir vasitə olub. Bu il isə SOCAR və Almaniyanın EON–UNIPER şirkətləri arasında enerji və buxar istehsalı sahəsində fəaliyyət göstərəcək birgə müəssisə yaradılıb. Yeni buxar turbininin tikintisi nəticəsində enerji istehsalının iki dəfə artırılması nəzərdə tutulur.

Diqqətçəkən layihələrdən biri də istehsalat tullantı sularının təmizlənməsi qurğusunun tikintisidir. Xəzər dənizinə atılan suların maksimal təmizlik həddi təmin ediləcək və təmizlənmiş suyun bir hissəsi suvarma sahəsində istifadə olunacaq. Qurğunun 2017-ci ildə istifadəyə verilməsi planlaşdırılır. Hazırda istehsalatda istismar olunan qurğular ekoloji tələblərə cavab verir, zərərli tullantılar və havaya atılmalar minimuma endirilib.

SOCAR-ın Sumqayıtda icra etdiyi böyük layihələrdən biri də Karbamid zavodudur. Bu zavodun 2018-ci ildə istismara verilməsi nəzərdə tutulur.

Möhtərəm cənab Prezident, biz Sumqayıt kimyaçıları Sizin diqqət və qayğınızı həmişə öz üzərimizdə hiss etmişik. Keçən il Sizin xeyir-duanızla Sumqayıt kimya sənayesinin 70 illik yubileyini təntənəli şəkildə qeyd etdik. Uzun illər kimya sənayesində çalışmış, səmərəli fəaliyyətləri ilə kimya sənayesini şöhrətləndirmiş insanlar Sizin sərəncamlarınızla müxtəlif dövlət mükafatları ilə təltif olundular.

Siz, sözün həqiqi mənasında, bu çətin və şərəfli peşə sahiblərinə əsl bayram sevinci yaşatdınız. İcazə verin, bütün kimyaçılarımızın dərin minnətdarlığını, sevgi və sayğılarını Sizə çatdırım.

Möhtərəm cənab Prezident, Sizin rəhbərliyiniz altında Sumqayıt böyüyür və inkişaf edir, aparılan misli görünməmiş abadlıq və quruculuq işləri bizim gözlərimiz önündə icra olunur. SOCAR da bu inkişafa töhfələrini verməklə, bundan sonra da Sumqayıtda perspektivli layihələr həyata keçirməkdə davam edəcək. Şəhərimiz regionda aparıcı sənaye,ələlxüsus kimya sənayesi mərkəzi olmaqla, ekoloji cəhətdən təmiz və gözəl şəhərlərdən birinə çevriləcək.

Diqqətinizə görə minnətdaram.

**F ə r i d C ə f ə r o v** *(«SOCAR Polimer» MMC-nin direktoru):* Möhtərəm cənab Prezident!

Sumqayıtın keçmiş Sovet İttifaqı məkanında aparıcı sənaye mərkəzlərindən birinə çevrilməsi ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti, müstəqil Azərbaycan Sumqayıtının iri və müasir sənaye mərkəzinə çevrilməsi isə Sizin uzaqgörən siyasətinizlə bağlıdır. Sumqayıt Kimya Sənaye Parkı, Sumqayıt Texnologiyalar Parkı, «SOCAR Polimer», gübrə zavodları və bu kimi digər iri və müasir sənaye obyektlərinin yaradılması şəhərimizi daha müasir sənaye mərkəzinə çevirəcək.

İcazənizlə, «SOCAR Polimer» layihəsinin gedişi, layihə çərçivəsində insan resurslarının inkişaf etdirilməsi, bu təşəbbüsün ümumi məşğulluğa və gözlənilən multiplikativ amilə təsiri haqqında məlumat vermək istəyirəm.

Bu günə qədər «SOCAR Polimer» layihəsinin icrası qrafikə uyğun və təsdiq olunmuş büdcə çərçivəsində həyata keçirilir. Polipropilen zavodunun sınaq işlərinin aparılması gələn ilin noyabrına və istismara verilməsi isə 2018-ci ilin fevralına planlaşdırılır. YSPE zavodunun istismara verilməsi isə 2018-ci ilin avqustuna nəzərdə tutulur. Bu zavodların ümumi istehsal gücü ildə 300 min ton təşkil edəcək.

Layihənin xammalla vaxtında təmin edilməsi çox əhəmiyyətlidir. Hazırda Neft emalı zavodunda və «Azərikimya»da görülən modernləşmə işləri nəticəsində «SOCAR Polimer» xammal ilə təmin ediləcək. Bunun sayəsində ölkədə neft-kimya məhsullarının istehsalı təqribən 3 dəfə artacaq.

Qeyd etmək istəyirəm ki, bu istehsal əsasən ixracyönümlü olacaq və müəssisənin fəaliyyəti nəticəsində ölkəyə ildə təqribən 400 milyon dollar həcmində valyuta axını təmin olunacaq. Layihənin icra statusuna gəldikdə isə bildirmək istərdim ki, nəzərdə tutulan 750 milyon dollar büdcənin bu günə qədər 325 milyon dolları artıq investisiya olunub. Bu məbləğin 197 milyon dolları kredit, 128 milyon dolları isə səhmdar kapitalından maliyyələşdirilib.

Xüsusi olaraq vurğulamaq istərdim ki, bu layihə ölkəmizin dövlət və özəl sektorlarının uğurlu əməkdaşlığı əsasında icra olunur və özəl sektorun investisiyaları ölkənin uzunmüddətli sənaye layihəsinə yatırılır. Layihəyə cəlb olunmuş yerli səhmdarlarla işbirliyi güclü müsbət təsir göstərir.

Layihə çərçivəsində ən yüksək təhlükəsizlik və sağlamlıq standartları tətbiq olunur. Sentyabrın 15-də layihə çərçivəsində istehsalat qəzası baş vermədən 1 milyon adam-saatını qeyd etdik. Bununla yanaşı, şirkətimiz kollektiv üzvlərinin peşəkar potensialının inkişaf etdirilməsinə böyük əhəmiyyət verir.

Bu günə qədər şirkətin işçiləri 3500 saatdan çox müxtəlif beynəlxalq təlimlərdə iştirak ediblər. Gələcək operator və texniklərin 50 faizindən çoxu artıq indidən işə götürülüb və hazırda təlimlərini SOCAR-ın Sumqayıtda və Qobustanda yerləşən təlim mərkəzlərində keçirlər.

Əlavə olaraq, istedadlı gənclərin layihəyə cəlb edilməsinə və onların inkişafına böyük əhəmiyyət veririk. Bu yay «SOCAR Polimer» 13 nəfərlik yay təcrübə proqramını həyata keçirib. Proqram Azərbaycanda və xaricdə təhsil alan tələbələr arasında geniş marağa səbəb olub və nəticədə ayrılmış hər bir yerə 24 namizəd sənəd verib. Təcrübə proqramını keçmiş tələbələrin böyük hissəsinin gələcəkdə işə və gözlənilən layihələrə cəlb olunması nəzərdə tutulur.

Hazırda ümumi olaraq layihədə 1000-dən çox insan çalışır. Gələn ilin ikinci rübündə bu rəqəmin 2500-ə çatması gözlənilir. «SOCAR Polimer» şirkətinin hazırda 198 əməkdaşı var. Layihə istismara verildikdən sonra bu müəssisədə 400 daimi iş yerinin yaradılması gözlənilir.

Layihənin icrası ölkə iqtisadiyyatına güclü multiplikativ təsir göstərəcək, eyni zamanda, polimer qranullarının istehsalı çox sayda kiçik və orta miqyaslı istehsalat müəssisəsinin yaradılmasına imkan verəcək. Bu müəssisələr Sumqayıt Kimya Sənaye Parkında yaradılmış əlverişli investisiya mühitindən və müasir infrastrukturdan istifadə edəcək.

Artıq indidən bizə polimer qranulları əsasında müxtəlif növ plastik məhsulların istehsalçılarından çox sayda müraciətlər gəlir. Bir daha qeyd etmək istərdik ki, bu müəssisələrin açılması böyük həcmdə yeni iş yerlərinin yaradılmasına səbəb olacaq. Belə ki, «SOCAR Polimer»də qranul istehsalı zamanı hər bir nəfərin cəlb olunması plastik istehsal müəssisələrində 25 nəfərin cəlb edilməsinə səbəb olacaq.

Diqqətinizə görə təşəkkür edirəm.

**X ə y a l C ə f ə r o v** *(«SOCAR Karbamid» zavodunun direktoru):* Möhtərəm cənab Prezident!

«SOCAR Karbamid» zavodu layihəsi «Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»nda və «Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015–2020-ci illər üçün Dövlət Proqramı»nda əksini tapıb.

Zavodun rəmzi təməli 2011-ci ildə məhz Sizin tərəfinizdən qoyulub və sonrakı illərdə həmişə bu layihənin gedişi ali diqqətinizdə olub. Layihənin mühəndislik, satınalma və tikinti podratçısı beynəlxalq açıq tenderlərlə seçilib. Tender təkliflərinin qiymətləndirilməsi nəticəsində 2013-cü il martın 13-də açar təhvili şərti ilə Koreya Respublikasının «Samsung Engineering» şirkəti ilə müqavilə imzalanıb. Bundan sonra beynəlxalq nüfuzlu ammonyak və karbamid texnologiya şirkətləri ilə lisenziya müqavilələri bağlanıb, 2013-cü ildə layihə üzrə işlər başlanılıb. Zavodun tikintisinin 2017-ci ilin sonunda yekunlaşması, 2018-ci ilin əvvəlində istismara verilməsi planlaşdırılır.

Zavod ammonyak, karbamid istehsalı və karbamidin qranulyasiyası sahələrindən ibarət olacaq. Azot gübrələrinin istehsalı üçün əsas xammal qismində təbii qazdan istifadə ediləcək. Zavod

gündəlik 1200 ton ammonyak və 2 min ton karbamid istehsal edəcək. Bu layihənin icra edilməsi dövlət iqtisadiyyatının əsas sektorlarından biri olan kənd təsərrüfatına böyük dəstək verəcək. Bununla yanaşı, zavodda istehsal edilən azot gübrələri – illik təxminən 650 min ton – daxili tələbatı tam ödəyəcək və izafi məhsul dəmir yolu vasitəsilə Türkiyəyə, habelə Qara dəniz limanları vasitəsilə dünya bazarlarına ixrac olunacaq.

Qeyd etmək istəyirəm ki, layihənin həyata keçirilməsi prosesində nəzərdə tutulmamış bir sıra əlavə işlərlə qarşılaşmışıq. Layihənin ümumi dəyəri 750 milyon avro təşkil edir. Layihənin maliyyələşdirilməsi ilkin dövrdə dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına həyata keçirilib. Bu məqsədlə dövlət büdcəsindən 205 milyon manat vəsait ayrılıb. Daha sonra maliyyələşdirmə mənbəyinin dəyişdirilməsi ilə bağlı qərar qəbul edilib və beynəlxalq kommersiya bankları ilə danışıqlar aparılaraq, aralıq maliyyələşdirmənin cəlb edilməsinə nail olunub. Layihənin uzunmüddətli maliyyələşdirilməsi məqsədilə hazırda Koreya Respublikasının İxrac-İdxal Bankı və Avropanın tanınmış və nüfuzlu 3 beynəlxalq bankı ilə aparılan danışıqlar artıq tamamlanmaq üzrədir. 500 milyon avro məbləğində maliyyələşdirmənin cəlb olunması layihənin tamamlanmasını təmin edəcək.

Möhtərəm cənab Prezident, bu gün artıq layihənin təxminən 80 faizi icra edilib. Əsaslı layihələndirmə və satınalma işləri tamamlanıb, tikinti işlərinin 45 faizi həyata keçirilib. 2017-ci ilin ikinci yarısından etibarən zavodda mərhələli surətdə buraxılış-sınaq işlərinə başlanılacaq.

Hazırda zavodun tikinti işlərində 2200 nəfər çalışır və tikintinin pik dövründə təxminən 3000 işçi cəlb ediləcək. Zavodun istismarı dövründə isə 400 nəfər daimi iş yeri ilə təmin olunacaq. Elə bu səbəbdən zavodun tikintisi dövründən etibarən gələcək kadrların hazırlığına və xüsusi treninq keçmələri məsələsinə xüsusi önəm veririk. Buraxılış-sazlama və sınaq dövründən başlayaraq, gələcək istismarçıların iştirakının təmin edilməsi çox vacib şərtdir. Bu məqsədlə SOCAR-ın təlim-tədris mərkəzlərində artıq 80 nəfər ixtisaslı və texniki ingilisdilli fəhlə kadr hazırlanaraq, işə

götürülüb. Növbəti mərhələdə bu il təlim keçmiş 70 nəfərin də işə qəbul edilməsi gözlənilir. Zavodda işçilərin aylıq orta əməkhaqqı təxminən 650 manat təşkil edir.

Möhtərəm cənab Prezident, Sizin rəhbərliyinizlə Azərbaycan gündən-günə inkişaf edir, gözəlləşir, iqtisadiyyatımız möhkəmlənir, ordumuz güclənir və xalqımızın həyat şəraiti yaxşılaşır. Biz Sumqayıt şəhərinin də son zamanlar xüsusi zövqlə gözəlləşməsinin və inkişafının canlı şahidləriyik. Sizi əmin etmək istəyirəm ki, «Karbamid zavodu» layihəsi də vaxtında və keyfiyyətlə istismara veriləcək, Sumqayıtımızın və Azərbaycanımızın uğurlarına uğur qatacaq.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sahib Musayev** *(Sumqayıt Texnologiyalar Parkının (STP) istehsalat üzrə icraçı direktoru):* Möhtərəm cənab Prezident!

Hörmətli görüş iştirakçıları!

Cənab Prezident, Sumqayıt Texnologiyalar Parkı 2009-cu il dekabrın 22-də Sizin iştirakınızla açılıb. O vaxt Siz həm də yüksəkgərginlikli kabel qülləsinin təməlini qoydunuz.

Siz STP-yə ikinci dəfə 2011-ci il iyulun 7-də, üçüncü dəfə isə 2012-ci il aprelin 24-də gəldiniz və bizə öz dəyərli tövsiyələrinizi verdiniz. Bu diqqət və qayğıya görə Sizə kollektivimiz adından minnətdarlığımı bildirirəm.

O vaxt STP-nin ərazisi 38,4 hektar, ümumi örtülü istehsal sahələri 170 min kvadratmetr idi. Hazırda ərazi 200 hektaradək genişlənib. Qapalı istehsal sahələri isə 500 min kvadratmetrdən çoxdur. Ərazidə olan zavodların əksəriyyəti genişləndirilib və onların istehsal etdikləri məhsulların çeşidləri çoxaldılıb.

Hazırda STP-nin 1750 nəfər daimi işçisi var. Müvəqqəti əmək müqavilələri ilə isləyənlərin sayı 250–350 nəfər arasında dəyişir. Bütün işçilər sosial qayğı ilə əhatə olunub, onlara isti günorta yeməyi verilir. İşçilərin hamısı xüsusi geyimlə təmin olunub və onları iş yerlərinə STP-nin nəqliyyat vasitələri aparıb-gətirir. Hər bir işçi bədbəxt hadisələrə görə sığortalanıb. STP-də orta aylıq əməkhaqqı 565 manatdır.

Sumqayıt Texnologiyalar Parkı Azərbaycan bazarını daim yeni məhsullarla təmin etməkdə davam edir. Belə ki, Kabel zavodunda regionda yeganə olan kabel istehsal qülləsi işə salınıb. Bu texnoloji qüllədə ifrat – 220–500 kV-a qədər yüksəkgərginlikli plastmas XLPE izolyasiyalı güc kabelləri istehsal olunur. 220 kV-luq kabellərimizdən respublikamızın enerji təminatında geniş istifadə edilir. Kabel zavodunda yeni məhsullar istehsal olunmağa başlanıb. Bunlar nəzarət, idarəetmə, koaksial, telefon, rabitə, şəbəkə LAN, optik və yüksək temperatura davamlı, 2 saat müddətində 1000 dərəcə istiliyə tab gətirən güc kabelləridir, gəmi və neft quyularında istifadə olunur. Neft quyuları üçün nəzərdə tutulan güc kabelləri «Azneft» İstehsalat Birliyinin 37 quyusunda sınaqdan çıxarılıb və müsbət nəticələr alınıb.

Rusiyanın «Navante Services Ltd» şirkətinin 1000 metrə qədər dərinliyi olan neft quyularında da bu kabellərin sınağı uğurla gedir.

STP-nin Ağır Maşınqayırma zavodunda yükgötürmə qabiliyyəti 200 tona qədər olan elektrikli körpülü kranlar istehsal olunmağa başlanıb və bu məhsul istehsalına dair lisenziya yalnız ona məxsusdur. Bu zavodda olan avadanlıqların köməyi ilə əlavə sərmayə qoymadan istənilən texnika, o cümlədən ağır tonnajlı xüsusi təyinatlı texnika, kənd təsərrüfatı maşınları, o cümlədən pambıqçılıqda istifadə olunan maşınlar, suvarma qurğuları istehsal etmək mümkündür.

Elektron cihazlar zavodunda «Smart» tipli elektron elektrik sayğaclarından başqa, ödəniş terminallarının istehsalı təşkil olunub. Sifarişçilər banklar, Dövlət Gömrük Komitəsi, Milli Bank və digər qurumlardır.

Bu yaxınlarda Alüminium və Mis Profilləri zavodu işə salınıb. Həmin zavodda Amerika Birləşmiş Ştatlarının «Vaqstaf» firmasının avadanlığı quraşdırılıb.

Elektrik stansiyaları üçün xaricdən gətirilən ehtiyat hissələrinin bir çoxu artıq STP-də istehsal edilir və müvəffəqiyyətlə istismar olunmaqdadır.

Sumqayıt Texnologiyalar Parkı tikinti sektorunu, kənd təsərrüfatını, yeni açılan texnoparkları elektrik avadanlıqları, kabellər,

sinklənmiş metal konstruksiyalar və başqa məmulatlarla təmin etmək qabiliyyətinə malikdir.

STP bir çox elm və təhsil müəssisələri ilə də əməkdaşlıq edir. Hər il 1000-dən çox tələbə burada təcrübə keçir.

Diqqətinizə görə təşəkkür edirəm.

**N a d i r M ə h ə r r ə m o v** *(«Gilan Tekstil Park» MMC-nin direktor müavini):* Möhtərəm cənab Prezident!

Hörmətli tədbir iştirakçıları!

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurlu icrası nəticəsində ölkəmizin regionlarında və əsas sənaye mərkəzlərindən biri olan Sumqayıtda yüngül sənayenin inkişafı üzrə önəmli tədbirlər planlaşdırılaraq həyata keçirilib. Proqramın icrası toxuculuq və tikiş sənayesinin inkişafına müsbət təsir göstərib, regionlarda çoxsaylı sənaye müəssisələri fəaliyyətə başlayıb, bəzi müəssisələrin fəaliyyəti yenidən qurulub.

Həmin dövlət proqramları çərçivəsində qısa müddət ərzində İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ayrılan güzəştli kredit və «Gilan Holdinq»in investisiyaları hesabına Sumqayıt şəhərində Cənubi Qafqazın ən iri tekstil müəssisələrindən biri «Gilan Tekstil Park» inşa edilib və 2013-cü ilin may ayında cənab Prezidentin iştirakı ilə açılışı mərasimi keçirilib.

20 hektar ərazidə inşa edilən «Gilan Tekstil Park»ı 7 fabrik və 3 istehsal xəttindən ibarətdir:

İplik fabriki (pambıq, pambıq-poliester ipliyin istehsalı, illik istehsal gücü 4 min ton);

Toxuma fabriki (illik istehsal gücü 18 milyon metr xam parça);

Boya fabriki (illik gücü 15 milyon metr parçanın boyanması);

Tikiş fabriki (illik gücü 600 min ədəd geyim dəsti);

Trikotaj fabriki (illik gücü 1200 ton məhsul);

Dəsmal və hamam dəstləri istehsalı fabriki (illik gücü 2 milyon 350 min ədəd);

Jakarlı Toxuma fabriki (illik gücü 800 min metr);

Trikotaj Məhsullarının Boyanması fabriki (illik gücü 3 min ton).

Bunlardan əlavə, parkda tam avtomatlaşdırılmış yataq dəsti istehsal xətti – illik gücü 600 min ədəd, yay və qış yorğanları istehsal xətti – illik gücü 300 min ədəd, yastıq istehsalı xətti – illik gücü 250 min ədəd mövcuddur.

«Gilan Tekstil Park»da yüksəkkeyfiyyətli Azərbaycan pambığından ən müasir standartlara cavab verən tekstil məhsulları istehsal edilir. Parka daxil olan fabriklərin avadanlıqları ən son Avropa texnologiyası əsasında qurulub. Hazırda burada müxtəlif növ parça, yataq və hamam dəstləri, yorğan, yastıq, trikotaj məhsulları, habelə müxtəlif təyinatlı odadavamlı, sukeçirməz xüsusi formalar, hərbi və xəstəxana geyimləri, idman geyimləri, hotellər üçün hamam və yataq dəstləri istehsal edilir. Bu məhsulların istehsalında insan sağlamlığına zərər verəcək heç bir kimyəvi maddədən istifadə olunmur.

«Gilan Tekstil Park»da ümumi sahəsi 6 min kvadratmetr olan, ən son texnoloji avadanlıqlarla təchiz edilmiş Tikiş fabrikində ayda 50 min kişi, qadın və uşaq üst geyimləri, həmçinin NATO standartlarına uyğun hərbi və xüsusi geyimlər istehsal olunur.

Parkda parçatoxuma, boyama və tikiş fabriklərinin kompleks formada yaradılması və ən müasir texnologiyaların tətbiq edilməsi yüksək keyfiyyət və rəqabətqabliyyətli parça və trikotaj məhsullarının istehsalına imkan verir.

«Gilan Tekstil Park» İSO 9001:2008, İSO 14001:2004, OHSAS 18001 standartlarına cavab verir və müəssisənin qeyd olunan Beynəlxalq sertifikatları mövcuddur.

«Gilan Tekstil Park»ın malik olduğu ən müasir dəzgah parkının istehsal gücü ölkədaxili tələbatdan artıq olduğu üçün fabriklərin tam gücü ilə fəaliyyət göstərməsi məqsədilə xarici bazara çıxmaq istiqamətində müxtəlif tədbirlər görülür. Müəssisə beynəlxalq nüfuzunu artırmaq, yeni tərəfdaşlar tapmaq üçün təkcə 2016-cı ildə ölkə xaricində bir neçə beynəlxalq sərgilərdə iştirak edib. Həmin sərgilərdə yeni ixracat müqavilələri imzaladıqdan sonra, şirkətin ixracat potensialı artıb. Artıq bu gün tekstil istehsalçısı olan

Türkiyə kimi ölkədə müəssisənin məhsulları yüksək nüfuza malikdir və onlara ciddi tələbat var. Ev tekstili və parça satışı üzrə MDB ölkələri ilə geniş ticarət münasibətləri mövcuddur. Müəssisənin cari satışının 50 faizini ixrac təşkil edir və bunun artırılması məqsədilə iş aparılır.

Hazırda «Gilan Tekstil Park»da 900 nəfərdən artıq işçi çalışır. Onların əksəriyyəti Sumqayıt şəhəri və ətraf qəsəbələrdə yaşayan sakinlərdir. Park üzrə hazırda orta əməkhaqqı 350 manatdan çoxdur. Şirkət işçilərini əvəzsiz olaraq, keyfiyyətli nahar yeməyi, fərdi mühafizə vasitələri və uniforma ilə təmin edir, onların həyat və sağlamlığının müdafiəsi üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri həyata keçirir.

Xaricdən dəvət olunan təcrübəli mütəxəssislərin iştirakı ilə işçilərin peşə biliklərini artırmaq məqsədilə daxili təlimlər keçirilir. Bundan əlavə, tekstil sahəsində yerli kadrların inkişafı üçün respublikada fəaliyyət göstərən bir neçə ali təhsil müəssisələri ilə davamlı olaraq tərəfdaşlıq edilir. Tələbələrin istehsalatda təcrübə keçməsi onların inkişafında əvəzolunmaz rol oynayır. Yalnız cari il ərzində müəssisələrimizdə 18 tələbə təcrübə proqramı keçib.

«Gilan Tekstil Park» MMC qısamüddətli və uzunmüddətli inkişaf strategiyalarına malikdir. O, Azərbaycanda və beynəlxalq səviyyədə tekstil sahəsində nümunəvi istehsalçı və ixracatçı şirkət kimi tanınır.

Möhtərəm cənab Prezident, respublikamızda yüngül sənaye sahəsinin inkişafına göstərdiyiniz diqqət və qayğınıza görə Sizə «Gilan Tekstil Park»ın kollektivi və Sumqayıtda fəaliyyət göstərən sənaye müəssisələrinin kollektivləri adından dərin təşəkkürümüzü bildiririk.

**N a m i s  Ş i r m ə m m ə d o v** *(Sumqayıt Dövlət Dram Teatrının aktyoru, Əməkdar artist):* Möhtərəm cənab Prezident!

İcazə verin, sumqayıtlılar adından Sizə ulu öndərimiz Heydər Əliyevin dostluq və həmrəylik şəhəri adlandırdığı Sumqayıta «Xoş gəlmisiniz!» – deyim.

Cənab Prezident, son dövrdə şəhərimizdə aparılan abadlıq və quruculuq işləri elə yüksək səviyyədə vüsət alıb ki, bunu sözlə

ifadə edə bilmirəm. Siması tanınmaz dərəcədə dəyişən Sumqayıt parklar, xiyabanlar və yaşıllıqlar şəhərinə çevrilib. Küçələr genişlənib, binalar göz oxşayır, hər yerdə insanın ürəyini açan təmizlik, səliqə-sahman var. Sumqayıtın bugünkü mənzərəsi uşaqdan böyüyədək hamımızın əhval-ruhiyyəsini yüksəldib, sabaha olan inamımızı son dərəcə artırıb. Bütün bunlara görə bilmirəm Sizə necə təşəkkür edim. Bircə onu bilirəm ki, bu inkişafa heyran qalan hər bir sumqayıtlının qəlbindən keçən bir alqış var – sağ olun, cənab Prezident!

Ulu öndərimiz Sumqayıta, onun zəhmətkeş insanlarına daim xüsusi qayğı ilə yanaşır, şəhərimizin inkişafına çox böyük diqqət yetirirdi. Sumqayıtın müasir bir şəhər kimi formalaşması, inkişafı məhz o böyük insanın adı ilə bağlıdır. Ulu öndərimizə qədər şəhərimiz çox sönük idi. O böyük şəxsiyyət Sumqayıtı qurub-yaratdı. Sumqayıt ittifaq səviyyəli böyük bir sənaye şəhərinə çevrildi. Onlarla fabrik, zavod açıldı. Dram Teatrının fəaliyyətə başlaması, park və istirahət mərkəzlərinin tikintisi şəhərin mədəni həyatında xüsusi canlanma yaratdı. İnsanların rifah halı durmadan yaxşılaşdı. Sumqayıt inamla sabaha addımladı.

Sumqayıtın ikinci inkişaf mərhələsi məhz Sizin adınızla bağlıdır. Siz şəhərimizi möhtəşəm zirvəyə çatdırdınız. Siz bizə həmrəylik, dostluq, qardaşlıq şəhəri olan Sumqayıtı qaytardınız.

Bütün bunlara görə Sizə minnətdarıq, cənab Prezident.

Şəhərimizdə ulu öndərin adına layiq möhtəşəm Heydər Əliyev Mərkəzi inşa edilib. Mərkəzdə gənc nəslin elmi təfəkkürünün və bədii zövqünün formalaşması məqsədilə yaradılan dərnəklər, elektron kitabxana, tətbiqi sənət emalatxanası, həmçinin yeni ailə quran gənclər üçün nikah salonu fəaliyyət göstərir. O cümlədən xüsusi istedadlı gənclər üçün yeni üslubda inşa edilmiş şahmat və musiqi məktəbləri fəaliyyətə başlayıb.

Məhz Sizin diqqət və qayğınız nəticəsində insanların sosial rifah halı yüksəlir, həyat tərzi durmadan yaxşılaşır. Yeni müəssisələrin yaradılması, minlərlə iş yerlərinin açılması insanlarda xoş ovqat və sabaha inam yaradır.

Cənab Prezident, sumqayıtlılar həmişə bir şirin arzunun xəyalı ilə yaşayıblar: nə vaxtsa bizim də dəniz sahilində bulvarımız olacaq, müxtəlif istiqamətlərə gəmilər işləyəcək, gözəl bir istirahət mərkəzi qazanacağıq. Bu gün sumqayıtlıların arzusu Sizin göstərdiyiniz diqqət və qayğı nəticəsində çin olub. Dəniz sahili boyunca nəhəng və möhtəşəm bulvar kompleksi salınıb. Bir vaxt bərbad vəziyyətdə olan sahil zonası indi Sumqayıt sakinlərinin ən çox istirahət etdikləri məkandır.

Məşhur bir şeirdə deyildiyi kimi:

Canlanır hər qarış çöl Sumqayıtda,
Xariqələr yaradır el Sumqayıtda.

Cənab Prezident, həqiqətən də bu gün Sumqayıtda həyat qaynayır. Şəhərin hər tərəfində tikinti, quruculuq, abadlıq işləri gedir. Demək olar ki, yeni bir Sumqayıt salınır və bu Sumqayıtın memarı Sizsiniz.

30 ildən artıqdır ki, mən Sumqayıt Dövlət Dram Teatrında aktyor kimi çalışıram. Çalışdığım bu bina 1957-ci ildə inşa edilib. Açıq deyim ki, inşa olunduğu gündən yaxın vaxtlara qədər əsaslı təmir olunmamışdı. Uzun müddət baxımsız qalan binanın dam örtüyü sınıb-dağılmış, döşəmələri tamamilə çürüyüb sıradan çıxmışdı. Heç bir istilik və hava tənzimləmə sistemi olmayan bu binada aktyorlar uçuq damdan tökülən yağış, qar suları altında məşqlər edib, 200-dən çox tamaşa hazırlayıblar. Qısa bir zaman kəsiyində bu binanın müasir standartlara cavab verən nəfis və estetik baxımdan gözəl təmir edilməsi Sumqayıt Dövlət Dram Teatrının kollektivinə, həmçinin şəhər ictimaiyyətinə müqayisəyə gəlməyən ən böyük bir hədiyyədir.

Biz yaxşı başa düşürük ki, bundan sonra teatrımızın yaradıcı kollektivi bədii cəhətdən elə yüksək tamaşalar hazırlamalıdır ki, bu binanın gözəlliyi fonunda solğun görünməsin.

Teatrımızın 150-yə yaxın işçisi var. Hər birinin adından, cənab Prezident, Sizə təşəkkürümüzü, dərin minnətdarlığımızı bildiririk.

Dünən ölkəmizdə mühüm bir hadisə – ümumxalq referendumu keçirildi. Hər bir Azərbaycan vətəndaşı kimi, sumqayıtlılar da

xüsusi fəallıq nümayiş etdirərək, referendumda yekdilliklə iştirak edib, Sizə olan sədaqətini, sevgisini göstərib. Sumqayıtlılar hər zaman Sizin yanınızdadır və Sizi daimi olaraq prezident görmək arzusundadırlar.

Bir daha Sizi bütün Sumqayıt sakinləri və mədəniyyət ictimaiyyəti adından salamlayıram, bizə göstərdiyiniz diqqət və qayğıya, heç vaxt sönməyən məhəbbətinizə görə hər birinin adından dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm. Azərbaycanımızın çiçəklənməsində Sizinlə bərabər çalışan, təhsilimizə, mədəniyyətimizə müstəsna xidmət göstərən hörmətli Mehriban xanıma, ailə üzvlərinizin hər birinə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik arzulayıram.

## Azərbaycan prezidenti İlham Əliyevin yekun çıxışı

Xoş sözlərə görə çox sağ olun. Bu gün Sumqayıtın həyatında çox əlamətdar bir gündür. Bir daha demək istəyirəm ki, belə möhtəşəm Heydər Əliyev Mərkəzinin istifadəyə verilməsi çox gözəl tarixi hadisədir. Sumqayıtın zəngin mədəni həyatı var. Dövlət Dram Teatrı binasının əsaslı təmirdən sonra açılışı da Sumqayıtın mədəni həyatına yeni bir töhfədir. Hamımız yaxşı bilirik ki, Sumqayıt kimyaçılar, gənclər şəhəri kimi salınmışdır. Ona görə gənclər şəhəri ki, Sumqayıtın qurulmasında daha çox gənclər iştirak edirdi. Bu gün Sumqayıt eyni zamanda, ziyalılar, fəhlələr, mütəxəssislər şəhəridir, müasir sənaye mərkəzidir.

Bir daha qeyd etmək istəyirəm ki, bu gün gördüyüm Sumqayıt bulvarı məndə ən xoş təəssüratlar yaratdı. Çünki bir daha gördüm ki, qarşıya qoyulan vəzifələr düzgün icra edildikdə doğrudan da möcüzələr yaratmaq mümkündür. Sumqayıt bulvarı əvvəlki Bakı bulvarından məsafə baxımından daha uzundur. Çünki ənənəvi Bakı bulvarının uzunluğu 3,5 kilometr idi. Sonra biz onu böyütdük, uzatdıq, indi 16 kilometrə çatır. Ancaq o 3,5 kilometri çar Rusiyası vaxtında bir neçə il ərzində yaradıblar. Siz isə Sumqayıt bulvarını cəmi 1 il, ondan da az vaxtda yaratmısınız.

Bu bir daha onu göstərir ki, bugünkü Azərbaycan güclü dövlətdir. Baxmayaraq ki, indi dünyada müəyyən iqtisadi çətinliklər var və o bizdən də yan keçməyib, biz sosial layihələrə, insanların rahatlığına ayrılan vəsaiti təmin edirik. Bütün sosial layihələr 2017-ci ildə də icra ediləcək, ölkəmizdə yeni xəstəxanalar, məktəblər, ictimai yerlər yaradılacaq.

Bu gün burada səslənən məruzələrdə Sumqayıtda görülmüş və görüləcək işlər haqqında məlumat verildi. Bu gün burada çıxış edənlər Sumqayıtın sənaye potensialının əsas seqmentlərini təmsil edirlər. Ancaq Sumqayıtın sənayesi, əlbəttə ki, daha da böyükdür. Burada onlarla, yüzlərlə müəssisə fəaliyyət göstərir. Bugünkü məruzələrdə həm görülmüş, həm də görüləcək işlər sizin diqqətinizə çatdırıldı. Həm Sumqayıt, həm də ölkə üçün əsas iki böyük sənaye layihəsi 2018-ci ildə işə düşəcək. Bunlar «SOCAR Polimer» və «SOCAR Karbamid» zavodlarıdır. Burada da qeyd edildi, bu müəssisələrin işə düşməsi nəticəsində minlərlə iş yeri yaradılacaq, eyni zamanda, bizim ixrac potensialımız artacaq. Çünki biz «SOCAR Polimer» zavodunda istehsal olunacaq məhsulun bir hissəsini ixrac edəcəyik, bir hissəsini isə daxili bazara çıxaracağıq ki, kiçik və orta sahibkarlar o xam məhsuldan istifadə edib öz müəssisələrini qursunlar. Plastik məmulatlar istehsal olunacaq, idxaldan asılılıq azalacaq və biz daxili tələbatı təmin edəcəyik.

Bu gün burada məruzə edilmiş məsələlər Sumqayıtın böyük potensialını göstərir. Növbəti illərdə Sumqayıtda bu potensial artacaq, həm sənayedə, həm xidmət sektorunda, ictimai işlər sahəsində minlərlə yeni iş yeri yaradılacaq. Böyük istirahət zonaları yaradılır. O zonalarda da xidmət göstəriləcək. Beləliklə, Sumqayıtda işsizlik həmişə çox aşağı səviyyədə olmalıdır.

Əminəm ki, növbəti illərdə yeni layihələr icra ediləcək. Həm dövlət şirkətləri, eyni zamanda, özəl sektor da buna böyük maraq göstərir. Biz «SOCAR Polimer» zavodunun timsalında dövlət–özəl sektor tərəfdaşlığını da görürük. Bu da ölkəmiz üçün bir yenilikdir. Bu çox mütərəqqi bir yanaşmadır, həm özəl sektor, həm də dövlət öz sərmayəsini qoyur və yeni gözəl müəssisələr yaradılır.

Sumqayıt şəhərinin gələcək inkişafı ilə bağlı təkliflər var. Burada istifadə olunmayan, köhnədən qalmış sənaye sahələri var. Əgər onların istifadəsi nəzərdə tutulmayacaqsa, biz onları da şəhər fonduna əlavə etməliyik ki, orada ictimai yerlər salınsın, yeni yaşayış zonaları yaradılsın. Bir sözlə, sahibkarlığın, sənayenin, xidmət sektorunun inkişafı Sumqayıtda çox uğurla gedir və əminəm ki, bundan sonra da uğurla gedəcək.

Bugünkü Sumqayıt müasir şəhərdir, Azərbaycanın gözəl guşələrindən biridir. Mən çox şadam ki, sumqayıtlılar da bu işlərdə çox fəal iştirak edirlər. Sumqayıtlılar öz şəhərinə çox bağlıdırlar. Bu gün Sumqayıtla fəxr etmək üçün bütün əsaslar var. Təsadüfi deyil ki, referendumdan bir gün sonra mənim ilk səfərim də məhz Sumqayıtadır. Mən sumqayıtlıları, onların fədakarlığını, dövlətə, dövlətçiliyimizə, müstəqilliyimizə bağlılıqlarını, ümumi işimizə verdikləri töhfələri yüksək qiymətləndirirəm. Əminəm ki, bizim görüşlərimiz bundan sonra çox olacaq. Çünki Sumqayıtda bundan sonra da açılışlar olacaq. Sizə uğurlar və cansağlığı arzulayıram. Qoy həmişə Sumqayıt belə gözəl, abad şəhər olsun. Sağ olun.

## TÜRKİYƏ RESPUBLİKASININ MÜDAFİƏ, MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLƏRİNİN BAŞÇILIQ ETDİKLƏRİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Türkiyə Respublikasının Müdafiə naziri Fikri İşıqın, Mədəniyyət və Turizm naziri Nəbi Avcının başçılıq etdikləri nümayəndə heyətini qəbul etmişdir.*

*Müdafiə naziri Fikri İşıq, Mədəniyyət və Turizm naziri Nəbi Avcı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdılar.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında müdafiə, hərbi və hərbi-texniki əməkdaşlıq sahəsində əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, «ADEX–2016» II Azərbaycan Beynəlxalq müdafiə sərgisinin əhəmiyyətindən danışıldı.*

*Söhbət zamanı, ölkələrimiz arasında mədəniyyət və turizm sahəsində əlaqələrin uğurla inkişaf etdiyi bildirildi, əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı. Son vaxtlar turizm sahəsində görülən tədbirlər nəticəsində ölkəmizdə turistlərin sayının artdığı qeyd edildi, Türkiyənin bu sahədə zəngin təcrübəyə malik olmasının əhəmiyyəti diqqətə çatdırıldı. Dünya Turizm Günündə Türkiyənin Mədəniyyət və Turizm naziri Nəbi Avcının ölkəmizə səfərinin önəmi vurğulandı.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da möhkəmləndiriləcəyinə əminlik ifadə olundu.*

*Dövlətimizin başçısı prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.*

## «ADEX–2016» II AZƏRBAYCAN BEYNƏLXALQ MÜDAFİƏ SƏRGİSİ İLƏ TANIŞLIQ

*Bakı Ekspo Mərkəzi*

*27 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev sentyabrın 27-də Bakı Ekspo Mərkəzində «ADEX–2016» II Azərbaycan Beynəlxalq müdafiə sərgisi ilə tanış olmuşdur.*

*Müdafiə Sənayesi naziri Yavər Camalov və Müdafiə naziri Zakir Həsənov prezident İlham Əliyevə məlumat verdilər ki, bu il sərgidə dünyanın 34 ölkəsini təmsil edən 216 şirkət, 19 ölkədən 25 rəsmi nümayəndə heyəti iştirak edir. İştirakçıların coğrafiyası Latviya, Monteneqro, Xorvatiya, Çex Respublikası və Estoniya kimi ölkələrin hesabına genişlənib. Ümumilikdə, ziyarətçi şirkət və qurumlarla birlikdə sərginin coğrafiyası 44 ölkəni əhatə edir.*

*Dövlətimizin başçısı Azərbaycan pavilyonunda nümayiş etdirilən hərbi məmulatlara baxdı. Bu sərgidə milli müdafiə sənayesinin məmulatlarının nümayiş etdirilməsi bir daha təsdiqləyir ki, Müdafiə Sənayesi Nazirliyinin tabeliyinə verilən müəssisələrdə qısa müddətdə yenidənqurma işlərinin aparılması, son illərdə həmin müəssisələrin maşın və avadanlıq parkının yenilənməsi məqsədilə dünyanın inkişaf etmiş ölkələrindən ən son texnoloji avadanlıqların alınıb quraşdırılması artıq öz bəhrəsini verir. Görülən işlərin nəticəsidir ki, Müdafiə Sənayesi Nazirliyi aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın inkişaf etmiş ölkələri ilə əməkdaşlıq edir. 2009-cu ildən başlayaraq nazirliyin müəssisələrində istehsal olunan məhsullar xaricdə keçirilən beynəlxalq müdafiə sərgilərində də nümayiş olunur. Bu sərgilərdə Azərbaycan istehsalı olan məhsullar böyük maraqla qarşılanır.*

*İkinci dəfə keçirilən sərgidə Türkiyə Respublikası 42 şirkətlə təmsil olunur. Türkiyənin 28 illik təcrübəyə malik olan «Roketsan» şirkəti budəfəki sərgiyə öz məhsullarının geniş çeşidi ilə qatılıb. Şirkət həm yerli, həm də xarici istifadəçilərə özünü təcrübədə doğrultmuş etibarlı həll variantları təklif edir. «Aselsan» şirkəti sifarişçilərinə hərbi rabitə vasitələri, radiolokasiya stansiyaları, radioelektron mübarizə avadanlığı, elektron və optik cihazlar, çoxfunksiyalı məlumat idarəetmə sistemi, yerüstü, hava, dəniz və kosmik tətbiqlər üçün yüksək texnologiyalı sistem variantlarını təqdim edir.*

*Ukrayna II Azərbaycan Beynəlxalq müdafiə sərgisində 7 şirkətlə təmsil olunur. Bu şirkətlər hərbi sənaye kompleksinin müxtəlif məhsullarını qonaqlara təqdim edir.*

*Serbiya da sərginin maraqla qarşılanan iştirakçıları arasındadır. Bu ölkədən olan «Yugoimport» şirkəti sistem inteqratoru kimi kompleks döyüş sistemlərinin işlənib hazırlanması və istehsalı üzrə ixtisaslaşıb.*

*Azərbaycanda və Kanadada nümayəndəlikləri olan «Azcan» şirkəti beynəlxalq müştərilər şəbəkəsi üçün təhlükəsizliyin təmin olunması ilə bağlı imkanlar təklif edir. Şirkətin məhsulları mülki, xüsusi və hərbi təyinatlı avtomobillərdən, eləcə də güllə keçirməyən jiletlərdən, mühafizə vasitələri və hərbi təyinatlı mobil elektron sistemlərdən ibarətdir.*

*Prezident İlham Əliyev Pakistan İslam Respublikasının pavilyonunda da oldu. Bildirildi ki, ölkəmizlə hərbi əməkdaşlığa malik Pakistan da bu sərgidə hərbi sənaye məhsullarının geniş çeşidi ilə iştirak edir. Bu ölkədə istehsal olunan hərbi məhsullar hərbi sənaye kompleksinin bütün istiqamətlərini əhatə edir.*

*Hərbi sənayesi ilə diqqət çəkən Belarus Respublikası da II Azərbaycan Beynəlxalq müdafiə sərgisinin fəal iştirakçıları arasındadır. Sərgiyə 11 şirkətlə qatılan Belarus müxtəlif hərbi məhsullarla yanaşı, ağır hərbi texnika da nümayiş etdirir.*

*Müasir silah və texnikanın, habelə milli müdafiə sahəsində Azərbaycanın gücünün və qüdrətinin böyük nümayişinə çevrilən sərgidə son illərdə ölkəmizdə istehsal olunan yüngül və ağır hərbi texnikalar nümayişə çıxarılıb. Atıcı silahlarla təchiz olunan univer-*

*sal «Gürzə» avtomobili, müxtəlif çaplı atıcı silahlar, raket başlıqları, «Tufan» və «İldırım» ağır hərbi texnikası sərginin maraq doğuran məhsulları sırasındadır.*

*Azərbaycan Tarix Muzeyinin ekspozisiyasında isə tariximizin hərbi keçmişi dolğun şəkildə əksini tapıb. Burada Azərbaycan hərb tarixinin müxtəlif mərhələlərini əks etdirən silah növləri nümayiş etdirilir.*

*Dünyada hərbi sənaye kompleksinin inkişafı ilə diqqət çəkən ölkələrdən biri olan İsrail Bakıda keçirilən sərgiyə 13 şirkətlə qatılıb. Bu şirkətlər hava gəmiləri, zirehli texnika, donanma platformaları, havada və kosmosda ən son texnikanın, kiber texnologiyaların tətbiqi ilə yanaşı, müasir müdafiə sistemlərinin işlənib hazırlanması və istehsalını, o cümlədən hərbi donanma və kosmik sistemlər üçün innovativ həll variantlarını təklif edirlər.*

*II Azərbaycan Beynəlxalq müdafiə sərgisinə 12 şirkətlə qatılan Çex Respublikası təqdim etdiyi məhsullar baxımından maraqla qarşılanır.*

*Sərgidə iştirak edən Türkiyənin «Gülhan Dearsan» şirkəti hərbi donanma gəmilərinin layihələndirilməsi və tikintisi, o cümlədən hərbi silah sistemləri və kompleks ticarət gəmilərinin inteqrasiyası sahəsində ixtisaslaşıb.*

*Rusiya Federasiyası sərgidə maraq doğuran ölkələr sırasındadır. Dünyada nüfuzlu hərbi sənaye kompleksinə malik olan Rusiyanı sərgidə 23 şirkət təmsil edir. Bu ölkənin «Rosoboronexport» şirkəti qlobal silah bazarının liderlərindən biridir və Rusiyanın illik silah satışının 85 faizdən çoxunu əhatə edir.*

*Hərbi dəniz donanması sahəsində 135 illik təcrübəyə malik olan «Damen» şirkəti istehsal etdiyi keşikçi katerlər, patrul və döyüş gəmiləri, dəniz desantına dəstək, köməkçi dəniz və bir çox sahilyanı gəmiləri sərgi ziyarətçilərinə təqdim edir.*

*Fransa Respublikasını təmsil edən «DCNS Group» dəniz mühafizəsi üzrə dünya lideri olmaqla, enerji sektorunda innovatordur. Şirkət əsasən havadan müdafiə dəsti də daxil olmaqla, bir çox özünümüdafiə sistemləri ilə bağlı məhsulları nümayiş etdirir.*

*Çinin «CETS İnternational» şirkəti elektron informasiya sahəsi üçün innovativ və xüsusi həll variantları ilə sərgi ziyarətçilərinin qarşısına çıxıb.*

*Sonra prezident İlham Əliyev Bakı Ekspo Mərkəzinin qarşısında açıq havada nümayiş etdirilən hərbi məhsullara baxdı. Azərbaycan hərbi sənaye kompleksinin məhsulları burada da qonaqlara təqdim olunur. Bildirildi ki, «Matador» və «Marauder» tipli zirehli hərbi texnikalar, o cümlədən tank əleyhinə raket kompleksi sərgidə yenə də böyük maraqla qarşılanır. Bundan əlavə, Rusiya və Belarus istehsalı olan ağır hərbi texnikalar sərginin əhəmiyyətini daha da artırır.*

*Qeyd edək ki, bu il müdafiə və xüsusi təyinatlı məhsulları, hərbi nəqliyyat vasitələri və texnikanı, eləcə də silah və sursatları təqdim edən yerli eksponentlərin sayı artıb. Müdafiə Sənayesi Nazirliyi, eləcə də nazirliyin nəzdindəki struktur və zavodlar, o cümlədən Müdafiə Nazirliyi və ANAMA agentliyi sərgidə fəal iştirak edir. Ümumilikdə, sərgidə quru qoşunları və hərbi hava qüvvələrinin texnika və silahları, hərbi aviasiya silahları, Hava Hücumundan Müdafiə sistem və vasitələri, xüsusi təyinatlı əmlak və vasitələr, informasiya texnologiyaları, kosmik texnologiyalar, ordunun inzibati və texniki təchizatı ilə bağlı yeniliklər nümayiş etdirilir. Bu sərgi layihəsinin fərqləndirici xüsusiyyəti müasir qoruma və müdafiə vasitələri, təhlükəsizlik texnikası, sənaye, nəqliyyat təhlükəsizliyi sistemləri, informasiya və rabitə mühafizəsi, yanğın təhlükəsizliyi vasitələri, eləcə də xilasetmə vasitələrinin geniş çeşidinin vahid konsepsiya çərçivəsində irimiqyaslı nümayişidir.*

*Beləliklə, «ADEX–2016» II Azərbaycan Beynəlxalq müdafiə sərgisi dünyanın silah bazarında ixrac üçün təklif olunan hərbi sənaye kompleksinin müxtəlif sahələri üzrə müasir müdafiə texnologiyaları, hərbi texnikanın ən son nümunələri ilə tanış olmaq imkanı yaradır. Bu sərgi ən son silah nümunələrinin nümayiş olunması və beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində yeni müqavilələrin imzalanması üçün də əla platformaya çevrilib.*

# MDB-nin ÜZVÜ OLAN DÖVLƏTLƏRİN TƏHLÜKƏSİZLİK VƏ XÜSUSİ XİDMƏT ORQANLARI RƏHBƏRLƏRİ ŞURASININ BAKIDA KEÇİRİLƏN İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*27 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də MDB-nin üzvü olan dövlətlərin Təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının Bakıda keçirilən iclasının iştirakçılarını qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Sabah Bakıda Təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının iclası işə başlayır. Mən qonaqlarımızı – dost dövlətlərin təhlükəsizlik orqanlarının rəhbərlərini salamlayıram, sizə yaxşı və səmərəli iş arzu edirəm. Əminəm ki, sabahkı iclas ölkələrimizin təhlükəsizlik orqanları arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi işinə xidmət edəcəkdir.

Mənə məlumdur ki, sizin gündəliyiniz yetərincə genişdir, olduqca çoxsaylı məsələlər müzakirə olunacaq. Təbii ki, bütün bu məsələlər əməkdaşlıq, qarşılıqlı anlaşma və dəstək ruhunda müzakirə olunacaq. Biz Şuranın fəaliyyətinə böyük əhəmiyyət veririk, hesab edirik ki, o çox səmərəli, gərəklidir, üzv ölkələr arasında əməkdaşlığın, habelə ölkələrimizdə təhlükəsizlik sisteminin möhkəmlənməsinə kömək edir. Azərbaycan Şuranın üzvləri ilə həm ikitərəfli, həm də çoxtərəfli formatda fəal əməkdaşlıq edir. Biz öz regionumuzda və keçmiş SSRİ məkanında təhlükəsizliyin möhkəmləndirilməsi işinə öz töhfəmizi verməyə çalışırıq.

Bu gün dünyada mövcud vəziyyət hamımıza yaxşı məlumdur. Təəssüf ki, təhlükələr get-gedə artır. Mövcud ənənəvi təhdidlərlə yanaşı, yeni gərginlik ocaqları, münaqişələr, praktiki olaraq, bütün qitələri əhatə etmiş terror xarakterli təhdidlər yaranır. Mən yüksək beynəlxalq tribunalardan da dəfələrlə demişəm və həyat da bunu

təsdiq edir ki, – bu cür düşünən təkcə mən deyiləm – heç bir ölkənin təhlükəsizliyini təkbaşına təmin etmək mümkün deyil. Əməkdaşlıq, qarşılıqlı fəaliyyət olmadan, terrorizmə, radikalizmə, ekstremizmə qarşı mübarizədə səyləri birləşdirmədən təhlükəsizliyi təmin etmək çox çətindir. Həmçinin düşünürəm ki, artıq indi dünyada bu cür tezisləri dəstəkləyənlər getdikcə çoxalır ki, terrorçuların yaxşısı olmur, terrorçuları sənin ölkənə qarşı və ya sənin rəqibin, yaxud düşmənin olan ölkəyə qarşı çıxış edənlərə bölmək olmaz. Terrorizmə qarşı mübarizə qlobal xarakter daşımalıdır. Bu gün təəssüf ki, həm bizim regionda, həm MDB məkanında, həm dünyada, həm Avropada müşahidə etdiyimiz hadisələr belə bir tezisi təsdiq edir ki, təhdidlərin qarşısını almaq üçün bütün ölkələrin xüsusi xidmətləri arasında səylərin birləşdirilməsi, informasiya mübadiləsi, səmimi əməkdaşlıq zəruridir.

Sizin başçılıq etdiyiniz orqanların fəaliyyəti spesifikdir. O, cəmiyyətin üzvlərinin böyük əksəriyyətinin gözünə görünmür. Sizin fəaliyyətinizi mövcud şəraitdə qiymətləndirmək lazımdır. Əgər hər yerdə sakitlikdirsə, təhlükə yoxdursa, deməli, təhlükəsizlik orqanları yaxşı işləyir. Sizin peşə uğurlarınız çox vaxt ictimai diqqətdən kənarda qalır. Çünki sizin fəaliyyətiniz spesifikdir. Son illərdə ölkələrimizin təhlükəsizlik orqanlarının qazandığı uğurlar bəzən məlum olmur. Lakin vətəndaşlar bir şeyi bilirlər ki, təhlükəsizlik orqanları öz işini hər gün yerinə yetirir, istirahət günləri olmadan qanunun və təhlükəsizliyin keşiyində dayanırlar. Buna görə də, əlbəttə ki, bir daha demək istəyirəm, artıq böyük tarixə malik olan Şura – sabah Şuranın 41-ci iclası olacaq, siz dəfələrlə görüşmüsünüz – özünün səmərəliliyini artıq sübut edib. Xüsusən indiki şəraitdə, səylərin daha artıq birləşdirilməsi, fəaliyyətin əlaqələndirilməsi və əlbəttə, vaxtında informasiya mübadiləsinin zəruri olduğu şəraitdə bu çox vacibdir. Potensial təhdidlər barədə informasiya mübadiləsinə gəldikdə isə burada söhbət nəinki günlərdən, hətta saatlardan gedir.

Buna görə də biz çalışırıq və bundan sonra da çalışacağıq ki, tərəfdaş ölkələrlə qarşılıqlı fəaliyyəti gücləndirək. Biz hamımız mü-

rəkkəb regionda yaşayırıq, dünya dəyişir, təhlükələr artır. Terrorçu təşkilatlar olduqca təhlükəli silah növlərinə, texnologiyalara yol tapırlar və bütün bunlar, əlbəttə ki, böyük təhlükə doğurur. Yaxın Şərqdə praktiki olaraq, nəzarətdən çıxmış hadisələr, Avropa paytaxtlarında, Yer kürəsinin digər regionlarında terror hücumları, gərginliyin artması – bütün bunlar günümüzün reallıqlarıdır. Biz real aləmdə yaşayırıq və təhlükələrə adekvat reaksiya verməli, onları qabaqlamalıyıq. Buna görə də hər bir ölkə, əlbəttə ki, xüsusi xidmətlərin fəaliyyətindən ötrü zəruri şərait yaratmaq üçün öz potensialından maksimum istifadə etməyə çalışır. Biz Azərbaycanda bu sahəyə çox böyük diqqət yetiririk. Bizim xüsusi xidmətlərimiz müasir texnika ilə, avadanlıqlarla təchiz olunub, onların peşəkarlığı və səmərəliliyi artır. Əlbəttə, öz tərəfimizdən biz həmişə tərəfdaş ölkələrlə sıx əlaqədə işləyəcəyik. Bu ölkələrlə bizi vahid dövlətin tərkibində birgə yaşadığımız uzun tarixi dövr birləşdirir və son 25 ildə artıq müstəqil ölkələr kimi, öz münasibətlərimizi tarixi dostluq və qarşılıqlı dəstək ənənələri əsasında qururuq. Buna görə bir daha demək istəyirəm, biz sabahkı iclasa xüsusi əhəmiyyət veririk. Mən şadam ki, həmin iclas bizim ölkəmizdə keçiriləcək. Azərbaycan müstəqillik illərində, son illərdə istənilən təhdidlərə davam gətirmək qabiliyyətini dəfələrlə sübut edib.

Toxunmaq istədiyim daha bir mühüm mövzu barədə mən bu yaxınlarda MDB dövlət başçıları Şurasının Bişkekdə keçirilmiş Sammitində də danışmışam. Mən çıxışımda terrorizmə qarşı mübarizədə səylərin birləşdirilməsi məsələsinə də toxunmuşdum və bildirmişdim ki, MDB ölkələrini birləşdirən təkcə ümumi tarix deyil, həm də əməkdaşlığı möhkəmlətmək zərurətini hamının başa düşməsidir. Mənim fikrimcə, bu gün MDB ölkələri müxtəlif tarixə, mədəniyyətə, ənənələrə, dinlərə mənsub olan xalqların qarşılıqlı fəaliyyətinə dair çox mühüm təcrübəni bölüşə bilər. Bu bizim böyük sərvətimizdir. Əvvəlki illərdə biz belə məsələləri bəlkə də bu dərəcədə qəbul etmirdik. Bizə elə gəlirdi ki, bu elə belə də olmalıdır. Lakin heç də hər yerdə belə deyil. Təəssüf ki, son vaxtlar konfessiyalararası, etnoslararası zəmində gərginlik artır,

qarşıdurmalar çoxalır. Bu, bütün dünya və bizim ölkələr üçün böyük təhlükədir. Ölkələrimizin hamısı çoxmillətli və çoxkonfessiyalı ölkələrdir. Bizim ölkələrin hamısında sülh və bizim ərazidə yaşayan bütün xalqlar arasında qarşılıqlı anlaşma var. Hesab edirəm ki, bu, xalqlarımızın və əlbəttə, bu istiqamətdə düzgün siyasət yürüdən rəhbərliyin çox böyük xidmətidir. Biz öz nümunəmizlə həm siyasi sahədə, həm də iqtisadi, sosial, mədəni sahələrdə, təhlükəsizlik sahəsində əməkdaşlıq nümayiş etdiririk. Biz göstəririk ki, bəzi dairələrin buna necə yanaşmalarından asılı olmayaraq multikulturalizm prinsipləri yaşayır və qalib gəlir.

Deməliyəm ki, bu il Azərbaycanda «Multikulturalizm ili» elan edilib. Biz BMT Sivilizasiyalar Alyansının Qlobal Forumunu keçirmişik, 2 gündən sonra V Beynəlxalq Bakı Humanitar Forumu keçiriləcək. Əvvəlki illərdə biz dinlərarası dialoqla bağlı çoxlu tədbirlər keçirmişik və bu gün bizim topladığımız təcrübə çox ölkələr üçün böyük maraq doğurur. Eyni sözləri sizin təmsil etdiyiniz ölkələr barədə də deyə bilərəm. Təbii ki, mən bizim regionda, postsovet məkanında və bütövlükdə dünyada baş verən hadisələri izləyirəm və müsbət dinamika müşahidə edirəm.

Beləliklə, bütün bu məsələlər qarşılıqlı əlaqəlidir. Təhsilin səviyyəsi ilə bağlı məsələlər təhlükəsizliklə birbaşa bağlıdır. Çünki beyinlərin «yuyulması», radikal ideologiya o yerdə özünə zəmin tapır ki, orada təhsilə lazımınca əhəmiyyət verilmir. Bizə sovet keçmişindən miras qalmış üstünlüklərdən biri məhz təhsil və savaddır. Bizim ölkələrimizdə savadlılıq mütləq həddədir. Biz bu nailiyyəti qoruyub saxlayırıq və saxlamalıyıq. Ölkələrimizin vətəndaşları arasında, xüsusən gənclər arasında müxtəlif səviyyələrdə mövcud olan əlaqələr də təhlükəsizliyin möhkəmləndirilməsi işində mühüm amildir. Ona görə ki, gənclər bir-birini tanıyacaq, bir-birinə qonaq gedəcək, ünsiyyət saxlayacaq, dostluq edəcəklər. Əlbəttə ki, bir-birini dost və tərəfdaş kimi qəbul edəcəklər. Odur ki, təhlükəsizlik orqanlarının fəaliyyəti dövlətin siyasətindən ayrı mümkün deyil. Biz Azərbaycanda məhz əməkdaşlığın, qarşılıqlı anlaşmanın möhkəmlənməsinə, qarşılıqlı həmrəyliyə, çoxkonfessiyalı dünyaya yönəlmiş ardıcıl siyasət yürüdürük və çoxmillətli

dövlət olaraq, öz ölkəmizin bütün vətəndaşları ilə fəxr edirik. Düşünürəm ki, bu, təhlükəsizliyin möhkəmləndirilməsi, iqtisadi, sosial məsələlərin həlli və ölkənin inkişafı baxımından Azərbaycanın uğurlu inkişafının başlıca təməlidir.

Buna görə də sabah sizi böyük iş gözləyir. Bununla bağlı bəzi mülahizələrimi sizə çatdırmaq, sizə uğurlar arzulamaq və təşəkkür etmək istəyirdim. Siz mühüm məsələlərin müzakirəsi üçün Bakıya gəlmisiniz. Güman edirəm ki, Azərbaycanın reallıqları ilə bir daha tanış olmaq, sabahkı günü həm işdə keçirmək, həm də yaxşı istirahət etmək imkanınız olacaq. Bir daha xoş gəlmisiniz!

* * *

*İclasın Bakıda keçirilməsinə yaradılan imkana görə prezident İlham Əliyevə minnətdarlığını bildirən MDB-nin üzvü olan dövlətlərin Təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının sədri, Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin direktoru Aleksandr Bortnikov dedi:*

– Biz artıq birinci dəfə deyil ki, bu tədbiri dost Azərbaycanın ərazisində keçiririk. Bizi burada həmişə çox qonaqpərvərliklə, mehribanlıqla qəbul edirlər. Demək istəyirəm ki, hər dəfə Azərbaycana gələndə, sözün yaxşı mənasında, burada baş verənlərə heyrətlənməyə bilmirik. Azərbaycan inkişaf edir, böyüyür. Bu, dostlar, yoldaşlar kimi, həm gözümüzü oxşayır, həm də qəlbimizi sevindirir.

*Aleksandr Bortnikov Azərbaycan Konstitusiyasına dəyişikliklər və əlavələr edilməsi ilə bağlı referendumun uğurla keçirilməsi münasibətilə dövlətimizin başçısını təbrik edərək, ümumxalq səsverməsinin qələbə ilə başa çatdığını qeyd etdi. Şuranın sədri vurğuladı: «Bu həqiqətən, belədir. Həm Sizə, həm də Azərbaycan xalqına uğurlar və firavanlıq arzu etmək istəyirəm. Bu çox vacibdir. Hesab edirəm ki, vətəndaşlar öz iradəsini bu şəkildə ifadə etməklə, ölkə rəhbərliyini dəstəkləyir və gələcəyə yol seçirlər».*

*Aleksandr Bortnikov Birlik ölkələrinin sərhədləri ətrafında yaranmış mürəkkəb vəziyyətə toxunaraq xüsusi qeyd etdi ki, təhlükələr ilk növbədə, terrorizmlə bağlıdır. O bildirdi ki, dünya birli-*

*yinin səylərinə baxmayaraq, vəziyyət dəyişmir və mürəkkəb olaraq qalmaqda davam edir. Şuranın sədri qabaqlayıcı iş aparmağın, informasiya mübadiləsinin, təhdidlərə vaxtında reaksiya verilməsinin zəruriliyini vurğulayaraq bildirdi ki, sabahkı iclasda müzakirə ediləcək əsas problem bizim ölkələrə qarşı kənardan yaranan təhlükələrin qiymətləndirilməsi və onlara qarşı mübarizə tədbirlərinin işlənib hazırlanması olacaq.*

– Siz son zamanlar bu və ya digər şəkildə dünyada özünü qabarıq büruzə verən və bütövlükdə vəziyyətə təsir göstərən konfessiyalararası münasibətlərdən danışdınız. Düşmənlərimiz bundan fəal istifadə edirlər. Buna görə də biz baş verən prosesləri fəal izləməyə diqqət yetirəcəyik, çünki özlüyündə konfessiyalararası münasibətlərin xarakteri son nəticədə cəmiyyətdə vəziyyətin sağlamlaşmasına təsir göstərir.

*Aleksandr Bortnikov radikalizmə, mütəşəkkil cinayətkarlığa, ekstremizmə qarşı mübarizənin də vacibliyini qeyd edərək vurğuladı ki, MDB-yə üzv ölkələrin təhlükəsizlik və xüsusi xidmət orqanlarının əməkdaşlığı təhdidlərə qarşı səmərəli mübarizə aparmağa və konkret hallar hazırlamağa kömək edir.*

– Güman edirəm ki, Təhlükəsizlik orqanları rəhbərləri Şurasında yaranmış və mövcud münasibətlərin xarakteri bizim sələflərimiz tərəfindən əsası qoyulmuş ənənələri dəstəkləməyə kömək edir, toplanmış təcrübəni reallaşdırmağa, xüsusi xidmətlərdən hər birinin malik olduğu bilik və vərdişləri təkmilləşdirməyə çalışmaq imkanı verir.

*Aleksandr Bortnikov vurğuladı ki, MDB ölkələrinin Təhlükəsizlik və xüsusi xidmət orqanları Birlik məkanında sülh və əmin-amanlıq üçün ümumi səylər göstərəcək, bir-birini hərtərəfli dəstəkləyəcəkdir. O, ümidvar olduğunu diqqətə çatdırdı ki, Bakıda keçirilən iclas perspektivdə fəaliyyət istiqamətlərinin müəyyən edilməsi baxımından faydalı və səmərəli olacaq.*

**İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB REUVEN RİVLİNƏ**

Hörmətli cənab Prezident!

İsrail Dövlətinin sabiq prezidenti, görkəmli dövlət xadimi və ictimai-siyasi xadim, Nobel mükafatı laureatı Şimon Peresin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və yaxınlarına, bütün İsrail xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 sentyabr 2016-cı il*

# BOLQARISTAN RESPUBLİKASININ VİTSE-PREZİDENTİ MARQARİTA POPOVA İLƏ GÖRÜŞ

*28 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Bolqarıstanın vitse-prezidenti Marqarita Popovanı qəbul etmişdir.*

*Azərbaycan–Bolqarıstan ikitərəfli əlaqələrinin uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın dostluq münasibətlərinə əsaslandığını bildirdi. Bolqarıstanın vitse-prezidenti Marqarita Popovanın ölkəmizə səfərinin ikitərəfli əlaqələrimizin müzakirəsi üçün yaxşı imkan yaratdığını qeyd edən prezident İlham Əliyev qonağın V Bakı Beynəlxalq Humanitar Forumunun işində iştirakının önəmini vurğuladı. İki ölkə arasında humanitar sahədə də əməkdaşlığın uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı bu yaxınlarda Bolqarıstanın Veliko Tırnovo şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə mühüm bir tədbirin keçirildiyini qeyd edərək, Bolqarıstan hökuməti, Baş naziri və digər rəsmi şəxslər tərəfindən göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev bu tədbirin ölkələrimiz arasında mövcud olan sıx əlaqələrin göstəricisi olduğunu və yaxın tərəfdaşlığı davam etdirmək niyyətini nümayiş etdirdiyini vurğuladı.*

*Bolqarıstanın vitse-prezidenti Marqarita Popova prezident İlham Əliyevin rəhbərliyi və Azərbaycan hökumətinin təşkilatçılığı ilə keçirilən V Bakı Beynəlxalq Humanitar Forumuna dəvətə görə minnətdarlığını ifadə edərək, səfərinin uğurlu keçəcəyinə ümidvar olduğunu bildirdi. Qonaq indiki dövrdə beynəlxalq aləmdə mövcud olan gərginlik fonunda Azərbaycanda belə bir tədbirin keçirilməsinin əhəmiyyətini qeyd etdi. Ölkəmizin artıq bir neçə ildir ki, təşkil etdiyi Ümumdünya Mədəniyyətlərarası Forum, Humanitar Forum kimi beynəlxalq tədbirlərin böyük önəm daşıdığını deyən Bolqarıstanın vitse-prezidenti bu tədbirlərin getdikcə daha çox siyasi əhəmiyyət qazandığını vurğuladı.*

## TACİKİSTAN RESPUBLİKASI ALİ MƏCLİSİNİN NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ ŞUKURCON ZUXUROVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Tacikistan Respublikası Ali Məclisinin Nümayəndələr Palatasının sədri Şukurcon Zuxurovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Tacikistan Respublikası Ali Məclisinin Nümayəndələr Palatasının sədri Şukurcon Zuxurovun böyük nümayəndə heyəti ilə ölkəmizə səfərinin uğurlu olacağına və uzun illər davam edən əlaqələrimizin gələcəkdə də inkişaf edəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev bu yaxınlarda Bişkekdə Tacikistan prezidenti Emoməli Rəhmonla görüşünü və bir sıra məsələlərlə bağlı fikir mübadiləsi apardıqlarını məmnunluqla xatırlatdı. Azərbaycan ilə Tacikistan arasında ikitərəfli əlaqələrin çox yaxşı dostluq və qardaşlıq münasibətlərinə əsaslandığını bildirən dövlətimizin başçısı ölkələrimizin bütün məsələlərdə bir-birinə dəstək verdiklərini vurğuladı. Azərbaycan ilə Tacikistanın uğurla əməkdaşlıq etdiyini deyən prezident İlham Əliyev əlaqələrimizin möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. İkitərəfli münasibətlərimizin müxtəlif istiqamətlərdə, o cümlədən parlamentlərarası əlaqələr sahəsində də inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı qarşılıqlı səfərlərin əhəmiyyətini diqqətə çatdırdı.*

*Tacikistan Respublikası Ali Məclisinin Nümayəndələr Palatasının sədri Şukurcon Zuxurov prezident Emoməli Rəhmonun salamlarını dövlətimizin başçısına çatdırdı. O, ümumi tarixi və mənəvi dəyərlərə əsaslanan Tacikistan–Azərbaycan ikitərəfli əlaqələrinin, əsrlərboyu dostluq və qardaşlıq telləri ilə bir-birinə*

*bağlı olan xalqlarımız arasında münasibətlərin möhkəmləndirilməsi işinə verdiyi töhfəyə görə şəxsən prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Ölkəmizə həm də rəsmi səfərə gəldiyini vurğulayan Şukurcon Zuxurov Azərbaycan Prezidentinin şəxsi təşəbbüsü ilə reallaşan V Bakı Beynəlxalq Humanitar Forumunda iştirakından məmnunluğunu ifadə etdi.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Tacikistan Prezidentinə çatdırmağı xahiş etdi.*

## ABŞ-da SİMON VİZENTAL MƏRKƏZİNİN RƏHBƏRİNİN MÜAVİNİ RAVVİN ABRAHAM KUPER İLƏ GÖRÜŞ

*28 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də ABŞ-da Simon Vizental Mərkəzinin rəhbərinin müavini ravvin Abraham Kuperi qəbul etmişdir.*

*Simon Vizental Mərkəzinin rəhbərinin müavini ravvin Abraham Kuper Azərbaycana bir neçə səfər etdiyini, hər dəfə ölkəmizdə dini dözümlülüyün şahidi olduğunu məmnunluqla qeyd etdi. O bildirdi ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan bu siyasəti prezident İlham Əliyev uğurla davam etdirir. Azərbaycanın dini tolerantlıq baxımından dünyada nümunəvi ölkə olduğunu vurğulayan ravvin Abraham Kuper ölkəmizdə V Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində YUNESKO və Simon Vizental Mərkəzinin birgə sərgisinin təşkilinə verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi.*

*Prezident İlham Əliyev sərginin əhəmiyyətini vurğulayaraq, dünya mediasında əsasən mənfi halların yer aldığı bir zamanda dini tolerantlıq, multikulturalizm kimi müsbət dəyərləri diqqət mərkəzinə gətirməyin vacibliyini qeyd etdi. Dövlətimizin başçısı dünyada müharibə və münaqişələrin, etnik və dini gərginliklərin getdikcə artdığı bir dövrdə ölkəmizin əmin-amanlıq şəraitində uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev 2016-cı ilin Azərbaycanda «Multikulturalizm ili» elan olunduğunu qeyd edərək, bunun dövlət siyasəti olmasının əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev ölkəmizdə mədəniyyətlərarası sülh və dostluğun mövcud olduğunu məmnunluqla qeyd edərək, müxtəlif dinlərin və xalqların nümayəndələrinin əmin-amanlıq şəraitində yaşadığını dedi.*

## ÇİLİ RESPUBLİKASI SENATINDA AZƏRBAYCAN İLƏ DOSTLUQ QRUPUNUN SƏDRİ İVAN BARROS MOREYRA İLƏ GÖRÜŞ

*28 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Çili Respublikası Senatında Azərbaycan ilə dostluq qrupunun sədri İvan Barros Moreyranı qəbul etmişdir.*

*Dövlətimizin başçısı Çili Respublikası Senatında Azərbaycan ilə dostluq qrupunun sədri İvan Barros Moreyranın bu səfərinin uğurlu olacağına və ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi. Azərbaycan ilə Çili arasında əlaqələrin o qədər də fəal olmadığını deyən prezident İlham Əliyev münasibətlərimizin inkişafında qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulayaraq, xalqlarımızın bir-birilərini tanımalarının vacibliyini qeyd etdi. Dövlətimizin başçısı bunun həm də iqtisadi və digər sahələrdə də əməkdaşlığın fəallaşdırılması işinə yaxşı imkan yaradacağını dedi. V Bakı Beynəlxalq Humanitar Forumuna dünyada çox böyük marağın olduğunu deyən prezident İlham Əliyev Çili Respublikası Senatında Azərbaycan ilə dostluq qrupunun sədri İvan Barros Moreyranın Forumda iştirakının önəmini qeyd etdi.*

*Çili Respublikası Senatında Azərbaycan ilə dostluq qrupunun sədri İvan Barros Moreyra ölkəsinin Xarici İşlər nazirinin Azərbaycanın son illərdə beynəlxalq aləmdə nüfuzunun və hörmətinin artdığı, eləcə də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə onlara məlumat verdiyini dedi və Çilinin münaqişənin həllində Azərbaycanın ədalətli mövqeyini dəstəklədiyini vurğuladı. İvan Barros Moreyra ölkəsinin Xarici İşlər naziri ilə, həmçinin Azərbaycanın iqtisadi imkanlarına dair söhbət etdiyini də diqqətə çatdırdı.*

## AFRİKA İTTİFAQININ SİYASİ MƏSƏLƏLƏR ÜZRƏ KOMİSSARI AİŞƏ ABDULLAHİ İLƏ GÖRÜŞ

*28 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Afrika İttifaqının siyasi məsələlər üzrə komissarı Aişə Abdullahini qəbul etmişdir.*

*Azərbaycanın Afrika İttifaqı ilə əməkdaşlığa böyük önəm verdiyini vurğulayan dövlətimizin başçısı ilk dəfədir Afrika İttifaqından olan nümayəndələrin Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etməsini əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirdi. Afrika İttifaqının siyasi məsələlər üzrə komissarı Aişə Abdullahinin Azərbaycana ilk səfərinin əhəmiyyətinə toxunan prezident İlham Əliyev səfərin, həmçinin ölkəmizlə yaxından tanış olmaq üçün yaxşı fürsət yaratdığını vurğuladı.*

*Afrika İttifaqının siyasi məsələlər üzrə komissarı Aişə Abdullahi Azərbaycan ilə əməkdaşlıq əlaqələrinə toxunaraq, təmsil etdiyi qurumun bu əlaqələrə xüsusi önəm verdiyini dedi. Azərbaycana ilk səfərindən məmnunluğunu ifadə edən qonaq Bakının çox gözəl şəhər olduğunu söylədi. Səfərindən öncə ölkəmizin tarixi ilə maraqlandığını deyən Aişə Abdullahi müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın bütün sahələrdə, o cümlədən davamlı inkişaf, düzgün idarəçilik, sülhün təmin olunması kimi məsələlər baxımından müasir və nümunəvi bir ölkəyə çevrildiyini qeyd etdi. Aişə Abdullahi bu sahələrdə də Afrika İttifaqı ilə qarşılıqlı əməkdaşlığın faydalı ola biləcəyini vurğuladı.*

## URUQVAY PARLAMENTİ NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ XERARDO AMARİLYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Uruqvay Respublikası Parlamentinin Nümayəndələr Palatasının sədri Xerardo Amarilyanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı V Bakı Beynəlxalq Humanitar Forumunda Uruqvay Respublikasının yüksək səviyyədə təmsil olunmasının önəmini vurğuladı. Prezident İlham Əliyev Forumda müzakirə ediləcək məsələlərin bütün ölkələr üçün əhəmiyyətli olacağını qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanda millətlər və dinlərarası dialoqun inkişaf etdirilməsi üçün çox böyük işlərin görüldüyünü dedi. Ölkələrimiz arasında ikitərəfli əlaqələrə toxunan prezident İlham Əliyev münasibətlərimizin genişləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı. Azərbaycan ilə Uruqvayın o qədər də yaxın olmayan bölgələrdə yerləşməsinə baxmayaraq, əməkdaşlığımızın inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi. Dövlətimizin başçısı eyni zamanda, səfərin Uruqvay nümayəndə heyətinin ölkəmizlə yaxından tanış olması üçün də yaxşı fürsət yaradacağına əminliyini söylədi.*

*Uruqvay Respublikası Parlamentinin Nümayəndələr Palatasının sədri Xerardo Amarilya Uruqvay prezidenti Tabare Vaskesin salamlarını dövlətimizin başçısına çatdırdı. O, V Bakı Beynəlxalq Humanitar Forumunun yüksək səviyyədə təşkilinin əhəmiyyətini vurğuladı. Xerardo Amarilya ölkəsinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normaları çərçivəsində sülh yolu ilə həllini dəstəklədiyini dedi. Uruqvaylı*

*qonaq ölkəsinin növbəti aylarda BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyyətə başlayacağını da diqqətə çatdırdı.*

*Dövlətimizin başçısı Uruqvay Respublikasının Prezidenti Tabare Vaskesin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Uruqvay Prezidentinə çatdırmağı xahiş etdi.*

## V BAKI BEYNƏLXALQ HUMANİTAR FORUMUN RƏSMİ AÇILIŞI MƏRASİMİ

*Heydər Əliyev Mərkəzi*

*29 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 29-da Heydər Əliyev Mərkəzində V Bakı Beynəlxalq Humanitar Forumun rəsmi açılışı mərasimində iştirak etmişlər.*

*Bakı beşinci dəfə Beynəlxalq Humanitar Foruma ev sahibliyi edir. Bu Forum bəşəriyyətdə maraq doğuran qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədilə hər il tanınmış dövlət xadimlərini, elmin müxtəlif sahələri üzrə Nobel mükafatı laureatlarını və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərini, o cümlədən dünyanın siyasi, elmi və mədəni elitasının görkəmli nümayəndələrini bir araya toplayan mötəbər tədbirdir. Humanitar Forumun gündəliyi bu dəfə də aktual məsələlərdən ibarətdir, mövzuları da son dərəcə maraqlıdır. «Multikulturalizmin müxtəlif modelləri: nəzəriyyədən humanist təcrübəyə doğru», «İnsanların kütləvi yerdəyişməsi şəraitində insan kapitalının qorunmasının önəmi davamlı inkişafın əsası kimi», «Jurnalistikanın informasiya dövrünə transformasiyası və onun sivilizasiyalararası dialoqun təmin edilməsində rolu», «Davamlı inkişaf və ekoloji sivilizasiya», «Molekulyar biologiya, biofizika, biotexnologiya və müasir tibb sahəsində kadr hazırlığı məsələləri: innovativ və etik problemlər» Forumun müzakirə mövzuları olacaq. Bundan əlavə, «Texnologiyaların konvergensiyası və gələcəyə dair proqnozlar: XXI əsrin əsas çağırışları» mövzusu da ekspertlər tərəfindən müzakirəyə cəlb ediləcək.*

*Dövlətimizin başçısı Forumun açılışında nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Bakı Beynəlxalq Humanitar Forumu öz işinə başlayır. Bu Forumda iştirak etmək üçün ölkəmizə gəlmiş bütün qonaqları səmimiyyətlə salamlayıram, Azərbaycana «Xoş gəlmisiniz!» – deyirəm.

Builki Forumda 80-ə yaxın ölkədən 400-dən çox nümayəndə iştirak edir. Bu özlüyündə bir göstəricidir. Forum son illər ərzində beynəlxalq aləmdə böyük hörmət qazanıb. Bu Forumun beynəlxalq mötəbər tədbirlər arasında xüsusi yeri var. Azərbaycan beynəlxalq humanitar əməkdaşlığa həmişə çox böyük diqqət verib. Biz hesab edirik ki, dünyada müsbət meyillər güclənməlidir. Beynəlxalq əməkdaşlıq ölkələrarası əlaqələrin inkişafı üçün xüsusi rol oynayır. Son illər ərzində biz bu məqsədlə ölkəmizdə bir çox beynəlxalq tədbirlər keçirmişik. Onların arasında, əlbəttə ki, Bakı Beynəlxalq Humanitar Forumu xüsusi yer tutur. İki ildən bir ölkəmizdə Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Bir neçə il bundan əvvəl Bakıda Dünya dinləri liderlərinin Zirvə görüşü keçirilmişdir. Bu il isə BMT Sivilizasiyalararası Alyansının VII Qlobal Forumu keçirilib. Bütün bu mötəbər tədbirlər çərçivəsində beynəlxalq humanitar əməkdaşlığa, multikulturalizmə və digər önəmli məsələlərə dair geniş diskussiyalar, müzakirələr aparılıb.

Eyni zamanda, Azərbaycan son illər ərzində mötəbər idman yarışlarına da ev sahibliyi edib. Təkcə bu il Bakıda ilk dəfə olaraq, «Formula-1» yarışı və Ümumdünya Şahmat Olimpiadası keçirilib. Keçən il isə tarixdə ilk dəfə olaraq, Bakıda I Avropa oyunları keçirildi. Bu özlüyündə bir göstəricidir. Çünki ilk Avropa oyunları müsəlman ölkəsində keçirilib və bu, Azərbaycanın dinlərarası, mədəniyyətlərarası dialoqun güclənməsinə töhfəsi kimi qiymətləndirilə bilər. Gələn il isə Bakıda IV İslam Həmrəyliyi oyunları keçiriləcəkdir. Yəni bir şəhərdə cəmi 2 il ərzində həm Avropa oyunları keçirilib, həm də islam oyunları keçiriləcəkdir. Bugünkü Azərbaycan, bax, bu yolla gedir.

Bu beynəlxalq tədbirləri ölkəmizdə keçirməyimizdə bir çox məqsəd var. İlk növbədə, bu, ölkəmizə lazımdır. Çünki Azərbaycan çoxkonfessiyalı, çoxmillətli ölkədir. Azərbaycanda bütün dinlərin, xalqların nümayəndələri bir ailə kimi yaşayır. Bu beynəlxalq, siyasi və humanitar tədbirlər dünyaya da bir siqnal göndərir ki, dünyanın mütərəqqi nümayəndələri səylərini daha da sıx birləşdirməlidir. Çünki bu gün əfsuslar olsun ki, dünyada xoşagəlməz meyillər üstünlük təşkil edir. Qanlı toqquşmalar, müxtəlif bölgələrdə müharibələr gedir, dini, milli zəmində qan tökülür. Beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi müəyyən dərəcədə bu mənfi meyillərin qarşısını ala və müsbət meyilləri gücləndirə bilər.

Azərbaycan Avropa Şurasının və İslam Əməkdaşlıq Təşkilatının üzvüdür, hər iki təşkilatda fəal rol oynayır. Hər iki təşkilat Azərbaycanın təşəbbüsü ilə bizim üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox ədalətli və beynəlxalq hüquqa əsaslanan qətnamələr qəbul edib və bu qətnamələrdə Ermənistan işğalçı dövlət kimi göstərilib. Biz bu iki təşkilatda fəaliyyətimizi uğurla davam etdiririk. Bu iki təşkilatda dünyanın 100-dən çox ölkəsi birləşir. Biz bir neçə il bundan əvvəl fikirləşdik ki, yaxşı olar, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatı arasında bir əlaqə yaradılsın. Bu məqsədlə 2008-ci ildə Avropa Şurasına üzv ölkələrin Mədəniyyət nazirlərinin Bakıda keçirilən toplantısına biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Mədəniyyət nazirlərini dəvət etmişdik və birgə sessiya keçirilmişdi. Bu, dünyada çox böyük əks-səda yaratmışdı. Bizim bu sahədəki fəaliyyətimiz yüksək qiymətə layiq görüldü və bu görüşə, bu təşəbbüsə «Bakı prosesi» adı verildi. 2009-cu ildə isə biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Mədəniyyət nazirlərini qəbul etdik və bu görüşə Avropadan Mədəniyyət nazirlərini də dəvət etdik. Beləliklə, bizim təşəbbüsümüzlə çox önəmli yeni bir proses başlandı. Biz fəxr edirik ki, bu təşəbbüsə «Bakı prosesi» adı verilib.

Biz çalışırıq və çalışacağıq ki, bundan sonra da humanitar sahədə dinlərarası, mədəniyyətlərarası dialoqun güclənməsinə öz töhfəmizi verək. Çünki bizim siyasətimiz bundan ibarətdir, eyni

zamanda, bizim tariximiz multikulturalizm əsasında qurulubdur. Düzdür, multikulturalizm bir anlayış olaraq, yeni ifadədir, ancaq bu həmişə Azərbaycanda olub. İctimai-siyasi quruluşdan asılı olmayaraq, Azərbaycan bütün dövrlərdə sülh, əməkdaşlıq, qarşılıqlı anlaşma məkanı olub və biz bu ənənələri yaşadırıq. Bu gün biz müstəqil dövlət kimi, belə tədbirlərin keçirilməsi ilə multikulturalizmin inkişafına öz töhfəmizi veririk və Azərbaycanda aparılan siyasət bu müsbət meyilləri gündəlik həyatda gücləndirir.

Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi sülh, mehribanlıq şəraitində yaşayır, heç vaxt ölkəmizdə dini-milli zəmində heç bir qarşıdurma, yaxud da anlaşılmazlıq olmayıb. Bu bizim böyük sərvətimizdir. Bütün dinlərin tarixi dini abidələri dövlət tərəfindən qorunur, dövlət öz vəsaiti hesabına bu abidələrin bərpasını təmin edir. Azərbaycanda məscidlər, kilsələr, sinaqoqlar tikilir, təmir edilir. Biz bütün dini bayramlarımızı birlikdə qeyd edirik. Bütün dini icmalar bunu birlikdə qeyd edir. Biz tariximizlə, mədəniyyətimizlə fəxr edirik. Bu gün dünyanın ən qədim məscidlərindən biri Azərbaycanda, Şamaxı şəhərində yerləşir. Şamaxı məscidi 743-cü ildə tikilmişdir və bərpa edilərək, bu gün fəaliyyət göstərir. Eyni zamanda, Şəki şəhərinin yaxınlığında Qafqazın ən qədim kilsələrindən biri – Qafqaz Albaniyası kilsəsi bir tarixi abidə kimi yaşayır. O tarixi abidə də bərpa edilərək, bu gün xidmət göstərir və çoxlu turistləri cəlb edir. Bakının yaxınlığında qədim zərdüştlük, atəşpərəstlik məbədi bu gün qorunub saxlanılır. Bu bizim tariximizdir. Müxtəlif dinlərin, mədəniyyətlərin nümayəndələri tarixboyu Azərbaycanda yaşamışlar və yəqin təsadüfi deyil ki, məhz Azərbaycanı birgəyaşayış üçün seçmişlər. Çünki bizim ölkəmizdə, bu diyarda bu meyillər həmişə üstünlük təşkil edib. Bu gün də bu, dövlət siyasətidir və biz bu siyasəti bundan sonra da aparacağıq.

Bu dövlət siyasəti ölkə daxilində böyük rəğbət qazanıb. Eyni zamanda, bu, cəmiyyətin də əhval-ruhiyyəsidir. Çünki dövlət siyasəti o zaman uğurlu icra edilə bilər ki, cəmiyyət də buna müsbət

cavab verir. Cəmiyyətdə mövcud olan xoş əhval-ruhiyyə, multikulturalizmlə bağlı meyillər bizim dövlət siyasətimizi daha da gücləndirir. Təsadüfi deyil ki, Azərbaycanda bu il «Multikulturalizm ili» elan edilib. Bakıda Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb. Dövlət Bayrağı Meydanının – bu bayraq dövlətçiliyimizin rəmzidir – yaxınlığında multikulturalizmə abidə ucaldılıb.

Biz hesab edirik ki, bu məsələ daim diqqət mərkəzində olmalıdır. Beynəlxalq təşkilatlar, ayrı-ayrı ölkələr bu məsələ ilə bağlı öz mövqeyini bildirməlidir. Çünki bu gün əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində multikulturalizmlə bağlı fərqli, bədbin fikirlər səslənir. Bəziləri hesab edir ki, multikulturalizm iflasa uğrayıb, bəziləri, ümumiyyətlə, hesab edir ki, belə bir meyilə yol vermək olmaz, bu zərərlidir. Bu çox təhlükəli fikirlərdir, yanaşmalardır. Çünki gəlin baxaq, multikulturalizmə alternativ nədir, varmı bu alternativ? Əlbəttə ki, var, amma necə alternativdir? Mən hesab edirəm ki, multikulturalizmin alternativi ksenofobiyadır, ayrı-seçkilikdir, irqçilikdir, islamofobiyadır, antisemitizmdir. Bunlar çox təhlükəli meyillərdir. Biz tarixdə bir necə dəfə görmüşük ki, bu meyillərin güclənməsi hansı böyük fəlakətlərə yol açır. Ona görə bütün mütərəqqi bəşəriyyət multikulturalizm ideyaları, idealları ətrafında birləşməlidir. Burada birmənalı mövqe nümayiş etdirilməlidir. Biz öz növbəmizdə, öz fəaliyyətimizlə, səylərimizlə ölkəmizdə mövcud olan ab-havanı dünyaya təqdim edərək göstəririk ki, bu mümkündür. Multikulturalizmin dünyada bir çox ünvanları var, onlardan biri Azərbaycandır. Biz bundan sonra da çalışacağıq ki, həm beynəlxalq aləmdə, həm ölkə daxilində, regionda bu müsbət meyilləri gücləndirək.

Əfsuslar olsun ki, dünyada təhlükələr artır. Biz I Bakı Beynəlxalq Humanitar Forumunu təşkil edəndə bu gün mövcud olan təhlükələr yox idi. Son bir neçə il ərzində dünyada – həm bizim bölgədə, həm Yaxın Şərqdə, Avropada, digər yerlərdə çox təhlükəli, narahatedici hadisələr baş verib və baş verir. Qanlı toqquşmalar, müharibələr, bəzi ölkələr tamamilə dağıdılıb, yüz

minlərlə günahsız insan həlak olub, milyonlarla, on milyonlarla insan qaçqın-köçkün vəziyyətinə düşüb. Bu öz növbəsində, bundan əziyyət çəkən ölkələrdə radikalizm meyillərini gücləndirir. Həmçinin bu ölkələr dağılandan sonra – mən Yaxın Şərqi nəzərdə tuturam – insanlar öz canlarını qurtarmaq üçün Avropaya üz tutmağa başlamışlar. Miqrantlara qarşı çox alçaldıcı hərəkətlərə yol verilmişdir, eyni zamanda, antimiqrant meyillər güclənmişdir. Bu, Avropada radikal qüvvələrin xeyrinə işləyir. Bəzi Avropa ölkələrində son seçkilərə nəzər salsaq görərik ki, radikal qüvvələr daha böyük dəstək alır. Nəyə görə? Çünki onlar bu vəziyyətdən istifadə edərək, daha böyük siyasi çəkiyə malik olurlar. Bu da Avropada radikallaşmaya yol açır. Bu çox təhlükəli meyildir.

Biz indi sivilizasiyalararası dialoqdan danışırıq, ancaq reallıqda sivilizasiyalararası toqquşmanın ilk təzahürlərini görürük. Əgər bu meyillərin qarşısı alınmasa, çox böyük fəlakətə gətirib çıxaracaq. Bütün ölkələr ağır vəziyyətə düşə bilər. Ona görə indiki zamanda daha çox bu məsələlər gündəlikdə olmalıdır, müsbət meyillər üstünlük təşkil etməlidir. Bizi narahat edən məsələlər haqqında açıq danışmalıyıq. Bakı Forumunun məqsədi bundan ibarətdir. Misal üçün, islamofobiya bütün islam aləmini narahat edir, incidir. Çünki həm bəzi kütləvi informasiya vasitələri, həm də bəzi qeyri-hökumət təşkilatları, bəzi siyasətçilər qəsdən islam haqqında, dinimiz haqqında mənfi rəy formalaşdırırlar. İslamı terrorla eyniləşdirirlər. Halbuki terrordan ən çox əziyyət çəkən elə müsəlman ölkələridir. Bəzi Avropa ölkələrinin rəhbərləri «stop islam» deyirlər. Bəziləri deyir ki, biz miqrantları qəbul etməyə hazırıq, ancaq müsəlman miqrantları yox. Bu nədir? Bu, XXI əsrdə Avropada yenidənmi faşizmin baş qaldırmasıdır? Əfsuslar olsun ki, buna nə beynəlxalq təşkilatlar, nə ayrı-ayrı ölkələr reaksiya verir, sanki bu belə də olmalıdır. Çox təhlükəli meyillərdir və biz mütləq bu barədə danışmalıyıq. Müsəlman aləmində gedən radikallaşma, radikal qüvvələrin daha böyük dəstək qazanması da narahatedici amillərdir. Ona görə hesab edirəm ki, biz bu məsələləri açıq şəkildə müzakirə etməliyik.

Bakı Beynəlxalq Humanitar Forumunda tanınmış dövlət xadimləri, ictimai xadimlər, alimlər – onların arasında 13 Nobel mükafatı laureatı var – jurnalistlər, qeyri-hökumət təşkilatlarının nümayəndələri, digər dəyərli qonaqlar iştirak edirlər. Ona görə bu açıq diskussiyalar, tövsiyələr hərəkət üçün çox gözəl formatdır.

Qeyd etdiyim kimi, Azərbaycan humanitar əməkdaşlığa həmişə böyük diqqət yetirib. Ancaq istəyirəm qonaqlar onu da bilsinlər ki, bizim ölkəmiz və xalqımız özü böyük humanitar fəlakətlə üzləşib. Ötən əsrin 90-cı illərinin əvvəllərində Ermənistanın Azərbaycana silahlı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal altına düşüb. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşüb. Bizim tarixi əzəli torpağımız Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon Ermənistan tərəfindən işğal edilib, günahsız insanlar qətlə yetirilib, xalqımıza qarşı hərbi cinayət, Xocalı soyqırımı törədilib. Xocalı şəhərində soyqırımı nəticəsində 613 dinc insan qətlə yetirilib. Onlardan 106-sı qadın, 63-ü uşaqdır. Bütün bu erməni vəhşilikləri sənədləşdirilib, videomateriallar, fotomateriallar, şahidlərin ifadələri vardır. Artıq dünyanın 10 ölkəsi Xocalı soyqırımını soyqırımı kimi tanıyıb.

İşğal edilmiş torpaqlarda bizim tarixi, dini abidələrimiz ermənilər tərəfindən dağıdılıb. Bu barədə də faktlar var. ATƏT işğal edilmiş torpaqlara iki dəfə faktaraşdırıcı missiya göndərib və onların məruzələrində bu, açıq şəkildə göstərilir. Bütün şəhərlər yerlə yeksan edilib, infrastruktur, qəbirlər dağıdılıb. Onlar qəbirlərimizin üstünə buldozer salıb dağıdıblar. Məscidlərimiz dağıdılıb. Lakin Bakının mərkəzində erməni kilsəsi var və biz o kilsəni bərpa etmişik. İndi o kilsədə erməni dilində 5000-dən çox kitab saxlanılır. Onlar isə bizim məscidlərimizi yerlə yeksan ediblər. Fərq bundan ibarətdir. Erməni faşizmi böyük fəlakət törədib və günahsız insanlar bu gün də erməni siyasətindən əziyyət çəkirlər.

Bütün beynəlxalq təşkilatlar bizim mövqemizi birmənalı şəkildə dəstəkləyir. Xüsusilə dünyanın birinci və ən ali beynəlxalq qurumu olan BMT, onun Baş Məclisi dəfələrlə qətnamələr qəbul edib. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib ki, orada

erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz və dərhal çıxarılması nəzərdə tutulur. Əfsuslar olsun ki, Ermənistan bu qətnamələrə məhəl qoymur və bu qətnamələrin icra edilməsi mexanizmi yoxdur. Bu da böyük ədalətsizlikdir. Biz bunu ikili standartlar siyasəti kimi qəbul edirik. Çünki bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri – yaxın tarix bunu göstərir – günlər ərzində, bəlkə də saatlar ərzində icra edilir və təcavüzkar cəzalandırılır. Bizə gəldikdə, bu qətnamələrin qəbul edilməsindən 20 ildən çox vaxt keçib və onlar icra edilmir. Bu qətnamələri qəbul edənlər onların icrasını tələb etmirlər.

Digər beynəlxalq təşkilatlar da oxşar qərar və qətnamələr qəbul etmişdi. İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, «Qoşulmama Hərəkatı», ATƏT, yəni bütün beynəlxalq təşkilatlar bizim mövqemizi dəstəkləyir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tarixi hissəsidir. Eyni zamanda, beynəlxalq hüquq baxımından da ayrılmaz hissəsidir. Ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Ölkəmizin ərazi bütövlüyü heç bir başqa ölkənin ərazi bütövlüyündən az əhəmiyyət kəsb etmir və beynəlxalq hüquq təmin edilməlidir.

Bu problemə baxmayaraq, ölkəmiz inamla inkişaf edir, biz güclənirik. Gələn ay biz müstəqilliyimizin bərpasının 25 illiyini qeyd edəcəyik. Bu 25 ilin əksər illəri inkişaf və tərəqqi illəri olub. Azərbaycan bu gün dünya miqyasında böyük nüfuza malikdir. Bir neçə il bundan əvvəl dünyanın 155 ölkəsi böyük etimad göstərərək, bizi BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçmişdir.

Ölkəmizdə humanitar məsələlər öz həllini tapır. Biz bu məsələlərə çox böyük diqqət göstəririk. Son 13 il ərzində Azərbaycanda 3000-dən çox məktəb, 600-dən çox xəstəxana, tibb mərkəzi tikilib, təmir edilib. Məcburi köçkünlərin problemləri həllini tapır. 90-dan çox qəsəbə salınıb və 250 mindən çox köçkünə yeni evlər, mənzillər verilib.

Ölkə iqtisadiyyatı inkişaf edir. Son 13 il ərzində ümumi daxili məhsul 3 dəfə artıb. Bizim böyük valyuta ehtiyatlarımız var və onlar ümumi daxili məhsulumuza bərabərdir. İşsizliyin, yox-

sulluğun azaldılması ilə bağlı çox ciddi addımlar atılıb. Bu gün həm işsizlik, həm yoxsulluq ölkəmizdə təxminən 5 faiz səviyyəsindədir. Savadlılıq təxminən 100 faizdir. Azərbaycan iqtisadiyyatının böyük bir hissəsi təbii resurslarla bağlıdır. Neftin qiymətinin kəskin düşməsinə baxmayaraq, Azərbaycan bu böhrandan çox az itkilərlə çıxır və bu gün dinamik inkişaf davam edir. Dünən mənə məlumat verildi ki, Davos Dünya İqtisadi Forumu ölkələrin rəqabətqabliyyətliliyinə görə Azərbaycanı 37-ci yerə layiq görüb. Dünya miqyasında rəqabətqabliyyətliliyinə görə 37-ci yeri tutmaq, hesab edirəm ki, gənc dövlət üçün böyük nailiyyətdir. Nəzərə alsaq ki, bizim müstəqilliyimizin ilk illəri çox ağır keçirdi, çox dərin siyasi, iqtisadi böhran yaşanırdı. Qaçqınların, köçkünlərin adambaşına düşən sayına görə Azərbaycan dünyada ilk yerlərdədir. Bu çox acı statistikadır, amma belədir. Bu da bizim maliyyə resurslarımızı cəlb edib. Bütün bunlara baxmayaraq, düzgün iqtisadi siyasət, cəmiyyətdəki əmin-amanlıq, sabitlik, qonşularımızla yaxşı münasibətlər, beynəlxalq təşəbbüslərimiz bu gün Azərbaycanı dünyada sabitlik və inkişaf məkanı kimi təqdim edir.

Biz fəxr edirik ki, 25 ildir müstəqil dövlət kimi yaşayırıq, öz hesabımıza yaşayırıq, heç kimə borclu deyilik, heç kimdən asılı deyilik, müstəqilliyi hər şeydən üstün tuturuq, xalqımız azaddır, taleyimiz öz əlimizdədir. Gözəl ölkə qurmuşuq və bundan da gözəl olacaq. İstəyirik ki, ümumi işimizə daha böyük töhfə verək. Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi də bu niyyətin bir hissəsidir.

Mən bütün qonaqlara ölkəmizə gəldikləri üçün bir daha minnətdarlığımı bildirmək istəyirəm. Foruma uğurlar arzulayıram. Sağ olun.

* * *

*Rusiya Federasiyası Hökuməti Sədrinin müavini Olqa Qolodets prezident Vladimir Putinin Forum iştirakçılarına təbrik məktubunu oxudu və çıxış etdi.*

**O l q a  Q o l o d e t s***:* Hörmətli cənab Prezident, əziz həmkarlar!

İcazə verin, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin təbrik məktubunu oxuyum:

**«V Bakı Beynəlxalq Humanitar Forum iştirakçılarına və qonaqlarına**

Hörmətli xanımlar və cənablar!

V Bakı Beynəlxalq Humanitar Forumun açılışı münasibətilə sizi təbrik edirəm. Sizin Forum nisbətən qısa müddətdə dünyada geniş tanınıb, ən aktual problemlərin müzakirəsi üçün tələbat duyulan məkana çevrilib.

Bu gün Azərbaycan paytaxtı növbəti dəfə aralarında məşhur siyasətçilər və ictimai xadimlər, müxtəlif sahələr üzrə Nobel mükafatı laureatları, bir sıra dövlətlərin elmi və yaradıcı ziyalılarının nümayəndələri olan ali qonaqları qəbul edir. Forumun zəngin gündəliyi müasir beynəlxalq münasibətlər üçün humanitar əməkdaşlığın get-gedə artan əhəmiyyətini əks etdirir. Siz qiymətli təcrübə mübadiləsi aparacaq, mədəniyyət, elm və təhsil, ətraf mühitin qorunması sahələrində ikitərəfli və çoxtərəfli əlaqələrin daha da genişləndirilməsi perspektivlərini müzakirə edəcəksiniz. Əminəm ki, sizin ünsiyyətiniz maraqlı və səmərəli olacaq, müxtəlif ölkələrin və qitələrin xalqları arasında etimadın və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə xidmət edəcək.

Forumun iştirakçılarına ürəkdən uğurlar diləyir, ən xoş arzularımı bildirirəm.

**Vladimir Putin**
**Rusiya Federasiyasının Prezidenti»**

Əziz dostlar, icazə verin, mən də öz adımdan, Rusiya Federasiyasının Hökuməti adından Forum iştirakçılarının ünvanına bir neçə söz deyim. Bu gün bu qədər müasir, bu qədər dinamik inkişaf edən Azərbaycanda olmaq mənim üçün böyük şərəfdir. Əlbəttə, Azərbaycan Prezidentinin qarşıya qoyduğu bütün məsələlər və bu gün haqqında sizin danışacağınız məsələlər bütün bəşəriyyət üçün xüsusi əhəmiyyət kəsb edir. Biz oxuyanda, böyüyəndə, demək olar, aksiom idi ki, humanitar əməkdaşlıq elmi, texniki inkişafı həmişə müşayiət edir. Biz heç vaxt fikirləşmirdik ki, nə üçün belə olur. Bu, az qala, ictimai qanun idi.

Keçən əsrin 90-cı illərində biz heyrətamiz bir həqiqəti kəşf etdik ki, elmi tərəqqi heç də həmişə layiqli humanitar və ictimai inkişafla müşayiət olunmur. Bu həqiqət bizim hamımızı mürəkkəb vəziyyətə saldı. Həqiqətən, bu gün bütün dünyada gah bir, gah başqa yerlərdə milli münaqişələr, hərbi münaqişələr alovlanır, alimlərin, mütəxəssislərin səylərini, bütün iqtisadi firavanlığı heçə endirir. Ona görə ki, insan üçün qarşılıqlı anlaşmadan və dostluqdan daha əhəmiyyətli heç nə yoxdur. Bu mənada, xalqlar arasında bütün səviyyələrdə əlaqələrin möhkəmləndirilməsi xüsusi vəzifədir, bu bütün siyasətçilərin, bütün ölkələrin missiyasıdır.

Bununla əlaqədar, Azərbaycan Respublikası Prezidentinin və Rusiya Federasiyası Prezidentinin rolunu xüsusi qeyd etmək istərdim. Ona görə ki, bu insanların müdrikliyi bizim uzunmüddətli siyasət qurmağımıza, nəticə etibarilə münaqişələrin tənzimlənməsinə gətirib çıxaran uğurlu danışıqlar aparmağımıza imkan verir. Ümidvaram ki, belə insanlar hətta ən mürəkkəb vəziyyətlərdə də yer üzündə bütün insanların gözlədiyi sülhü və ədaləti bərpa etmək üçün dünyaya nümunə göstərəcəklər.

Bizim üçün çox vacibdir ki, dünya siyasətçilərinin müəyyən etdiyi ahəng bütün səviyyələrdə təmin olunmuş mexanizmlərə transformasiya olunsun. Bu günə qədər Rusiya ilə Azərbaycan arasında müxtəlif sahələrdə 90-dan çox saziş imzalanıb. Fikrimcə, bu əməkdaşlıq davam edəcəkdir. Bizim üçün çox vacibdir ki, bu gün burada olan peşəkarlar, mütəxəssislər arasında əməkdaşlıq ilə əlaqədar həqiqətən, təhsil, səhiyyə və digər sahələrdə yüksək

səviyyədə reallaşan şəxsi əlaqələr də yaransın. Mən fəxr edirəm ki, dostlarım arasında Azərbaycandan, Bakıdan olan adamlar çoxdur. Mənim tanışlarım arasında onların dostluq etdikləri insanlarla şəxsi əlaqələr, fərdi münasibətlər vardır. Bizi birləşdirən bizim mədəniyyətimizdir. Zənnimcə, bizim missiyamız bu mədəniyyəti gənclərə, böyüməkdə olan nəslə ötürməkdir. Mən ilk növbədə, mədəniyyət sahəsində əlaqələrin genişlənəcəyinə ümid edirəm. Bizim gələcəyimiz, xalqlarımız arasında qarşılıqlı anlaşmanın gələcəyi bu əlaqələrdən asılıdır.

Əziz Forum iştirakçıları, sizin üzərinizə çox böyük məsuliyyət düşür – insanların sülh və həmrəylik şəraitində yaşamasına, Yer üzündə bütün insanlar üçün əlyetərli ola biləcək elm və texnika nailiyyətlərindən istifadə etməyə imkan verəcək yanaşmalar hazırlamalısınız.

Sizə uğurlar, Azərbaycana isə firavanlıq arzu edirəm.

* * *

*BMT Baş katibinin müavini xanım Cihan Sultanoğlu təşkilatın Baş katibi Pan Gi Munun Forum iştirakçılarına müraciətini oxudu və çıxış etdi.*

**C i h a n S u l t a n o ğ l u:** Zati-aliləri cənab Prezident!

Möhtərəm Azərbaycan Respublikasının birinci xanımı!

Hörmətli xanımlar və cənablar!

Bu gün burada olmaqdan böyük şərəf hissi duyuram və V Bakı Beynəlxalq Humanitar Forumuna BMT-nin Baş katibi Pan Gi Munun müraciətini oxumaq istərdim:

«Bakı Beynəlxalq Humanitar Forumuna və tədbiri qəbul edən zati-aliləri prezident İlham Əliyevə səmimi salamlarımı çatdırıram. Mən may ayında İstanbulda keçirilmiş Dünya Humanitar Sammitində prezident Əliyevin şəxsi iştirakını yüksək dəyərləndirirəm.

Bu, bir sıra mühüm mövzulara həsr olunmuş aktual tədbirdir. Miqrant və qaçqınların insan kapitalı ilə bağlı «dəyirmi masa»da olduqca mühüm məsələ müzakirə olunacaq. Bütün dünyada münaqişə və zorakılıq nəticəsində yurd-yuvasından didərgin

düşmüş insanların sayı hazırda 65 milyona yaxınlaşır. Bu, İkinci dünya müharibəsindən sonra ən yüksək rəqəmdir. Bundan başqa, təbii fəlakətlər və iqlim dəyişikliyi nəticəsində hər il 25 milyon insan öz yurdundan didərgin düşür. Ümidvaram ki, bu «dəyirmi masa» Dünya Humanitar Sammitinin nəticələrinin, miqrantlar və qaçqınlar haqqında Nyu York Bəyannaməsinin icrasına töhfə vermək üçün regional və qlobal iştirakçılar üçün fürsət olacaq.

Davamlı inkişaf, müxtəliflik və inklüzivlik, eləcə də mədəniyyətlərarası dialoqda media ilə bağlı aparacağınız müzakirələr bu məqsədlərin icrasına dəyərli töhfə verməlidir. İqlim dəyişikliyi, əhali artımı, zəif siyasi və iqtisadi sistemlər bu regionda və dünyada insanları təbii və texnogen təhlükələr riski qarşısında qoymaqda davam edir. Əgər biz Dünya Humanitar Sammitində və bəşəriyyət üçün onun gündəliyindəki öhdəlikləri yerinə yetirmək istəyiriksə, onda davamlı inkişafa, fövqəladə hallara hazırlıq və cavab tədbirlərinə daha böyük sərmayələr qoymalıyıq. Dünyada təxminən 130 milyon insanın humanitar yardıma ehtiyacı var. Həmin insanları ağır əzab-əziyyətlərə düçar etmiş böhranların həlli sadə məsələ deyil və vaxt tələb edir. Lakin bizim hamımız mərhəmət nümayiş etdirə bilərik, ədalətsizliyə qarşı səsimizi ucalda və dəyişiklik naminə çalışa bilərik.

**Pan Gi Mun**
**BMT-nin Baş katibi»**

İndi isə mən böyük şərəf hissi ilə BMT-nin İnkişaf Proqramı adından sizin qarşınızda çıxış etmək istərdim. Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə bizi Bakı Beynəlxalq Humanitar Forumuna dəvət etdiyinə və bu tədbiri qəbul etdiyinə görə minnətdarlığımı bildirirəm.

Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən Bakı Beynəlxalq Humanitar Forumu mühüm platformaya çevrilib. Burada bir sıra görkəmli alimlər, tanınmış ziyalılar və şəxsiyyətlər bir araya gələrək, mədəniyyətlərarası dialoqun, tolerantlığın və insanlar arasında qarşılıqlı anlaşmanın daha da genişləndirilməsi məqsədilə toplaşırlar. Bu baxımdan onlar artıq 2030-cu il üçün davamlı

inkişaf gündəliyində olan məqsədlərin icrasına öz töhfələrini vermək əzmindədirlər.

Bu ilin əvvəlində Azərbaycanda BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu da uğurla keçirilib.

Əlbəttə, bu il, həmçinin Azərbaycan üçün xüsusi bir ildir. Azərbaycan öz müstəqilliyinin 25-ci ildönümünü qeyd edəcək. Yaranmış fürsətdən istifadə edərək, sizin hamınızı Azərbaycanın qazandığı gözəl nailiyyətlər münasibətilə təbrik etmək istəyirəm.

Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçib və ötən müddətdə çox gözəl iqtisadi artım templəri nümayiş etdirib. Burada xüsusi sosial proqramları, pensiya islahatlarını, «ASAN xidmət»in yaradılmasını qeyd etmək olar. Azərbaycan bu gün həyata keçirdiyi islahatlara görə regionun aparıcı dövlətinə çevrilib.

2010-cu ildən etibarən Azərbaycan insan inkişafı reytinqi üzrə BMT-nin İnkişaf Proqramında ən öncül yerlərdən birini tutur. Təbii ki, bütün bu nailiyyətlər, Azərbaycanda əldə edilmiş yüksək nəticələr Avrasiya, Avropa və Orta Şərq regionlarında humanitar məsələlərin həllinə töhfə verib. Azərbaycanın qlobal və regional böhranların həllinə verdiyi töhfəyə gəldikdə isə, bu yardımın böyük olduğunu çox yaxşı bilirik. Azərbaycan sülhməramlı qüvvələrin tərkibində iştirak edir, BMT Təhlükəsizlik Şurasının üzvü olub. ECOSOC-da da Azərbaycanın namizədliyi qəbul edilib, təşkilata üzv seçilib. Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyi yaradıb və öz humanitar yardımını əsirgəmir. Dünyadakı zəif dövlətlərin inkişafına öz töhfəsini verməkdədir.

Əminik ki, 2030-cu ilə olan davamlı inkişaf gündəliyində qoyulmuş məqsədlər Azərbaycan tərəfindən də icra olunacaq. Bu məqsədlər Nyu Yorkda 103 üzv dövlət tərəfindən qəbul edilib.

Azərbaycan, həmçinin insan kapitalının inkişafı sahəsində də böyük addımlar atır ki, bu da Forumun mövzularından biridir. Biz BMT-də və BMT İnkişaf Proqramı çərçivəsində belə bir fikirdəyik ki, Azərbaycan məhz davamlı inkişaf məqsədlərinin daha da irəli aparılmasında fəal iştirak edəcək.

Çıxışımın yekununda Azərbaycan hökumətinə bu mühüm tədbiri keçirdiyinə görə bir daha minnətdarlığımı bildirirəm. Əminəm ki, Forum uğurla davam edəcək, burada müxtəlif mövzularda müzakirələr aparılacaq, əməkdaşlıq qurulacaq, sülh yolları araşdırılacaq.

Sizə uğurlu müzakirələr arzulayır və bildirmək istəyirəm ki, sabah keçiriləcək «dəyirmi masa»larda mən də iştirak edəcəyəm.

Diqqətinizə görə sağ olun.

**Əbdüləziz bin Osman əl-Tuveycri** *(İSESKO-nun baş direktoru):* Zati-aliləri cənab prezident İlham Əliyev!

Hörmətli Azərbaycan Respublikasının birinci xanımı, İSESKO və YUNESKO-nun Xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva!

Hörmətli xanımlar və cənablar!

Dialoqun və dünyada sülhün təşviq edilməsi istiqamətində göstərilən beynəlxalq səylərin mühüm rəmzinə çevrilmiş V Bakı Beynəlxalq Humanitar Forumunda çıxış etməkdən məmnunam. Təbii ki, ədalət, sülh və bərabərlik ideyalarını yayan insanlar üçün bu Forum mühüm bir tədbirdir. Mən buna görə prezident İlham Əliyevə dərin təşəkkürümü bildirmək istəyirəm. Səmimi-qəlbdən ona «çox sağ olun» – deyirəm. Çünki onun böyük səy və mühüm təşəbbüsləri sayəsində sülh, insanlar arasında qarşılıqlı anlaşma, dinlər və mədəniyyətlər arasında yaxınlaşma meyilləri artır və Azərbaycan da bu yolla gedir. Azərbaycan dinamik inkişaf edən dövlətə çevrilib.

Mən həmçinin cənab Prezidentə İslam Əməkdaşlıq Təşkilatına və İSESKO-ya verdiyi dəstəyə görə minnətdaram. Bakıda bu təşkilatların bir sıra mühüm beynəlxalq tədbirləri keçirilib. Məhz onun təşəbbüsü ilə sülh, dialoq, insanlar və xalqlar arasında anlaşma daha da dərinləşib. Cənab Prezident öz çıxışında belə gözəl bir paytaxtda, belə əhəmiyyətli bir ölkədə keçirilən beynəlxalq tədbirləri qeyd etdi.

Cənab Prezident, xanımlar və cənablar, bugünkü Forum dünyada sülh və təhlükəsizlik üçün görünməmiş təhdidlərlə səciyyələnən mürəkkəb qlobal şəraitdə keçirilir. Bütün bunlar müharibələrin və onların cəmiyyətlərə sarsıdıcı təsirinin, ciddi

siyasi münaqişələrin, sabitliyi təhlükə altına alan geniş yayılmış etnik toqquşmaların, dərin humanitar böhranların, irqçilik tendensiyalarının, qarşısı alınmayan düşmənçilik hərəkətlərinin nəticəsində beynəlxalq hüququn kobud şəkildə pozulması hallarının azaldılması üçün beynəlxalq ictimaiyyətdən daha effektiv əməkdaşlıq tələb edir. Bu gün dünyanın qarşılaşdığı həssas və çətin vəziyyət bizdən – siyasətçilərdən, akademik və intellektual elitadan azad humanist düşüncə carçıları, mühüm mədəni dəyərlərin və ali humanitar prinsiplərin keşikçiləri kimi, mənəvi məsuliyyəti üzərimizə götürməyi tələb edir.

Bu baxımdan qeyd etmək lazımdır ki, dünyada sülh və təhlükəsizliyin qorunub saxlanılmasında siyasi öhdəliklərin böyük güclər tərəfindən yerinə yetirilməməsi nəticəsində, həmçinin ağır fəsadlara gətirib çıxaran səhv hesablamalar səbəbindən yaranmış vəziyyət beynəlxalq münasibətlərdə tarazlığı alt-üst edə biləcək, dünyanı böyük çəkişmələrə sürükləyə biləcək təhlükələrə meyillidir. Əslində qloballaşmanı öz humanitar məzmunundan uzaqlaşdıran və beləliklə, bir çox səviyyələrdə beynəlxalq vəziyyəti ağırlaşdırmaq təhlükəsi yarada biləcək hazırkı qlobal sivilizasiya böhranı yuxarıda qeyd edilən məqamlardan irəli gəlir. Həmin ciddi çağırışlara və onları müşayiət edən sülh və təhlükəsizliyə təhdidlərə gəldikdə, geniş şəkildə yayılan qloballaşma baxımından təxirəsalınmaz işlər görülməlidir. Mənim fikrimcə, Fələstində, Dağlıq Qarabağda, Suriyada, İraqda, Əfqanıstanda, Somalidə və bir çox digər münaqişəli yerlərdə BMT Təhlükəsizlik Şurası daha fəal iştirak etməlidir. Çünki insanlar, bütün dünya böyük güclərin hərəkətə keçməməsindən əziyyət çəkir. Biz bunu edə bilmərik, çünki əlimizdə belə imkanlar yoxdur. Ona görə də bu işi Təhlükəsizlik Şurasında əyləşən mühüm və daimi üzv dövlətlər görməlidir. Bütün bunlar qarşıya ciddi çağırışlar qoyur. Bu məsələlərlə bağlı düzgün qərarın qəbul edilməsində hər hansı yubanma və ya tərəddüd müxtəlif səviyyələrdə dialoqu təşviq edən beynəlxalq hərəkata mənfi təsir göstərəcək.

Dialoq müdriklərin seçimidir. Bununla humanizmə, onun amallarına xidmət etmiş oluruq. Eləcə də beynəlxalq hüquqa əsaslanan yeni dünya nizamının qurulması üçün düzgün yanaşmanı, mədəniyyətlərin prinsiplərini və sivilizasiyaların, dinlərin universal dəyərlərini tətbiq etmiş oluruq. Buna görə də böyük güclər yubanmadan və tərəddüd etmədən lazımi qərarlar qəbul etməlidirlər. Əgər belə olmasa, dünya bir cəngəlliyə çevrilər. Dünyada, ümumiyyətlə, asayiş tam pozular və hüquqa hörmət qoyulmaz. Odur ki, gəlin səylərimizi birləşdirək.

Mən burada İSESKO adından bildirmək istəyirəm ki, biz öz dəyərlərimizi qoruyacağıq. Biz Azərbaycanın işğal altındakı ərazilərinin azad olunmasında onu dəstəkləməkdə davam edəcəyik.

Diqqətinizə görə sağ olun.

**Qetaçyu Enqida** *(YUNESKO baş direktorunun müavini):* Zati-aliləri cənab Prezident!

Çox hörmətli birinci xanım, YUNESKO-nun Xoşməramlı səfiri!

Xanımlar və cənablar, əziz dostlar!

Biz ayrıca sosial transformasiyalar və faciələrdən qurtulmağa çalışan insanların yerdəyişməsi ilə səciyyələnən, sülhə yeni təhdidlər gətirən qloballaşma dövründə yaşayırıq. Yoxsulluq davamlı olaraq qalır, bərabərsizlik dərinləşir. Dünya zəmanəmizin ən ağır qaçqın və məcburi köçkün böhranları ilə üzləşməkdədir. Bütün bunlar milyonlarla qadın və kişini böyük əzablara düçar edən, ən çox ağrı-acısını gənclərin çəkdiyi radikallaşma və zorakı ekstremizm mühitindən qaynaqlanan «mədəni təmizləmə» ilə fərqlənən və daha tez-tez baş verən münaqişələrin birbaşa fəsadlarıdır.

2030-cu ilə qədər davamlı inkişaf gündəliyi BMT-nin dəyərləri və prinsiplərindən ilhamlanan qlobal tədbirlərə yeni sadiqliyi, eləcə də üzləşdiyimiz mədəni, sosial-iqtisadi və ekoloji çağırışlara vahid cavabımızı nümayiş etdirir. 2016-cı ilin mayında BMT-nin İstanbulda keçirilmiş Humanitar Sammitində YUNESKO-nun bəyan edilmiş şüarı böhrana məruz qalmış uşaqlar və gənclər üçün təhsil uğrunda mübarizə mövzusuna həsr olunmuş bugünkü müzakirələrimizlə

tam üst-üstə düşür. Bu səbəbdən əgər biz ekoloji baxımdan davamlı və inklüziv cəmiyyətləri indiki və gələcək nəsillər üçün təmin etmək istəyiriksə, 2030-cu llədək yeni gündəliyin qəbul edilməsi tək variant kimi qəbul oluna bilməz. Bu mövqe YUNESKO-nun sentyabr ayında təqdim etdiyi 2016-cı il üzrə qlobal təsir monitorinqi hesabatında əks olunub və biz həmin mövqeni təşkilatın bütün fəaliyyət sahələrində tətbiq edirik.

Zorakı ekstremizmin qarşısını almaq naminə təhsil sahəsində işləmək vəzifə borcumuzdur. BMT-nin jurnalistlərin təhlükəsizliyinə yönəlmiş tədbirlər planının icrası və cəzasızlıq məsələsinin həlli yolu ilə onların müdafiəsinin təkmilləşdirilməsi işimizin bir hissəsidir. Bu, 2016-cı ilin yanvarında BMT-nin Baş katibi tərəfindən irəli sürülmüş zorakı ekstremizmin qarşısının alınması üzrə tədbirlər planına uyğundur. Bu baxımdan YUNESKO-nun silahlı münaqişələr zamanı mədəniyyətin qorunması və mədəni plüralizmin təşviqi strategiyası son dərəcə məqsədəmüvafiqdir.

Strategiyada aşağıdakılar nəzərdə tutulur: mədəni irsin itirilməsinin qarşısının alınması, təhdidin aradan qaldırılması, mədəni irsin bərpasında üzv dövlətlərin imkanlarının gücləndirilməsi və mədəniyyətin qorunması məsələsinin humanitar fəaliyyətə, təhlükəsizlik strategiyalarına və sülhyaratma proseslərinə daxil edilməsinin təmin olunması. Bu, fərqli mədəniyyətlərə, dinlərə malik insanların bir-birinə daha da yaxınlaşdığı dünyada olduqca vacibdir. Biz bu məqsədə çox ağır nəticələri olan dini, mədəni və sosial dözümsüzlük mesajlarına, ədavət çağırışlarına qarşı çıxaraq nail oluruq. Biz bu məqsədə sosial, mədəni və iqtisadi inkişafın vasitəsi kimi götürülən davamlı inkişafa hədə kimi deyil, fürsət kimi qəbul edilən qaçqın və miqrantların yeni tarixçəsi ilə nail oluruq. Biz bu məqsədə dialoq, mədəniyyətlərarası biliklər və mədəni savad üçün yeni imkanlar açan möhkəm zəminlər yaradaraq nail oluruq. Bu, sülh mədəniyyətinin, mədəniyyətlər və dinlərarası dialoqun təşviqi üzrə gündəliyin icrası məqsədilə BMT adından YUNESKO-nun həyata keçirdiyi 2013–2022-ci illər üçün mədəniyyətlərin yaxınlaşması üzrə beynəlxalq onillik sənədinin məqsədidir. Bu həmçinin YUNESKO-nun əsas tərəfdaşı olan

Azərbaycan hökumətinin başlatdığı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun ruhuna uyğundur. Gələn il keçiriləcək növbəti, IV Forum akademik biliklərin ifadə edilməsi, xüsusən də yerlərdə konkret tədbirlərin müəyyən olunması üçün yeni imkanlar açacaq.

Cənab Prezident, hörmətli birinci xanım, xanımlar və cənablar, əziz dostlar!

Yekun olaraq, sərhədləri dəf edərək, yeni yolların müəyyən edilməsində hökumətlər, vətəndaş cəmiyyəti və özəl sektor arasında yeni tərəfdaşlığın vacibliyini vurğulayıram. Bu, təhsil, elm, mədəniyyət və ünsiyyət vasitəsilə vəzifə borcumuzu nümayiş etdirir və beləliklə, sülh naminə uzunmüddətli planların tərtib edilməsinə, insan hüquqlarının və ləyaqətin, ədalət və çiçəklənmənin təmin olunmasına, eləcə də davamlı inkişaf məqsədlərində qeyd edildiyi kimi, planetimizin qorunması işinə sadiqliyimizi gücləndirir.

Qarşılıqlı anlaşmanın olmaması tarixboyu xalqlar arasında etimadsızlıq yaradıb və nəticədə baş verən ixtilaflar tez-tez müharibələrə gətirib çıxarıb. Savadsızlığa, etimadsızlığa qarşı mübarizə mütəmadi olaraq aparılmalıdır. Sülhsüz davamlı inkişaf, davamlı inkişaf olmadan isə sülh qeyri-mümkündür.

Diqqətinizə görə minnətdaram. Foruma uğurlar arzulayıram.

* * *

*Bununla da V Bakı Beynəlxalq Humanitar Forumun rəsmi açılışı mərasimi başa çatdı.*

*Forum işini plenar iclasla və «dəyirmi masa» rəhbərlərinin çıxışları ilə davam etdirdi.*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ XANIM PAK KIN HEYƏ**

Hörmətli xanım Prezident!

Koreya Respublikasının milli bayramı – Dövlətin Yaranması Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf edərək, xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 sentyabr 2016-cı il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YOAHİM QAUKA**

Hörmətli cənab Prezident!

Almaniya Federativ Respublikasının milli bayramı – Alman Birliyi Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Almaniya münasibətləri dinamik və hərtərəfli inkişaf yolundadır. İnanıram ki, dostluq əlaqələrimizin genişlənməsi, əməkdaşlığımızın bütün sahələrdə dərinləşməsi yolunda qarşılıqlı addımlarımız bundan sonra da tərəfdaşlığımızın möhkəmlənməsinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Almaniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 sentyabr 2016-cı il*

## RUSİYA HÖKUMƏTİNİN SƏDR MÜAVİNİ OLQA QOLODETSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Rusiya Federasiyası Hökumətinin Sədr müavini Olqa Qolodetsin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Bakı Beynəlxalq Humanitar Forumunun Azərbaycan və Rusiya prezidentlərinin təşəbbüsü ilə təşkil edildiyini, ölkələrimizin Forumun keçirilməsində aparıcı rol oynadıqlarını bildirdi. Dövlətimizin başçısı Rusiya Prezidenti ilə avqust ayında keçirilən görüşündə bu mövzuya toxunduqlarını dedi və Forum iştirakçılarına ünvanladığı məktuba görə Rusiya dövlətinin başçısına təşəkkürünü çatdırmağı xahiş etdi. Bakı Beynəlxalq Humanitar Forumunda müzakirə edilən məsələlərin aktual olduğunu deyən prezident İlham Əliyev regionda və dünyada baş verənlərin nikbinlik üçün əsas vermədiyini, bu səbəbdən humanitar əməkdaşlıq və sülhün bərqərar olması məqsədilə daha çox səy göstərməyin vacibliyini qeyd etdi. Bu məsələdə Azərbaycanın təcrübəsinin çox əhəmiyyətli olduğunu, bir sıra ölkələrdə bu təcrübənin öyrənilməsinə ehtiyacın duyulduğunu bildirdi. Azərbaycan–Rusiya münasibətlərinin zəngin tarixə malik olduğunu deyən dövlətimizin başçısı ölkələrimizin bütün istiqamətlərdə, o cümlədən humanitar sahədə fəal əməkdaşlıq etdiyini vurğuladı.*

*Rusiya hökuməti Sədrinin müavini Olqa Qolodets şəhərimizin gözəlliyinin onda xoş təəssürat yaratdığını bildirdi. «Bakının müasir siması həqiqətən, məni çox təsirləndirdi. Bakı Azərbaycanın çoxəsrlik ənənələrini, eyni zamanda, bu gün dünyada yaranmış bütün yenilikləri özündə birləşdirir» – deyən Olqa Qolodets Heydər Əliyev Mərkəzinin nümunəsində Bakının simasının güclü*

*təsir bağışladığını vurğuladı. «Rusiya tərəfi Sizin sülhə, əməkdaşlığa verdiyiniz töhfəni çox yüksək qiymətləndirir» – deyən Rusiya hökuməti Sədrinin müavini Rusiyanın Azərbaycan ilə əlaqələrə böyük əhəmiyyət verdiyini, ölkələrimiz arasında əməkdaşlığın səmərəli və çoxşaxəli olduğunu bildirdi. Bakıda müxtəlif görüşlər keçirəcəyini, Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialında olacaqlarını deyən Olqa Qolodets səhiyyə və mədəni turizm sahəsində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğuladı.*

*Söhbət zamanı Azərbaycan ilə Rusiyanın ali məktəbləri arasında gənclərin regional forumlarının keçirilməsi, uşaqların yay düşərgələrində istirahəti və digər məsələlər müzakirə olundu.*

## BMT BAŞ KATİBİNİN MÜAVİNİ CİHAN SULTANOĞLU İLƏ GÖRÜŞ

*29 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da BMT Baş katibinin müavini, BMT İnkişaf Proqramı rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Büronun direktoru Cihan Sultanoğlunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev BMT Baş katibinin müavini Cihan Sultanoğlunun rəhbərlik etdiyi nümayəndə heyətinin V Bakı Beynəlxalq Humanitar Forumunda iştirakının və BMT-nin Baş katibi Pan Gi Munun Forum iştirakçılarına müraciətini yüksək qiymətləndirdi. Dövlətimizin başçısı BMT-nin Baş katibinə salamlarını çatdırmağı xahiş etdi. BMT kimi nüfuzlu qurumun Azərbaycan dövlətinin fəaliyyətini yüksək qiymətləndirməsinin önəmini vurğulayan prezident İlham Əliyev bildirdi ki, ölkəmizin bütün sahələrdə bundan sonra da inkişafını təmin etmək üçün səylər davam etdiriləcək.*

*Forumda iştirak etməkdən şərəf duyduğunu deyən BMT Baş katibinin müavini Cihan Sultanoğlu Bakı Forumunun çox vacib bir tədbir olduğunu bildirdi.*

*Görüşdə V Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyəti qeyd olundu. Bu Forumda müzakirə edilən məsələlərin, irəli sürülən təşəbbüslərin və multikulturalizm ideyalarının indiki dövrdə bütün dünya üçün vacib olduğu diqqətə çatdırıldı. Söhbət zamanı müəyyən təhdidlərin aradan qaldırılması üçün dinlərarası və mədəniyyətlərarası əməkdaşlığın möhkəmləndirilməsinin önəmi qeyd edildi. BMT-nin Azərbaycan ilə əməkdaşlığa önəm verdiyi bildirildi, BMT İnkişaf Proqramı çərçivəsində reallaşdırılan layihələrdən söhbət açıldı. Bu proqramların bundan sonra da həyata keçirilməsi imkanları müzakirə olundu.*

## İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*29 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycrini qəbul etmişdir.*

*İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycrinin V Bakı Beynəlxalq Humanitar Forumunda iştirakının əhəmiyyətinə toxunan prezident İlham Əliyev Forumun dünyada gedən proseslərə münasibət bildirmək üçün yaxşı platforma olduğunu dedi. Dövlətimizin başçısı qeyd etdi ki, V Bakı Beynəlxalq Humanitar Forumunun gündəliyi zəngindir və burada müzakirə edilən məsələlər əhəmiyyətlidir.*

*Bu mötəbər tədbirin artıq beşinci dəfədir keçirildiyini deyən İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri Forumun çox uğurlu olduğunu dedi. Bildirdi ki, indiyədək keçirilən forumlarda qəbul edilən qərarlar bütün dünyada böyük nəticələrin əldə olunmasına şərait yaradır.*

*Görüşdə Azərbaycan, o cümlədən Heydər Əliyev Fondu ilə İSESKO arasında çox uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, bu əməkdaşlığın beynəlxalq səviyyədə önəmi qeyd edildi, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## ARGENTİNA MİLLİ KONQRESİNİN DEPUTATLAR PALATASININ VİTSE-SPİKERİ PATRİSİA XİMENEZİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Argentina Milli Konqresinin Deputatlar Palatasının vitse-spikeri xanım Patrisia Ximenezin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Argentina Milli Konqresinin Deputatlar Palatasının vitse-spikeri Patrisia Ximenezin böyük nümayəndə heyəti ilə Azərbaycana səfərindən məmnunluğunu bildirən dövlətimizin başçısı nümayəndə heyətinin Forumda iştirakının maraqlı olacağına əminliyini ifadə etdi. Forumun artıq beynəlxalq tədbirə çevrildiyini vurğulayan prezident İlham Əliyev dünya birliyinin üçdəbir hissəsindən çoxunun Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etməsinin önəmini qeyd etdi. Azərbaycan ilə Argentina arasında əlaqələrin yaxşı səviyyədə olduğunu deyən dövlətimizin başçısı səfirliklərin fəaliyyət göstərməsinin və Xarici İşlər nazirləri səviyyəsində qarşılıqlı səfərlərin təşkil olunmasının əhəmiyyətini vurğulayaraq, ikitərəfli əlaqələrimizin inkişafında parlamentlərarası əməkdaşlığın da böyük əhəmiyyət daşıdığını dedi. Prezident İlham Əliyev Patrisia Ximenezin ölkəmizdə keçirəcəyi görüşlərin səmərəli olacağına əminliyini ifadə etdi. Dövlətimizin başçısı Azərbaycanın Argentina ilə ikitərəfli əlaqələrin sürətlə inkişaf etdirilməsində maraqlı olduğunu vurğuladı.*

*Argentina Milli Konqresinin Deputatlar Palatasının vitse-spikeri Patrisia Ximenez ölkəsinin prezidenti Maurisio Makrinin və parlament Sədrinin salamlarını dövlətimizin başçısına çatdırdı. Patrisia Ximenez V Bakı Beynəlxalq Humanitar Forumun yüksək səviyyədə təşkilinə görə prezident İlham Əliyevə minnətdarlığını*

*bildirdi. Argentinalı qonaq bu gün eyni zamanda, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ilə görüşdüklərini məmnunluqla vurğuladı. O, Bakının gözəlliyinin və insanların multikultural dəyərlərə böyük önəm verməlrinin onlarda dərin təəssürat yaratdığını dedi.*

*Dövlətimizin başçısı Argentina prezidenti Maurisio Makrinin və parlament Sədrinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Argentina Prezidentinə və parlamentinin Sədrinə çatdırmağı xahiş etdi.*

## MOSKVA DÖVLƏT BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNUN REKTORU ANATOLİ TORKUNOV İLƏ GÖRÜŞ

*29 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru Anatoli Torkunovu qəbul etmişdir.*

*Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru Anatoli Torkunov Bakıya hər səfərinin, xüsusilə çoxlu sayda görkəmli insanların toplaşdığı V Bakı Beynəlxalq Humanitar Forumda iştirakının onun üçün əlamətdar hadisə olduğunu vurğuladı. Prezident İlham Əliyevin Forumdakı nitqinə toxunan Anatoli Torkunov dövlətimizin başçısının bu çıxışında deyilən fikirlərin böyük əhəmiyyət daşıdığını və müzakirələrin daha maraqlı keçməsinə yaxşı imkan yaratdığını dedi. O, Forumun ayrı-ayrı plenar iclaslarında və «dəyirmi masa»larda aparılacaq müzakirələrin səmərəli olacağına əminliyini bildirdi. Anatoli Torkunov Rusiya nümayəndələrinin Bakı Beynəlxalq Humanitar Forumuna böyük maraq göstərdiklərini dedi.*

*Dövlətimizin başçısı Bakı Beynəlxalq Humanitar Forumda konkret məsələlər üzrə maraqlı müzakirələrin aparılmasından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev dünyanın elmi və siyasi elitasının bir məkana toplanması və dünyada humanitar sahədə mövcud olan boşluğun doldurulması baxımından Bakı Beynəlxalq Humanitar Forumu nadir beynəlxalq tədbirlərdən biri kimi dəyərləndirdi. Avropada humanitar məsələlərə əsasən miqrantların problemi nöqteyi-nəzərindən baxıldığını vurğulayan prezident İlham Əliyev bu problemləri doğuran səbəblərin müəyyənləşdirilməsinin və diqqətdə saxlanılmasının vacibliyini bildirdi. Dövlətimizin başçısı bu kimi məsələlərin açıq müzakirə edilməsi baxımından Bakı Beynəlxalq Humanitar Forumun yaxşı imkan*

*yaratdığını və cəlbedici olduğunu dedi. Prezident İlham Əliyev Rusiya prezidenti Vladimir Putinin hər il olduğu kimi, bu il də Forum iştirakçılarına təbrik göndərməsinin vacibliyini xüsusi vurğulayaraq, Azərbaycanın və Rusiyanın Bakı Beynəlxalq Humanitar Forumun həmtəsisçiləri olduğunu məmnunluqla qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə Rusiya arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən elm və təhsil sahələrində uğurla inkişaf etdiyi bildirildi, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu ilə əməkdaşlığın bu işə böyük töhfə verdiyi qeyd olundu.*

## İSRAİL DÖVLƏTİNİN ÖLKƏMİZDƏKİ SƏFİRLİYİNDƏ

*29 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da İsrail Dövlətinin ölkəmizdəki səfirliyində olmuşdur.*

*Prezident İlham Əliyev İsrail Dövlətinin sabiq prezidenti Şimon Peresin vəfatı ilə əlaqədar başsağlığı verib, Matəm kitabına ürək sözlərini yazdı.*

*Dövlətimizin başçısı İsrailin Azərbaycandakı səfiri Dan Stav ilə söhbət etdi və ona başsağlığı verdi.*

**AZƏRBAYCANIN YƏHUDİ İCMASINA**

Hörmətli həmvətənlər!

Sizi yəhudi xalqının qədim milli bayramlarından olan Roş-Ha-Şana – Yeni il münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Yüz illərdir ölkəmizdə məskunlaşan və buranı özünə doğma vətən bilən yəhudilər Azərbaycanda heç vaxt antisemitizmə və ayrı-seçkiliyə məruz qalmamış, tarixən xalqlar arasında dostluq və qardaşlıq münasibətlərinin, etnik-dini tolerantlığın, multikultural mühitin hökm sürdüyü çoxmillətli cəmiyyətimizdə əmin-amanlıq şəraitində yaşayaraq, dil və mədəniyyətlərini, milli-mənəvi adət-ənənələrini günümüzə qədər qoruyub saxlamışlar.

Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, insan hüquq və azadlıqlarının təminatı, o cümlədən ölkədə sabitlik, əmin-amanlıq və vətəndaş həmrəyliyi Azərbaycanda həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Bunun üçün ölkəmizdə həqiqi demokratik və siyasi-hüquqi şərait yaradılmışdır.

Məmnuniyyət hissi ilə onu da qeyd etmək istərdim ki, yəhudi əsilli vətəndaşlarımız bu gün müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi, elmi-mədəni həyatında, demokratik dövlət quruculuğu prosesində yaxından iştirak edir, dövlət müstəqilliyimizin daha da möhkəmlənməsində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirir.

Hər il təntənə ilə keçirilən Roş-Ha-Şana yeniləşmə, xoş müjdələr, mənəvi saflıq bayramıdır. Bu əziz gün münasibətilə bir daha hamınızı səmimi-qəlbdən təbrik edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 sentyabr 2016-cı il*

## UEFA PREZİDENTİ ALEKSANDER ÇEFERİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Avropa Futbol Assosiasiyaları İttifaqının (UEFA) prezidenti Aleksander Çeferinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nümayəndə heyətinin Azərbaycana səfər proqramının geniş olduğunu, çoxsaylı tədbirlərin keçiriləcəyini vurğulayan prezident İlham Əliyev qonaqların ölkəmizə səfərinin maraqlı keçəcəyinə ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı Aleksander Çeferini UEFA prezidenti seçilməsi münasibətilə təbrik etdi və onun bu posta seçildikdən az sonra Azərbaycana səfər etməsinin önəmini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanda futbolun inkişafına böyük əhəmiyyət verildiyini bildirərək, bu məqsədlə ölkəmizdə yeni stadionların tikildiyini, uşaqlar üçün xüsusi inkişaf proqramlarının hazırlandığını qeyd etdi, gənclər və uşaqlar üçün yaradılan şəraitin bir neçə ilə yaxşı nəticələr verəcəyinə ümidvar olduğunu diqqətə çatdırdı.*

*UEFA prezidenti Aleksander Çeferin ölkəmizə ilk dəfə səfər etdiyini, səfər proqramının zəngin olduğunu, UEFA Avropa Liqasının qrup mərhələsi çərçivəsində Qəbələ–Maynz oyununu izlədiyini və oyunun yaxşı keçdiyini dedi.*

*Ölkəmizə səfər etməsindən məmnunluğunu vurğulayan Aleksander Çeferin Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının böyük işlər gördüyünü, bu işləri yaxından izlədiklərini qeyd etdi. O öz ölkəsində – Sloveniyada futbol sahəsində görülən işlərin tədricən nəticə verdiyini, bunun üçün gənclər və uşaqlarla işləməyin vacibliyini vurğuladı. UEFA prezidenti Azərbaycanda təşki-*

*latçılıq işlərindən məmnunluğunu bildirdi, infrastrukturun mükəmməl və çox yüksək səviyyədə olduğunu dedi.*

*Dövlətimizin başçısı dünən UEFA Avropa Liqasının qrup mərhələsi çərçivəsində keçirilən «Qəbələ»–«Maynz» oyununa toxunaraq, Qəbələ futbol klubunun gənc komanda olmasına baxmayaraq, Avropa Liqasının qrup mərhələsinə vəsiqə qazanmasını böyük uğur kimi dəyərləndirdi.*

*Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

# FRANSADA AZƏRBAYCANIN DOSTLARI ASSOSİASİYASININ PREZİDENTİ JAN FRANSUA MANSELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Fransa Milli Assambleyasının deputatı, Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jan Fransua Manselin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Fransa Milli Assambleyasının deputatı, Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jan Fransua Mansel son dövr Fransa ilə Azərbaycan arasında əlaqələrin çox yaxşı səviyyədə olduğunu vurğuladı. O bu yaxınlarda Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə Parisdə təşkil olunan «Azərbaycan şəhərciyi»nin təqdimatının bütün iştirakçılarda çox böyük təəssürat yaratdığını, ölkəmizə olan marağın daha da artdığını bildirdi. Təmsil etdiyi qurumun 25 üzvü ilə bərabər, ölkəmizə səfər etdiyini deyən fransalı qonaq nümayəndələrin hazırda Şəki şəhərində olduqlarını, sonra isə Gəncəyə gedəcəklərini vurğuladı.*

*Fransa Milli Assambleyasının deputatı, Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jan Fransua Manselin böyük nümayəndə heyəti ilə Azərbaycana səfərindən məmnunluğunu bildirən prezident İlham Əliyev səfərin ölkəmizlə yaxından tanış olmaq üçün yaxşı imkan yaradacağını dedi. Parisin mərkəzində «Azərbaycan şəhərciyi»nin açılışının və fəaliyyətinin önəmini vurğulayan dövlətimizin başçısı artıq bir neçə dəfədir ki, belə təqdimatların keçirildiyini, Fransa və Paris sakinlərində məmnunluq doğurduğunu qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın geniş təqdimat tədbirlərində fəal iştirakına görə Jan Fransua Manselə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı belə təd-*

*birlərin və eləcə də Fransanın tanınmış xadimlərinin Azərbaycana səfərlərinin ölkəmizin Fransada daha geniş şəkildə tanınması və ikitərəfli əlaqələrimizin genişləndirilməsi işinə mühüm töhfə verəcəyini vurğuladı.*

## ROMA PAPASI FRANSİSKİN AZƏRBAYCANA PASTORAL SƏFƏRİ

*2 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasına pastoral səfərə gələn Roma Papası Fransiskin oktyabrın 2-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycanın və Müqəddəs Taxt-tacın bayraqlarının dalğalandığı meydanda Roma Papasının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Roma Papası Fransiski qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Roma Papası Fransiskə raport verdi.*

*Müqəddəs Taxt-tacın və Azərbaycanın himnləri səsləndirildi.*

*Prezident İlham Əliyev və Roma Papası Fransisk Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Roma Papası Fransisk Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Roma Papası Fransiskə, Müqəddəs Taxt-tacın nümayəndə heyətinin üzvləri isə prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezident İlham Əliyevin və Roma Papası Fransiskin qarşısından keçdi.*

*Prezident İlham Əliyev və Roma Papası Fransisk rəsmi foto çəkdirdilər.*

## ROMA PAPASI FRANSİSK İLƏ GÖRÜŞ

*2 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 2-də rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Roma Papası Fransisk ilə görüşmüşlər.*

**İ l h a m Ə l i y e v:** Xoş gəlmisiniz, zati-müqəddəsləri! Sizi Azərbaycanda salamlamaqdan çox məmnunam. Bu səfəriniz tarixi səfərdir. Mən şadam ki, səfəriniz çox yaxşı keçir.

**R o m a P a p a s ı :** Çox sağ olun. Mən Sizə təşəkkürümü bildirirəm. Belə xoş hava ilə müşayiət olunan günə görə də Sizə minnətdaram. Mən bilirəm ki, Vatikanda səfərdə olmusunuz. Mən o səfərə görə səmimi-qəlbdən təşəkkürümü bildirirəm. Həmçinin səfərə başladığım zaman mənə göstərdiyiniz səmimi qəbula görə Sizə minnətdaram.

**İ l h a m Ə l i y e v:** Çox minnətdaram ki, Siz mənim dəvətimi qəbul edib Azərbaycana səfər edirsiniz. Ümid edirəm ki, Siz Vətənə xoş təəssüratlarla qayıdacaqsınız. Səfəriniz həm Vatikan–Azərbaycan əlaqələri, eyni zamanda, sivilizasiyalararası dialoq üçün çox böyük əhəmiyyət kəsb edir.

**R o m a P a p a s ı:** Mən, ümumiyyətlə, qeyd etmək istəyirəm, indiki zamanda, xüsusilə də Avropa dövlətlərinə bu sözləri aid etmək olar. Bizim hamımız üçün çox vacib olan zənginliklərə, mənəvi dəyərlərə gəldikdə, bunlar xüsusi əhəmiyyət kəsb edir. Bir halda ki, bu hadisələr baş verir və əslində bu, insanlar üçün indiki zamanda olduqca lazımlı bir məqamdır. Biz yalnız onunla öz əlaqələrimizin məhsuldarlığı haqqında danışa bilərik. Biz bilirik ki, bu gün Sizin qədim torpağınızdayıq. Həmçinin bunu da bilirik ki, Sizin ölkədə dini azadlıqlar tam təmin edilib.

**İ l h a m Ə l i y e v:** Azərbaycanda bütün dinlərin nümayəndələri bir ailə kimi, sülh, mehribanlıq şəraitində yaşayır.

* * *

*Sonra prezident İlham Əliyevin ailə üzvləri Roma Papası Fransisklə görüşdülər.*

*Roma Papası Fransisk prezident İlham Əliyevin ailə üzvlərinə hədiyyələr təqdim etdi.*

*Daha sonra qarşılıqlı hədiyyələr təqdim olundu.*

*Roma Papası bildirdi ki, onun prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya təqdim etdiyi hədiyyələrdən biri rəsm əsəridir. Bu rəsm əsəri dünyada mərhəmət əməllərini nümayiş etdirir.*

*Prezident İlham Əliyev Roma Papasına Azərbaycan sənətkarlarının əl işlərindən ibarət hədiyyələr təqdim etdi.*

**İ l h a m  Ə l i y e v:** Azərbaycan xalçalar məkanıdır, bizim milli sənətimizdir. Bu da bizim sizə xalça hədiyyəmizdir.

*Roma Papası Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya Meksikada hazırlanan və əl işi olan Tukan quşlu sini hədiyyə etdi. Sini Roma Papası Fransisk tərəfindən yazdırılmış həsretmə lövhəsi ilə bəzədilib.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## ROMA PAPASI FRANSİSK İLƏ HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ İCTİMAİYYƏTİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*2 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Roma Papası Fransisk oktyabrın 2-də Heydər Əliyev Mərkəzində ictimaiyyətin nümayəndələri qarşısında çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Zati-müqəddəsləri, hörmətli Roma Papası Fransisk həzrətləri!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, zati-müqəddəsləri, Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Sizə və nümayəndə heyətinizə «Xoş gəlmisiniz!» – deyirəm.

Keçən il Vatikanda görüşərkən, mən Sizi Azərbaycana dəvət etdim və çox şadam ki, Siz dəvəti qəbul edib bu gün ölkəmizə səfər edirsiniz. Bu səfərin çox böyük mənası var. Bu, tarixi bir səfərdir. Bu səfər Vatikan–Azərbaycan əlaqələrinin inkişafına böyük töhfə verəcək. Bu səfər bütün bəşəriyyət üçün önəmlidir. Çünki bu səfər bir daha onu göstərir ki, sivilizasiyalararası dialoq yaşayır, davam edir, güclənir və biz çalışırıq ki, bu dialoqa yeni təkan verək.

Vatikan–Azərbaycan əlaqələri artıq 24 ildir ki, uğurla inkişaf edir. Qeyd etdiyim kimi, qarşılıqlı yüksək səviyyəli rəsmi səfərlər həyata keçirilibdir. 2012-ci ildə Vatikan muzeylərində diplomatik əlaqələrimizin 20 illiyinə həsr edilmiş Azərbaycan sərgisi keçirilmişdir. İlk müsəlman ölkəsinin sərgisi məhz Azərbaycan sərgisi idi. Bizim əlaqələrimiz eyni zamanda, ictimai təşkilatlar tərəfindən dəstəklənir. Keçən ilin fevralında Cənubi Qafqazın ən böyük qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondunun

dəstəyi ilə Vatikanın San Marçellinio və Pietro katakombalarının əsaslı təmir və bərpa işlərindən sonra açılışı oldu. Bu gözəl hadisə bir daha onu göstərir ki, həm bizim ikitərəfli əlaqələrimiz uğurla inkişaf edir, eyni zamanda, dinlərarası, mədəniyyətlərarası dialoqun güclənməsi reallıqdır.

Azərbaycanda əsrlərboyu bütün dinlərin, xalqların nümayəndələri sülh, ləyaqət, mehribanlıq şəraitində yaşamışlar, bu gün də belədir. İctimai-siyasi quruluşdan asılı olmayaraq, bizim diyarımızda həmişə sivilizasiyalar qovuşub, həmişə Azərbaycan Şərq ilə Qərb arasında körpü rolunu oynayıbdır. Bu həm coğrafi, eyni zamanda, mənəvi körpüdür. Azərbaycanda bütün dinlərin tarixi abidələri qorunub bərpa edilir. Azərbaycan çox qədim diyardır. Biz fəxr edirik ki, dünyanın ən qədim məscidlərindən biri – 743-cü ildə tikilmiş Şamaxı Cümə məscidi Azərbaycanda yerləşir. Eyni zamanda, bölgəmizin ən qədim kilsələrindən biri – Qafqaz Albaniyası kilsəsi də Azərbaycanda yerləşir. Bakıda qədim Atəşpərəstlər məbədi vardır. Eyni zamanda, pravoslav, katolik kilsələri, sinaqoqlar dövlət tərəfindən qorunur və bərpa edilir.

2008-ci ildə Vatikan–Azərbaycan əlaqələrinin tarixində çox əlamətdar hadisə baş vermişdir. Biz 2008-ci ildə Bakıda Katolik kilsəsinin açılışını qeyd etmişdik. Bakıda Katolik kilsəsi 1912-ci ildə inşa edilmişdir. Ancaq 1934-cü ildə sovet hakimiyyəti tərəfindən o kilsə dağıdılmışdı. Digər dini abidələr kimi, məscidlər, pravoslav kilsələri, sinaqoqlar da dağıdılmışdı. Müstəqil Azərbaycan dövləti qərar qəbul etdi ki, Bakıda Katolik kilsəsi yenidən tikilsin və bu gün səhər, zati-müqəddəsləri, Siz o kilsədə dini mərasim keçirmisiniz. Bu, əlamətdar hadisədir. İlk növbədə, biz tarixi ədalətsizliyi aradan qaldırdıq. Digər tərəfdən, bu, Azərbaycanda yaşayan katoliklər üçün çox böyük hədiyyə oldu.

Bu gün ölkəmizdə dinlərarası, xalqlararası, millətlərarası münasibətlər nümunəvi xarakter daşıyır. Bunu təkcə biz demirik. Azərbaycan reallıqları ilə tanış olan bütün xarici nümayəndələr də bunu qeyd edirlər. Biz bir çox təşəbbüsləri irəli sürmüşük. Onların arasında «Bakı prosesi» artıq dünyada böyük şöhrət qazanıb. «Bakı prosesi» 2008-ci ildə başlanıb. Azərbaycan nadir

ölkələrdəndir ki, həm Avropa Şurasına, həm İslam Əməkdaşlıq Təşkilatına üzvdür. 2008-ci ildə Avropa Şurasına üzv ölkələrin Mədəniyyət nazirlərinin Bakıda keçirilmiş toplantısına biz müsəlman ölkələrinin Mədəniyyət nazirlərini dəvət etdik. Tarixdə ilk dəfə idi ki, iki qurum arasında əlaqə yarandı və bu əlaqəni biz yaratdıq. 2009-cu ildə isə Bakıda müsəlman ölkələrinin Mədəniyyət nazirlərinin toplantısına biz Avropa Şurasından nazirləri dəvət etdik. Beləliklə, bu prosesə «Bakı prosesi» adı verildi. Bu gün ölkəmizdə «Bakı prosesi» çərçivəsində bir çox beynəlxalq tədbirlər keçirilir. Onların içində Dünya Dini Liderlərinin Zirvə görüşünü qeyd etmək olar. İki gün bundan əvvəl V Bakı Beynəlxalq Humanitar Forumu öz işini başa vurdu və bu Forumun əsas mövzularından biri multikulturalizmdir. İki ildən bir Azərbaycanda Mədəniyyətlərarası Dialoq Forumu keçirilir.

Bu təşəbbüslərin bir məqsədi var ki, bütün dinlərin nümayəndələri bir-biri ilə əməkdaşlıq etsinlər, qarşıdurmaya yol verilməsin. Bizim bu sahədəki uğurlu fəaliyyətimizi nəzərə alaraq, BMT qərar qəbul etmişdir ki, bu beynəlxalq qurumun Sivilizasiyalar Alyansının VII Qlobal Forumu Bakıda keçirilsin. Biz bu il bu Forumu Bakıda böyük müvəffəqiyyətlə keçirdik.

Belə tədbirlərin keçirilməsi ilk növbədə, bizim özümüzə, insanlarımıza lazımdır. Çünki bu bizim cəmiyyətimizə göndərilən çox müsbət bir mesajdır. Digər tərəfdən, bu, bütün dünyaya lazımdır. Əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində dini, milli zəmində müharibələr, münaqişələr, qarşıdurmalar güclənir. Biz isə belə təşəbbüsləri irəli sürərək göstəririk ki, birgə yaşamaq mümkündür, bir-birinə hörmət etmək lazımdır. Öz dininə hörmət edən mütləq başqasının dininə də hörmətlə yanaşmalıdır.

Bu il Azərbaycanda «Multikulturalizm ili» elan edilib. Bizim üçün multikulturalizm həm həyat tərzidir, həm dövlətimizin apardığı siyasətdir. Multikulturalizm ideyalarının təbliği işində Azərbaycan dünya miqyasında çox önəmli rol oynayır. Əfsuslar olsun, bəzi xadimlər, siyasətçilər, liderlər multikulturalizmlə bağlı bədbin fikirlər söyləyirlər ki, multikulturalizm iflasa uğrayıb, bunun gələcəyi yoxdur. Bu çox təhlükəli və yanlış fikirlərdir. Biz

isə Azərbaycanda sübut edirik ki, multikulturalizm yaşayır, inkişaf edir və ölkəmizi irəliyə aparır. Multikulturalizmin ünvanlarından biri Azərbaycandır. Fəxr edirik ki, biz çoxmillətli, çoxkonfessiyalı ölkəyik. Azərbaycanda bütün dinlərin nümayəndələri ləyaqətlə yaşayırlar. Onlar ölkəmizin dəyərli vətəndaşlarıdır və bizim ümumi inkişafımıza böyük töhfələr verirlər.

Biz, ümumiyyətlə, humanitar sahədə böyük işlər görürük, təhsilə böyük diqqət göstərilir. Azərbaycanda savadlılığın səviyyəsi təxminən 100 faizdir. Savadlılıq ekstremizmə, radikalizmə, nadanlığa qarşı bir səddir. Ona görə Azərbaycanda təhsilin inkişafına böyük diqqət göstərilir.

Azərbaycan zəngin mədəni irsə malikdir və bu bizim cəmiyyətimizin əsasıdır. Biz milli-mənəvi dəyərlərimizə çox sadiqik. Eyni zamanda, biz müasir, dünyəvi ölkəyik. Azərbaycan bu bölgədə müasirlik və inkişaf baxımından fərqlənən ölkələrdəndir.

Əfsuslar olsun ki, bizim xalqımız humanitar fəlakətlə üzləşib. Keçən əsrin 90-cı illərinin əvvəllərində Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində tarixi torpağımız olan Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon erməni silahlı qüvvələri tərəfindən işğal edilib. Bizim vətəndaşlarımız – 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşüb. Torpaqlarımızın 20 faizi işğal altındadır, bizə qarşı etnik təmizləmə siyasəti aparılıb. Xalqımıza qarşı Xocalı soyqırımı törədilib ki, bu gün 10 ölkə bu soyqırımını rəsmən tanıyıb. ATƏT işğal edilmiş torpaqlara 2 dəfə faktaraşdırıcı missiya göndərib. O missiyaların məruzələri insanı dəhşətə gətirir. Bizim işğal altında olan bütün tarixi, dini abidələrimiz Ermənistan tərəfindən dağıdılıb. Bizim məscidlərimiz, qəbirlərimiz dağıdılıb, muzeylərimiz talan edilib. Biz isə Bakıdakı erməni kilsəsini bərpa etdik. Bu kilsədə erməni dilində 5000-dən çox kitab saxlanılır. Bax, fərq bundan ibarətdir. Bu onların hərəkətləri, bu da bizim münasibətimiz. Ona görə təsadüfi deyil ki, Azərbaycanı dünyada multikulturalizmin mərkəzi kimi tanıyırlar.

Ermənistan–Azərbaycan münaqişəsinin həllinə gəldikdə, bu münaqişə beynəlxalq hüquq çərçivəsində həll edilməlidir. BMT

Təhlükəsizlik Şurası – dünyanın ali qurumu bu münaqişə ilə bağlı 4 qətnamə qəbul edib. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılması nəzərdə tutulur. Əfsuslar olsun ki, bu qətnamələr yerinə yetirilmir və 20 ildən çoxdur torpaqlarımız işğal altındadır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bütün başqa münaqişələr kimi, ölkələrin suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Qeyd etdiyim kimi, bu münaqişədən ölkəmiz, xalqımız böyük əziyyət çəkir. Ötən əsrin 90-cı illərinin əvvəllərində əhalimiz 8 milyon nəfər idi ki, onlardan 1 milyondan çoxu qaçqın-köçkün vəziyyətinə düşüb. Yəni o humanitar fəlakəti biz öz gücümüzə həll etdik və həll edirik. Buna baxmayaraq, ölkəmiz inkişaf edir. Bu ay biz müstəqilliyimizin bərpasının 25 illiyini qeyd edəcəyik. Bu illər ərzində Azərbaycan böyük və şərəfli yol keçib. Biz beynəlxalq aləmdə böyük hörmətə malikik. Bir neçə il bundan əvvəl dünyanın 155 ölkəsi Azərbaycana səs verib, bizi BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçib.

Son 13 il ərzində iqtisadiyyatımız 3 dəfə artıb. Yoxsulluq, işsizlik 5 faizə düşüb. Azərbaycanda bir çox sosial layihələr icra edilir. Biz müasir dövlət qurmuşuq. Bu gün Azərbaycan müstəqilliyinin bərpasının 25 illiyini nikbinlik əhval-ruhiyyəsində qarşılayır. Çünki biz dünyaya sübut etdik ki, azad, müstəqil ölkə kimi yaşaya bilərik, uğurla yaşaya bilərik. Azərbaycan ölkəmizdə yaşayan bütün xalqların doğma Vətənidir. Azərbaycan möhkəm ayaqda durur. Biz müasir, dünyəvi, inkişaf edən, əməkdaşlığa açıq olan ölkəyik.

Zati-müqəddəsləri, Sizin Azərbaycana səfəriniz bizim üçün tarixi hadisədir. Bu bizim üçün böyük şərəfdir. Siz bu gün səhər Katolik kilsəsində dini mərasim keçirmisiniz. Bu görüşdən sonra Siz ölkəmizin ən böyük məscidi olan Heydər məscidinə gedəcəksiniz. Siz Bakıdan bütün dünyaya çox açıq-aydın mesaj göndərirsiniz ki, multikulturalizm, dinlərarası dialoq, xoş niyyət, xoş münasibət zəfər çalmalıdır, üstünlük təşkil etməlidir.

Mən bugünkü görüşümüzdə Sizə minnətdarlıq bildirərkən dedim ki, Siz öz səfərinizlə bütün dünyanın diqqətini Azərbaycana

cəlb etmisiniz. Bütün qitələrdə Sizin davamçılarınız, Sizi dəstəkləyənlər bu gün Bakıya baxırlar, ölkəmizlə, şəhərimizlə tanış olurlar, görürlər ki, dünyada, müsəlman aləmində müasir, dünyəvi, inkişaf edən ölkə vardır. Görürlər ki, bütün dünya katoliklərinin rəhbəri, zati-müqəddəsləri Fransisk bu gün Bakıdadır. Buna görə bir daha bütün Azərbaycan xalqı adından Sizə minnətdarlığımı bildirmək istəyirəm. Sizə cansağlığı, yeni uğurlar arzulayıram. Sağ olun.

## Roma Papası Fransiskin çıxışı

Cənab Prezident!
Hörmətli hökumət nümayəndələri!
Hörmətli diplomatik korpusun üzvləri!
Xanımlar və cənablar!

Azərbaycana səfər etməkdən olduqca şadam və Xəzər dənizinin sahillərinə açılan ölkənin paytaxtında – bu şəhərdə səmimi qəbulunuza görə Sizə minnətdarlığımı bildirirəm. Görüşün keçirildiyi bu yeni bina və digər yeni binaların sayəsində şəhərin siması tamamilə dəyişib.

Cənab Prezident, Azərbaycan hökuməti və xalqı adından ünvanıma söylədiyiniz səmimi salamlama sözlərinə və nəzakətli xanımınızla ötən il Vatikana etdiyiniz səfərinizə cavab olaraq, səmimi dəvətiniz sayəsində mənə yaratdığınız bu fürsətə görə Sizə dərin təşəkkürümü bildirirəm.

Mən bu ölkəyə hazırkı cəmiyyəti səciyyələndirən və müasir Azərbaycan dövlətinin çiçəklənməsi ilə nəticələnən təcrübə, dəyərlər və xüsusiyyətlər toplusunu formalaşdıraraq, bu torpaqda tarixboyu yaşamış çoxsaylı xalqların verdiyi töhfənin nəticəsi kimi, mədəniyyətinizin çoxçalarlılığı və zənginliyinə qəlbimdəki vurğunluqla gəlmişəm. Qarşıdan gələn 18 oktyabr tarixində Azərbaycan öz müstəqilliyinin 25-ci ildönümünü qeyd edəcək. Bu tarix ölkənin həmin onilliklər ərzində yaşadığı hadisələrə, əldə etdiyi nailiyyətlərə və üzləşdiyi problemlərə birgə nəzər salmaq fürsətini yaradır.

Bu günə qədər keçdiyiniz yol dövlətin iqtisadi və vətəndaş cəmiyyətinin inkişafına şərait yaratmaq və təsisatları gücləndirmək üçün göstərilmiş mühüm səyləri aydın şəkildə göstərir. Bu yol hamıya, xüsusən zəiflərə daim diqqətin göstərilməsini tələb edir. Bu yol multikulturalizmin və mədəniyyətlərin bir-birini lazımi qaydada tamamlamasının müsbət cəhətlərini tanıyan cəmiyyət sayəsində mümkündür. Bu, vətəndaş cəmiyyətinin müxtəlif komponentləri və fərqli dini konfessiyalara mənsub olan şəxslər arasında qarşılıqlı əməkdaşlıq və hörmət münasibətlərinin yaranması üçün edilir.

Fərqlər arasında ahəngdarlığın yaradılması məqsədilə bu birgə səylər hazırkı dövrdə xüsusi əhəmiyyət daşıyır, çünki digər düşüncə və fikir sahiblərinin hüquqlarını pozmayaraq, öz ideya və fikirlərinin bərqərar olmasının mümkünlüyünü göstərir. Hər bir etnik və ideoloji mənsubiyyət digər dini yol kimi, zorakılıq və hökmranlıq istəklərini qanuniləşdirmək məqsədilə öz fikirlərini, özünəməxsusluğunu və ya Tanrının adını sui-istifadə edən davranış və konsepsiyaları yalnız və yalnız istisna edə bilər.

Səmimi-qəlbdən arzu edirəm ki, Azərbaycan müxtəlif mədəniyyətlər və dini konfessiyalar arasında əməkdaşlıq yolunu davam etdirsin. Qoy hər zaman ahəngdarlıq və sülh şəraitində yan-yana yaşama ümumi rifaha hər kəsin töhfə vermək imkanını təmin edərək, çoxsaylı sahələrdə ölkənin sosial və vətəndaş həyatını canlandırsın.

Əfsuslar olsun ki, dünya dözümsüzlükdən qaynaqlanan, zorakı ideologiya ilə qızışdırılan, zəif təbəqələrin hüquqlarının inkar edilməsindən irəli gələn çoxsaylı münaqişələr faciəsini yaşayır. Bu cür təhlükəli meyillərə qarşı qətiyyətlə mübarizə aparmaq üçün sülh mədəniyyətini inkişaf etdirməliyik, çünki o, dialoq və hörmətin daimi varlığından qaynaqlanır. Çünki razılıq doğuran həll variantlarına, etibarlı yollara və daimi əlaqələrə, səbrə alternativ yoxdur.

Bir millət daxilində müxtəlif komponentlər arasında ahəngdarlığın təşviq olunmasını labüd hesab edərək, dövlətlər arasında da əsl tərəqqiyə və xalqların azadlığına aparan yolu müdrikliklə,

cəsarətlə keçmək və davamlı razılığa, sülhə yol açan vasitələri öyrənmək vacibdir. Xalqları həlli çətin olan ağır vəziyyətlərdən, ağrılı çətinliklərdən bu cür qorumaq olar.

Bu ölkəyə gəldikdə, qanlı münaqişə səbəbindən öz torpaqlarını məcburiyyət qarşısında tərk etmiş, əziyyət çəkən bu qədər şəxslərə böyük vəchlə yaxınlığımı bildirmək istəyirəm. Arzu edirəm ki, beynəlxalq ictimaiyyət öz lazımi yardımını daim göstərsin. Yeni mərhələnin başlanmasını mümkün etmək məqsədilə bölgədə sabit sülhün qurulması üçün razılıq doğuran həll variantına nail olmaq naminə hamını əlindən gələni etməyə çağırıram. İnanıram ki, Tanrının himayəsi ilə və tərəflərin xoş iradəsi sayəsində Qafqaz dialoq və danışıqlar yolu ilə elə bir məkana çevriləcək ki, ziddiyyətlər və fərqlər çözüləcək, aradan qalxacaqdır. Ölkənizə səfəri zamanı müqəddəs II İohan Pavelin gözəl kəlamı ilə desək, qoy «Şərq ilə Qərbin arasında qapı» olan bu məkan sülhə açıq olsun və digər keçmiş, eləcə də yeni münaqişələrin həlli üçün nümunəyə çevrilsin.

Davamçıları ölkədə sayca az olan Katolik kilsəsi Azərbaycanın vətəndaş və sosial həyatına qovuşur, sevincini bölüşür və çətinliklərin aradan qaldırılmasında iştirak edir. 2011-ci ildə Müqəddəs Taxt-tacla beynəlxalq Sazişin ratifikasiyasından sonra kilsənin hüquqi şəxs kimi tanınması Azərbaycanda katolik icmasının həyatının sabit olması üçün normativ əsası yaratdı.

Bununla yanaşı, katolik icmasının müsəlman, pravoslav və yəhudi icmaları ilə səmimi münasibətləri saxlamasından xüsusi olaraq məmnunam və arzu edirəm ki, dostluq və əməkdaşlıq telləri daha da artsın. Bu cür yaxşı münasibətlər sülh şəraitində yan-yana yaşama və dünyada sülh üçün xüsusi əhəmiyyət kəsb edir və göstərir ki, müxtəlif dini konfessiyaların mənsubları arasında səmimi əlaqələr, hörmət və hamının rifahı üçün əməkdaşlıq mümkündür.

Əsl dini dəyərlərə bağlılıq hər şeydən əvvəl Tanrının müqəddəs adından istifadə edərək, zorakılıqla öz baxışlarını digər şəxslərə qəbul etdirmək cəhdinə tam ziddir. Tanrıya inam cəmiyyətin

ümumi rifahına xidmət edən qarşılıqlı anlaşmaya və hörmətə, qarşılıqlı yardıma sövq edən əsl mənbədir.

Qoy Tanrı Azərbaycana harmoniya, sülh və çiçəklənmə nazil etsin!

* * *

*Sonra Roma Papası Fransisk Azərbaycanın mədəniyyət, incəsənət, ədəbiyyat və elm xadimləri ilə görüşdü.*

*Roma Papası Heydər Əliyev Mərkəzinin Xatirə kitabına ürək sözlərini yazdı.*

*Daha sonra xatirə şəkli çəkdirildi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Roma Papası Fransiski yola saldılar.*

## LATVİYA RESPUBLİKASI SEYMİNİN SƏDRİ İNARA MURNİETSENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Latviya Respublikası Seyminin Sədri İnara Murnietsenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycanın və Latviyanın parlament nümayəndələrinin müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən Avropa Şurası çərçivəsində əməkdaşlıq etdiyini deyən dövlətimizin başçısı iki ölkə arasında bütün sahələrdə yaxın münasibətlərin olmasının vacibliyini vurğuladı. Ölkəmizin ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsində maraqlı olduğunu deyən prezident İlham Əliyev bu baxımdan İnara Murnietsenin Azərbaycana səfərinin əhəmiyyətini qeyd etdi.*

*Azərbaycana ilk dəfə 12 il əvvəl səfər etdiyini deyən İnara Murnietse ölkəmiz haqqında çox gözəl xatirələrinin olduğunu bildirdi. O vaxtdan ötən dövr ərzində Azərbaycanda çox müsbət dəyişikliklərin şahidi olduğunu deyən Latviya Seyminin Sədri bu nailiyyətlərin əldə edilməsində ölkə rəhbərliyinin vacib rol oynadığını vurğuladı. Paytaxtımızın çox müasir şəhər olduğunu deyən qonaq Bakının milli və tarixi ənənələrlə yanaşı, müasir arxitekturanı özündə birləşdirməsinin şəhərə xüsusi ecazkarlıq verdiyini dedi. Azərbaycanda savadlılığın yüksək səviyyədə olduğunu deyən Latviya Seyminin Sədri ölkəsində də təhsilə böyük önəm verildiyini bildirdi. Azərbaycanın xeyriyyəçilik sahəsində gördüyü işlərə toxunan İnara Murnietse bu istiqamətdə birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun fəaliyyətini yüksək qiymətləndirdi.*

*Prezident İlham Əliyev Latviyada da tarixi memarlığın, mədəniyyətin və milli irsin qorunub saxlanılması istiqamətində çox*

*işlərin görüldüyünü, Riqaya son səfərində bunun şahidi olduğunu qeyd etdi. Hər iki ölkənin paytaxt şəhərlərində yerləşən «İçərişəhər»in ölkələrimizin qürur mənbəyi olduğunu deyən dövlətimizin başçısı bunu qədim tarixin və milli ənənələrin bariz nümunəsi kimi dəyərləndirdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı, eyni zamanda, iki ölkə arasında bir sıra sahələrdə əməkdaşlıq imkanları müzakirə olundu.*

## İRAN İSLAM RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ ƏBDÜLRZA RƏHMANİ FƏZLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də İran İslam Respublikasının Daxili İşlər naziri Əbdülrza Rəhmani Fəzlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Prezidentlər səviyyəsində mütəmadi görüşlərin keçirilməsinin önəmini qeyd edən prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin bu ilin avqust ayında Azərbaycana və özünün İrana son rəsmi səfərini məmnunluqla xatırlatdı. Ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə daha da yüksək səviyyəyə qaldırılmasının əhəmiyyətini vurğulayan dövlətimizin başçısı xüsusilə Daxili İşlər nazirlikləri arasında əməkdaşlığın inkişafının vacibliyini qeyd etdi. Prezident İlham Əliyev İran İslam Respublikasının Daxili İşlər naziri Əbdülrza Rəhmani Fəzlinin ölkəmizə səfərinin bu sahədə əməkdaşlığın daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*İran İslam Respublikasının Daxili İşlər naziri Əbdülrza Rəhmani Fəzli İran prezidenti Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı. Əbdülrza Rəhmani Fəzli dedi ki, prezident Həsən Ruhani iki tərəf arasında əldə olunan razılaşmalara əsasən, işlərin daha da genişləndirilməsi və irəliləməsi üçün bütün səylərin göstəriləcəyinə və bu işlərin uğurla həyata keçiriləcəyinə ümidvar olduğunu bildirib.*

*Əbdülrza Rəhmani son illər ölkələrimiz arasında əməkdaşlığın uğurla inkişaf etdiyini və çox yaxşı nəticələr əldə olunduğunu vurğuladı.*

*Görüşdə əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.*

## DÜNYA ŞÖHRƏTLİ MÜĞƏNNİ RƏŞİD BEHBUDOVUN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİ

*4 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 4-də Bakıda Rəşid Behbudov küçəsində dünya şöhrətli müğənni, SSRİ Xalq artisti, Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı Rəşid Behbudovun abidəsinin açılışı mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı İlham Əliyevə məlumat verildi ki, dünya şöhrətli müğənninin adını daşıyan Dövlət Mahnı Teatrının qarşısında ucaldılan heykəlin müəllifi Xalq rəssamı, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının prorektoru professor Fuad Salayevdir. Heykəlin hündürlüyü 3, pyedestalla birlikdə isə 4,5 metrdir.*

*Prezident İlham Əliyev xanımı Mehriban Əliyeva və məşhur müğənninin ailə üzvləri ilə birlikdə heykəlin üzərindəki örtüyü götürdü.*

*Dövlətimizin başçısı abidənin önünə gül dəstəsi qoydu və çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün biz dünya şöhrətli müğənni, görkəmli musiqi xadimi Rəşid Behbudovun abidəsinin açılışına toplaşmışıq. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Rəşid Behbudov öz həyatını musiqiyə həsr etmişdir. Onun təkrarolunmaz səsi bizim milli sərvətimizdir. Rəşid Behbudov doğma xalqına, millətinə çox bağlı insan idi. O, Azərbaycanı həm Sovet İttifaqı çərçivəsində, həm də dünyada təbliğ edirdi. Onun ifa etdiyi mahnılar sovet məkanında çox populyar idi. Deyə bilərəm

ki, o, Sovet İttifaqında ən populyar ifaçılardan biri idi. O bir çox xarici ölkələrdə qastrollarda olmuşdu. O, qastrollarda həm Azərbaycan mahnılarını, həm də xarici dillərdə mahnılar ifa edirdi və Azərbaycanı təbliğ edirdi. Bir çox ölkələrdə Azərbaycanı Rəşid Behbudova görə tanıyırdılar. O vaxt Azərbaycan müstəqil dövlət deyildi, biz Sovet İttifaqının tərkibində idik. Ancaq Rəşid Behbudov kimi istedadlı insanlar Azərbaycanı dünyada təmsil edirdilər və göstərirdilər ki, bizim xalqımız nə qədər istedadlıdır.

O, hərtərəfli istedadlı insan, gözəl aktyor idi. Onun ifa etdiyi rollar bizim «qızıl fond»umuzdadır. O rollara, o filmlərə dəfələrlə baxmaq olar. O filmlər ilk növbədə, səslənən musiqiyə və onun oynadığı rollara görə əbədi yaşayacaqdır.

Rəşid Behbudov ölkəmiz, xalqımız üçün çox işlər görüb. Biz həmişə onu yadda saxlayırıq. Həmişə televizorda onun mahnıları səslənəndə bir daha görürük ki, bu insan nə qədər istedadlı və gözəl insan idi. Rəşid Behbudov çox xeyirxah, səmimi insan idi. Mən onu uşaqlıqdan tanıyırdım. Çünki mənim atam Heydər Əliyev ilə onu çox səmimi dostluq əlaqələri bağlayırdı. O bizim evimizdə dəfələrlə olmuşdur. Mən o görüşlərin bəzilərində olmuşam, görmüşəm, özüm şəxsən müşahidə aparmışam. Görürdüm ki, o çox sadə, səmimi, xeyirxah bir insan idi. Bir daha demək istəyirəm ki, Heydər Əliyevi Rəşid Behbudovla çox möhkəm dostluq əlaqələri bağlayırdı.

Rəşid Behbudov Sovet İttifaqında çox yüksək qiymətə layiq görülmüşdür. O, Sovet İttifaqının ən ali mükafatı olan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. Bu həm onun fəaliyyətinə, eyni zamanda, bütün Azərbaycan mədəniyyətinə verilən qiymət idi. O, gənc yaşlarında Sovet İttifaqının Xalq artisti adına layiq görülmüşdür. O vaxt bu adı qazanmaq doğrudan da onu göstərirdi ki, Rəşid Behbudov təkrarolunmaz mədəniyyət xadimidir. Təbii ki, Azərbaycan Respublikasının Xalq artisti idi. Eyni zamanda, çox geniş ictimai fəaliyyəti var idi. O həm Azərbaycan Ali Sovetinin, həm də Sovet İttifaqı Ali Sovetinin deputatı kimi, çox böyük işlər görürdü. Çünki o həm Azərbaycanda, həm sovet məkanında həddindən artıq populyar bir

insan idi. Sovet İttifaqında onu tanımayan insan tapılmazdı. Onun oxuduğu mahnılar Sovet İttifaqının bütün guşələrində səslənirdi, digər dillərdə də ifa olunurdu. Qeyd etdiyim kimi, Rəşid Behbudov müxtəlif dillərdə gözəl mahnılar ifa edirdi, ancaq ən gözəl mahnılar bizim xalq mahnılarımız və Azərbaycan bəstəkarlarının mahnıları idi. Bu mahnıları ondan əvvəl və ondan sonra onun kimi heç kim ifa edə bilməyib və yəqin ki, bilməyəcək. Çünki bu böyük sənətkarın nəinki təkrarolunmaz səsi var idi, eyni zamanda, onun ifaçılıq qabiliyyəti, şəxsi keyfiyyətləri, şəxsiyyəti bu nadir istedadı bizə bəxş edib. Fəxr edirik ki, bizim xalqımızın nümayəndəsi dünya şöhrətli musiqi xadimidir. Azərbaycan xalqı fəxr edə bilər ki, dünyaya Rəşid Behbudov kimi böyük insanı bəxş edib.

Əfsuslar olsun ki, Rəşid Behbudov müstəqil Azərbaycanda yaşamadı. O, 1989-cu ildə həyatdan getdi, müstəqil Azərbaycanı görmədi. Ancaq çox görmək istərdi. Çünki öz xalqına, millətinə bağlı, milli ruhu yüksək olan insanların hamısı istərdilər ki, müstəqil dövlətdə yaşasınlar, öz müstəqil dövlətini təbliğ etsinlər.

Azərbaycanda Rəşid Behbudovun adı əbədiləşdirilib. Onun adını daşıyan Dövlət Mahnı Teatrı fəaliyyət göstərir. Musiqi məktəbi onun adını daşıyır. Bax, bu küçə Rəşid Behbudovun adını daşıyır. Xəzər Dəniz Gəmiçiliyinin ən müasir gəmilərindən birinə onun adı verilib. Keçən il Rəşid Behbudovun 100 illik yubileyi ilə əlaqədar tədbirlər planı tərtib edilib, mənim tərəfimdən müvafiq sərəncam imzalanıb və bu gün Rəşid Behbudovun abidəsi açılır. Bu gözəl hadisə münasibətilə Rəşid Behbudovun ailə üzvlərini, yaxınlarını, dostlarını, bütün Azərbaycan xalqını bir daha təbrik etmək istəyirəm. Rəşid Behbudov həmişə bizim ürəyimizdə yaşayacaqdır. Sağ olun.

* * *

**F i r ə n g i z Ə l i z a d ə** *(Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor):* Cənab Prezident!

Əziz və hörmətli Mehriban xanım!

Rəşid Behbudovun yadigarı Rəşidə xanım!

Doğrudan da çox gözəl gündür. Əziz dostlar, biz Rəşid Behbudovun səsi ilə böyümüşük, musiqiçi olmuşuq, Azərbaycan musiqisini sevmişik, onu öyrənmişik.

Rəşid Behbudov doğrudan da nadir səsə malik insan və şəxsiyyət idi. Onda həm avropasayağı gözəl tenor səs, həm Azərbaycan musiqisinə xas olan incəliklər, xırdalıqlar, digər tərəfdən, klassik opera ifa etmək üçün güclü gözəl səs var idi.

Bizim iki dahi müğənnimiz keçmiş Sovet İttifaqında çox məşhur idi. Bunlar Müslüm Maqomayev və Rəşid Behbudov idi. Müslüm Maqomayevin səsi tamamilə başqa bir səs idi. Demək olar ki, onun səsi Sovet İttifaqının və bütün dünyanın estrada musiqisinə inteqrə olan səs idi. Amma Rəşid Behbudov milyonlarla insana Azərbaycan musiqisinin koloritini çatdırırdı. Onun səsində bu kolorit, azərbaycançılıq, milli ruh həmişə duyulurdu. Heç də təsadüfi deyil ki, bizim xalq mahnılarımız onun ifasında təkrarolunmaz bir interpretasiyada təqdim olunurdu.

Rəşid Behbudov çox kreativ bir insan idi. Onun ideyası nəticəsində bu gözəl teatr fəaliyyət göstərməyə başladı və burada hər mahnı, demək olar ki, maraqlı bir səhnə əsəri kimi təqdim olunurdu. Rəşid Behbudov özü də hər mahnıya bir səhnəcik kimi yanaşırdı, çox məsuliyyətli insan idi.

Bilirik ki, Rəşid Behbudov bizim Opera və Balet Teatrında Balaş rolunu çox yüksək səviyyədə ifa etmişdi. Həmçinin onun müxtəlif filmlərdə rol oynadığını da bilirik. Demək olar ki, 100 ən tanınmış film nümunəsi arasında «Arşın mal alan» öz yerini tutub. Nəyə görə? Təbii ki, ilk öncə Üzeyir Hacıbəylinin dahi musiqisinə, ikincisi, Rəşid Behbudovun məlahətli səsinə və üçüncüsü, Leyla Bədirbəylinin gözəlliyinə görə. Bu film doğrudan da 100 ən tanınmış film arasında ən gözəl filmlərdən biridir.

Rəşid Behbudovun səsi bizi həmişə müşayiət edir. Biz onu eşidib Azərbaycanı, Vətənimizi sevirik. Mən bir daha möhtərəm cənab Prezidentimizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm ki, bizim mədəniyyətimizə, incəsənətimizə, musiqimizə bu qədər dəstək verir, bu qədər maraq göstərir. Təşəkkür edirəm və hamını təbrik edirəm. Sağ olun.

**M ü b a r i z  T a ğ ı y e v** *(Azərbaycanın Xalq artisti):* Cənab Prezident!

Mehriban xanım, Rəşidə xanım, əziz rəşidsevərlər!

Mənim sənət yolumun 20 ili Mahnı Teatrı ilə bağlı olub. Yəni Rəşid Behbudovun tələbəsi olmuşam, onun yetirmələrindən biriyəm. Dünyanın 20-dən artıq ölkəsində Rəşid Behbudovla qastrol səfərlərində olmuşuq. O illərdə Azərbaycanımızı qarış-qarış gəzmişik. Mən Mahnı Teatrının veteranları adından Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin qeyd etdiyiniz kimi, Rəşid Behbudovun sənətinə layiqincə qiymət verilib. Onun adına küçə, Mahnı Teatrı, fond və s. var. Bu gün açılışını etdiyiniz bu abidə bütün bu deyilənlərə bir sübutdur və ürəkdən gələn bütün sözləri tamamlayır.

Çünki teatrın bu binada fəaliyyətə başladığı və pərdəsi asılan gündən mən onun şahidi olmuşam. Əfsuslar olsun ki, Rəşid Behbudov bunun açılışını edə bilmədi. Ancaq onun sənəti o qədər böyükdür ki, Mahnı Teatrı bu gün də yaşayır. Burada gənc nəsil böyüyür, öyrənir və s. Bu heykəl canlı Rəşid kimi, indi bu binanın qarşısındadır. Mən «heykəl» sözünü işlətdim. Heykəllər əbədi olurlar, Rəşid Behbudovun sənəti kimi. Sağ olun.

**X u r a m a n  Q a s ı m o v a** *(Xalq artisti, Dövlət Mükafatı laureatı):* Çox hörmətli cənab Prezidentimiz!

Hörmətli Mehriban xanım!

Xanımlar və cənablar!

Bu gün doğrudan da böyük bir bayramdır. Nəhayət, çox gözlədiyimiz bu heykəli biz gördük. Buna görə, cənab Prezident, şəxsən Sizə təşəkkürümüzü bildiririk. Çünki Siz neçə-neçə sərəncamlar imzalamısınız və bizim sənətçilərin adını əbədi-

ləşdirmisiniz, bax, belə heykəllərlə – Fikrət Əmirovun, Qara Qarayevin, nəhayət, Rəşid Behbudovun.

Bəli, Rəşid Behbudov təkrarolunmaz səsə malik ifaçı idi. Doğrudan da onun yaratdığı Mahnı Teatrının önündə belə bir heykəl ucalmalı idi. Biz dəfələrlə onunla səhnələrdə çıxış etmişik. Onun çıxışlarına hazırlıq dəqiqələrini hiss etmişik, görmüşük, onun tövsiyələrini eşitmişik. İndiki gənclər kimi, biz də gənc yaşlarımızda hər zaman Rəşid Behbudovun ifa etdiyi əsərləri dinləyib ifa edirdik. Dəfələrlə onlara qulaq asaraq, biz də istəyirdik ki, onun kimi ifalar olsun. Lakin o təkrarolunmazdır. Bunu hamı qəbul edir ki, o, təkrarolunmaz bir ifaçı idi. Ona layiq olmaq üçün Vətəni onun kimi sevmək lazımdır. O çox vətənpərvər insan idi, Vətəni üçün ürəyi yanırdı. Ali Sovetin deputatı olanda o, Vətən üçün çox can yandırırdı.

Ona görə Sizə yenə də təşəkkür edirəm ki, bu gün ən gözəl küçələrdən birində – onun adını daşıyan küçədə, ən mərkəzdə belə bir heykəl ucaldılıb. Təşəkkür edirəm.

**F i d a n  Q a s ı m o v a** *(Azərbaycan və SSRİ Xalq artisti, Dövlət Mükafatı laureatı):* İcazənizlə, mən də iki kəlmə demək istəyirəm.

Çox xoşbəxt insanam ki, 1974-cü ildə dahi Niyazi «Arşın mal alan»ı vala yazmaq üçün məni çağırdı. Mən Gülçöhrənin partiyasını dərhal ifa etdim, tezliklə Bakıya gəldim və işlər başlandı. Mən məşqlərdə dahi Rəşid Behbudov ilə tanış oldum. Biz çox yüksək əhval-ruhiyyə ilə valı yazdırmağa başladıq. Bu, bir örnək, dərs idi. İnsan o qədər də tələbkar müğənni olarmı?! Unudulmaz səs, gözəl diapazon, onun yüksək notları, si bemolları. O, si bemolları iki dəfə götürdü və üçüncü dəfə dedi ki, mən götürməyəcəyəm. Yalnız iki dəfə götürdü. Bildim ki, üçüncü dəfə götürməyəcək. Çünki öz notlarına, səsinə çox qiymət verirdi. O «qızıl səs» mənim qəlbimdə, yadımda qalıb.

Mən öz yaradıcılığımda, fəaliyyətimdə xoşbəxtəm ki, Allah məni Rəşid Behbudov ilə qarşılaşdırdı. Moskvada da qala-konsertlərdə tez-tez görüşərdik. Belə bir dahi ilə səhnədə olmaq

mənim üçün böyük xoşbəxtlikdir. Bunları demək istəyirdim. Diqqətinizə görə çox sağ olun, hamınıza təşəkkür edirəm.

* * *

*Dünya şöhrətli müğənninin xatirəsinə göstərilən ehtirama görə prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya ailə üzvləri adından Rəşid Behbudov Fondunun rəhbəri Kamil Şahverdiyev təşəkkür etdi.*

**Kamil Şahverdiyev:** Çox hörmətli möhtərəm prezident İlham Əliyev!

Sevimli Mehriban xanım!

Sizə Rəşid Behbudovun ailəsi və Rəşid Behbudov Fondu adından, bütün rəşidsevərlər adından dərin təşəkkürümü bildirirəm. Əfsuslar olsun ki, bu gün burada iştirak edə bilməyən Ceyran xanımın Sizə dərin ehtiram və hörmətini çatdırıram. Ceyran xanım xahiş etdi ki, onun sevgisini, hörmətini, ehtiramını və dərin təşəkkürünü Sizə çatdırım.

Rəşid Behbudovun bu gözəl abidəsinin açılışı nəinki bizim ailə, rəşidsevərlər üçün, ümumiyyətlə, bütün Azərbaycan mədəniyyəti üçün çox böyük tarixi hadisədir. İcazə verin, bütün mədəniyyət xadimləri adından Sizə dərin təşəkkürümü bildirim.

Bu gün iqtisadi, siyasi uğurları ilə yanaşı, Sizin səyləriniz nəticəsində Azərbaycan mədəniyyəti dünyada çox gözəl, çox geniş təbliğ olunur və bu bizim ən böyük silahlarımızdan biridir. Siz Mehriban xanımla birgə Azərbaycan mədəniyyətini dünyada geniş təbliğ edirsiniz. Siz Azərbaycanı dünyada qüdrətli və mədəni bir dövlət kimi tanıdırsınız. İcazə verin, hamımızın adından Sizə təşəkkürümü, dərin ehtiramımı bildirim. Çox sağ olun, minnətdaram.

* * *

*Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və tədbirin iştirakçıları abidənin önünə gül dəstələri qoydular.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Rəşid Behbudovun ailə üzvləri, həmçinin mədəniyyət və incəsənət xadimləri ilə söhbət etdilər.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva dünya şöhrətli müğənninin ailə üzvləri və mərasimə gələn qonaqlarla xatirə şəkilləri çəkdirdilər.*

*Daha sonra prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və mərasim iştirakçıları Rəşid Behbudov adına Dövlət Mahnı Teatrının estrada-simfonik orkestrinin müşayiəti ilə Əməkdar artist Xəyyam Mustafazadə və müğənni Fəxri Kazım Nicatın ifasında dünya şöhrətli müğənnilər Rəşid Behbudovun və Müslüm Maqomayevin repertuarlarından mahnılar dinlədilər.*

## RUMINİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ DAN İANKU İLƏ GÖRÜŞ

*5 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Rumıniyanın ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Dan İankunun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Dan İanku Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Dan İanku etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycan ilə Rumıniyanın strateji tərəfdaş olduğunu qeyd edən dövlətimizin başçısı ölkəmizin dövlətlərimiz arasında əməkdaşlığı genişləndirmək və tərəfdaşlığımızı ikitərəfli, eləcə də Avropa İttifaqı–Azərbaycan və NATO–Azərbaycan əlaqələri çərçivəsində gücləndirməkdə maraqlı olduğunu dedi. Prezident İlham Əliyev Rumıniyaya dəfələrlə səfər etməsini məmnunluqla xatırladaraq Rumıniyanı Azərbaycanın Avropadakı ən yaxın tərəfdaşlarından biri kimi dəyərləndirdi. Dövlətimizin başçısı Rumıniyanın Azərbaycanda çoxlarına yaxşı tanış olduğunu, insanların bu ölkəyə yüksək ehtiramla yanaşdıqlarını bildirdi.*

*Rumıniya prezidenti Klaus Yohannisin prezident İlham Əliyevə və Azərbaycan xalqına xoş arzularını çatdıran səfir Dan İanku ölkələrimizin strateji tərəfdaş olduqlarını vurğuladı. Rumıniyalı diplomat ölkəmizə gələrkən, inkişafın və böyük potensialın, həmçinin Bakının möhtəşəmliyinin şahidi olduğunu dedi. Səfir Dan İanku Azərbaycanı Şərqlə Qərbin, Cənubla Şimalın yolayrıcında yerləşən, zəngin və qədim tarixi və mədəniyyəti olan bir ölkə kimi xarakterizə etdi. Azərbaycanda tolerantlıq ənənələrinin böyük tarixi olduğunu qeyd edən Dan İanku Roma Papası Fransiskin ölkəmizə səfərini Azərbaycanda tolerantlığa,*

*müxtəlifliyə, harmoniyaya ehtiramın əməli ifadəsi kimi dəyərləndirdi.*

*Prezident İlham Əliyev Dan İankuya uğurlar arzuladı, onun Azərbaycanda fəaliyyəti müddətində insanlarla görüşmək, ölkəmizlə tanış olmaq üçün yaxşı imkan yaranacağına ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı Azərbaycanda mədəni müxtəliflik, multikulturalizm kimi məsələlər üzərində fəal iş aparıldığını dedi.*

*Prezident İlham Əliyev Rumıniya prezidenti Klaus Yohannisin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rumıniya Prezidentinə çatdırmağı xahiş etdi.*

## QƏTƏR DÖVLƏTİNİN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ YUSİF BİN HƏSƏN ƏL-SAİ İLƏ GÖRÜŞ

*5 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Qətər Dövlətinin ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Yusif bin Həsən əl-Sainin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Yusif bin Həsən əl-Sai Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Yusif bin Həsən əl-Sai etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Qətərin Azərbaycana dost ölkə olduğunu qeyd edən səfir prezident İlham Əliyevin dəstəyi ilə ölkələrimiz arasında dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğuladı və Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd əl-Taninin dövlətimizin başçısına, Azərbaycan xalqına və hökumətinə salamlarını çatdırdı.*

*Azərbaycan–Qətər əlaqələrinin uğurlu inkişafından məmnunluğunu ifadə edən dövlətimizin başçısı İlham Əliyev iki ölkə arasında dost və qardaş münasibətlərin olduğunu vurğuladı. Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd əl-Taninin Azərbaycana rəsmi səfərinin uğurlu olduğunu xatırladan prezident İlham Əliyev keçirilən görüşlər zamanı səmərəli müzakirələrin aparıldığını məmnunluqla qeyd etdi. Qətər Dövlətinin Əmiri ilə bir sıra beynəlxalq forumlar çərçivəsində də görüşdüklərini deyən dövlətimizin başçısı ikitərəfli münasibətlər, həmçinin regional məsələlər ətrafında aparılan fikir mübadiləsinin önəmini vurğuladı.*

*Söhbət zamanı iki ölkə arasında əməkdaşlıq əlaqələrinin bir sıra sahələrdə, xüsusən kənd təsərrüfatı və turizm sahələrində böyük potensiala malik olduğu bildirildi, bu istiqamətdə səylərin artırılmasının vacibliyi diqqətə çatdırıldı.*

*Prezident İlham Əliyev Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd əl-Taninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qətər Dövlətinin Əmirinə çatdırmağı xahiş etdi.*

# İRAN İSLAM RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ CAVAD CAHANGİRZADƏ İLƏ GÖRÜŞ

*5 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də İran İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Cavad Cahangirzadənin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Cavad Cahangirzadə Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Cavad Cahangirzadə etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycan ilə İran arasında münasibətlərin ən yüksək səviyyədə olduğunu məmnunluqla qeyd edən dövlətimizin başçısı əlaqələrimizin bütün sahələrdə sürətlə inkişaf etdiyini bildirdi. Bunun da öz növbəsində, hər iki dövlət başçısının niyyətinin göstəricisi olduğunu vurğulayan prezident İlham Əliyev İran və Azərbaycan prezidentlərinin qarşılıqlı səfərlərinin və bu səfərlər zamanı əldə olunan razılaşmaların önəmini qeyd etdi, ölkəmizin İranla dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsində maraqlı olduğunu dedi. Cavad Cahangirzadəyə ölkəmizdəki diplomatik fəaliyyətində uğurlar arzulayan dövlətimizin başçısı səfirin Azərbaycan–İran ikitərəfli əlaqələrinin daha da inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyinə ümidvar olduğunu bildirdi.*

*Səfir Cavad Cahangirzadə İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdıraraq bildirdi ki, prezident Həsən Ruhani onun ən yaxın dostlarından və qardaşlarından birinin prezident İlham Əliyev olduğunu dedi. Azərbaycan ilə İran arasında əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində hər iki ölkənin prezidentinin siyasi*

*iradəsini əsas götürəcəyini deyən Cavad Cahangirzadə bunun üçün ölkəmizdəki diplomatik fəaliyyəti dövründə səylərini əsirgəməyəcəyini və bu baxımdan prezident İlham Əliyevin hərtərəfli dəstəyinə ümidvar olduğunu bildirdi.*

*Görüşdə ikitərəfli əməkdaşlıq əlaqələrinin müxtəlif sahələrdə, xüsusən təhlükəsizlik, nəqliyyat, infrastruktur layihələri, kənd təsərrüfatı, turizm kimi sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlər müzakirə olundu.*

*Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran İslam Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.*

## ESTONİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ XANIM KERSTİ KALYULAYDA

Hörmətli xanım Kalyulayd!

Estoniya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Estoniya əlaqələrinin genişlənməsi, ölkələrimiz və xalqlarımız arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Estoniya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 oktyabr 2016-cı il*

# XƏTAİ RAYONUNDA YENİ YARADILAN PARK-KOMPLEKSİN AÇILIŞI MƏRASİMİ

*6 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva oktyabrın 6-da Bakının Xətai rayonunda yeni yaradılan «Sevirəm» park-kompleksin açılışında iştirak etmişlər.*

*Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva parkın rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov yeni yaradılan park-kompleks barədə dövlətimizin başçısına məlumat verdi.*

*Bildirildi ki, yeni park-kompleksin ümumi ərazisi 3,2 hektardır. Ərazidə aparılan geoloji işlərin nəticəsində neft tullantıları və mərmər tozu aşkar edilib. Ərazinin torpağı mərmər tozundan və neft tullantılarından təmizləndikdən sonra, 2016-cı ilin iyunundan parkın yaradılmasına və tikinti işlərinə başlanılıb. Burada işlər sentyabrda başa çatdırılıb.*

*Qeyd edək ki, ərazisi münbit torpaqla örtülən parkın uzunluğu 288 metr, eni isə 110 metrdir. Park kompleksin 3 girişi var.*

*Yaşıllaşdırma zamanı IDEA – Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq İctimai Birliyinin təşəbbüsü ilə parkda ağac əkmə kampaniyası keçirilib. Ərazidə 4000-dən artıq müxtəlif növ ağac, o cümlədən 30 illik Eldar şamı, 35 illik sərv, 12 illik tuya ağacları əkilib.*

*Parkda avtomat suvarma sistemi, su və yanğın çənləri, nasosxana, təhlükəsizlik müşahidə kameraları quraşdırılıb, müasir işıqlandırma sistemi yaradılıb.*

*Ərazidə təbii daşlardan yonulmuş heykəllər landşaftla vəhdət təşkil edir. Parkda qoyulmuş 14 heykəlin hər biri xüsusi dizaynı və*

*üslubu ilə fərqlənir. Müxtəlif mövzularda olan bu heykəllər Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilmiş «Daşın nəğməsi» I Beynəlxalq Heykəltəraşlıq simpoziumu çərçivəsində müxtəlif ölkələrdən olan heykəltəraşların yaratdıqları əsərlərdir.*

*Parkda eləcə də Heydər Əliyev Fondunun dəstəyi ilə «Ürəklər» kompozisiyası təqdim olunur. Bu kompozisiya Bakıya, təbiətə, insanlara olan sevgini əks etdirir.*

*Yeni istirahət guşəsinin ərazisində yaradılmış şəlalədə dekorativ və təbii daşlardan istifadə olunub. Burada uşaqlar üçün əyləncə meydançası və yelləncəklər quraşdırılıb.*

*Kompleksin ərazisində iki yerdə avtodayanacaq, bir dekorativ perqola – keçid və kafe var. Ərazidə yanğınsöndürən maşınlar və velosipedçilər üçün hərəkət zolaqları da salınıb.*

*Parkın ərazisində, həmçinin «GreenCar» mərkəzi tərəfindən elektriklə işləyən nəqliyyat vasitələrinin enerjidoldurma stansiyası quraşdırılıb.*

*Azərbaycan prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva yeni park kompleksdə ağac əkdilər.*

## NƏSİMİ RAYONUNDA YENİ SALINAN «QIZILGÜL BAĞI» PARKI İLƏ TANIŞLIQ

*6 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva oktyabrın 6-da Bakının Nəsimi rayonunda yeni salınan «Qızılgül bağı» parkı ilə tanış olmuşlar.*

*«Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev dövlətimizin başçısına və xanımına parkda görülən işlər barədə məlumat verdi.*

*Yeni park «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC-nin uzun müddət istifadə olunmayan Radio Mərkəzinin 1906-cı ildə inşa edilən binasının ərazisində salınıb. Ümumi sahəsi 6300 kvadratmetr olan istirahət parkı dünyanın məşhur şirkətinin dizaynı əsasında layihələndirilib. Təmir işləri yüksək keyfiyyətlə, müasir tələblər səviyyəsində və qısa vaxtda həyata keçirilib. Əvvəllər Radio Mərkəzinin binası kimi fəaliyyət göstərən tikili də yenidən qurulub. İndi bura kafe kimi fəaliyyət göstərəcək. Təmir zamanı qədim binanın tarixi element və fiqurları yüksək keyfiyyətlə bərpa edilib. Bu isə binanın xarici görünüşünün qorunub saxlanılmasına, eyni zamanda, müasir memarlıqla uzlaşdırılmasına geniş imkanlar yaradıb. İstirahət məkanı orijinal elementlər və formalarla daha da zənginləşdirilib ki, bu da parka xüsusi yaraşıq verir.*

*Yeni salınan parkda Bakı sakinlərinin, şəhərin qonaqlarının mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait vardır. Park yaradılarkən balacalar da yaddan çıxmayıb. Onlar üçün xüsusi istirahət guşəsi, müxtəlif attraksionlar qurulub. Bu istirahət məkanında yaradılan meydança və fəvvarə ərazinin gözəlliyini daha da artırır.*

*Parkda aparılan abadlıq-quruculuq işləri çərçivəsində həyata keçirilən geniş yaşıllaşdırma işləri də diqqəti cəlb edir. Bu işlər*

*görülərkən, ərazidə mövcud olan çoxillik ağaclar saxlanılıb. Bundan başqa, parkda 200-dən çox müxtəlif növ yeni ağaclar, gül və bəzək kolları əkilib.*

*Belə yeni müasir istirahət ocağının yaradılması prezident İlham Əliyevin tapşırığı ilə Bakıda parkların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması işinə bir töhfədir. Belə layihənin həyata keçirilməsi həm də ümumilikdə, paytaxtımızın simasının gündən-günə gözəlləşməsini bütün dünyaya nümayiş etdirmək baxımından mühüm əhəmiyyət daşıyır.*

## NAZİRLƏR KABİNETİNİN 2016-cı İLİN 9 AYININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA* İŞTİRAK

*7 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə oktyabrın 7-də Nazirlər Kabinetinin 2016-cı ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Bu gün biz ənənəvi olaraq 9 ayın yekunlarını müzakirə edəcəyik və ilin sonuna qədər görüləcək işlər haqqında, gələn il görüləcək işlər haqqında danışacağıq.

2016-cı il dünya iqtisadiyyatı üçün çox ağır il olmuşdur. Tarixdə bəlkə də ən ağır illərdən biri. Dünya iqtisadiyyatında böhranlı vəziyyət davam edir. Bu böhrandan həm təbii resurslarla zəngin olan ölkələr, eyni zamanda, istehlakçı ölkələr əziyyət çəkir. Təbii ki, neftin qiymətinin kəskin şəkildə düşməsi neftlə zəngin olan ölkələrin iqtisadiyyatına mənfi təsir göstərmişdir. Eyni zamanda, neft ölkələrində öz kontraktlarını icra edən digər ölkələr də əziyyət çəkir.

---

* Nazirlяr Kabinetinin 2016-сы ilin 9 ayыnыn sosial-iqtisadi inkiшafыnыn yekunlarыna vя qarшыda duran vяzifяlяrя hяsr olunmuш iclasыnda Баш nazirin mцavini, Qaчqыnlarыn vя Mяcburi Кючкцnlяrin Ишlяri цzrя Dюvlяt Komitяsinin sяdri Яli Həsənov, Sяhiyyя naziri Oqtay Ширяliyev və Tяhsil naziri Mikayыl Cabbarov чыхыш etdilər.

Çünki o ölkələrin şirkətləri kontraktları daha az həcmdə icra edir və beləliklə, bu böhran o ölkələrə də mənfi təsir göstərir.

2016-cı ildə dünyada siyasi və hərbi böhran yaşanır. Dünyanın müxtəlif bölgələrində qanlı toqquşmalar, müharibələr alovlanır, risklər, təhdidlər artır. Yaxın Şərqdə vəziyyət deyə bilərəm ki, kritik həddə çatıb. Yaxın Şərqdə müşahidə olunan qarşıdurma çox böyük fəlakətə gətirib çıxara bilər. Çünki hamımız yaxşı görürük ki, vəziyyət getdikcə kəskinləşir.

Avropanın miqrant böhranı, demək olar ki, bütün dünyada müşahidə olunur. Mən miqrant böhranı haqqında dəfələrlə öz fikirlərimi bildirmişəm. Bir daha demək istəyirəm ki, öz canlarını qurtarmaq istəyən o insanların heç bir günahı yoxdur. Onların ölkələri xarici müdaxilə nəticəsində dağıdılıb. Onların şəhərləri yerlə yeksan edilib, yaxınları, qohumları, yüz minlərlə insan həlak olub. Onlar öz canlarını qurtarmaq üçün Avropaya pənah aparırlar. Ancaq Avropada bəzi hallarda onları tikanlı məftil, qəfəs gözləyir. Bu da, əlbəttə ki, əgər belə demək mümkündürsə, bu ilin əlamətidir və bu, sivilizasiyalararası münasibətlərə çox böyük zərbə vurur. Biz artıq neçə ildir çalışırıq ki, mədəniyyətlərarası dialoqu gücləndirək. Bizim fəaliyyətimiz dünyada böyük rəğbət qazanıb. Ancaq əfsuslar olsun ki, dünyanın müxtəlif ölkələrində tendensiya əks istiqamətdə gedir.

Miqrant böhranı öz növbəsində, Qərb ölkələrində radikal partiyaların xeyrinə işləyir, onlar daha çox səs toplayırlar. Bu, ilk növbədə onu göstərir ki, cəmiyyət artıq onlara daha böyük dəstək verir, eyni zamanda, əgər gələcəkdə bu meyil davam etsə, bu partiyalar hakimiyyətə gələcək – ondan sonra onların siyasətinin nədən ibarət olacağı heç kəs üçün sirr deyil – beləliklə, sivilizasiyalararası qarşıdurma dərinləşəcək. Bizim cəmiyyətimiz bütün bu reallıqları bilməlidir. Artıq həm yaşadığımız bölgə, həm dünya dəyişib. Biz də öz siyasətimizi buna uyğun şəkildə aparmalıyıq.

Bizim üstünlüyümüz ondan ibarətdir ki, həmişə öz yolumuzla gedirik, öz siyasətimizi aparırıq, heç kimin sözü ilə oturub-durmuruq. Ona görə bu gün Azərbaycanda inkişaf və sabitlik vardır. Bəzi insanlar bu gün də belə deməkdə davam edirlər ki, biz harasa

inteqrasiya etməliyik. Bəlkə özləri də dərk etmirlər ki, bu nə deməkdir. Biz hara lazımdırsa, artıq ora inteqrasiya etmişik. Bu gün Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarda çox böyük rol oynayır və böyük rəğbət qazanıbdır. Ancaq biz hara inteqrasiya etməliyik? Bəziləri deyirlər ki, kiminsə xoşuna gəlmək üçün, yaxud da ki, donor pullarını əsaslandırmaq üçün biz Avropaya inteqrasiya etməliyik. Sual olunur, biz hansı Avropaya inteqrasiya etməliyik? Bax, bugünkü Avropa göz qabağındadır. Özləri etiraf edirlər, Avropa İttifaqının ən böyük rəhbərləri etiraf edirlər ki, indi Avropa məkanında dərin böhran yaşanır. Biz oramı inteqrasiya etməliyik, böhranamı inteqrasiya etməliyik?! «Müsəlmanlara stop» deyənlərəmi inteqrasiya etməliyik?! Biz müsəlman qaçqınlara ikili standartlar tətbiq edənlərəmi inteqrasiya etməliyik?! Biz müsəlmanları qəfəsdə saxlayanlaramı inteqrasiya etməliyik?! Bax, sual bundan ibarətdir və biz bunların hamısını deyirik. Ona görə də bəzi hallarda bizə qarşı təzyiqlər də olur, kampaniyalar da aparılır, müxtəlif iftiralar da uydurulur. Bax, biz bu reallığı bilməliyik.

Biz öz yolumuzla gedirik və Avropa ilə çox sıx əlaqələr qura bilmişik. Həm Avropa İttifaqı ilə bizim müxtəlif sənədlərimiz imzalanıb, eyni zamanda, növbəti sənəd üzərində iş aparılır. Bizim təşəbbüsümüzlə Avropa Komissiyasına göndərdiyimiz təklif indi müzakirə olunur, biz tərəfdaşlıq formatı haqqında danışırıq. Avropa İttifaqına üzv olan 9 ölkə ilə bizim strateji tərəfdaşlıq haqqında sənədlərimiz var. Biz 15 ildir ki, Avropa Şurasında çalışırıq və orada da bizim mövqelərimiz gündən-günə möhkəmlənir. Biz hətta o təşkilatda da dönüş yarada bilmişik. Avropa Şurası Parlament Assambleyasındakı deputatların əksəriyyəti artıq görür ki, bizə qarşı ədalətsizliklər, ikili standartlar olub və bu gün vəziyyət tam normaldır. Ona görə əməkdaşlıqla bağlı bizim heç bir problemimiz yoxdur. Biz bu əməkdaşlığa meyilliyik. Amma biri var əməkdaşlıq, biri də var inteqrasiya. Bu iki sözün arasında fərqi bilməyənlər bu gün bir daha eşitsinlər və yersiz, özlərini təbliğ etmək, kiminsə xoşuna gəlmək üçün söz-söhbətlərə son qoysunlar.

Belə bir beynəlxalq mənzərə fonunda Azərbaycan uğurla inkişaf edir. Biz mötəbər beynəlxalq tədbirlər keçiririk. Bu yaxınlarda V Bakı Beynəlxalq Humanitar Forumu öz işini yekunlaşdırdı. Forumda 80-ə yaxın ölkədən 400-dən çox tanınmış xadim iştirak etmişdir. Forumda bir daha bizim gördüyümüz işlər, xüsusilə multikulturalizmlə bağlı gördüyümüz işlər yüksək qiymətləndirildi. Bu il ölkəmizdə digər beynəlxalq tədbirlər də keçirilib. Onların arasında BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunu xüsusilə qeyd etmək istəyirəm. Bu Forumun Azərbaycanda keçirilməsi bu sahədə gördüyümüz işlərə dünya tərəfindən verilən yüksək qiymət idi.

Biz Azərbaycanda böyük idman yarışları keçirmişik. 500 milyon auditoriyası olan «Formula-1» yarışını keçirmişik. Özü də «Formula-1» qrupunun rəhbərləri də qeyd etmişlər ki, ən gözəl yarış Azərbaycanda keçirildi. İlk dəfə olaraq, Azərbaycanda ən yaxşı təşkil edilən Ümumdünya Şahmat Olimpiadası keçirildi. Bu Olimpiadaya bütün dünyadan – 200-ə yaxın ölkədən nümayəndələr gəlmişdi.

Böyük mötəbər tədbirlər sırasında Roma Papası Fransiskin Azərbaycana rəsmi səfərini xüsusilə qeyd etmək istəyirəm. Bu, tarixi bir səfər idi və Roma Papası Bakıdan bütün dünyaya çox açıq mesajlar göndərdi. O cümlədən Azərbaycanda multikulturalizmin vəziyyəti ilə bağlı onun dəyərli fikirləri həm həqiqəti əks etdirir, həm də dünya katoliklərinin rəhbərinin bu işlərə qiymətinin gözəl təzahürü idi.

Biz bu işləri görürük. Amma ətraf yanır, yan-yörə alovlanır, risklər artır. Biz isə öz xoşbəxt həyatımızı və xoşbəxt gələcəyimizi qorumalıyıq və qoruyuruq. Azərbaycanda sülh, əmin-amanlıq, təhlükəsizlik hökm sürür, insanlar rahat yaşayır, quruculuq işləri aparılır. Şəhərlərimiz gözəlləşir, abadlaşır, bütün işlər çox yaxşı gedir.

Biz bu il ölkəmiz üçün çox böyük əhəmiyyət daşıyan referendum keçirmişik. Referendum demokratik, ədalətli, tam şəffaf şəkildə keçirildi. 100-dən çox xarici müşahidəçi referendumu izləmişdir. Bir neçə beynəlxalq rəy sorğusu agentliyi exit-poll

keçirmişlər. Exit-pollun nəticələri və rəsmi nəticələr üst-üstə düşür. Bu da təbiidir. Çünki referendum tam şəffaf, ədalətli keçirildi. Mənə verilən son məlumata görə, Mərkəzi Seçki Komissiyasına təqribən cəmi 20, ya ondan bir qədər çox şikayət daxil olmuşdur, 5000-dən çox seçki məntəqəmiz var. Cəmi 20, bəlkə də bir qədər çox şikayət olub. Bu nəyi göstərir? Onu göstərir ki, insanlar, Azərbaycan xalqı referendumun nəticələrini dəstəkləyir. Onların iradəsi referendumun nəticələrində öz əksini tapmışdır.

Müşahidə aparan beynəlxalq qurumlar, xüsusilə Avropa Şurası Parlament Assambleyasının nümayəndələri referenduma çox yüksək qiymət vermişlər. Bunun da çox böyük əhəmiyyəti var. Çünki, adətən, Avropa strukturlarında bizi tənqid edirlər. Bir çox hallarda əsassız tənqid edirlər. Hətta bizi tənqid etməyə öyrəşən qurum da artıq heç bir irad tapa bilmir. Bu, referendumun bir nəticəsidir. Bu onu göstərir ki, kim nə deyirsə-desin, hansı uydurma ortaya atırsa-atsın, Azərbaycan demokratiya yolu ilə gedir. Bizdə azad seçki, şəffaf referendum keçirilir. Biz bir çox ölkələr, xüsusilə özlərini demokratiyanın beşiyi sayan ölkələr üçün nümunə ola bilərik. Gəlsinlər, bizim təcrübəmizi öyrənsinlər.

Referendumun ikinci əsas nəticəsi ondan ibarətdir ki, Azərbaycan xalqının mütləq əksəriyyəti təklif olunan dəyişikliklərə öz dəstəyini verdi. Bu da əslində bizim siyasətimizə növbəti dəfə xalq tərəfindən verilən böyük dəstəkdir. Mən şəxsən bunu belə qəbul edirəm. Çünki təklif olunan dəyişikliklər biz tərəfdən irəli sürüldü və Azərbaycan xalqı, onun böyük əksəriyyəti bu referenduma «hə» dedi. Bu, əlbəttə ki, bizə əlavə güc verir. Bu bizim üçün böhranlı ildə növbəti bir test, sınaq idi.

Əlbəttə, onsuz da mən bilirəm ki, ölkəmizdə hansı ab-hava var, insanları hansı məsələlər düşündürür və onların ümumi işimizə münasibəti necədir. Bunu mən yaxşı bilirəm. Referendumun nəticələri bütün ölkəyə, bütün xalqımıza, dünyaya bunu bir daha əyani şəkildə təqdim etdi. Azərbaycan xalqı apardığımız siyasəti dəstəkləyir, bu dəstəyə sadiqdir və görür ki, bizim siyasətimizə alternativ siyasət yoxdur. Alternativ siyasət fəlakət ola bilər, yenə Azərbaycanı uçuruma apara bilər, yenə Azərbaycanı qırğın

meydanına çevirə bilər. Azərbaycan xalqı bizim siyasətimizi dəstəkləyərək, referendumda «hə» dedi. Azərbaycan xalqına göstərdiyi böyük etimada və dəstəyə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Əziz xalqımı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da bu yolla gedəcəyəm, Azərbaycanın inkişafını təmin edəcəyəm və heç bir kənar qüvvə bizi bu yoldan çəkindirə bilməz.

Bu il bizim beynəlxalq mövqelərimiz möhkəmlənib. Bir çox beynəlxalq təşkilatlarda Azərbaycana bir daha dəstək nümayiş etdirilib. Bu təşkilatlar arasında iki təşkilatı xüsusilə qeyd etmək istərdim. Biri İslam Əməkdaşlıq Təşkilatıdır ki, builki Zirvə görüşündə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kontakt qrupu yaratmışdır. Kontakt qrupu artıq öz işinə başlayır. Zirvə görüşündə Azərbaycanın ərazi bütövlüyünə bir daha dəstək ifadə olundu. Bu yaxınlarda «Qoşulmama Hərəkatı»nın – BMT-dən sonra ən çox üzvü olan bu təşkilatın Zirvə görüşündə də növbəti dəfə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü çərçivəsində həll edilməsi haqqında qərar qəbul edildi. Bu bizim böyük diplomatik və siyasi uğurumuzdur.

Biz digər təşkilatlarda da bu gözəl meyilləri görürük – Avropa Parlamenti. Bu yaxınlarda Avropa Parlamenti tərəfindən səslənən rəsmi bəyanat Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox ədalətli mövqe nümayiş etdirdi. Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, 1 il ərzində Azərbaycan Avropa Parlamenti ilə bütün əlaqələri kəsmişdi, Avronest qurumundan çıxmışdı. Bunun da səbəbi var, ictimaiyyət bunu bilir. Bu bizim günahımızdan olmayıb, biz günahkar deyilik. Bizə qarşı ədalətsizlik nümayiş etdirildi. Biz təhqir olunduq. Bizə qarşı diplomatiyada qəbuledilməz sözlər işlədildi. Təbii olaraq, biz də öz sözümüzü dedik. Azərbaycanın Milli Məclisi də çox əsaslı, arqumentli, kəskin, Avropa Parlamentinin o qətnaməsinə uyğun, elə o səviyyədə cavabını verdi. 1 il münasibətlərimiz dondurulmuşdu. Bunu Azərbaycan xalqı heç hiss etməyib. Mən də o vaxt demişdim, münasibətlər olsa yaxşıdır, olmasa da hər halda,

bunun bizim işimizə heç bir təsiri yoxdur. Nəticədə nə oldu? Münasibətləri bərpa etmək üçün özləri gəldilər. Gördülər ki, təhqir, təzyiq yolu ilə keçmir. Halbuki bunu çoxdan bilməli idilər ki, keçmir və keçməyəcək. Gəldilər ki, münasibətləri bərpa etsinlər. Bizim də bəzi təkliflərimiz olubdur. O təkliflər müsbət qəbul edildi və bu təkliflərin nəticəsində birgə bəyanat da səsləndi. O bəyanatda ifadə olundu ki, Avropa Parlamenti belə hərəkətlərə yol verdiyinə görə təəssüf edir. Orada göstərilir ki, gələcəkdə bu cür hərəkətlərin təkrar olunmaması üçün işlər aparılacaq. Biz də konstruktiv mövqe nümayiş etdirərək, qərar qəbul etdik ki, artıq bu bizi qane edir və münasibətlər indi bərpa olunur.

Mən nəyi demək istəyirəm? Özümüzü tərifləmək istəmirəm, heç vaxt da tərifləməmişəm, halbuki tərif üçün bir çox məqam var. Biz 25 ildir ki, müstəqil yaşayan ləyaqətli ölkəyik. Heç kimə imkan verməyik ki, bizi təhqir etsin. Qəbuledilməz hər bir hərəkətə cavabımızı veririk, sözümüzü deyirik, heç kimdən çəkinmirik, nəinki bizə aid olan məsələlərdə, bütün məsələlərdə prinsipial mövqe nümayiş etdiririk. Dünyada gedən işlərlə bağlı bizim mövqemiz var və biz bu mövqeni çəkinmədən ifadə edirik.

Bu il 20-dən çox dövlət, hökumət başçısı Azərbaycanda rəsmi və işgüzar səfərlərdə olub. Mən 14 xarici səfər etmişəm. Hələ ilin sonuna qədər həm Azərbaycana dövlət, hökumət başçıları gələcək, həm də mənim səfərlərim nəzərdə tutulur. Çox fəal xarici siyasət aparmışıq və bu siyasət Azərbaycanı bu gün dünyada nümunəvi ölkə kimi göstərir.

Bu il aprel ayında Azərbaycan böyük hərbi qələbə əldə edib. Aprel döyüşləri tariximizin şanlı səhifəsidir. Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad edib, o torpaqlarda Azərbaycan bayrağını ucaldıb. 2000 hektardan çox torpaq işğalçılardan təmizlənib, ondan bir neçə dəfə böyük olan ərazi tam bizim nəzarətimizə keçib. Biz təmas xəttində tam üstünlük əldə etmişik və bu gün düşmənin istənilən hədəfini məhv edə bilərik.

Aprel döyüşlərindən sonra vasitəçilər bir qədər fəallaşdılar. Bilirsiniz ki, may–iyun aylarında görüşlər keçirildi. Amma artıq

oktyabr ayıdır. Ermənistan öz çirkin taktikasını işə salaraq və erməni lobbisinin dəstəyinə arxalanaraq, yenə də istəyir ki, bu məsələ dünya gündəliyindən çıxsın. Biz buna imkan verməməliyik və məsələ tezliklə həllini tapmalıdır. Amma siz də, Azərbaycan ictimaiyyəti də yaxşı bilir ki, bu məsələnin həll olunmaması təkcə Ermənistana görə deyil. Ermənistanın böyük himayədarları var, biri ona pul, biri silah verir, biri lobbi yaradır, biri təbliğ edir. Budur məsələnin həll olunmamasının səbəbi. Ona görə bu məsələyə aydınlıq gətirilməlidir. Biz yaxşı bilirik ki, ikili standartlarla üzləşmişik və bu məsələnin həll olunmaması BMT Təhlükəsizlik Şurasına da şərəf gətirmir. Çünki onlar 4 qətnamə qəbul ediblər. Bu qətnamələr 20 ildən çoxdur ki, icra edilmir. Heç olmasa öz qərarlarına hörmət etsinlər. Artıq biz yaxşı görürük ki, Ermənistan beynəlxalq hüququ necə pozur.

Biz həm iqtisadi, siyasi, həm də hərbi cəhətdən daha da güclü olmalıyıq və bu güc bizdə var. Sadəcə olaraq, istəyirik ki, məsələ sülh yolu ilə həll edilsin və bu istiqamətdə ardıcıl siyasətimizi aparırıq.

Siz yəqin ki, Amerikadan səslənən son bəyanatı da eşitmisiniz, oxumusunuz, Azərbaycan ictimaiyyəti də bunu bilir. Təəccüb doğuran bir bəyanatdır. Azərbaycanı münaqişənin həll olunmamasında günahlandırmaq ən azı insafsızlıqdır. Digər tərəfdən, bu bəyanat o biri bəyanatlarla necə uzlaşır?! Axı Amerika, Rusiya, Fransa prezidentlərinin dəfələrlə bəyan etdikləri bir tezis var: «status-kvo qəbuledilməzdir». Biz bunu alqışlayırıq. Düzdür, bu sözdən sonra heç bir praktiki iş aparılmır. Amma hər halda, bu sözün artıq ortaya çıxması bizim böyük uğurumuzdur. Belə bir ciddi bəyanat ola-ola, «hər iki tərəf günahkardır, tərəflər buna hazır deyil, bu məsələ Fələstin–İsrail münaqişəsindən də mürəkkəbdir» – demək, sadəcə olaraq, Ermənistanın işğalçı siyasətinə dəstək verməkdir. Bunun başqa izahı ola bilməz. Düzdür, indi müxtəlif bəyanatlar verilir ki, bu ifadələr kontekstdən çıxarılıb, düzgün başa düşülməyib. Biz hər şeyi yaxşı başa düşürük və bu gün internet dövründə yaşayırıq. Haradasa bir kəlmə deyilirsə, dərhal onun əks-sədası olur. Biz belə bəyanatları qəbul etmirik. Hesab edirik ki,

tezliklə bu ifadələrə ən yüksək səviyyədə düzəliş edilməlidir. Əks təqdirdə, burada vasitəçilik missiyası şübhə altına düşə bilər. Bu ancaq rəsmi qaydada səslənən bir tezis idi. Amma bağlı qapılar arxasında nə qədər söhbətlər gedir, bizə nə qədər təzyiqlər göstərilir ki, Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə razılıq versin. Biz indi bunları açıqlamırıq. Çünki diplomatiyanın öz qaydaları vardır. Ancaq həm Qərb mediasında, həm qeyri-hökumət təşkilatları tərəfindən bizə qarşı aparılan qarayaxma, şər-böhtan, təhqir kampaniyasının, həm də burada «beşinci kolon»a göstəriş verərək, bunlardan istifadə etməyin əsas səbəbi bizi məcbur etməkdir ki, Dağlıq Qarabağın müstəqilliyinə razılığımızı verək. Bu heç vaxt olmayacaq. Nə qədər ki, biz iqtidardayıq – referendum göstərdi ki, inşallah, biz iqtidarda çox olacağıq – heç vaxt Azərbaycan buna razılıq verməyəcək, Dağlıq Qarabağ bizim ayrılmaz tarixi torpağımızdır və biz ərazi bütövlüyümüzü bərpa etməliyik.

Bu il idmançılarımız da bizi çox sevindirib. Bizim komandamız Rio Yay Olimpiya oyunlarında 18 medal qazanıb. Medalların sayına görə dünya miqyasında 14-cü, Avropada 7-ci, postsovet məkanında Rusiyadan sonra ikinci, müsəlman aləmində isə birinci yerdəyik. Bax, bu rəqəmləri şərh etməyə heç bir ehtiyac yoxdur.

İqtisadi sahədə, qeyd etdiyim kimi, neftin qiyməti düşdü və bunun nəticəsində dövlət investisiyaları azaldı, tikinti sektoruna az sərmayə qoyuldu və bu, müəyyən qədər iqtisadi tənəzzülə gətirib çıxartdı. Ancaq sevindirici hal ondan ibarətdir ki, bizim sənayemiz artır. Baxmayaraq ki, sənaye potensialımız az artır – 0,2 faiz, amma artır. İqtisadiyyatımızın, sənayemizin qeyri-neft sektoru artır, orada artım 3,6 faizdir, bu yaxşıdır. Kənd təsərrüfatı 2,4 faiz artıb və əminəm ki, daha da artacaq. Çünki kənd təsərrüfatı sahəsində apardığımız işlər yaxın gələcəkdə daha da böyük həcmdə nəticə verəcəkdir.

Sosial layihələr icra edilib. 29 məktəb tikilib, 485 məktəbdə təmir işləri aparılıb, 33 səhiyyə obyekti inşa olunub, təmir edilib. Böyük yol layihələri, kənd yolları layihələri icra edilib. Bir neçə şəhərimizdə içməli su layihələri başa çatıb. İnfrastruktur layihələri

icra edilir, 154 min iş yeri yaradılıbdır, onlardan 121 mini daimi iş yeridir. 9 ayda 36 min iş yeri bağlanılıbdır. Əlbəttə, biz bağlanan iş yerləri ilə əlaqədar daim təhlil aparırıq – 121 min daimi iş yeri yaradılıb, 36 min iş yeri bağlanılıb. Bu çox gözəl göstəricidir. Hesab edirəm ki, böhranlı il üçün bu, xüsusi bir göstəricidir.

Digər istiqamətlərdə də bütün işlər plan üzrə gedir. «Cənub Qaz Dəhlizi» layihəsi uğurla icra edilir, Azərbaycan çox önəmli nəqliyyat mərkəzinə çevrilir. Artıq uzaq məsafədən göndərilən yük konteynerləri Azərbaycan ərazisindən keçir. Çox güclü nəqliyyat infrastrukturu yaratmaqla, ölkəmizin uzunmüddətli siyasi, iqtisadi maraqlarını təmin edəcəyik.

İndi biz ilin sonuna qədər görüləcək işlər haqqında da danışacağıq. Mən hesab edirəm ki, 2016-cı ildə nəticələr bütövlükdə yaxşıdır, biz yaxşı işləmişik. Son illər ərzində 2016-cı il ölkə iqtisadiyyatı üçün ən çətin, ağır ildir. Ancaq qeyd etdiyim kimi, biz yenə də inkişaf yolu ilə gedirik və gedəcəyik.

## YEKUN NİTQİ

Biz bu ilin sonuna qədər qalan bütün vəzifələri icra etməliyik, xüsusilə investisiya layihələri ilə bağlı işlər getməlidir. Dövlət investisiya proqramı icra edilməlidir. Bəzi istiqamətlər üzrə ləngimələr var, bəzi infrastruktur layihələri tam həcmdə icra edilməyib. Ona görə ilin sonuna qədər az vaxt qalsa da, bu məsələlərə çox ciddi diqqət göstərilməlidir.

Mən qeyd etdim ki, biz bu il çox ciddi iqtisadi islahatlar aparmışıq və bu islahatlar artıq öz nəticələrini verməkdədir. İdarəetmə istiqamətində, digər sahələrdə, ixracı stimullaşdırmaq, idxaldan asılılığı azaltmaq üçün bir çox önəmli qərar və sərəncamlar qəbul edildi, imzalandı. Beləliklə, əminəm ki, gələn il həm idxalın azalması, həm ixracın artırılması istiqamətində çox yaxşı nəticələr olacaqdır.

Apardığımız islahatlar dünyanın aparıcı iqtisadi mərkəzləri tərəfindən də yüksək qiymətləndirilir. Bu yaxınlarda dünyanın bir

nömrəli iqtisadi forumu – Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabliyyətliliyinə görə dünyada 37-ci yerə layiq görüb. Keçən il biz 40-cı yerdə idik, o da çox gözəl göstəricidir. Baxmayaraq ki, bu il dünyada böhran yaşanır və bizdən də yan keçməyib, Azərbaycan iqtisadiyyatı daha da yüksək qiymət alıb. 37-ci yerdə olmaq dünya miqyasında çox böyük və hesab edirəm ki, tarixi göstəricidir. MDB məkanında biz həmişə olduğu kimi, birinciyik və bu liderliyi saxlayırıq.

Gələn ilin dövlət büdcəsi müzakirə olunur. Dövlət büdcəmizdə bütün sosial proqramlar öz əksini tapmalıdır. Ümumiyyətlə, gəlirlərimizin azaldılmasına baxmayaraq, biz sosial sahədə tam vəsaiti təmin edirik. Heç bir sosial təşəbbüs və layihə ixtisar olunmadı. 2017-ci ildə də büdcəmiz sosialyönümlü olmalıdır və əlbəttə ki, investisiyalar üçün də kifayət qədər vəsait nəzərdə tutulmalıdır. Biz əvvəlki illərdə dövlət investisiyalarına daha çox üstünlük verirdik. Bu da təbiidir, çünki biz bir çox layihələri, xüsusilə infrastruktur layihələrini icra etməli idik. Əgər biz onları icra etməsəydik, bu gün, ümumiyyətlə, inkişafdan söhbət belə, gedə bilməzdi. Nə kənd təsərrüfatı, nə turizm, nə digər sahələr inkişaf edə bilməzdi. Ona görə dövlət investisiya qoyuluşu xüsusi əhəmiyyət daşıyırdı və biz son illər ərzində bu layihələrin bir çoxunu artıq icra etmişik. Təbii ki, 2017-ci ilin dövlət investisiya proqramı indi hazırlanır və yaxın vaxtlarda mənə təqdim ediləcək. Ancaq biz özəl sektorun investisiyalarını daha da böyük həcmdə cəlb etməliyik.

Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində bu gün çox ciddi addımlar atılıb. Deyə bilərəm ki, sahibkarlar bu işlərə artıq böyük ruh yüksəkliyi ilə qoşulurlar. Ölkəmizdə böyük ruh yüksəkliyi var, xüsusilə kənd təsərrüfatı, emal və sənaye sektorlarında. Bakıda, böyük şəhərlərdə, bütün şəhər və rayonlarımızda çox böyük fəallıq müşahidə olunur. Bu da, əlbəttə ki, həm bizim siyasətimizin təzahürüdür – çünki özəl sektor sahibkarlığının inkişafı üçün çox ciddi addımlar atılıb – eyni zamanda, bizim sahibkarlarımızın da məsuliyyətini göstərir.

Sahibkar qazandığı vəsaiti ölkə iqtisadiyyatına qoymalıdır. Bu istiqamətdə 2017-ci ildə çox ciddi addımlar atılacaq.

O ki qaldı dövlət investisiya layihələrinə, onlar da nəzərdə tutulur və hesab edirəm ki, bu məqsədlər üçün kifayət qədər vəsait təmin edilməlidir. Yenə də qeyd etməliyəm ki, elektrik enerjisi, qazlaşdırma ilə bağlı əsas infrastruktur layihələri artıq icra edilib. Bir çox kənd yolları, içməli su və kanalizasiya layihələri icra edilib və edilir. Əlbəttə, biz həmişə olduğu kimi, sosial infrastruktur layihələrinə böyük diqqət göstərməliyik. 2017-ci ildə biz makroiqtisadi sabitliyə ciddi fikir verməliyik. İnflyasiya birrəqəmli olmalıdır. Hesab edirəm ki, biz bunu təmin edəcəyik.

Süni qiymət artımına yol verilməməlidir, çox ciddi nəzarət olmalıdır. Həm ictimai nəzarət, həm də dövlət orqanları tərəfindən nəzarət daha da güclü olmalıdır. Çünki biz imkan verə bilmərik ki, hansısa natəmiz insanlar, möhtəkirlər qiymətləri süni şəkildə qaldırsınlar və beləliklə, insanlarımız bundan əziyyət çəksin. İdxal olunan malların qiyməti dünya bazarlarında formalaşır. Əgər dünya bazarında Azərbaycanda istehsal olunmayan hansısa malın qiyməti artırsa, təbii ki, bizdə də artacaq. Biz çalışmalıyıq ki, idxaldan asılılığı maksimum səviyyədə azaldaq, minimum səviyyəyə endirək. Daxildə istehsal olunan ərzaq məhsullarının tərkibində xarici komponent də var. Biz o komponenti də azaltmalıyıq. Bu istiqamətdə işlər gedir.

Bank sektorunda islahatlar, konsolidasiya siyasəti davam etdirilməlidir. Bank sektorunda çox ciddi islahatlar aparılmalıdır. Bank sektoru şəffaf olmalıdır və ən yüksək dünya standartlarına cavab verməlidir.

Biz həmişə olduğu kimi, bu il də ölkəmizin sənaye potensialının inkişafına böyük diqqət göstərmişik və bir neçə sənaye parkının yaradılması istiqamətində işlər gedir. Onların içində Sumqayıt Kimya Sənaye Parkını xüsusilə qeyd etmək istəyirəm. Bu yaxınlarda Sumqayıtda keçirdiyim müşavirədə parkın fəaliyyəti ilə bağlı geniş məlumat verildi. Təkrar etmək istəmirəm, ancaq bir şey demək istəyirəm ki, bu parkın tam işə düşməsi nəticəsində

minlərlə, bəlkə də on minlərlə yeni iş yeri açılacaq və bizim qeyri-neft sahəsində çox böyük ixrac potensialımız yaranacaq.

Bakıda Balaxanı və Pirallahı sənaye parklarının yaradılması prosesi gedir. Hər iki istiqamət üzrə konkret layihələr var. Pirallahıda dərman istehsalı planlaşdırılır. Ümid edirəm ki, yaxın aylarda artıq birinci dərman istehsalı fabrikinin təməli də qoyulmalıdır. Biz xarici dərmanlardan, demək olar ki, 100 faiz səviyyədə asılıyıq. Bu həm təhlükəsizlik baxımından narahatedici məsələdir, eyni zamanda, dərmanların alınmasına xaricə böyük valyuta gedir. Buna görə qərar qəbul olundu və investorlar da buna qoşuldular, yaxşı şərait yaratdıq. Azərbaycanda birinci mərhələdə 100-dən çox adda dərman preparatı istehsal olunmalıdır.

Bölgələrdə sənaye zonalarının yaradılması prosesi gedir. Artıq Neftçalada İran tərəfi ilə Avtomobil zavodunun tikintisi başlanmışdır. Masallıda sənaye zonasının yaradılması işi gedir. Digər rayonlarda da bu istiqamətdə işlər getməlidir.

Biz inşaat materialları sektoruna böyük investisiyalar cəlb edə bilmişik. Bu sektorda dövlət investisiyaları olmayıb, ancaq həm yerli, həm xarici özəl qurumlar bu sahəyə böyük investisiyalar qoyublar. Bu investisiyalar nəticəsində biz özümüzü inşaat materialları ilə kifayət qədər böyük həcmdə təmin edirik, ancaq tam təmin etmirik. Ona görə bizim aidiyyəti qurumlar, dövlət qurumları, İqtisadiyyat Nazirliyi, digər qurumlar baxmalıdırlar ki, Azərbaycana hansı inşaat materialları idxal olunur. Azərbaycanda həmin istehsal sahələri yaradılmalıdır və güzəştli kreditlər verilməlidir, sahibkarlar özləri də bu sahəyə daha böyük diqqət göstərməlidirlər.

Biz daxili bazarı qorumaq üçün gətirilən bəzi mallara rüsumları bu yaxınlarda artırdıq. Bu çox düzgün addımdır. Biz öz daxili istehsalçımızı qorumalıyıq. Ancaq daxili istehsalçı bundan sui-istifadə etməməlidir. Çünki insanlar üçün seçim olacaq – ya yerli məhsul alacaq, ya da xarici məhsul. Ola bilər ki, xarici məhsul insanın daha çox xoşuna gəlsin, amma qiyməti daha baha ola bilər. Yerli məhsul isə xarici məhsuldan əhəmiyyətli dərəcədə ucuz olmalıdır. Ona görə istehlak bazarına çox ciddi nəzarət olmalıdır

ki, bəzi natəmiz sahibkarlar bundan istifadə etməsinlər. Çünki idxal olunan ərzağın, yaxud hansısa digər məhsulun qiyməti artarsa, onlar çalışa bilərlər ki, öz məhsulunun da qiymətini artırsın. Buna yol verməк olmaz. Həm yerli və həm də mərkəzi icra orqanları buna çox ciddi nəzarət etməlidir.

Daxili bazarımızı qorumaq üçün əlavə tədbirlər görülməlidir və burada çox çevik siyasət aparılmalıdır. Biz vaxt itirməməliyik. Bu məsələlər çox operativ şəkildə həll edilməlidir. Görəndə ki, biz hansısa məhsulla özümüzü tam 100 faiz təmin edirik, dərhal o məhsula rüsum qalxmalıdır. Nəinki bu sahədə, bütün sahələrdə çox operativ, çevik siyasət aparılmalıdır. Bəzi hallarda bürokratik əngəllər bizə böyük problemlər yaradır. Bir məsələ haradasa aylarla razılaşdırılır, rəylər yığılır, vaxt itiririk. Müasir iqtisadi şəraitdə vaxt itirmək pul itirmək deməkdir. Çox operativ iş prinsipi qurulmalıdır və qərarlar da əgər düzgün qərarlardırsa, dərhal qəbul edilməlidir.

Bu yaxınlarda yaradılan Mənzil İnşaatı Dövlət Agentliyi öz işinə başlayıb. Yasamal rayonunda böyük tikinti layihəsi icra olunur və sosial mənzillərin tikilməsi prosesi artıq başlanır. Biz Nazirlər Kabinetinin toplantısında bu barədə danışmışıq. Artıq bu işlərə start veririk. Bunun çox böyük sosial mənası var və inşaat sektoruna, xüsusilə tikinti materialları sektoruna da böyük təsiri olacaq. Bizim sahibkarlar da buna hazır olsunlar. Elə etməliyik ki, o layihələrdə istifadə olunacaq bütün inşaat materialları Azərbaycan mənşəli olsun.

Yaxın gələcəkdə ölkəmizdə böyük metallurgiya kompleksinin tikintisi nəzərdə tutulur. Bunun üçün bizim Daşkəsən filiz yataqları kimi resurs bazamız var. Bu gün o yataqlardan çox səmərəsiz istifadə olunur, çıxarılan filiz sadəcə olaraq, xammal kimi xaricə satılır. Yaxın aylarda biz o sahənin işini təmin edə bildik. Əfsuslar olsun ki, orada aylarla iş aparılmırdı. İnsanlar işsiz qalmışdılar, böyük borclar yaranmışdı. İndi orada sağlamlaşma prosesi gedir və biz bu böyük təbii resursdan çox səmərəli şəkildə istifadə etməliyik. Buna görə bir neçə zavoddan ibarət olacaq yeni böyük metallurgiya kompleksinin tikintisi nəzərdə tutulur. Böyük vəsait

qoyulacaq və biz elə etməliyik ki, xammaldan son ən keyfiyyətli məhsula qədər Azərbaycanda istehsal olunsun və əminəm ki, istehsal olunacaq.

Bu gün mən bir məsələyə də toxunmaq istəyirəm. Biz indi sənaye parklarında, digər sahələrdə, metallurgiya sahəsində bir çox böyük sənaye layihələrini icra edirik və bu istehsal olunacaq məhsulların, demək olar ki, hamısı ixracyönümlüdür. Ona görə biz nəqliyyat imkanlarımıza da baxmalıyıq və indidən planlaşdırmalıyıq ki, ixraca yönələcək məhsulları necə daşıyacağıq. Bizdə onları daşımaq üçün imkanlar varmı? Kifayət qədər infrastruktur varmı? Vaqonlar, sisternlər, quru yük infrastrukturu varmı? Ona biz indidən baxmalıyıq. Biz nəqliyyat sektoruna – dəmir yoluna, hava və dəniz nəqliyyatına böyük sərmayə qoymuşuq. İndi Bakıda Gəmiqayırma zavodu artıq böyük gəmilər istehsal edir. Ancaq buna bir daha kompleks şəklində baxmalıyıq. İxrac olunacaq məhsulun, o cümlədən indi ixracı kəskin artacaq kənd təsərrüfatı məhsullarının həcmi dəqiq proqnozlaşdırılmalıdır.

Bu il təkcə pambıq istehsalı 3 dəfə artacaq. Gələn il bu ilə nisbətən 10 dəfə, ondan sonra 20 dəfə artacaq. Biz bunu nə ilə daşıyacağıq? Bizdə bunu daşımaq üçün kifayət qədər infrastruktur varmı? Bizim hazır məhsulumuz olacaq, ancaq daşıya bilməyəcəyik. Ona görə bunlar indidən planlaşdırılmalıdır və dövlət investisiya proqramında nəzərdə tutulmalıdır ki, sonra biz gözlənilməz vəziyyətlə üzləşməyək.

Beləliklə, sənaye sahəsində icrada olan və planlaşdırılan layihələr bizə böyük xeyir gətirəcək. Minlərlə, on minlərlə yeni iş yeri yaradılacaq və biz qeyri-neft ixracımızı artıracağıq. Əsas məsələ bundan ibarətdir. Bu gün neftin qiyməti 50 dollardır. Keçən ay 40 dollar idi. İlin əvvəlində 30 dollara düşmüşdür. Yəni biz buna baxıb öz gələcəyimizi planlaşdıra bilmərik. Ona görə neft ixracının azaldılmasını biz qeyri-neft ixracı ilə əvəzləməliyik. Bu sahədə sənaye və kənd təsərrüfatı əsas istiqamətlərdir.

Kənd təsərrüfatı sahəsində artıq dönüş yaranıb. Müxtəlif sahələr üzrə konkret proqramlar, layihələr icra edilib, böyük vəsait, texnika ayrılıb. Subsidiyalarda düzəlişlər edilir. İndi subsidiyalar

fermerləri stimullaşdıracaq. Bu il bu sahədə bir sınaq ili idi. Əminəm ki, yaxşı nəticələr olacaq.

Mən kənd təsərrüfatı sahələri üzrə bəzi məsələləri qaldırmaq istərdim. Pambıqçılıqla bağlı işlər uğurla gedir. Sabirabad rayonunda müşavirə keçirildi. İndi 24 rayonda pambıqçılığın inkişafı uğurla gedir. Bu il 100 min ton pambıq tədarük edilməlidir, gələn il 250–300 min ton, ondan sonrakı illərdə daha da çox. Biz çalışmalıyıq ki, sovet dövrünün ən yaxşı illərində istehsal etdiyimiz səviyyəyə yavaş-yavaş yaxınlaşaq. Bu, iş yerləri deməkdir. Təkcə bu il pambıqçılıqda 70 minə yaxın insan işləyir. Gələn il biz əkin sahələrimizi 2, yaxud 2,5 dəfə artırsaq, bu sahədə 100 mindən çox, bəlkə də 150 min insan işlə təmin ediləcək. Burada da gələcək planlarımızı nəzərə alaraq, indidən tədbirlər görməliyik. Mənə verilən məlumata görə, bizim pambıqtəmizləmə zavodlarımızın həcmi 300–350 min tondur. Biz bu rəqəmə ola bilər 2018-ci ildə, bəlkə də tez çatacağıq. Ona görə bizdə yeni pambıqtəmizləmə zavodları tikilməlidir. Artıq İqtisadiyyat Nazirliyinə göstərişlər verilib, özəl sektor da, əlbəttə ki, bu işə qoşulmalıdır. Onların harada qurulması üçün yerlər müəyyən edilməlidir ki, biz sonra vaxt itirməyək.

Biz subsidiyaların verilməsində də ciddi addımlar atdıq. Bu yaxınlarda əlavə vəsait ayrıldı. Ondan əvvəl pambığın alış qiyməti 40 qəpikdən 50 qəpiyə qaldırıldı. Biz bunu ona görə edirik ki, o ağır sahədə işləyənlər daha yaxşı pul alsınlar. 10 qəpik artım orada işləyənlərin gəlirini 2 dəfə artıracaq. İndi elə bir mexanizm işləmişik ki, bu, kəndliləri, fermerləri stimullaşdıracaq və onlar özləri buna daha böyük maraq göstərəcəklər.

Bununla yanaşı, bizim kənd təsərrüfatında zəif yerimiz olan taxılçılıqdır. Biz özümüzü taxılla təqribən 65 faiz təmin edirik. Son vaxtlar böyük fermer təsərrüfatları yaradılıb və o təsərrüfatlarda məhsuldarlıq orta məhsuldarlıqdan təqribən 2 dəfəyə yaxın çoxdur. Buna baxmayaraq, biz yenə də idxaldan asılıyıq. Azərbaycana hər il 1 milyon tondan çox taxıl, buğda gətirilir. Ona görə indi yeni layihələr işə düşür və çalışmalıyıq ki, biz özümüzü 100 faiz səviyyəsində taxılla təmin edək. Bu mümkündür. Həm

məhsuldarlığı intensiv yollarla artırmaqla, suvarma işlərini düzgün qurmaqla, həm də ki, yeni əkin sahələrini dövriyyəyə buraxmaqla biz buna nail ola və idxaldan asılılığı əhəmiyyətli dərəcədə azalda bilərik.

Bu il 24 rayonda baramaçılıq inkişaf edib və yaxşı nəticələr var, 70 ton barama tədarük olunub. Baramaçılığa subsidiyalar verilib. Şəki İpək kombinatı artıq işləyir, yüzlərlə insan orada işə cəlb edilib. Orada yenidənqurma işləri aparılmalıdır. Bu kombinat daha çox barama qəbul etməyə qadirdir. Ümidvaram ki, yaxın 2-3 ildə biz minlərlə ton barama tədarük edə bilərik. Hələlik bu işlər 24 rayonda gedir. Gələcəkdə daha çox rayonlarda gedəcək və insanlar 40–45 gün ərzində yaxşı pul alacaqlar. Minlərlə manat alanlar var və bu da insanların güzəranını yaxşılaşdırır. Biz çalışmalıyıq ki, burada da hazır məhsulu ixrac edək və əminəm ki, buna nail olacağıq. Bu işlərin səmərəli şəkildə qurulması üçün 3,5 milyon manat yardım göstərilib.

Bizim üçün ənənəvi sahələrdən biri də üzümçülükdür. Sovet vaxtında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə salınan bağların çoxu əfsuslar olsun ki, qırılıb. O vaxt bu, Qorbaçovun kampaniyası nəticəsində olmuşdur. O da nədənsə ancaq Azərbaycanda olmuşdur. Başqa respublikalarda üzüm bağlarını saxlayıblar. Bizdə isə o vaxt burada rəhbərlik edənlər dəridən-qabıqdan çıxırdılar ki, Qorbaçovun xoşuna gəlsinlər və bunun nəticəsində də üzüm bağlarımız ləğv olundu. Onu da qeyd etməliyik ki, əfsuslar olsun, ondan sonra da üzümçülüyə lazımi diqqət yetirilməmişdir. Mənə verilən məlumata görə, bu il təqribən 150–160 min ton üzüm yığılacaq. Halbuki sovet dövründə ən yaxşı vaxtlarda 1 milyon 700 min ton –2 milyon ton üzüm yığılırdı. Biz üzümçülüyü mütləq şərabçılıq ilə bağlamalıyıq. Əfsuslar olsun ki, biz dünyanın şərab bazarlarına çıxa bilməmişik. Baxmayaraq ki, bir neçə şərab zavodu tikilib və onlar, görünür, ya özləri maraq göstərmirlər, ya da imkanları yoxdur. Ancaq biz dünya bazarlarına öz şərabımızla çıxmalıyıq. Necə ki, vaxtilə Rusiya bazarına çıxmışıq. İndi biz, bildiyimə görə, heç Rusiya bazarına da əhəmiyyətli dərəcədə şərab

ixrac etmirik. Amma bu çox gəlir gətirən sahədir, xüsusilə kəndlilər üçün.

Yeni üzüm bağları salınır, dinamika müsbətdir. Ancaq burada dövlət dəstəyi daha da güclü olmalıdır, yerlər müəyyən edilməlidir. Bu həm məşğulluqdur, həm də ki, valyuta gətirən bir sahədir. Şərabçılıq deyəndə, ilk növbədə, ixracı nəzərdə tuturam. Şərabçılığın inkişafı ölkədə alkoqollu içkilərin istehlakına səbəb olmamalıdır. Çünki bizim xalqımız sağlam həyat tərzi sürməlidir. Eyni sözlər tütünçülüyə də şamil edilir. Bizim əhali nə qədər az siqaret çəksə, o qədər yaxşıdır. Bunun onların sağlamlığına, ailə büdcələrinə ancaq xeyri olacaq. Ancaq tütünçülüyün inkişafı bizə çox böyük imkanlar yaradacaq. Bu il keçən ilə nisbətən 2 dəfə çox tütün istehsal ediləcək. Ancaq bu rəqəm – 2500 ton bizi qane edə bilməz. Biz qısa müddət ərzində quru tütün istehsalını 10 min tona qaldırmalıyıq. Tütünçülüklə 14 rayonda məşğuldurlar. Bilirəm ki, bu yaxınlarda müəyyən edilən subsidiyalar rayon sakinlərini ruhlandırdı və dövlət də öz dəstəyini mütləq verməlidir. Quru tütünün ixracı ilə bağlı ciddi problemlər yoxdur. Ölkələr var ki, onu alırlar, gözləyirlər. Biz oraya daha da çox ixrac etməliyik və Azərbaycanda siqaretin istehsalını artırmalıyıq. Ona görə yox ki, bizim insanlar daha çox siqaret çəksinlər, ona görə ki, xaricdən az gəlsin. Ən çox valyuta xərclənən istiqamətlər taxıldır, siqaretdir, xam şəkərdir və kərə yağıdır. Ona görə biz yerli istehsalı artırmalıyıq və ixracı da təmin etməliyik.

Xam şəkər ölkəyə çox gətirilir. Bunu azaltmaq üçün şəkər çuğundurunun əkin sahələri mütləq genişləndirilməlidir. Artıq göstərişlər verilib, yeni əkin sahələri müəyyən edilib. Bizə təqribən 40–50 min hektar torpaq sahəsi lazımdır ki, şəkər çuğunduru əkilsin və xam şəkərin, qamış şəkərin idxalından asılılığı aradan qaldıraq. Bu sahədə də çox ciddi işlər aparılmalıdır. Bizdə fəaliyyət göstərən Şəkər zavodu yerli şəkər çuğunduru əsasında işləməlidir. Qamış şəkərini, xam şəkəri idxal etmək üçün 100 milyondan çox valyuta xaricə gedir. Düzdür, əgər bu zavod olmasaydı, onda xam şəkərin hamısı xaricdən gətirilərdi. Zavodun fəaliyyəti yüzlərlə insan üçün iş yeri yaradıb. Hazır şəkəri ixrac edirik, zavodun

fəaliyyəti, təbii ki, müsbət haldır. Ancaq çox yaxşı olar ki, bu, yerli xammal əsasında işləsin. Ona görə şəkər çuğundurunun əkilməsi xüsusi əhəmiyyət daşıyır. Bunun əkilməməsi 100 milyon dolları xaricə aparacaq, əkilməsi isə 100 milyon dolları Azərbaycanda saxlayacaq. Çox sadə bir məsələdir.

Çayçılığın inkişafı ilə bağlı indi ciddi işlər aparılır. Yeni texnologiyalar var ki, məhsuldarlığı kəskin şəkildə artırır. Burada da fermerlərə şərait yaradılmalıdır. Onlara da stimullaşdırıcı təkliflər verilməlidir ki, maraqlı olsunlar, cənub zonasında çayçılıq inkişaf etsin. Biz çayı da ixrac edirik, ancaq idxal da edirik. Daxili tələbat çoxdur. Ona görə çayçılığın inkişafı ilk növbədə, idxalı azaldacaq. Azərbaycan çayı keyfiyyətlidir və biz öz çayımızla xaricə daha çox çıxmalıyıq.

Son vaxtlar heyvandarlıqla bağlı aparılan işlər təqdirəlayiqdir. Bu yaxınlarda mən Yalama Aqroparkının açılışında olmuşam. Bu, birinci belə aqroparkdır. Orada 3000 baş iribuynuzlu mal-qaranın saxlanılması nəzərdə tutulur və biz bu sahəni genişləndirməliyik. İndi Kənd Təsərrüfatı Nazirliyi bu işlərlə ciddi məşğuldur. Cins mal-qara alınıb. Ancaq indi əsas məsələ süni mayalanma sistemini tam qurmaqdır. Artıq bu istiqamətdə də işlər görülür. Mənə verilən məlumata görə, 3-4 il ərzində biz cinsi dəyişdirib, yüksək keyfiyyətə malik olan mal-qaraya sahib olacağıq. Bu öz növbəsində, bizə əlavə böyük əkin sahələri verəcək. Çünki biz örüş torpaqlarımızdan çox səmərəsiz istifadə edirik. Bəziləri boşdur, bəzilərində isə normativdən qat-qat az heyvan saxlayırlar. Ona görə bizim heyvandarlığımız qapalı şəraitdə inkişaf etməlidir. Verilən məlumata görə, təqribən 500–600 min baş iribuynuzlu mal-qara bizə kifayətdir ki, südçülüyü, ətçiliyi inkişaf etdirək və bu sahədə ən müasir standartları təmin edək. Hazırda bizdə 2 milyondan çox iribuynuzlu mal-qara var. Ancaq onların cinsi o qədər də yaxşı deyil. İndi xaricdən gətirilən cins mal-qara ilə bunun fərqi yerlə-göy qədərdir. Bu sahədə ciddi addımlar atılır, istifadəsiz örüş torpaqlarında düşünülmüş, planlı şəkildə əkin işləri aparılmalıdır. Artıq İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Prezident Administrasiyası bu işlərlə ciddi məşğuldur və be-

ləliklə, biz özümüzü süd məhsulları və kərə yağı ilə təmin edəcəyik.

Mənə verilən son məlumata görə, özümüzü kərə yağı ilə tam təmin etmək üçün bizə əlavə 50–60 min cins mal-qara və əlbəttə, kərə yağı istehsal edən yeni müəssisələr lazımdır. Çünki süd və süd məhsullarının istehsalında biz özümüzü 80 faiz səviyyəsində təmin edirik, tezliklə 100 faizə çatmalıdır. Mövcud zavodlarda yeni xətlər qurulmalı, yeni müəssisələr tikilməli və Azərbaycanda süd məhsullarının bütün növləri 100 faiz istehsal olunmalıdır. Bax, qarşıya belə vəzifə qoyulur. Ona görə siz bir daha məsələni təhlil edin və mənə konkret son təklif verin ki, bunu tezliklə həll etmək üçün nə qədər vəsait, əkin sahələri, investisiya, kreditlər, dövlət investisiyaları lazımdır.

Mən artıq əvvəlki müşavirədə qeyd etmişəm və bir daha demək istəyirəm ki, bizə valyuta gətirən kənd təsərrüfatı sahələrinin inkişafı lazımdır. Onların arasında fındıqçılığın çox böyük potensialı var. Bizə ən çox valyuta gətirən kənd təsərrüfatı məhsullarından biri fındıqdır. Yeni təkliflər hazırlanır. 40 min hektarda yeni fındıq bağları salınmalıdır. Mövcud fındıq bağlarının həcmi ondan azdır. Ona görə biz fındıq bağlarını 2 dəfədən çox artıracağıq. Fındığı yetişdirmək üçün 12 rayon seçilib. İqlimi və torpağı münbit olan bu 12 rayonda fındıqçılıq çox ciddi şəkildə inkişaf etməlidir. Bu, əlbəttə ki, vaxt tələb edir. Bu il biz artıq bu işlərə başlayırıq. Dövlət xətti ilə tinglər əldə edilir. Özəl sektor da bu işlərə qoşulsun. Bunun özəl sektor üçün də çox böyük faydası var. Biz bu işləri planlı şəkildə görməliyik.

Bakıda, Abşeron yarımadasında ənənəvi badam bağları əfsuslar olsun ki, azalır. Ancaq bu da çox valyuta gətirən bir sahədir. Mənə verilən məlumata görə, bizdə cəmi 500–600 hektar badam bağları var. Bu çox azdır. Minlərlə hektar badam bağları salınmalıdır. İndi bu ərazilərdə boş torpaq sahələri çoxdur. Biz torpaqlardan səmərəli şəkildə istifadə etməliyik və xüsusilə Bakının, Sumqayıtın ətrafında, Abşeronda böyük badam plantasiyaları salınmalıdır.

Biz zeytun idxal edirik. İndi bizim o qədər zeytun ağaclarımız, o qədər imkanlarımız var. Həm Bakıda, Abşeronda, həm də digər

yerlərdə bizim çox böyük imkanlarımız var. Ancaq əfsuslar olsun ki, biz özümüzü təmin edə bilmirik və hazır zeytun istehsalı bizdə çox aşağı səviyyədədir. Ona görə yeni zeytun bağları salınmalıdır. İndi yerlər müəyyən edilir – həm Abşeron yarımadasında, həm şimal zonasında, Xızı rayonunda. Bildiyimə görə, orada da işlər gedir ki, biz dünya bazarına zeytun çıxaraq. Bu da çox böyük gəlir gətirən sahədir, həm fermerlər üçün, həm dövlət üçün.

İndi kənd təsərrüfatının hər bir sahəsi bizim üçün vacibdir. Amma bir daha qeyd etmək istəyirəm, daxili tələbat 100 faiz təmin edilməlidir, ixrac maksimum olmalıdır. İxrac bazarları da müəyyən edilməlidir. Bizim ənənəvi ixrac bazarımız var, bu Rusiyadır. İndi Rusiyada böyük kənd təsərrüfatı layihələri icra edilir. Onlarda da idxaldan asılılıq azalır. Ona görə biz yeni bazarlara baxmalıyıq. Bu, Yaxın Şərqdir, Körfəz ölkələridir, digər ölkələrdir, Asiyadır, Çindir. Biz ora çıxmalıyıq. Buna görə biz artıq «Made in Azerbaijan» brendini yaradırıq. İndi xüsusi işlər gedir, vəsait ayrılıb. Bizim heyətlər bütün ölkələrə getməlidirlər, gəzməlidirlər, təqdimatlar keçirməlidirlər. Yoxsa biz burada gözləyirik ki, kimsə gəlib bizdən nə isə alacaq. İndi bütün şirkətlər, ölkələr bazarlar uğrunda mübarizə aparır. Ona görə bu, yeni bir yanaşma olmalıdır. Həm dövlət orqanları təşkil etməlidir, həm sahibkarlar özləri maraqlı olmalıdırlar və mütləq burada valyutanın hərəkətinə də diqqət yetirilməlidir. Çünki ixraca gedən məhsulun pulu bəzi hallarda ya 50 faiz, ya da 100 faiz qayıtmır. Ona görə də burada çox ciddi nəzarət olmalıdır. İndi ixracın təşviqi ilə bağlı yeni sistem qurulur və bu orada da nəzərdə tutulur. Bu, 100 faiz şəffaf olmalıdır və heç bir pozuntuya yol verilməməlidir.

Bütün bunlar tələb edir ki, meliorasiyaya, suvarma işlərinə daha böyük diqqət göstərilsin. Son illər ərzində bu məqsədlər üçün böyük həcmdə vəsait ayrılıb, 2 böyük su anbarı tikilib – Taxtakörpü, Şəmkirçay, digər layihələr icra edilib. Ancaq bizdə suvarılmayan torpaqların həcmi kifayət qədər çoxdur. Ona görə göstəriş vermişəm, Prezident Administrasiyası məşğul olur, İqtisadiyyat, Kənd Təsərrüfatı nazirlikləri, «Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyəti birgə işləyirlər və gələn ilin

tədbirləri haqqında mənə konkret məruzə edilməlidir. Prezident Administrasiyasından verilən məlumata görə, biz az vəsaitlə gələn il təqribən 80–90 min hektar torpağı su ilə təmin edə bilərik. İndi bütün rayonlarda təhlil aparılır. Rayon icra hakimiyyətləri bu işlərə qoşulub və bu, düzgün yanaşmadır. Onlar yerlərdə hər şeyi yaxşı bilirlər. Əlbəttə, mərkəzi icra orqanları, «Meliorasiya və Su Təsərrüfatı» qurumu plan tutmalıdır ki, hər il neçə min hektar torpaq sahəsinə su verməliyik, bu torpaqlar haradadır və o torpaqlarda nə əkiləcək? O torpaqlarda əkin aparmaq üçün dövlət nə qədər dəstək verməlidir? Əmək resursları hesablanmalıdır. Beləliklə, biz suvarılan torpaqlarımızın həcmini xeyli artıra bilərik. Belə torpaqlar kifayət qədər çoxdur.

Mən əvvəllər də demişəm, zəbt edilmiş torpaqlar da var, amma onların böyük bir hissəsi artıq qaytarılıb. Mənə verilən məlumata görə, 200 min hektardan çox zəbt edilmiş, istifadəsiz torpaq artıq qaytarılıb. Qanunsuz icarə müqavilələri bağlanılıb. Kim ki o torpaqları əkib-becərir, biz buna ancaq şad olarıq. Amma kim bunu zəbt edib və möhtəkirliklə məşğuldur, əmanət kimi saxlayır və gözləyir ki, qiyməti qalxandan sonra satsın və ya bölsün, yaxud da ev tiksin, buna yol vermək olmaz. Ona görə bu göstərişlər verilib, bu iş də davam etdirilməlidir. Qanunsuz zəbt edilmiş torpaqlar dövlət fonduna qaytarılmalıdır. Kim ki istifadə edir, çox yaxşı, ona dövlət tərəfindən dəstək verilməlidir. Bütün bu işlərə, əlbəttə ki, dövlət dəstəyi, o cümlədən maliyyə dəstəyi verilməlidir.

Sahibkarlığın inkişafına maliyyə dəstəyi göstərilir. Bu il artıq 120 milyon manat güzəştli kreditlər verilib. Ancaq ilin sonuna qədər fondda nəzərdə tutulan layihələrə tam həcmdə kreditlər verilməlidir və gələn il kifayət qədər böyük vəsait nəzərdə tutulmalıdır.

Biz bu il ailə biznesinə «ASAN dəstək» sistemini yaradırıq. Bu, artıq Masallı «ASAN xidmət» Mərkəzində mənə təqdim olundu. Çox təqdirəlayiq bir təşəbbüsdür. Kiçik sahibkarlığın inkişafı üçün bunun çox böyük dəstəyi olacaq. Ona görə dövlət qurumları da, aidiyyəti qurumlar da bu işlərlə məşğul olsunlar. İqtisadiyyat, Kənd Təsərrüfatı, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri,

«ASAN xidmət»lə bərabər, yerli icra orqanları o kiçik konteynerlərdə nəzərdə tutulan istehsalat sahələrini insanlar arasında bölsünlər ki, bizdə ailə biznesi inkişaf etsin. İnkişaf etmiş ölkələrdə, xüsusilə kənd təsərrüfatı inkişaf etmiş ölkələrdə kənd təsərrüfatının əsas hissəsi kiçik fermer təsərrüfatlarında yaradılır və ailə biznesi orada çox inkişaf edir. Bu bizdə də olmalıdır.

«ASAN xidmət» mərkəzlərinin sayı 11-ə çatıb. Bunun çox böyük faydası var. Mərkəzlərə 12 milyon müraciət olub. Növbəti 1-2 ildə 4 yeni «ASAN xidmət» Mərkəzi yaradılmalıdır. Gələn ilin və 2018-ci ilin dövlət investisiya proqramında bu, nəzərdə tutulmalıdır. Qarşıdakı 2 ildə ən azı 4 mərkəz yaradılmalıdır.

Biz gördük ki, həyata keçirilən tədbirlər və aparılan islahatlar bu il turist axınına çox böyük təkan verib. Xüsusilə ərəb ölkələrindən gələnlərin sayı 20–30 dəfə artıb. Yay aylarında hotellərin çoxunda boş yer yox idi. Bu, ölkəmizə böyük valyuta gətirir. Ola bilər bu bizim üçün yenilikdir. Bəlkə insanlar da buna öyrəşməyiblər. Ancaq bütün inkişaf etmiş ölkələrdə böyük turist axını müşahidə olunur. Turist axını o ölkələrin inkişafı, təhlükəsizliyi, xalqlarının qonaqpərvərliyi deməkdir. Bizdə də bunların hamısı var. Xalqımız qonaqpərvərdir, təhlükəsizlik təmin edilir, gözəl tarixi, mənzərəli yerlərimiz və müasir infrastrukturumuz var. Vaxtilə bəziləri deyirdilər ki, Azərbaycanda, Bakıda bu qədər hotel tikilir, kimə lazımdır? Artıq biz gördük ki, lazımdır və nə ediriksə düz edirik. Ancaq indiki şəraitdə gərək potensial turist axınını hesablayaq. Çünki indi «ASAN viza» sisteminə keçirik. Cəmi 3 gün ərzində elektron vizalar veriləcək. Ona görə turist axını daha da güclü olacaq. Hamımız yaxşı görürük ki, «Formula-1» yarışlarının buna nə qədər böyük xeyri oldu. Ona görə bizim hotel infrastrukturu bu inkişafla ayaqlaşmalıdır. Sahibkarlar da bunu eşitsinlər, yerli icra orqanları, Mədəniyyət və Turizm Nazirliyi şərait yaratsın ki, həm Bakıda, həm bölgələrdə hotellərin sayı çoxalsın.

Gələn il sosial infrastruktur layihələri icra ediləcək. Məktəblərin, xəstəxanaların, olimpiya mərkəzlərinin tikintisi nəzərdə tutulur. Modul tipli məktəblər tikilməlidir. Çünki bizdə hələ qəzalı

şəraitdə kifayət qədər çox məktəb var. Məncə biz onları 2017–2018-ci illərdə tamamilə sökəcəyik və onların yerində yeni məktəblər tikiləcək. Beləliklə, bir dənə də qəzalı, təmirsiz məktəb qalmamalıdır.

Məcburi köçkünlərin problemləri həmişə diqqət mərkəzindədir. Artıq burada məruzədə də səsləndirildi ki, bu işlərə nə qədər böyük vəsait ayrıldı, bölgələrdə 100-ə yaxın qəsəbə salındı, Bakı şəhərində evlər tikildi. Hesab edirəm ki, 2017-ci ildə bu məsələləri daha da sürətlə həll etmək üçün biz iki yolla getməliyik. Yeni qəsəbələr salınmalıdır və salınır, yeni binalar tikilməlidir, satılmayan mövcud mənzillər dövlət tərəfindən alınmalıdır və köçkünlərə verilməlidir. Beləliklə, biz ağır vəziyyətdə yaşayan soydaşlarımızın problemlərini daha da tez bir zamanda həll edə bilərik. Çünki binaların tikintisi vaxt tələb edir. Bir də ki, Bakı şəhərində, digər şəhərlərdə kifayət qədər çox mənzillər var ki, boşdur, dövlət onları ala bilər. Bu da öz növbəsində, tikinti sektorunu canlandıra, vergiləri artıra bilər.

Bir sözlə, artıq 2016-cı il sona yaxınlaşır. Qeyd etdiyim kimi, bu il dünya iqtisadiyyatı üçün, dünya üçün ağır il olmuşdur. Ancaq əminəm ki, Azərbaycan son 3 ay ərzində görüləcək işlər nəticəsində 2016-cı ili də uğurla başa vuracaq. 2017-ci il də uğurlu olacaq. Əminəm ki, qarşıya qoyulan bütün vəzifələri icra etmək üçün bizdə kifayət qədər iradə, güc var. Xalq bizim siyasətimizi dəstəkləyir, referendumun nəticələri bunu bir daha təsdiqləyir. Bizim yolumuz açıqdır. Biz bundan sonra da inkişaf və tərəqqi yolu ilə gedəcəyik. Sağ olun.

## TÜRKİYƏ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*9 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İstanbulda keçirilən 23-cü Dünya Enerji Konqresində iştirak etmək üçün oktyabrın 9-da Türkiyə Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Azərbaycanın və Türkiyənin Dövlət bayraqlarının dalğalandığı İstanbulun Atatürk Beynəlxalq Hava Limanında prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi. Dövlətimizin başçısı Fəxri qarovul dəstəsini salamladı.*

*Azərbaycan Prezidentini Türkiyənin yüksək səviyyəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*İstanbul*

*9 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın oktyabrın 9-da İstanbulda görüşü keçirilmişdir.*

*Görüş zamanı Azərbaycan və Türkiyə prezidentləri ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, nəqliyyat və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə etdilər. Dövlət başçıları əlaqələrimizin bütün sahələrdə bundan sonra da genişlənəcəyinə əminliklərini bildirdilər.*

*Söhbət zamanı münasibətlərimizin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## *bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*İstanbul*

*10 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da İstanbulda bp şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşmüşdür.*

*Görüşdə İstanbulda keçirilən və 60-dan çox ölkədən yüksək səviyyəli nümayəndənin qatıldığı 23-cü Dünya Enerji Konqresinin əhəmiyyəti vurğulandı. Bu mötəbər tədbirdə enerji məsələləri ilə bağlı mühüm mövzuların müzakirə ediləcəyi qeyd olundu. Azərbaycanda enerji, o cümlədən neft-qaz yataqlarının işlənilməsində yüksək texnologiyaların tətbiq olunduğu nəzərə alınaraq, bu sahədə dünya təcrübəsinin öyrənilməsi məqsədilə ölkəmizin Konqresə böyük maraq göstərdiyi vurğulandı.*

*Söhbət zamanı Azərbaycan ilə bp şirkəti arasında uğurlu əməkdaşlığın hazırkı səviyyəsindən məmnunluq ifadə edildi. Birgə layihələrin uğurla icra olunduğu, «Şahdəniz» layihəsi üzrə işlərin nəzərdə tutulduğu kimi davam etdirildiyi bildirildi. Həmçinin «Azəri», «Çıraq», «Günəşli» yataqlarında yeni layihələrlə bağlı danışıqların uğurla aparıldığı qeyd edildi.*

*Görüşdə əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## VENESUELA RESPUBLİKASININ PREZİDENTİ NİKOLAS MADURO İLƏ GÖRÜŞ

*İstanbul*

*10 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da İstanbulda Venesuela Respublikasının Prezidenti Nikolas Maduro ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğu bildirildi. Azərbaycanın və Venesuelanın BMT və digər beynəlxalq təşkilatlarda bir-birini dəstəklədiyi vurğulandı, «Qoşulmama Hərəkatı» çərçivəsində ölkələrimizin əməkdaşlığı qeyd edildi.*

*Dövlət başçıları ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin möhkəmləndirilməsi üçün səylərin artırılmasının vacibliyini vurğuladılar. İqtisadi münasibətlərin genişləndirilməsi üçün çox yaxşı potensialın olduğu bildirildi. Neft istehsalçısı və ixracatçısı olan Azərbaycanın və Venesuelanın OPEC və qeyri-OPEC dövlətləri ilə əlaqələrinin intensivləşdirilməsinin əhəmiyyəti qeyd olundu. Həmçinin müxtəlif sahələrə, o cümlədən energetika sahəsinə qarşılıqlı investisiyalar yatırılması üçün yaxşı imkanların olduğu bildirildi.*

*Söhbət zamanı turizm sahəsində əlaqələrin genişlənməsində viza rejiminin sadələşdirilməsinin yaxşı imkan yaradacağı diqqətə çatdırıldı. Turizm, mədəniyyət, kənd təsərrüfatı, maliyyə və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Görüşdə müxtəlif səviyyəli qarşılıqlı səfərlərin gələcəkdə ölkələrimizin münasibətlərinin dərinləşməsi işinə xidmət edəcəyi vurğulandı. Neftin qiymətinin sabitləşdirilməsinin önəminə toxunularaq, bunun üçün OPEC və qeyri-OPEC dövlətləri arasında qarşılıqlı fəaliyyətin həyata keçirilməsinin əhəmiyyəti qeyd edildi.*

## 23-cü DÜNYA ENERJİ KONQRESİNİN AÇILIŞINDA İŞTİRAK

*İstanbul*

*10 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da İstanbulda 23-cü Dünya Enerji Konqresinin açılışında iştirak etmişdir.*

*«Yeni üfüqlərə qucaq açmaq» devizi altında keçirilən 23-cü Dünya Enerji Konqresində Azərbaycan prezidenti İlham Əliyev, Rusiya prezidenti Vladimir Putin, Venesuela prezidenti Nikolas Maduro Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın xüsusi dəvəti əsasında iştirak etmişlər.*

*Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Əvvəlcə Konqres iştirakçıları iyulun 15-də Türkiyədə dövlət çevrilişinə cəhd zamanı şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.*

*Konqresin açılışında Dünya Enerji Şurasının həmsədri Yanqhun Deyvid Kim çıxış edərək, bu mötəbər tədbirin əhəmiyyətini vurğuladı. O, 100-dən çox ölkəni və 3000-dən çox təşkilatı əhatə edən Dünya Enerji Şurasının enerji qaynaqları ilə zəngin olan ölkələri bir araya gətirmək baxımından fəaliyyətini vurğuladı. Hökumətlər, sənaye sektoru və cəmiyyətlər üçün tarixi bir fürsət olan bu Konqresin hazırda dünyada yeni başlanan sənaye erasına bir töhfə olacağını diqqətə çatdırdı, burada verilən mesajların gələcək üçün «yol xəritəsi» olacağını bildirdi. Yanqhun Deyvid Kim yeni nəsil enerji mənbələrinin müəyyən edilməsinin və bərpa olunan enerji mənbələrindən istifadənin hazırda qarşıda duran əsas hədəflərdən olduğunu dedi.*

*Türkiyənin Enerji və Təbii Sərvətlər naziri Berat Albayrak ölkəsinin bu mühüm Konqresə ev sahibliyi etməsindən məmnunluğunu ifadə edərək, müasir dövrdə enerjinin dünya gündəminin ən aktual məsələlərindən olduğunu bildirdi. Berat Albayrak Türkiyənin dünya enerji siyasətində rolu və regional baxımdan bu sahənin təhlükəsizlik sektoruna təsirindən danışdı, bölgədə həyata keçirilən enerji layihələrinin regionda sülhün əldə edilməsi üçün mühüm fürsət olduğunu bildirdi. Nazir dünyada təmiz enerji mənbələri ilə yanaşı, enerji daşıyıcılarının təhlükəsiz şəkildə nəqlinin də mühüm önəm daşıdığını vurğuladı.*

*Türkiyənin Baş naziri Binəli Yıldırım Konqres çərçivəsində keçiriləcək 60-dan çox sessiyada enerji sahəsində aktual məsələlərə dair səmərəli müzakirələrin aparılacağını bildirdi. Baş nazir dünyada enerji mənbələrinin şaxələndirilməsinin, enerji məhsullarının təhlükəsiz daşınmasının önəmini qeyd etdi. Türkiyənin enerji sahəsində həyata keçirdiyi və iştirak etdiyi layihələrdən danışan Binəli Yıldırım Bakı–Tbilisi–Ceyhan neft və Bakı–Tbilisi–Ərzurum qaz kəmərlərinin bu baxımdan önəmini xüsusi vurğuladı. Baş nazir Azərbaycanın və Türkiyənin mühüm rol oynadıqları «Cənub Qaz Dəhlizi» layihəsinin Avropanın enerji təhlükəsizliyi baxımından əhəmiyyətindən danışdı, bir neçə hissədən ibarət olan bu layihənin bütün komponentləri üzrə işlərin uğurla davam etdirildiyini bildirdi.*

*Sonra «İstanbul: mədəniyyətlərin beşiyi» adlı bədii kompozisiya təqdim olundu.*

*Şimali Kipr xalqının lideri Mustafa Akıncı çıxışında alternativ enerji mənbələrinin əhəmiyyətindən danışdı, regional enerji layihələrinin bölgədə sabitliyin əldə olunmasına və iqtisadi inkişafın təmin edilməsinə təkan verəcəyini diqqətə çatdırdı.*

*Venesuela prezidenti Nikolas Maduro bu tədbirin əhəmiyyətini vurğulayaraq, enerji sektorunda böyük dəyişikliklərin olduğu bir dövrdə alternativ enerji mənbələrinin yaradılması sahəsində çoxlu yeniliklərin baş verdiyini dedi. Enerji siyasətinin Venesuelanın iqtisadi inkişafına təsirindən danışan Nikolas Maduro XXI əsrdə enerji qaynaqlarının müxtəlifliyinin təmin edilməsinin qarşıda*

*duran vacib məsələ olduğunu bildirdi. Hazırda neft sektorunda tətbiq olunan yeni qiymətlərin bir növ təzyiq xarakteri daşıdığını deyən Nikolas Maduro uzun müddətdir davam edən bu vəziyyətin ölkələrin iqtisadi inkişafına mənfi təsir göstərdiyini vurğuladı, neft bazarının sabitliyə qovuşması yolunda fəaliyyət göstərməyin vacibliyini bildirdi. Venesuela Prezidenti OPEC üzvü olan və olmayan ölkələrin dövlət başçıları ilə görüşündə də vurğuladığı kimi, daha səmərəli qiymətlər üçün yeni mexanizmin yaradılmasına kəskin ehtiyacın olduğunu dedi.*

*Azərbaycan prezidenti İlham Əliyev Konqresdə çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Dünya Enerji Konqresinin Türkiyədə keçirilməsi çox əlamətdar hadisədir. Bu, Türkiyənin dünya enerji siyasətindəki rolunu göstərir və bu rol getdikcə artır. Türkiyə enerji təhlükəsizliyi məsələlərinin həllində çox önəmli addımlar atır. Türkiyənin inkişafı, sabitliyi nəinki Türkiyəni sevən ölkələrə, ona dost olan ölkələrə, bütün dünyaya lazımdır. Çünki Türkiyə bu gün dünyanın enerji siyasətinin müəyyən edilməsində çox önəmli rol oynayır.

Bu ilin iyulunda Türkiyə çətin bir sınaqdan şərəflə çıxdı. Türkiyə xalqı prezident Rəcəb Tayyib Ərdoğanın ətrafında sıx birləşərək, böyük qəhrəmanlıq göstərərək, çevriliş cəhdinin qarşısını aldı, dövlətçiliyi, Türkiyənin xoşbəxt bu gününü və gələcəyini qorudu. Biz Azərbaycanda sizinlə fəxr edirik.

Biz bir çox önəmli enerji layihələrimizi Türkiyə ilə bərabər icra edirik və bu enerji layihələri dünya üçün böyük əhəmiyyət daşıyır. Onu qeyd etməliyəm ki, dünyanın neft tarixi Bakıdan başlanır. XIX əsrin ortalarında dünyada ilk dəfə olaraq, Bakıda sənaye üsulu ilə ilk neft çıxarılıb. Ondan 100 il sonra ilk dəfə dənizdə neft Azərbaycan neftçiləri tərəfindən çıxarılıbdır. Müstəqilliyimizin ilk illərində Azərbaycan ilk dəfə olaraq, xarici neft şirkətlərini Xəzər dənizinə dəvət etdi, «Əsrin müqaviləsi» imzalandı, «Azəri–Çıraq–

Günəşli» neft yataqları bloku işə düşdü. Bu yataqlar dünya miqyasında ən böyük neft qaynaqlarından biridir və beləliklə, ölkəmizin sürətli və uğurlu inkişafı başlandı.

Biz bu ay müstəqilliyimizin bərpasının 25-ci ildönümünü qeyd edəcəyik. Bizim müstəqil ölkəmizin inkişafında enerji sektoru xüsusi rol oynayıb.

Azərbaycan açıq dənizlə dünya bazarlarına çıxışı olmayan ölkələrdən biridir. Buna görə mütləq boru xətləri çəkilməli idi. Bu gün bizim xam nefti dünya bazarlarına çıxarmaq üçün 3 boru xəttimiz var – ikisi bizim neftimizi Qara dənizə, biri isə Aralıq dənizinə – Ceyhan limanına gətirir. Tarixdə ilk dəfə olaraq, biz Xəzər dənizini Aralıq dənizi ilə bağladıq və bu gün Azərbaycan nefti həm Türkiyəyə, Türkiyə ərazisindən isə dünya bazarlarına ixrac edilir. Bu bizə çox böyük xeyir gətirir. Bakı–Tbilisi–Ceyhan boru xəttini əziz qardaşım, hörmətli prezident Ərdoğanla birlikdə 2006-cı ildə açdığımız andan bu günə qədər ötən 10 il ərzində Türkiyə ilə Azərbaycan arasında enerji sahəsində və digər sahələrdə əlaqələr daha da möhkəmlənib. 2007-ci ildən sonra isə Azərbaycan tarixdə ilk dəfə olaraq, təbii qazı ixrac etməyə başlayıb. Bakını Ərzurumla birləşdirən boru xətti çəkildi və beləliklə, biz Türkiyəyə təbii qazın ixracına başladıq.

Azərbaycanda təsdiq edilmiş təbii qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Dünyanın ən böyük qaz yataqlarından biri – «Şahdəniz» Azərbaycanda yerləşir. Bütün bunları nəzərə alaraq, mütləq böyük qaz xətti çəkilməli idi və müxtəlif şirkətlər, müxtəlif ölkələr bu istiqamətdə öz səylərini göstərirdilər. Ancaq bu səylərin heç bir nəticəsi olmamışdır. Yenə də Türkiyə ilə Azərbaycan bu istiqamətdə də öz liderliyini göstərdi və 2012-ci ildə bu gözəl İstanbul şəhərimizdə əziz qardaşım prezident Ərdoğanla birlikdə TANAP anlaşması imzalandı.

TANAP anlaşması tarixi bir anlaşmadır. Bu, digər önəmli layihələrə təkan verdi. TANAP layihəsi «Cənub Qaz Dəhlizi»nin tərkib hissəsidir. «Cənub Qaz Dəhlizi» bu gün dünya miqyasında ən böyük enerji layihələrindən biridir. «Cənub Qaz Dəhlizi»nin sərmayə tutumu 45 milyard dollardır və 4 önəmli layihədən

ibarətdir. Birincisi, TANAP-dır ki, bizim qazı Gürcüstan–Türkiyə–Yunanıstan sərhədinə çatdırır. Digəri «Cənubi Qafqaz» qaz kəməridir ki, Azərbaycan qazını Türkiyə sərhədinə gətirir. Üçüncüsü, Trans–Adriatik kəməridir və nəhayət, dördüncüsü, «Şahdəniz» qaz yatağının ikinci fazasının işlənməsidir.

Bu gün «Cənub Qaz Dəhlizi» layihəsi uğurla icra edilir. Azərbaycan və Türkiyə bu layihənin icrasında liderlik keyfiyyətlərini göstərirlər və bu, enerji təhlükəsizliyi üçün çox önəmli bir layihədir.

Enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizlik məsələsidir. Bu gün ölkələr çalışırlar ki, öz təbii resurslarını müxtəlif yollarla dünya bazarlarına çıxarsınlar. Ancaq təbii qaynaqlarla zəngin olmayan ölkələr isə çalışırlar ki, onlara resurslar müxtəlif yerlərdən gətirilsin. Azərbaycan bu istiqamətdə də önəmli addımlar atır və həm nefti, həm qazı şaxələndirilmiş yollarla dünya bazarlarına çıxarır.

«Cənub Qaz Dəhlizi»nin icrasında artıq 7 ölkə birləşib və gələcəkdə daha bir neçə ölkə bu önəmli layihəyə qoşula bilər. Bu istiqamətdə apardığımız işlər bizim ölkəmizi gücləndirir. Çünki qeyd etdiyim kimi, biz cəmi 25 ildir ki, müstəqil ölkə kimi yaşayırıq. İqtisadiyyatımızın böyük hissəsi ilk illərdə neftlə, qazla bağlı idi. Bu gün isə biz neftdən və qazdan əldə etdiyimiz mənfəəti iqtisadiyyatımızın digər sektorlarına yatırmaqla, ölkəmizin inkişafını dayanıqlı edirik. Bizim iqtisadiyyatımızda neft və qaz hazırda cəmi 30 faiz təşkil edir.

Enerji təhlükəsizliyi məsələləri gələcəkdə də öz həllini tapmalıdır. Təbii qaynaqlarla zəngin olan ölkələr, tranzit ölkələr, istehlakçı ölkələr burada bir komanda kimi fəaliyyət göstərməlidir, heç bir əsassız rəqabətə yol verilməməlidir, sağlam rəqabət aparılmalıdır. Neft-qaz hasil edən və ixrac edən ölkələr arasında daha çox anlaşma olmalıdır. Azərbaycan hər zaman bunun tərəfdarı olub ki, burada biz xalqlarımızın, ölkələrimizin maraqlarını təmin edə bilək. Bizim enerji siyasətimiz imkan verdi ki, biz özümüz də xarici ölkələrə sərmayə qoyaq. Müstəqilliyimizin ilk illərində xarici yatırımdan asılı idik. Bu gün biz

başqa ölkələrə böyük həcmdə yatırımlar edirik, o cümlədən qardaş Türkiyəyə bizim yatırdığımız və yatıracağımız sərmayə 20 milyard dollara bərabərdir. Bu bizim iqtisadiyyatımızı, Türkiyə iqtisadiyyatını gücləndirir. Bu bizim birliyimizi gücləndirir.

Bu gün dünya enerji və enerji təhlükəsizliyi məsələlərini müzakirə edəndə Türkiyəni və Azərbaycanı nəzərə almamaq mümkün deyil. Çünki həm təbii ehtiyatlar, həm böyük coğrafiya, şaxələndirilmiş nəqliyyat infrastrukturu artıq bizdə var. Biz bunu yaratmışıq və biz öz işimizi bütün ölkələrlə bərabərhüquqlu, qarşılıqlı mənfəət və maraqlar əsasında qururuq.

Bu gün biz çox sevinirik ki, Türkiyə uğurla, inamla irəliyə gedir. Türkiyə «Böyük İyirmilik»lərin üzvüdür. Türkiyə–Azərbaycan əlaqələrini bir faktla əsaslandırmaq üçün sadəcə olaraq, onu deməliyəm ki, «Böyük İyirmilik»lərin keçən il noyabr ayında Antalyadakı Zirvə görüşündə Türkiyə bu kluba üzv olmayan bir ölkəni dəvət edə bilərdi və o, Azərbaycanı dəvət etdi. Buna görə bir daha sizə minnətdaram.

Mən bu il dördüncü dəfədir ki, Türkiyəyə səfər edirəm və əziz qardaşım Rəcəb Tayyib Ərdoğan da Azərbaycana səfərlər edir. Bizim dostluğumuz, birliyimiz, qardaşlığımız daimidir, əbədidir, sarsılmazdır. Sağ olun.

* * *

*Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dünya enerji siyasətinin inkişafına xidmət edən bu Konqresin uğurlu olacağına əminliyini bildirdi. Prezident Vladimir Putin neftin qiyməti ilə bağlı məsələyə toxunaraq, mövcud vəziyyətin son 25 ildə bu sahədə ən aşağı sərmayə qoyuluşuna, yeni yataqların aşkarlanması və bir çox layihələrin icrasının kütləvi surətdə dayandırılmasına səbəb olduğunu diqqətə çatdırdı. «Mövcud şəraitdə neftin bazar mexanizmlərinin pozulması halı baş verib» – deyən Rusiya Prezidenti vurğuladı ki, ölkəsi neft hasilatını azaltmağa hazırdır və digər hasilatçıları da buna səsləyir. OPEC-ə üzv ölkələrin noyabrda keçiriləcək toplantısında bu məsələyə aydınlıq gətiriləcəyinə, bu toplantının spekulyasiyaların qarşısını alacağına əminliyini*

*ifadə edən Vladimir Putin dünya enerji təhlükəsizliyi siyasətinin əlaqələndirilməsinin, bu məsələdə bir çox ölkələrin öz müttəfiqlərinin mənafelərini düşünməsinin vacibliyini vurğuladı. «Rusiya yeni yataqların tapılmasına və bu sahədə yeni sərmayələrin qoyulmasına davam edəcək» – deyən prezident Vladimir Putin ölkəsinin Türkiyə və Çinlə enerji sahəsində əlaqələrin inkişafına xidmət edəcək layihələrindən də danışdı.*

*«Enerji problemi həll olunmadan sərmayədən və inkişafdan söhbət gedə bilməz». Bu sözləri isə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan dedi. O, Türkiyənin Yaxın Şərq və Xəzər hövzəsi də daxil olmaqla, dünya enerji qaynaqlarının üçdə ikisinin olduğu bölgədə yerləşdiyini bildirərək, həmin ehtiyatların dünya bazarına çatdırılmasında ölkəsinin mühüm rol oynadığını söylədi.*

*«Əsasən Azərbaycan nefti olmaqla, Xəzər neftinin Ceyhan limanına nəqlini təmin edən Bakı–Tbilisi–Ceyhan neft kəmərini də həyata keçirmişik. Həmçinin Azərbaycanla birlikdə reallaşdırdığımız «Cənub Qaz Dəhlizi»nin əsasını təşkil edən TANAP – Trans–Anadolu qaz boru kəməri layihəsini inşa edirik. TANAP və bu layihənin davamı olacaq Trans–Adriatik–TAP boru kəməri ilə Azərbaycanın təbii qazı Türkiyə ilə yanaşı, Avropa bazarlarına da çatdırılacaq» – deyə Türkiyə Prezidenti qeyd etdi.*

*Prezident Rəcəb Tayyib Ərdoğan çıxışında iyulun 15-də Türkiyədə dövlət çevrilişinə cəhdin qarşısının millətin qəhrəmanlığı sayəsində alındığını bildirdi, ölkəsinin terrora qarşı bundan sonra da əzmlə mübarizə aparacağını vurğuladı.*

*Dünya Enerji Şurasının ən mühüm tədbirlərindən olan Konqres enerji sahəsində problemlərin və onların həlli yollarının qlobal miqyasda nəzərdən keçirilərək, müəyyən edilməsi məqsədilə təşkil olunan ən mühüm beynəlxalq enerji tədbiridir. Dünyanın bir nömrəli enerji platforması olan Konqres ilk dəfə 1924-cü ildə keçirilib. 3 ildən bir təşkil edilən Konqres enerji sahəsində fəaliyyət göstərən qurumlara yeni texnologiyalar və yeni iş imkanları təqdim edir.*

*23-cü Dünya Enerji Konqresində dünya enerji sənayesinin liderləri, beynəlxalq təşkilatları, «beyin mərkəzləri»ni, universitetlə-*

*ri, enerji və sənaye qurumlarını təmsil edən 10 mindən çox nümayəndə iştirak edir. Konqres çərçivəsində keçiriləcək «Dünya enerji liderləri», «Gələcəyin enerji liderləri», «Enerji trilemması» mövzularında xüsusi sessiyalarda milli, regional və qlobal miqyasda bərpa olunan enerjini təmin etmək üçün alternativ yollar axtarışında olan ölkələrin Enerji nazirləri, biznes, maliyyə və elm sahələri üzrə tanınmış şəxslər ətraflı müzakirələr aparacaqlar.*

*1923-cü ildə yaradılan Dünya Enerji Şurası bərpa olunan enerjinin gələcəyi ilə bağlı mühüm layihələr həyata keçirilən qlobal miqyaslı mötəbər forumdur.*

## AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN «SPACE» TELEVİZİYASININ MÜXBİRİNİN SUALINA CAVABLARI

*İstanbul*

*10 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 10-da İstanbulda keçirilən 23-cü Dünya Enerji Konqresinin açılışından sonra «Space» televiziyasının müxbirinin sualını cavablandırdılar.*

**Rəcəb Tayyib Ərdoğan:** Çox xoş oldu. Qardaşımla bərabər bir arada olduq. Onun üçün də çox xoşbəxtəm.

**İlham Əliyev:** Biz hər zaman bir yerdəyik, bir yerdə olacağıq. Əziz qardaşımın dediyi kimi, bu gün buraya gələnlərin mütləq əksəriyyəti Türkiyəyə, əziz qardaşıma dəstək vermək üçün gəlib. Bu çox böyük uğurdur. Türkiyə yenə də bütün dünyanı dəvət etdi, öz ətrafına yığdı. İnşallah, daha da gözəl günlərimiz olacaq, bax, həmişə belə, bərabər.

**Rəcəb Tayyib Ərdoğan:** Biz birik, bərabərik, qardaşıq!

### Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri oktyabrın 10-da başa çatdı.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı İstanbulun Atatürk Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.*

*Azərbaycan Prezidenti Fəxri qarovul dəstəsini salamladı.*

*Prezident İlham Əliyevi Türkiyənin yüksək səviyyəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

**İSPANİYA KRALI ƏLAHƏZRƏT**
**VI FELİPEYƏ**

Əlahəzrət!

İspaniya Krallığının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Bu bayram günündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost İspaniya xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 oktyabr 2016-cı il*

## BAKIDA OKSİGEN ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*13 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də «Baku Steel Company» Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) Oksigen zavodunun açılışında iştirak etmişdir.*

*MMC-nin Müşahidə Şurasının sədri Rasim Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi. Bildirildi ki, burada 2012–2013-cü illərdə əsaslı yenidənqurma işləri aparılıb. Cəmiyyətin inzibati binası da görülən işlər çərçivəsində müasir səviyyəyə çatdırılıb. Binanın foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulub, ümummilli liderin bu şirkətdə, prezident İlham Əliyevin isə müxtəlif istehsal müəssisələrində olduqları vaxt çəkilən fotolarından ibarət stend yaradılıb. Şirkət 2001-ci ildə ulu öndər Heydər Əliyevin iştirakı ilə açılıb.*

*Prezident İlham Əliyevə burada hazırda icra olunan 3 yeni layihə barədə məlumat verildi. Yeni layihələrə ferroərintilərin və şıxta materiallarının soba və soba-çalova verilməsini təmin edən müasir avtomatlaşdırılmış qurğunun, 9 metr radiusda olan üçşırnaqlı, tökmə sürəti dəqiqədə 5 metr olan fasiləsiz pəstahtökmə maşınının quraşdırılması, həmçinin illik məhsuldarlığı 550 min ton olan çeşidli yayma xəttinin yaradılması daxildir. Bu xətt istehsal prosesində itkiləri azaltmaq üçün pəstahların bir-birinə avtomatik qaynaq olunması qurğusu ilə təchiz edilib. Çeşidli yayma xəttində tökmə maşınından pəstahların isti şəkildə verilməsi də nəzərdə tutulub ki, bu da öz növbəsində, enerjiyə qənaət etməyə imkan yaradır. «Baku Steel Company» MMC bu layihələri İtaliyanın «Danieli» şirkəti ilə reallaşdırır.*

*Sonra prezident İlham Əliyev Oksigen zavodunun açılışında iştirak etdi.*

*Zavod dünyanın bu sahədə ən qabaqcıl şirkəti olan «Air Liquide» şirkətinin avadanlığı ilə təchiz olunub. İnşası yerli şirkətlər tərəfindən aparılan bu müəssisənin istehsal gücü saatda 5000 kubmetrdir. Burada istehsal ediləcək oksigen kimyəvi tərkibinə görə çox yüksək təmizliyə malikdir və «Baku Steel Company»nin artan istehsal gücünü tam ödəməklə yanaşı, elektrik qövs sobasında kimyəvi enerji kimi istifadə edilir. Bu isə elektrik enerjisi məsrəfinə qənaət etməyə imkan verir.*

*Dövlətimizin başçısı İlham Əliyev zavodu işə salan düyməni basdı.*

*«Baku Steel Company» MMC ölkəmizin qeyri-neft sektorunda ən böyük vergi ödəyicilərindəndir. Burada son illərdə aparılan yenidənqurma işləri nəticəsində şirkətin illik istehsal gücü 250 min tondan 1.100 min tona çatdırılıb.*

*Prezident İlham Əliyev polad istehsalı sahəsində məhsulun hazırlanması prosesi ilə tanış oldu.*

*Bu il «Baku Steel Company»də tikişsiz boru istehsalı üçün xammal olan dairəvi pəstahların hazırlanmasına başlanılıb. Hazırda diametri 130, 170, 190, 220 millimetr olan dairəvi pəstahlar müvafiq polad markalarına uyğun olaraq istehsal edilir.*

*Dövlətimizin başçısı burada istehsal olunan məhsullara baxdı.*

*«Baku Steel Company» MMC müasir Azərbaycanın metallurgiya sənayesinin inkişafında əsas rolu olan qabaqcıl poladəritmə müəssisəsidir. Müəssisədə quraşdırılan dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıq yüksəkkeyfiyyətli və rəqabətədavamlı məhsul əldə etməyə tam imkan verir. Daxili və xarici bazarın polad məmulatlarına tələbatını nəzərə alan «Baku Steel Company» istehsal olunan məhsulun çeşidini genişləndirib. Bu məqsədlə zavodda 2 yeni yayma xətti quraşdırılaraq, çoxçeşidli künclük, şveller, ikitavrlı şveller və yayma məftil məhsullarının istehsalına başlanılıb. Eyni zamanda, müəssisədə müxtəlif markalı polad pəstahlar, diametri 10–32 millimetr olan armaturlar istehsal edilir. Məhsulların hamısı yüksək keyfiyyəti ilə seçilir. İxrac siyasətini hər zaman inkişaf etdirən şirkət məhsullarını Rusiya, Gürcüstan və digər ölkələrin bazarlarına çıxarır. Regionun*

*aparıcı müəssisələrindən biri olan «Baku Steel Company» məhsulun çeşidini daha da genişləndirməyi qarşısına məqsəd qoyub. Şirkət regionun və dünyanın aparıcı metallurgiya ixracatçısı kimi, fəaliyyətini müasir tələblər səviyyəsində qurub.*

*Müəssisə ilə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzuladı.*

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ YENİ SEÇİLMİŞ BAŞ KATİBİ ZATİ-ALİLƏRİ CƏNAB ANTONİO QUTERREŞƏ

Hörmətli cənab Quterreş!

Birləşmiş Millətlər Təşkilatının Baş katibi vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan müstəqillik qazandığı ilk gündən BMT ilə hərtərəfli əməkdaşlığa böyük əhəmiyyət verir, təşkilatın bütün strukturları ilə səmərəli əməkdaşlıq edir, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında və dünya ictimaiyyətini narahat edən məsələlərdə BMT-nin mövqeyini dəstəkləyir. Mən Sizin Azərbaycana etdiyiniz səfərlərinizi, Sizinlə keçirdiyimiz görüşləri və apardığımız fikir mübadilələrini məmnunluqla xatırlayıram. Ümidvaram ki, sülhün, təhlükəsizliyin və əmin-amanlığın bərqərar olunmasında birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Biz həmçinin Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazilərinin işğaldan azad olunması, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş 1 milyondan çox soydaşımızın doğma yurd-yuvalarına qayıtması, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə ədalətli həlli istiqamətində BMT-nin Baş katibi kimi, şəxsən Sizin səylərinizə böyük ümidlər bəsləyirik.

Bir daha Sizi təbrik edir, bəşəriyyət qarşısında duran qlobal problemlərin aradan qaldırılması, dünyada sülhün və təhlükəsizliyin bərqərar olunmasında mühüm və aparıcı rola malik BMT-nin Baş katibi vəzifəsində Sizə uğurlar arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 oktyabr 2016-cı il*

**TAİLAND KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**GENERAL PRAYUT ÇAN-OÇAYA**

Hörmətli cənab Baş nazir!

Tailandın Kralı Bhumibol Adulyadejin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, kral ailəsinin bütün üzvlərinə, dost Tailand xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 oktyabr 2016-cı il*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ MƏHƏMMƏD NƏVAZ ŞƏRİF İLƏ GÖRÜŞ

*14 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərifin oktyabrın 14-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Pakistanın Baş nazirinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərifi qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Pakistanın Baş nazirinə raport verdi.*

*Pakistanın və Azərbaycanın Dövlət himnləri səsləndirildi.*

*Prezident İlham Əliyev və Baş nazir Məhəmməd Nəvaz Şərif Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Pakistanın Baş naziri Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Baş nazir Məhəmməd Nəvaz Şərifə, Pakistan nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidentinin və Pakistanın Baş nazirinin qarşısından keçdi.*

*Azərbaycan prezidenti İlham Əliyev və Pakistanın Baş naziri Məhəmməd Nəvaz Şərif rəsmi foto çəkdirdilər.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ MƏHƏMMƏD NƏVAZ ŞƏRİF İLƏ MƏHDUD TƏRKİBDƏ GÖRÜŞ

*14 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 14-də rəsmi qarşılanma mərasimindən sonra Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərif ilə məhdud tərkibdə görüşü olmuşdur.*

**İlham Əliyev:** Bu gün bizim üçün vacib gündür. Bizim əlaqələrimiz yüksək səviyyədədir və əminəm ki, bu görüş əlaqələrimizi daha da gücləndirmək baxımından uğurlu olacaq. Biz bir çox sahələrdə əməkdaşlıq edirik. Bu gün həyata keçirilmiş işlərə bir daha nəzər salmaq və gələcəklə bağlı planlar qurmaq üçün yaxşı fürsətdir. Sizi qəbul etməkdən çox məmnunam. Ümidvaram ki, ölkəmizə səfəriniz səmərəli keçəcək.

**Məhəmməd Nəvaz Şərif:** Təşəkkür edirəm, cənab Prezident!

Burada olmaq bizim üçün şərəfdir. Çox gözəl Bakı şəhərinə səmimi dəvətinizə və qonaqpərvərliyinizə görə Sizə minnətdaram. Şəhərinizə heyran qalmışam. Hər yerdə Sizin şəhərin gözəlliyindən çox danışılır.

Mən bir dəfə 1998-ci ildə yolüstü Bakıda olmuşam. Bu mənim ondan sonra bu şəhərə ilk səfərimdir. Gözəl Bakı şəhərində olmaqdan məmnunam. Bakı dünyanın ən gözəl şəhərlərindən və mənim gördüyüm ən təmiz şəhərlərdən biridir. Mən bir daha burada olmağıma şadam.

**İlham Əliyev:** Təşəkkür edirəm. Xoş sözlərinizə görə minnətdaram.

*Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*14 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 14-də məhdud tərkibdə görüşü başa çatdıqdan sonra Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərif ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli Baş nazir!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda salamlamaq istəyirəm. Çox şadıq ki, cənab Baş nazir ölkəmizdə rəsmi səfərdədir. Biz ilin əvvəlində Davosda görüşmüşük. Çox yaxşı görüş keçirdik və söhbət apardıq, əməkdaşlığımızın strateji mahiyyətini bir daha vurğuladıq. Bu gün Pakistanın Baş nazirinin rəsmi səfəri ölkələrimiz arasında çox yaxın əməkdaşlığı davam etdirdiyimizi göstərir.

Pakistan bizim üçün ən yaxın dostlardan biridir. Biz müxtəlif sahələrdə əlaqələrimizi inkişaf etdirmək istəyirik. Bizim çox yaxın siyasi əlaqələrimiz var. Biz Baş nazirlə siyasi əməkdaşlığımızın səviyyəsinin çox yüksək olduğunu müzakirə etdik.

Biz iqtisadi əməkdaşlığımızı, investisiya sahəsində əməkdaşlığı genişləndirməli, qarşılıqlı ticarət mübadiləsini inkişaf etdirməli, humanitar məsələlərə çox diqqət yetirməli, çox geniş və səmərəli əməkdaşlıq aparmalıyıq. Biz bütün beynəlxalq məsələlərdə bir-birimizi dəstəkləyirik. Azərbaycan Kəşmirlə bağlı məsələlərdə hər zaman Pakistanı dəstəkləyir. Pakistan da Dağlıq Qarabağ probleminin həlli ilə bağlı məsələlərdə hər zaman bizi dəstəkləyir. Biz bütün beynəlxalq təşkilatlarda birlikdəyik. Baş nazirin bugünkü səfəri görülmüş işlərə yenidən nəzər salmaq və gələcək planları müəyyənləşdirmək üçün yaxşı imkandır.

Cənab Baş nazir, səfərinizin xoş keçməsini arzulayıram. Dəvətimi qəbul edib bu gün Azərbaycana səfər etdiyinizə görə Sizə minnətdaram. Bir daha xoş gəlmisiniz!

**M ə h ə m m ə d N ə v a z Ş ə r i f:** Cənab Prezident, təşəkkür edirəm.

İlk növbədə, gözəl ölkənizə səfər etməyin bizim üçün şərəf olduğunu demək istərdim. Biz Bakını görməyə çox şadıq. Son 10–15 ildə Bakı belə gözəl bir şəhərə çevrilib. 15 ildən az müddətdə bu işlərin görülməsi çox heyrətamizdir. Artıq qeyd etdiyim kimi, mən 1998-ci ildə Bakıda olmuşam. Burada rəsmi səfərdə olmaq şəxsən mənim üçün şərəfdir. Bu gözəl şəhərdə mənə və nümayəndə heyətinin üzvlərinə göstərilən olduqca səmimi münasibətə görə Sizdən minnətdarlığımı qəbul etməyinizi xahiş edirəm. İlk növbədə, icazə verin, 18 oktyabr – milli bayramınız münasibətilə Sizə və Azərbaycan xalqına səmimi təbrikimi və ən xoş arzularımı çatdırım.

Cənab Prezident, deməliyəm ki, Pakistan xalqı Sizin dahi atanız mərhum prezident Heydər Əliyevin uzaqgörənliyini, qardaş Azərbaycanın irəliləyişini, inkişafını və Sizin müdrik, mahir rəhbərliyinizi yüksək qiymətləndirir. Son 25 ildə Azərbaycanın əldə etdiyi irəliləyiş diqqətəlayiqdir.

Azərbaycanın inkişafı və uğuru bütün müsəlman ölkələri üçün qürur mənbəyi və bir çox inkişaf etməkdə olan ölkələr üçün idarəçilik nümunəsidir. Deməliyəm ki, biz dünəndən çox təsirlənmişik. Cənab Prezidentə dedim ki, mən dünyada bu qədər təmiz şəhər görməmişəm. Bəlkə də Bakı kimi təmiz şəhər gördüyümü unutmuşam. Lakin şübhəsiz ki, bu mənim indiyədək olduğum ən təmiz şəhərlərdən biridir. Şəhərin planlaşdırılması, dünən və bu gün gördüyümüz gözəlliklər bizi məftun etdi. Bir daha Sizə təşəkkür edirəm.

## PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ MƏHƏMMƏD NƏVAZ ŞƏRİF İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*14 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərif oktyabrın 14-də mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Baş nazir!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Cənab Baş nazir, ilk növbədə, mən bir daha Sizi ölkəmizdə salamlamaq istəyirəm. Çox şadam ki, mənim dəvətimi qəbul etmisiniz və bu gün ölkəmizdə səfərdəsiniz. İlin əvvəlində Davosda keçirdiyimiz görüş zamanı razılaşdığımız kimi, bu gün biz görüşürük və qarşılıqlı maraqlarımıza, dostluğa, tarixə, tərəfdaşlığa və xalqlarımız arasındakı qardaşlığa əsaslanan əməkdaşlığı davam etdiririk.

Pakistan bizim üçün ən yaxın dost və müttəfiqlərdən biridir. Pakistan Azərbaycanı müstəqil dövlət kimi tanıyan ilk 3 ölkədən biridir. Xalqımıza bildirmək istəyirəm ki, həmin vaxt Baş nazir cənab Şərif idi. O vaxtdan biz çox yaxın dostluq əlaqələri qurmuşuq. Biz beynəlxalq təşkilatlarda – BMT-də, İslam Əməkdaşlıq Təşkilatında və digər beynəlxalq qurumlarda hər zaman bir-birimizi dəstəkləyirik. Biz Kəşmir və Dağlıq Qarabağ məsələlərində bir-birimizi dəstəkləyirik. Azərbaycan Kəşmir məsələsinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən həllini tam dəstəkləyir. Həmçinin Pakistan Ermənistan–

Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən həllini tam dəstəkləyir. Təəssüf ki, onilliklər bundan əvvəl qəbul edilmiş bu qətnamələr yerinə yetirilmir. Bu, ikili standartlarla yanaşmanın göstəricisidir. Çünki bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün, hətta bir neçə saat ərzində həyata keçirilir. Bizə gəldikdə isə bu qədər uzun müddət çəkir. Ölkələrimiz üçün bu ağrılı məsələlərlə bağlı qarşılıqlı dəstəyimiz də bizi birləşdirir. Biz Pakistana çox minnətdarıq ki, Azərbaycan torpaqlarını işğal etdiyinə görə Ermənistanı tanımadı və Ermənistanla diplomatik əlaqələr qurmadı. Bu, qardaşlığın göstəricisidir. Azərbaycan xalqı bu qardaşcasına yanaşmanı yüksək qiymətləndirir. Biz həmçinin minnətdarıq ki, 2012-ci ildə Pakistan Senatı Xocalı soyqırımını rəsmi olaraq soyqırımı kimi tanıdı. Bu, dostluq və tərəfdaşlığın daha bir göstəricisidir. Ona görə də Azərbaycan xalqı Sizin ölkəni sevir. Biz bu dəstəyə görə çox minnətdarıq və öz tərəfimizdən hər zaman hər məsələdə sizi dəstəkləyirik.

Siyasi təmaslar çox yüksək səviyyədədir. Qeyd etdiyim kimi, biz beynəlxalq təşkilatlarda da bir-birimizi dəstəkləyirik. Bu gün biz, əlbəttə ki, cənab Baş nazirlə bu məsələlərə nəzər saldıq və gələcəkdə nə etməli olduğumuz barədə söhbət apardıq. Sözsüz ki, siyasi təmaslarımız uğurla davam edəcək. Lakin biz iqtisadi sahədə, investisiya və qarşılıqlı faydalı birgə müəssisələrin yaradılması sahəsində daha çox işləməliyik. Biz iqtisadi sahədə ticarət mübadiləsinin səviyyəsindən razı deyilik. Ona görə də bu gün biz ticarət mübadiləsini necə artıra biləcəyimizi müzakirə etdik. Biz Pakistana nə ixrac edə bilərik, Pakistan Azərbaycana nə ixrac edə bilər kimi məsələlər qarşıdakı aylarda həll olunacaq. Düşünürəm, elə bir əməkdaşlıq mexanizmi yarada bilərik ki, bizim idxal etdiyimiz və Pakistanın təchiz edə biləcəyini Pakistandan alaq və əksinə, Pakistanın idxal etdiyi və bizim təchiz edə biləcəyimiz bizdən alınsın.

Bu gün biz həmçinin Azərbaycanda xüsusilə də əczaçılıq sənayesi sahəsində birgə müəssisələrin yaradılması ilə bağlı məsələləri müzakirə etdik. Pakistan bu sahədə çox inkişaf etmiş

ölkədir. Biz Azərbaycanda bu sənaye sahəsini inkişaf etdirmək istəyirik, çünki əsasən idxaldan asılıyıq.

Müzakirələrimizin əhəmiyyətli hissəsi hərbi sahədə əməkdaşlığa həsr olunmuşdur. Bizim çox yaxşı əməkdaşlığımız var və bu gün biz ölkələrimizin silahlı qüvvələri arasında birgə hərbi təlimlə bağlı planları müzakirə etdik. Eyni zamanda, Pakistanın çox inkişaf etmiş müdafiə sənayesi var və biz bu sahədə əməkdaşlığı çox ətraflı müzakirə etdik. Azərbaycan da, demək olar, 10 ildir ki, öz müdafiə sənayesini inkişaf etdirir. Beləliklə, biz birgə istehsalatı qurmaq üçün müştərək şəkildə işləyə bilərik. Eyni zamanda, biz Pakistandan ən müasir, yüksək texnologiyalı silahlar almaq istəyirik və bu məsələdə tam anlaşmamız var.

Bu gün iqtisadi əməkdaşlığın digər sahələrində, xüsusilə kənd təsərrüfatı, turizm sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu. Ümidvaram ki, elektron viza sistemi Azərbaycanda tam tətbiq olunandan sonra bizim pakistanlı qardaşlarımız üçün Azərbaycana gəlmək çox asan olacaq və qardaş ölkəyə səfər etmək istəyən vətəndaşlarımız da eyni imkana sahib olacaqlar.

Bu gün biz qarşılıqlı maraq kəsb edən digər məsələləri müzakirə etdik. Bütün məsələlərdə bizim tam qarşılıqlı anlaşmamız var. Bu da bir daha göstərir ki, əlaqələrimiz dostluğa, tarixə əsaslanır. Tarixən xalqlarımız ünsiyyətdə olub, birgə işləyiblər. Bakıda Pakistan mədəniyyətinin çoxlu nişanələri var. Bugünkü əlaqələr regional təhlükəsizlik və əməkdaşlıq üçün çox mühüm rol oynayır.

Düşünürəm ki, qarşıdakı illərdə məşğul olacağımız məsələlərdən biri nəqliyyatdır. Çünki Azərbaycanın qonşuları ilə birlikdə həyata keçirdiyi yeni nəqliyyat layihələri Asiyadan Avropaya, Şimaldan Cənuba daşınmalar üçün yeni imkanlar yaradacaq və yeni marşrutlar açacaq. Azərbaycan bu nəqliyyat layihələrinin kəsişməsində yerləşir.

Cənab Baş nazir, bir daha ölkəmizə səfər etdiyinizə görə Sizə öz minnətdarlığımı bildirmək istərdim. Mən əminəm ki, səfər çox uğurlu olacaq və qardaşlıq əlaqələrimizin güclənməsində mühüm rol oynayacaq.

## Pakistanın Baş naziri Məhəmməd Nəvaz Şərifin bəyanatı

Zati-aliləri prezident İlham Əliyev!

Hörmətli mətbuat nümayəndələri!

Zati-aliləri əziz qardaşım prezident İlham Əliyevə təşəkkürümü bildirirəm ki, ölkələrimizin əməkdaşlığı ilə bağlı bu qədər gözəl sözlər dedi. Bu sözləri Prezidentdən eşitmək mənim üçün böyük şərəfdir.

Bu gün bu gözəl ölkədə olmaq da mənim üçün xüsusi qürurverici bir haldır. Mən və məni müşayiət edən həmkarlarım səmimi dəvətə və bizə göstərilən səxavətli qonaqpərvərliyə görə təşəkkür edirik. Bu bir daha onu sübut edir ki, mən buradan ən xoş arzularla ayrılacağam.

Qeyd etmək istərdim ki, mən Bakıya ilk dəfə səfər edirəm. «Küləklər şəhəri» adlandırılan Bakı bir çox pakistanlıya doğma vətənini xatırladır. Bakının mərkəzində yerləşən Multanı karvansarayı – mən dünən oranı ziyarət etdim – xalqlarımız arasında tarixi bağlılığın təsdiqidir. Həmkarlarıma bildirmək istərdim ki, bu karvansaraya Multan şəhərinin şərəfinə «Multanı» adı verilib. Bura çox gözəl bir yerdir, vaxtilə insanlar burada gecələmişlər. Mən də dünən böyük məmnuniyyətlə bu karvansarayla tanış oldum. Dediyim kimi, bu bizim tarixi bağlılığımızın təsdiqidir. Regionumuzda mövcud olan belə karvansaraylar böyük bir həqiqəti ifadə edir ki, biz minilliklər boyu əsas ticarət marşrutları kimi istifadə edilən regionun mərkəzində yerləşirik. Belə bir şərəfli ənənənin davamçısı kimi, biz haqlı olaraq deyə bilərik ki, gələcək bizimdir və bununla biz regional inteqrasiya ilə nəticələnəcək bağlılığımızı gücləndirmək üçün enerji və səylərimizi bu istiqamətə yönəltməliyik.

Azərbaycanda diqqətəlayiq siyasi sabitlik, ictimai həmrəylik və böyük iqtisadi inkişaf məndə dərin təəssürat yaratdı. Prezident Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi təqdirəlayiq iqtisadi inkişaf və sosial tərəqqi Pakistanda böyük rəğbətlə izlənilir. Pakistan və Azərbaycan hər zaman bir-birinə bənzər

baxışlara malik olmuşlar və prezident Əliyev ilə bu görüşümdən sonra məmnunluqla əmin oldum ki, bizim ideallarımız da üst-üstə düşür.

Biz hesab edirik ki, regional və qlobal məsələlər beynəlxalq hüquq çərçivəsində, sülh və dialoq vasitəsilə həll edilməlidir. Biz sülh prinsipinə sadiq olan ölkəyik. Biz digər dairələrin açıq-aşkar təcavüzünə baxmayaraq, sülh naminə inkişaf prinsiplərinə sadiqik. Ancaq sülh prinsipinə cəsarətli sadiqliyimiz heç vaxt yanlış olaraq, zəiflik kimi qəbul edilməməlidir.

Görüşlərimizdə regional və beynəlxalq məsələlər də daxil olmaqla, bir çox mövzuları müzakirə etdik. Cənab Prezident artıq bunların bəzilərini qeyd etdi. Kəşmir və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qarşılıqlı dəstək ölkələrimiz arasında yaxın anlaşmanın olduğunu və mövqelərimizin nə dərəcədə üst-üstə düşməsini sübut edir. Pakistan Dağlıq Qarabağ məsələsi ilə bağlı aydın mövqeyə malikdir. Biz Azərbaycanın işğal olunmuş bütün torpaqlarının tamamilə azad edilməsinin, Dağlıq Qarabağdan və ətraf rayonlardan erməni silahlı qüvvələrinin çıxarılmasının, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılmasının tərəfdarıyıq. Mən Kəşmir münaqişəsi ilə bağlı Pakistanın mövqeyinin Azərbaycan tərəfindən dəstəklənməsini, yəni məsələnin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun dialoq və sülh vasitəsilə həll edilməsinin tərəfdarı olmasını yüksək qiymətləndirirəm. Hesab edirəm ki, hər iki məsələnin tam həllinə qədər qarşılıqlı dəstək sarsılmaz olaraq qalacaq. Bizim regionlarımızın inkişafının və firavanlığının, əmin-amanlığının və təhlükəsizliyinin perspektivləri həmin münaqişələrin girovuna çevrilib.

Bizim siyasi əlaqələrimiz ardıcıl olaraq inkişaf edir. Görüşlərimizdə razılığa gəldik ki, iqtisadiyyat, sərmayə qoyuluşu, ticarət, enerji, müdafiə, kənd təsərrüfatı, sənaye, elm, mədəniyyət və digər sahələrdə əlaqələrimizi daha da inkişaf etdirək. Bizim hazırkı ticarət dövriyyəmiz potensialımızı heç də əks etdirmir və burada canlanmaya ehtiyac duyulur. Eyni zamanda, iki ölkə arasında əlaqələndirmənin vacibliyi və gələcək ilə bağlı baxışlarımıza dair

fikir mübadiləsi apara bildik. Biz beynəlxalq müstəvidə – BMT, İslam Əməkdaşlıq Təşkilatı və İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığımızı davam etdirməklə bağlı razılığa gəldik.

Hesab edirəm ki, Bakıya səfərim tərəqqi, firavanlıq, inkişaf, əlaqələndirmə və bütün regionun inteqrasiyası ilə bağlı vahid məqsədlərimiz ətrafında müzakirə aparmaq üçün imkan yaratdı. Biz sıx siyasi münasibətlərimizin bütün sahələr – iqtisadiyyat, ticarət, sərmayə qoyuluşu və sair sahələr üzrə real əməkdaşlığa təkan verməsi ilə bağlı qərarlı olduğumuzu vurğuladıq.

Cənab Prezident, təşəkkür edirəm. Yaşasın Azərbaycan–Pakistan dostluğu! Diqqətinizə görə bir daha təşəkkür edirəm.

## AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASININ 25-ci İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ RƏSMİ QƏBULDA İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*17 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbulda iştirak etmişdir.*

*Azərbaycanın Dövlət himni səsləndirildi.*

*Prezident İlham Əliyev rəsmi qəbulda nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

25 il bundan əvvəl – 1991-ci il oktyabrın 18-də Azərbaycan Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etmişdir. Beləliklə, Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşurdu. 1918-ci ildə müsəlman aləmində ilk demokratik respublika Azərbaycanda qurulmuşdu. Haqlı olaraq fəxr edirik ki, biz müsəlman aləmində birinci idik. Bu dəfə – 1991-ci ildə isə Azərbaycan öz dövlət müstəqilliyini elan edən müttəfiq respublikalar arasında birincilər sırasında deyildi. Öz dövlət müstəqilliyini elan edən müttəfiq respublikalar arasında Azərbaycan sayca 13-cü idi. Bu tarixdir. Biz tarixi bilməliyik, yaddan çıxarmamalıyıq. Hesab edirəm ki, Azərbaycan o vaxt öz dövlət müstəqilliyini daha əvvəl elan edə bilərdi. Bu qədər gözləmək lazım deyildi. Xüsusilə onu da yaddan çıxarmamalıyıq ki, Sovet İttifaqının özəyini təşkil edən Rusiya öz dövlət müstəqilliyini avqust ayında, bizdən 2 ay əvvəl elan etmişdi.

Onu da qeyd etməliyəm ki, hələ 1990-cı ildə ulu öndər Heydər Əliyev müstəqillik yolunda çox önəmli və ciddi addımlar atmışdı. 20 Yanvar faciəsindən sonra o, birinci şəxs idi ki, sovet rəhbərliyini pislədi, Qanlı Yanvar faciəsini törədənlərə qarşı öz iradlarını irəli sürdü, onları ittiham etdi, sovet hökumətini, onun rəhbərinin fəaliyyətini pislədi. Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi və bu, müstəqillik uğrunda birinci addımlar idi. Ondan sonra artıq Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi, 1990-cı ilin noyabr ayında «Sovet Sosialist» sözlərini çıxardaraq, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirdi. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı o vaxt Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın Dövlət bayrağı kimi elan edildi və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, burada da bu addım atılsın. Əfsuslar olsun ki, bunu etmədilər. 1991-ci ilin əvvəllərində Sovet İttifaqının saxlanılmasına dair Azərbaycanda referendum keçiriləndə, Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə referendum keçirilməmişdi. Bütün bu addımlar müstəqillik yolunda atılan addımlardır. Digər tərəfdən, bütün bu addımlar onu göstərir ki, ulu öndər Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin təşəbbüskarıdır, onun banisidir.

Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində Heydər Əliyev hakimiyyətdə deyildi. Əgər olsaydı, biz böyük itkilərlə üzləşməzdik. Müstəqilliyimizin birinci dövrü faciəvi dövr idi. 1991–1993-cü illərdə Azərbaycan çox böyük problemlərlə, itkilərlə üzləşmişdir. Bu dövrü iki mərhələyə bölmək olar. Birinci mərhələ 1991-ci ilin oktyabr ayından 1992-ci ilin yay aylarına qədər olan dövrdür. Bu dövr itirilmiş imkanlar, itkilər dövrü idi. Ermənistan Azərbaycana qarşı təcavüzə başlamışdı, azərbaycanlılar Dağlıq Qarabağdan qovulurdular. 1992-ci ilin may ayında Şuşanın və Laçın rayonunun işğal altına düşməsi böyük itki, böyük faciə idi.

O illərdə dövlətçiliyin əsasları qurulmamışdı, ekstremist elementlərə qarşı ciddi mübarizə aparılmamışdı, nizami ordu yaradılmamışdı, cəmiyyətdə milli həmrəylik, milli birlik yox idi. Bütün

bu amillərdən, xüsusilə Şuşanın və Laçın rayonunun işğal altına düşməsindən istifadə edərək – halbuki bu rayonların işğal altına düşməsində bilavasitə AXC–Müsavat qruplaşmasının rolu vardı – bu qruplaşma hakimiyyəti qanunsuz olaraq zəbt etmişdi və birinci dövrün ikinci dəhşətli mərhələsi başlanmışdı.

1992-ci ilin yay aylarından 1993-cü ilin iyun ayına qədərki dövr biabırçılıq, rüsvayçılıq, fəlakət dövrü idi. Hakimiyyəti qanunsuz olaraq zəbt etmiş AXC–Müsavat qruplaşması ölkəmizi uçuruma aparırdı. Kəlbəcər rayonunun 1993-cü ilin aprel ayında işğal altına düşməsindən sonra Dağlıq Qarabağla Ermənistan arasında coğrafi əlaqə yaradıldı. Azərbaycanın daxilində gedən proseslər ölkəmizi çökdürürdü. İqtisadi böhran yaşanırdı, sənaye, demək olar ki, iflic vəziyyətə düşmüşdü. Ovaxtkı hakimiyyət ancaq öz maraqlarını təmin etmək üçün çalışırdı. O vaxt korrupsiya, rüşvətxorluq son həddə çatmışdı. Ölkəmizdə qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakının küçələrində əlisilahlı adamlar dəstə-dəstə gəzirdi, insanları incidirdi. Baxmayaraq ki, Ermənistan ilə qanlı döyüşlər gedirdi, AXC–Müsavat qruplaşması Azərbaycanda öz hakimiyyətini saxlamaq üçün vətəndaş müharibəsinə başlamışdı. Gəncə şəhəri onlar tərəfindən bombalanmışdı, qardaş qanı axıdılmışdı və bunun nəticəsində biz daha da böyük itkilərlə üzləşdik.

Cəmi 1 il ərzində AXC–Müsavat qruplaşmasının yarıtmaz, xəyanətkar fəaliyyəti nəticəsində Azərbaycan öz dövlət müstəqilliyini itirmək ərəfəsində idi və tarix sanki təkrarlanırdı. 1918-ci ildə əldə edilmiş müstəqilliyi 1920-ci ildə itirdik – 2 il ərzində. Bu dəfə də 2 ildən sonra artıq buna çox yaxın idik. Əgər o vaxt xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycanın taleyi çox ağır, acınacaqlı ola bilərdi. Onu da qeyd etməliyəm ki, Heydər Əliyevi Naxçıvanda devirmək, o cümlədən silahlı desant göndərmək istəyən AXC–Müsavat qruplaşması özü də ağır vəziyyətə düşəndən sonra Heydər Əliyevə müraciət etdi, onu Bakıya dəvət etdi ki, onların canlarını qurtarsın. Naxçıvana 3 dəfə təyyarə göndərmişdilər. Heydər Əliyev Bakıya gəlməklə, ilk növbədə, Azərbaycan xalqının iradəsinə öz hörmətini göstərdi. O,

böyük dövlət adamı, vətənpərvər insan kimi, o ağır anlarda Bakıya gəldi və ondan sonra Azərbaycanda inkişaf dövrü başlandı. 1993-cü il dönüş ili idi. İyun ayında Heydər Əliyev Ali Sovetin Sədri seçildi və vəziyyət yavaş-yavaş inkişafa doğru getməyə başladı. İlk növbədə, qanunsuz silahlı birləşmələr tərk-silah edildi, ordu quruculuğunda ciddi addımlar atıldı, dövlətçiliyin əsasları qoyuldu, sabitlik təmin edildi. 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul olundu. Ölkəmizdə çox ciddi siyasi islahatlar aparılmağa başlandı. Onu da qeyd etməliyəm ki, əslində müasir Azərbaycanda siyasi sistemin formalaşmasında Yeni Azərbaycan Partiyasının xüsusi yeri vardır.

1992-ci ildə Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası müxalifət partiyası kimi yaradılmışdı və siyasi mübarizə nümunəsini göstərmişdi. Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə aparılmış siyasi islahatlar demokratiyanın inkişafına, insan haqlarının qorunmasına hesablanmışdı. Azərbaycan o illərdə beynəlxalq təcriddən çıxa bilmişdi. Çünki ölkəmiz haqqında dünyada informasiya yox idi. Ermənistan erməni lobbisinin imkanlarından istifadə edərək, bizə qarşı qarayaxma kampaniyası aparırdı. Bizim isə cavab vermək, reallığı dünya birliyinə çatdırmaq üçün imkanlarımız yox idi. Yəni beynəlxalq təcridə, informasiya mühasirəsinə son qoyuldu.

Azərbaycanda iqtisadi islahatlara start verildi və bazar iqtisadiyyatı prinsipləri bərqərar oldu. Xarici siyasət prioritetləri məhz o illərdə müəyyən edildi. Azərbaycan müasir dünyəvi dövlət kimi, öz inkişafına başladı. Məhz o illərdə ölkəmizin gələcəyi ilə bağlı strateji addımlar atıldı. Bu gün tarix göstərir ki, bu, yeganə düzgün yol idi.

Azərbaycan o vaxt çətin iqtisadi vəziyyətlə üzləşmişdi. Bizim sənayemiz, demək olar ki, dağılmışdı, inflyasiya minlərlə faizlə ölçülürdü. Əlbəttə, belə vəziyyətdə xarici sərmayə olmadan ölkə iqtisadiyyatı inkişaf edə bilməzdi. İqtisadiyyat inkişaf edə bilməsə, təbii ki, ölkə müstəqil həyat sürə bilməzdi. Ona görə 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə «Əsrin müqaviləsi» imzalandı ki, artıq o vaxtdan 22 il ötür. Amma bu gün də «Əsrin

müqaviləsi» ölkəmizin inkişafında, güclənməsində öz rolunu oynayır. Azərbaycan tarixdə ilk dəfə olaraq, Xəzər dənizini xarici investorlara təqdim etdi. Azərbaycana milyardlarla dollar həcmində investisiya qoyuldu və ölkəmiz inkişaf etməyə başladı. 1996-cı ildə «Şahdəniz» qaz yatağının işlənilməsi üzrə kontrakt imzalandı. Bu gün həm Azərbaycanın, həm regionun və müəyyən dərəcədə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında «Şahdəniz» yatağının xüsusi yeri var.

Azərbaycan 1993–2003-cü illərdə öz inkişaf və sabitlik dövrünü yaşayırdı. Bu, müstəqilliyimizin ikinci dövrü idi. Bir daha qayıdıram müstəqilliyimizin ilk illərinə. Əgər o vaxt Heydər Əliyev kimi dahi şəxsiyyət – millətə canı, qanı ilə bağlı olan insan hakimiyyətdə olsaydı, biz o bəlalarla üzləşməyəcəkdik. Ancaq tarix tarixdir. Biz tarixi dəyişdirə bilmərik. Bizim əsas vəzifəmiz ondan ibarətdir ki, ölkəmizi irəliyə aparaq, gücləndirək və müsbət meyillər əsasında inkişafı təmin edək.

Bu baxımdan 2003-cü il, hesab edirəm ki, müstəqil tariximiz üçün də xüsusi əhəmiyyət daşıyır. Çünki 2003-cü ildə ölkənin bundan sonra hansı yolla gedəcəyi haqqında Azərbaycan xalqı öz qərarını verdi: Heydər Əliyev siyasətimi davam edəcək, yoxsa ki, yenə Azərbaycan bəlalarla, fəlakətlərlə üzləşəcək?! Azərbaycan xalqı həmişə olduğu kimi, müdrikliyini göstərərək, Heydər Əliyev siyasətinə öz səsini verdi. Onu da qeyd etməliyəm ki, 1993-cü ildə AXC–Müsavat qruplaşmasının iflasının əsas mənbəyi Azərbaycan xalqının iradəsi olmuşdu. Cəmi 1 il xalq bunların yarıtmaz fəaliyyətinə dözə bilmişdir və Azərbaycan xalqı bu ləkəni tariximizdən yumaq üçün o hakimiyyətə son qoydu. O vaxtdan bu günə qədər o hakimiyyət tarixin zibilxanasındadır.

Qeyd etdiyim kimi, 2003-cü il seçim ili idi. Bugünkü Azərbaycan reallıqları onu göstərir ki, yenə də Azərbaycan xalqı düzgün seçim etmişdir. 2003-cü ildən bu günə qədər Azərbaycanda sürətli inkişaf dövrü yaşanır, Heydər Əliyev siyasəti davam etdirilir. Bu, müstəqilliyimizin üçüncü dövrüdür. Bu üçüncü dövr ikinci dövrün məntiqi davamıdır.

Bu illər ərzində Azərbaycan bütün istiqamətlər üzrə çox böyük uğurlara imza atıb. Bizim beynəlxalq əlaqələrimiz genişlənib. Azərbaycan dünya miqyasında böyük rəğbətə malik olan bir ölkədir. İkitərəfli əlaqələr inkişaf edir, biz dünyada daha çox dostlar qazanırıq. Üzv olduğumuz bütün təşkilatlarda bizim sözümüzün böyük çəkisi var. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda bizim prinsipial mövqemiz dəyişməz olaraq qalır. Bu mövqe daha çox beynəlxalq dəstək qazanır. Artıq dünya ictimaiyyəti bilir ki, reallıq nədən ibarətdir. Yəni bizim torpaqlarımız işğal altındadır. BMT Təhlükəsizlik Şurasının, digər təşkilatların qətnamələri icra edilmir. Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüquq əsasında həll edilməsi bizim prinsipial mövqemizdir. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir.

Beynəlxalq münasibətlər istiqamətində bizə olan hörməti əks etdirən tarixi hadisə bir neçə il bundan əvvəl baş vermişdir. Biz BMT Təhlükəsizlik Şurasına üzv seçildik. Bu hadisə təkcə ona görə önəmli deyil ki, biz dünyanın ali orqanına seçildik və orada 2 dəfə sədrlik etdik. Ona görə önəmlidir ki, dünyanın 155 ölkəsi bizə səs verdi, özü də çox ağır mübarizə şəraitində. Bəzi qüvvələr bizə qarşı birləşmişdi və imkan verməк istəmirdilər ki, Azərbaycan seçilsin. Yəni biz o yerə böyük çətinliklə sahib olduq. Bu da daha bir göstəricidir. Yəni dünya birliyi deyəndə biz bütün ölkələri nəzərdə tuturuq. Dünya birliyi bu gün bizi dəstəkləyir.

Biz 2003-cü ildən bu günə qədər iqtisadi sahədə analoqu olmayan inkişaf dövrünü keçmişik və yaşayırıq. İqtisadiyyat 3 dəfə artıb. Heç bir başqa ölkədə belə qısa müddət ərzində iqtisadiyyat 3 dəfə artmayıb. Sənaye istehsalı da 3 dəfə artıb. Biz yoxsulluğa son qoyduq. Təxminən 50 faiz səviyyəsində olan yoxsulluq 5 faizə düşüb. İşsizliklə çox ciddi mübarizə aparılır. İşsizlik çox aşağı səviyyədədir. Azərbaycan regionlarının inkişafına start verildi. Dövlət proqramları icra edilməyə başlandı və bunun nəticəsində bölgələrdə 1 milyon 300 mindən çox iş yeri yaradıldı. Bölgələr canlandı, şəhərlərimiz abadlaşdı, müasir infrastruktur layihələri icra edildi. Biz elektrik enerjisini, qazı idxal edən ölkədən ixrac

edən ölkəyə çevrildik. Azərbaycanda sosial məsələlərin həllinə çox böyük diqqət göstərilirdi və göstərilir. Maaşlar, pensiyalar son 13 il ərzində dəfələrlə artıb. Sosial infrastruktur layihələri icra edilir. 3000-dən çox məktəb, 600-dən çox tibb ocağı, bölgələrdə 40-dan çox İdman Olimpiya Mərkəzi tikilib. Bütün bunlar son illər ərzində əldə edilmiş nailiyyətlərdir.

Biz texnoloji inkişafa doğru gedirik. Bu gün Azərbaycan kosmik klubun məhdud sayda üzvlərindən biridir. 2 peykimiz var, 3-cü peyk də yaxın zamanlarda istifadəyə veriləcək.

Regional əməkdaşlıq məsələlərinin həllində Azərbaycan çox önəmli bir ölkəyə çevrilibdir. Bizim təşəbbüsümüzlə icra edilən böyük enerji layihələri son illər ərzində daha da geniş miqyasa çıxıb. Artıq bu, qitələrarası enerji layihələridir. Xüsusilə «Cənub Qaz Dəhlizi»ni qeyd etməliyəm.

Onu da qeyd etməliyəm ki, bu dəhliz 2006-cı və 2007-ci illərdə istifadəyə verilmiş Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərlərinin əsasında yaradılır. Əgər o kəmərlər yaradılmasaydı, «Cənub Qaz Dəhlizi» də yaradılmazdı. Bu gün dünyanın ən böyük enerji layihələrindən biri olan «Cənub Qaz Dəhlizi» uğurla icra edilir. Biz «Şahdəniz-2» layihəsinin icrasında artıq son mərhələyə yaxınlaşırıq. Layihənin icrası artıq 83 faiz təşkil edir. TANAP layihəsinin icrası təqribən 40 faizə yaxındır. Biz bu nəhəng enerji, iqtisadi layihəni uğurla icra edirik. Bu bizə gələcəkdə çox böyük əlavə iqtisadi dividendlər gətirəcək. Biz zəngin qaz ehtiyatlarımızı etibarlı yollarla dünyanın ən böyük, bizim üçün ən yaxın bazarlarından biri olan Avropa bazarına çıxarırıq. Bizim enerji siyasətimiz dünya tərəfindən yüksək qiymətləndirilir. Biz beynəlxalq əməkdaşlıq formatını yaratmışıq və bu formatı genişləndiririk.

«Cənub Qaz Dəhlizi» tarixi layihədir. Bu bizim uğurlu gələcək inkişafımızı müəyyən edəcək. Bununla bərabər, biz iqtisadiyyatımızın digər sektorlarının inkişafı ilə bağlı çox ciddi addımlar atırıq. Xüsusilə son müddət ərzində Azərbaycanda sənayenin, kənd təsərrüfatının inkişafı artır. Baxmayaraq ki, dünyada iqtisadi böhran davam edir, biz bu istiqamətdə də çox ciddi addımlar

atmışıq. Əminəm ki, yaxın illərdə qeyri-neft sektorunun inkişafı daha da sürətlə gedəcək. Bu gün iqtisadiyyatımızın təxminən 70 faizi qeyri-neft sektorunda formalaşır. Biz indi ixracın şaxələndirilməsi ilə ciddi məşğuluq. Elə etməliyik ki, neftdən, qazdan asılılıq minimum səviyyəyə endirilsin.

Azərbaycanda idarəçilikdə ciddi islahatlar, xoşagəlməz hallara qarşı mübarizə aparılır. Korrupsiya, rüşvətxorluq bizim uğurlu inkişafımızı əngəlləyən əsas bəlalardır. Bu istiqamətdə də institusional tədbirlərin görülməsi öz gözəl nəticəsini verməkdədir. Biz artıq dünyaya intellektual məhsul təqdim edirik, hətta ixrac edirik. «ASAN xidmət» bizim məhsulumuzdur. Artıq bu xidmətə 12 milyon müraciət olub, 4 milyona yaxın insan bu imkanlardan istifadə edir və indi başqa ölkələrdə bu təcrübə öyrənilir. Biz gələcəkdə də dünya bazarlarına şaxələndirilmiş ixrac imkanlarımızı təqdim etməliyik. O cümlədən intellektual məhsulun ixracı xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan bu gün dünyada çox etibarlı tərəfdaş kimi tanınır. Çünki bizim iştirak etdiyimiz bütün layihələr əməkdaşlığa hesablanıb. Biz hesab edirik və həyat da göstərir ki, ölkələr arasındakı əməkdaşlıq bəzi problemləri aradan götürə bilər. Enerji siyasətimiz xoşniyyətlidir. Bundan heç vaxt hansısa başqa məqsəd üçün istifadə etməmişik. Bütün digər regional təşəbbüslər də əməkdaşlığa hesablanır, o cümlədən nəqliyyat sahəsində. Biz bu gün «Şərq–Qərb» dəhlizinin yaradılmasında fəal rol oynayırıq. Bakı–Tbilisi–Qars dəmir yolu yaxın vaxtlarda istismara veriləcək. Beləliklə, biz özümüzü daha da gözəl imkanlarla təmin etmək üçün Avropanı Asiya ilə birləşdiririk. Çünki bu dəhliz bizə çox böyük iqtisadi mənfəət gətirəcək. Bu dəhlizdən keçən yüklərin həcmi on milyonlarla ton səviyyəsində olacaq. Bununla bərabər, biz «Şimal–Cənub» dəhlizini də yaradırıq. Yenə də təşəbbüs göstərmişik, yenə də regional əməkdaşlıq formatını təqdim etmişik və bu, artıq yaradılıb. Bu da bizə əlavə on milyonlarla ton yük daşımaq imkanı verəcək.

Bax, budur neft amilindən asılılığı azaltmaq, qeyri-neft sektorunun inkişafı. Coğrafi vəziyyətimizdən istifadə edərək, biz bu layihələri ortaya qoyuruq və onları icra edirik.

Qonşularla münasibətlər ən yüksək səviyyədədir. Heç bir problemimiz yoxdur. Belə də olmalıdır. Əgər hər bir ölkə bizim kimi qonşularla münasibətləri qura bilsəydi, dünyada heç bir müharibə baş verməzdi. Müharibələrin əsas səbəbi ondan ibarətdir ki, qonşular bir-biri ilə yola getmir. Yenə də deyirəm, əgər ötən əsrin 90-cı illərinin əvvəllərində ulu öndər Heydər Əliyev hakimiyyətdə olsaydı, heç vaxt Ermənistan–Azərbaycan müharibəsi başlanmazdı. Biz heç vaxt buna imkan verməzdik. Ancaq bu gün biz bu problemi həll etməliyik. Bunun həm diplomatik yolları var, həm digər yolları. Biz ordu quruculuğu istiqamətində çox böyük addımlar atmışıq. Bu gün beynəlxalq ekspertlər də qeyd edirlər ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Biz bunu bilirdik, ancaq bu gün bunu bütün dünya bilir. Bu ilin aprelində təmas xəttində baş vermiş hadisələr Azərbaycan Ordusunun gücünü bir daha göstərdi. Bizim ordumuz əks-hücum əməliyyatı keçirərək, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etdi. Orada indi Azərbaycan bayrağı dalğalanır. Bu bizim gücümüzü göstərir. Biz gücümüzü bilirik, gücümüzə əminik və düşmənin istənilən hədəfini məhv edə bilərik. Sadəcə olaraq, çalışırıq ki, məsələ sülh yolu ilə həll edilsin.

Azərbaycan son illər ərzində dünya miqyasında multikulturalizm mərkəzinə çevrilib. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, dünya forumları, sivilizasiyalararası, humanitar, mədəniyyətlərarası dialoq forumları bunu göstərir. Biz nəinki ölkə daxilində bu məsələləri lazımi səviyyədə tənzimləyirik, eyni zamanda, bir çox ölkələr üçün yol göstəririk. Biz istəyirik ki, bu nümunədən istifadə etsinlər. Əgər etsələr, yenə də gərginlik azalar. Çünki bir çox hallarda müharibələr dini və məzhəb zəminində aparılır. İndi yan-yörə, hər tərəf alovlanır, yanır. Azərbaycanda sabitlik hökm sürür, inkişaf dinamikası güclənir. Bizim ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri özlərini rahat hiss edirlər. Onlar hamısı bizim qardaşlarımızdır, dəyərli vətəndaşlarımızdır.

Bu da bir nümunədir. Bu, böyük bir sərvətdir. Biz bu sərvəti qoruyuruq. Ümumiyyətlə, ölkəmizi bütün bəlalardan qoruyuruq. Heç kimin işinə qarışmırıq və qoymuruq ki, kimsə bizim işimizə qarışsın. Ancaq xoş niyyət göstəririk. Ancaq hər bir məsələ ilə, xüsusilə bizi maraqlandıran məsələ ilə bağlı prinsipial mövqemiz həmişə ifadə olunur. Bizim siyasətimiz güzəştsiz siyasətdir. Biz prinsipial məsələlərlə bağlı heç kimə güzəştə getməmişik və getməyəcəyik. Müstəqil, ləyaqətli siyasət aparırıq, öz gücümüzə, xalqın dəstəyinə güvənirik. Xalq da bizim siyasətimizə öz dəstəyini göstərir. Bu yaxınlarda – ötən ay keçirilmiş referendumda Azərbaycan xalqı bizim siyasətimizə öz dəstəyini bir daha ifadə etdi. Referendumun nəticələrinin əsas mahiyyəti bundan ibarətdir. Biz düzgün yoldayıq. Bu yol inkişaf yoludur, müstəqillik yoludur. Ötən 25 ilin 23 ili şanlı tarix illəridir. Bu gün Azərbaycan dünya miqyasında müasir, sürətlə inkişaf edən, gözəl, qonaqpərvər, ləyaqətli ölkə kimi tanınır.

25 il böyük tarixdir. Biz artıq bütün dünyaya sübut etmişik ki, müstəqil həyat yaşaya bilərik, uğurla yaşaya bilərik. Bizim gözəlləşən şəhərlər, abadlaşan regionlar və dünyanın ən gözəl şəhərlərindən biri olan Bakı bunun əyani sübutudur.

Biz gələcəkdə də bu yolla gedəcəyik, müstəqil siyasət aparacağıq. Xalqın iradəsi əsasında irəli gedəcəyik. Müstəqilliyimiz dönməzdir, əbədidir. Müstəqilliyimizin möhkəmlənməsində bütün Azərbaycan xalqına yeni uğurlar arzulayıram.

Yaşasın müstəqil Azərbaycan Respublikası!

* * *

*Rəsmi qəbul konsert proqramı ilə davam etdi.*

## İRAN İSLAM RESPUBLİKASININ ƏRDƏBİL ƏYALƏTİNİN VALİSİ MƏCİD XUDABƏXŞİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də İran İslam Respublikasının Ərdəbil əyalətinin valisi Məcid Xudabəxşin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu vurğuladı. Son illər prezidentlər səviyyəsində keçirilən çoxsaylı görüşlərin əhəmiyyətini qeyd edən dövlətimizin başçısı hər iki tərəfin əlaqələrimizin inkişafı üçün səylərini əsirgəmədiyini dedi. İran prezidenti Həsən Ruhaninin avqust ayında ölkəmizə uğurlu səfərinə toxunan prezident İlham Əliyev səfər zamanı ikitərəfli və üçtərəfli məsələlərin müzakirə edildiyini vurğulayaraq bildirdi ki, məqsədimiz Azərbaycan–İran əlaqələrini bundan sonra da uğurla inkişaf etdirmək və xalqlarımızı bir-birinə daha da yaxınlaşdırmaqdır. Qarşılıqlı təmasların davamlı olmasının önəmini qeyd edən prezident İlham Əliyev İran İslam Respublikasının Ərdəbil əyalətinin valisi Məcid Xudabəxşin Azərbaycana böyük nümayəndə heyəti ilə səfərinin regionlararası və ölkələrarası münasibətlərin daha da möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət daşıdığını dedi.*

*İran İslam Respublikasının Ərdəbil əyalətinin valisi Məcid Xudabəxş prezident Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı. O, dövlət müstəqilliyinin 25 illiyi münasibətilə prezident İlham Əliyevə təbriklərini çatdırdı. İlk dəfə ölkəmizə 1990-cı ildə səfər etdiyini vurğulayan Ərdəbil əyalətinin valisi həmin səfər zamanı Bakıda, Sumqayıtda və Naxçıvanda olduğunu*

*dedi və ötən dövr ərzində ölkəmizdə gedən sürətli inkişaf proseslərinin şahidi olduğunu bildirdi. Məcid Xudabəxş ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda görülən böyük işlərin prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini xüsusi olaraq vurğuladı. Budəfəki səfər zamanı da Sumqayıt şəhərinə getdiklərini və burada da sürətli inkişafın şahidi olduqlarını qeyd edən Məcid Xudabəxş Sumqayıtla Ərdəbilin qardaşlaşmış şəhərlər olması ilə bağlı qərar qəbul etdiklərini məmnunluqla bildirdi.*

*Görüşdə ölkələrimizin ayrı-ayrı regionları arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən qarşılıqlı sərmayə qoyuluşu, turizm və digər sahələrdə genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.*

## DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ REGİONAL DİREKTORU MERSİ TEMBON VƏ BANKIN AZƏRBAYCAN ÜZRƏ YENİ TƏYİN OLUNMUŞ ÖLKƏ MENECERİ NAVİD HƏSƏN İLƏ GÖRÜŞ

*18 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembonu və Bankın Azərbaycan üzrə yeni təyin olunmuş ölkə meneceri Navid Həsəni qəbul etmişdir.*

*Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Mersi Tembon Azərbaycan ilə Dünya Bankının yaxın tərəfdaşlıq əlaqələrinə malik olduqlarını dedi, ölkəmizlə uğurlu əməkdaşlığa görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi. Mersi Tembon dünyada neftin qiymətinin aşağı düşdüyü bir vaxtda ölkələrin iqtisadi çətinliklə üzləşdiklərini, buna baxmayaraq iqtisadi artımın mühüm olduğunu və bu baxımdan digər əlavə mənbələrin müəyyənləşdirilməsinin vacibliyini vurğuladı və Dünya Bankının Azərbaycanı dəstəkləməyə hazır olduğunu qeyd etdi.*

*Dövlətimizin başçısı qeyri-neft sektorunun inkişaf etdirilməsinin çox mühüm əhəmiyyət daşıdığını bildirərək, Azərbaycanda bu istiqamətdə böyük işlərin aparıldığını dedi.*

*Görüşdə Azərbaycan ilə Dünya Bankı arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyi məmnunluqla vurğulandı, bu günədək magistral yolların çəkilməsi, su təchizatı və kanalizasiya xidmətləri, məcburi köçkünlərin yaşayış standartlarının yaxşılaşdırılması, ədliyyə sistemi və digər sahələrdə 50-dən artıq layihə üzərində iş aparıldığı və bu layihələrdən 40-nın uğurla reallaşdırıldığı qeyd olundu.*

*Söhbət zamanı ölkəmiz ilə Dünya Bankı arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## QAZAX RAYONUNA SƏFƏR

*19 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qazax rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov prezident İlham Əliyevə abidənin ətrafında və şəhərdə aparılan abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verdi.*

### Qazax–Kosalar avtomobil yolunun yenidənqurma və əsaslı bərpadan sonra açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qazax–Kosalar avtomobil yolunun yenidənqurma və əsaslı bərpadan sonra açılışında iştirak etmişdir.*

*«Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, 6000 nəfər əhalisi olan 2 yaşayış məntəqəsini birləşdirən Qazax–Kosalar avtomobil yolunun tikintisinə Azərbaycan Prezidentinin 2016-cı il 19 avqust tarixli Sərəncamına əsasən başlanılıb. Uzunluğu 10 kilometr olan dördüncü texniki dərəcəli yolun torpaq yatağının eni 10 metr, iki zolaqdan ibarət hərəkət hissəsinin eni isə 6 metrdir.*

*Avtonəqliyyat vasitələrinin hərəkətini tənzimləmək üçün yolboyu göstərici xətlər çəkilib, 42 yol nişanı quraşdırılıb, bir avtobus dayanacağı inşa edilib. Ümumilikdə uzunluğu 460 metr olan 30 suötürücü boru tikilib.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

### «Daş Salahlı» yarımstansiyasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qazax rayonunda 110/35/6 kilovoltluq «Daş Salahlı» yarımstansiyasının açılışında iştirak etmişdir.*

*Yarımstansiyanın binasında ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkənin elektroenergetika sisteminin, o cümlədən ötürücü və paylayıcı şəbəkənin hərtərəfli inkişafı üçün həyata keçirdikləri layihələri əks etdirən fotostendlər yaradılıb.*

*«Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev görülən işlər barədə dövlətimizin başçısına ətraflı məlumat verdi. Bildirildi ki, Qazax rayonunun böyük bir hissəsinin elektrik təchizatının yaxşılaşdırılması, eləcə də ərazidə elektrik enerjisinə artan tələbatın ödənilməsi məqsədilə 110/35/6 kilovoltluq yeni «Daş Salahlı» yarımstansiyası inşa edilib.*

*Diqqətə çatdırıldı ki, əvvəlki yarımstansiya 8 kəndi və 3637 abonenti əhatə edirdisə, «Daş Salahlı» artıq 22 kəndi, 19364 abonenti, o cümlədən Qazax və Ağstafa rayonlarındakı sosial obyektləri və istehsal müəssisələrini dayanıqlı elektrik enerjisi ilə təmin edəcək. Həmçinin bu yarımstansiyanın istifadəyə verilməsi ilə regionda mövcud güc çatışmazlığı aradan qalxacaq, növbəti illərdə enerjiyə yaranacaq tələbat ödəniləcək.*

*Məlumat verildi ki, yeni yarımstansiya ən son elmi-texniki yeniliklərə əsaslanan «eleqaz», «vakuum» tipli avadanlıqlarla təchiz edilməklə yanaşı, məsafədən idarə olunan SCADA dispetçer sisteminə də qoşulub.*

*Sonra prezident İlham Əliyevə fotovideo slayd vasitəsilə «Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin fəaliyyəti dövründə görülən işlər barədə məlumat verildi.*

*Dövlətimizin başçısı «Daş Salahlı» yarımstansiyasını işə saldı.*

*Bildirildi ki, bu yarımstansiya ilə birlikdə respublikanın digər bölgələrində yeni tikilib istismara hazır olan 110 kilovoltluq 19 yarımstansiya istismara verilir.*

*Dövlətimizin başçısı 35 və 6 kilovoltluq qapalı paylayıcı qurğulara baxdı.*

*Paylayıcı qurğular son elmi-texniki yeniliklər əsasında qurulub. Ən son texnologiyalara əsaslanan bu cür layihələr həm paytaxtda, həm də bölgələrdə yenidənqurma tədbirlərinin ardıcıl xarakter aldığını bir daha təsdiq edir.*

## «BİRİNCİ ŞIXLI KƏNDLİ (FERMER) TƏSƏRRÜFATI»NIN KOLLEKTİVİ VƏ QAZAX RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*19 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qazax rayonunda «Birinci Şıxlı Kəndli (Fermer) Təsərrüfatı» Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti ilə yaxından tanış olmuşdur.*

*Təsərrüfat 151 hektar sahədə yaradılıb. 15 hektar sahədə isə süni yağışyağdırma üsulunun tətbiqi ilə pivot suvarma sistemi qurulub. Bu da məhsuldarlığı 2-3 dəfə artırmağa imkan verəcək. Bildirildi ki, gələcəkdə fermer təsərrüfatının istifadəsində olan torpaqlarda kartofla yanaşı, soğan, kök və digər tərəvəz məhsullarının əkilməsi nəzərdə tutulur.*

*Dövlətimizin başçısı ərazidə Məhdud Məsuliyyətli Cəmiyyət üçün inşa olunan inzibati binada yaradılan şəraitlə tanış oldu.*

*Binanın foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin müxtəlif illərdə Qazax rayonuna səfərlərini əks etdirən fotoguşə vardır. Binada fermer təsərrüfatında çalışanlar üçün hər cür şərait yaradılıb. Konfrans zalı, yeməkxana işçilərin ixtiyarına verilib. Diqqətə çatdırıldı ki, burada əkinçilik tədris mərkəzi fəaliyyət göstərəcək və hazırlanacaq mütəxəssislər regionda həyata keçiriləcək kənd təsərrüfatı layihələrinə cəlb olunacaq. Təsərrüfatda ümumilikdə 170 nəfər işlə təmin ediləcək.*

*Müəssisənin ərazisini gəzən prezident İlham Əliyevə məlumat verildi ki, bu təsərrüfat regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının həyata keçirilməsinin bəhrəsidir. Burada sınaq və təcrübə sahəsində Almaniyadan gətirilən «AQATA» kartof növü əkilib. Ərazidə texnika üçün park inşa edilib. İlkin mərhələdə təsərrüfat üçün müxtəlif növ 11 maşın-mexanizm alınıb. Müəssisə-*

*də kartof, soğan, kök və digər tərəvəz məhsullarının təmizlənməsi, yuyulması, qurudulması, çeşidlənməsi və qablaşdırılması üçün ən müasir texnologiyalar əsasında istehsal sahəsi yaradılıb. İstehsal edilən məhsullar ilkin olaraq daxili bazar üçün nəzərdə tutulub. Hazır məhsulların saxlanılması üçün tutumu 2000 ton olan anbar da inşa olunub.*

*Sonra dövlətimizin başçısı müəssisənin kollektivi və Qazax rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v**: Mən sizi salamlayıram. Bu gün Qazax rayonunda kəndli (fermer) təsərrüfatının işi ilə tanış oldum. Burada görülən işlər çox yaxşı təəssürat bağışlayır. Yaxşı iş görmüsünüz. Ölkəmizin, kənd təsərrüfatının inkişafı üçün belə təsərrüfatların çox böyük faydası var. Çünki bu gün ölkəmiz, bütün regionlar hərtərəfli inkişaf edir. Kənd təsərrüfatı bu gün prioritet sahədir. Qısa müddət ərzində burada görülən işlər onu göstərir ki, əgər güclü iradə varsa, hər bir işi görmək olar. Bu gün mənə göstərildi ki, vaxtilə suvarılmayan torpaq sahələrində indi suvarma işləri aparılıb, ən müasir texnologiyalar tətbiq olunub və beləliklə, yüzlərlə hektar torpaq sahəsi artıq əkinə cəlb edilib.

Burada yetişdiriləcək məhsul həm ölkəmizin ərzaq təhlükəsizliyini təmin edəcək, həm də gələcəkdə ixrac olunacaq. Beləliklə, kənd təsərrüfatının inkişafı daha da sürətlə gedəcək. Bu gün bu, artıq reallıqdır. İndi dünyada böhran yaşanmasına baxmayaraq, Azərbaycanda kənd təsərrüfatı bu il 2 faizdən çox artıb. Bax, belə təsərrüfatlar hesabına. Çünki məqsədyönlü işlər aparılır. Dövlət həm texnika ilə, həm kreditlərlə öz dəstəyini göstərir, metodik tövsiyələr verilir və insanlar bu işlərə cəlb olunurlar. Mənə verilən məlumata görə, burada kənd camaatı bu işlərdə işləyir, yaxşı maaş alır. Burada həm iş yerləri yaradılır, həm də ən müasir texnika tətbiq edilir. Bu, müasir yanaşmadır və ölkəmizi gücləndirəcək. Biz ilk növbədə, öz tələbatımızı təmin etməliyik. Burada kartofçuluq daha da çox inkişaf edəcək. Biz artıq nəinki öz tələbatımızı təmin edirik, eyni zamanda, ixrac da edirik.

Taxılçılıqda isə hələlik tələbatımızı ödəyə bilmirik. Ona görə taxılçılığa xüsusi diqqət göstərilməlidir ki, biz yaxın bir neçə il ər-

zində bu sahədə də daxili tələbatımızı öz hesabımıza təmin edək. Kənd təsərrüfatı məhsullarının ixracının artırılması nəzərdə tutulur. Ənənəvi məhsullar ixrac edilir, ancaq biz bu gün digər sahələrə də böyük diqqət göstəririk.

Qazax rayonunda şəkər çuğunduru üçün əkin sahələri nəzərdə tutulub. Bu da çox vacib bir sahədir. Çünki biz özümüzü şəkər çuğunduru ilə tam təmin etməliyik ki, İmişlidə fəaliyyətdə olan Şəkər zavodu yerli xammal əsasında işləsin. Digər sahələrdə də belə olmalıdır. Bilirəm ki, indi Qazax rayonunda fındıqçılığa da böyük maraq göstərilir, dövlət də bunu dəstəkləyir. Bu da çox gəlirli bir sahədir, həm kənd adamlarının maddi vəziyyətini yaxşılaşdıracaq, həm də böyük ixrac potensialımız yaranacaq.

Biz çalışmalıyıq ki, təbii şəraitimizdən, münbit torpaqlardan səmərəli şəkildə istifadə edək və bu günə qədər dövriyyəyə cəlb olunmayan sahələri də əkinə cəlb edək. Bunun üçün aqrotexniki, xüsusilə suvarma ilə bağlı tədbirlər görülür, yerli icra orqanları bu işlərə qoşulublar. Fikrimiz var ki, hər il on minlərlə hektar torpağı dövriyyəyə gətirək, suvarma işləri təmin edilsin. Gələn il təkcə yerli icra hakimiyyətlərinin xətti ilə artıq 80–90 min hektarda əkin aparılacaq. Yaxın gələcəkdə daha da geniş proqram tutulacaq ki, hər il biz ən azı 100 min hektarda iş görək, yəni o torpaqları dövriyyəyə cəlb edək. Beləliklə, biz nəinki regionda, dünya miqyasında kənd təsərrüfatı məhsullarını ixrac edən çox önəmli ölkəyə çevriləcəyik. Bunun üçün bütün imkanlar var. Dövlət siyasəti aparılır. Fermerlərə dəstək göstərilir, subsidiyalar ödənilir, gübrələr, yanacaq güzəştlərlə verilir. Dövlət investisiyaları qoyulur, texnikanın alınmasına aqrolizinq xətti ilə vəsait ayrılır. Son illər ərzində Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 1 milyard manat həcmində güzəştli kreditlər verilib, bu proses davam etdirilir. Bu il 200 milyon manat nəzərdə tutulur, gələn il də ən azı bu qədər olacaq. Yəni bu, dövlət tərəfindən görülən işlərdir. Əgər bu işlərə infrastruktur layihələrini də əlavə etsək, mənzərə daha aydın olar. Çünki kənd təsərrüfatının inkişafı üçün ilk növbədə, infrastruktur layihələri lazımdır. İndi yollar çəkilir. Bu gün Qazax–Kosalar avtomobil yolunun açılışını qeyd etdik.

Elektrik enerjisi ilə təminat sahəsində də problemlər yoxdur. Qazlaşdırma ölkə üzrə hələ 100 faizə çatmasa da, Qazax rayonunda 100 faiz səviyyəsindədir. Gələn il Qazax şəhərinin və bəzi kəndlərin içməli su layihələrinin icrasına başlanılmalıdır. Bilirəm ki, bu problemlər var. Bəzi rayonlarda artıq bu öz həllini tapıbdır.

Digər infrastruktur layihələri icra edilib ki, kənd təsərrüfatının, sənayenin inkişafına onun bilavasitə təsiri var. Emal müəssisələri yaradılmalıdır. Kənd təsərrüfatı, emal və sənaye müəssisələri bir kompleks təşkil edir. Beləliklə, bir neçə ildən sonra Azərbaycan iqtisadiyyatının neft-qaz amilindən asılılığı tamamilə azalacaq. Bizim məqsədimiz məhz bundan ibarətdir. Həm də ki, kənd təsərrüfatı minlərlə, on minlərlə insanı işə cəlb edir. İndi Azərbaycanın müxtəlif yerlərində çox böyük ruh yüksəkliyi var, insanlar torpağa qayıdırlar, görürlər ki, dövlət dəstəyi göstərilir, dövlət siyasəti aparılır. İnsanlar görürlər ki, bu onların maddi vəziyyətini yaxşılaşdırır.

Bizdə əhali artır. Hər il əhalinin sayı təqribən 100 min artır. Ona görə biz iş yerlərinin yaradılması ilə daim məşğul olmalıyıq. Kənd təsərrüfatı bu məsələdə xüsusi yer tutur. Nəzərə almalıyıq ki, bir çox torpaqlarımızda hələ suvarma işləri təşkil edilməyib. Növbəti illərdə əsas diqqət bu sahəyə göstəriləcək ki, bu gün suvarılmayan, yəni heç bir iş aparılmayan torpaq sahələrində müasir kənd təsərrüfatı müəssisələri yaradılsın. Biz buna nail olacağıq.

Qısa müddət ərzində Qazax rayonunda belə kəndli (fermer) təsərrüfatının yaradılması onu göstərir ki, dövlət siyasətinə yerlərdə də çox böyük dəstək vardır. İnsanlar bunu alqışlayır, vətəndaşlar razıdırlar. İndi mənə məlumat verildi ki, burada bir çox obyekt tikilib. Gələcəkdə soyuducu anbarın da tikintisi nəzərdə tutulur. Bu da çox lazımdır ki, burada yetişdirilən məhsul xarab olmasın, daxili bazara göndərilsin. Eyni zamanda, burada məhsul artımı böyük ixrac potensialı yaradacaq.

Beləliklə, işlər daha da sürətlə gedəcək və Qazax rayonu daha da sürətlə inkişaf edəcək. Rayon icra hakimiyyətlərindən indi çox

şey asılıdır. Mən demişəm, hər bir rayon icra hakimiyyətinin kollektivi çalışmalıdır ki, həm xarici, həm yerli investisiyaları cəlb etsin, işləri qursun, insanlar üçün iş yerləri yaratsın. Onlara, bax, bu işlərə görə qiymət veriləcək. Mən görürəm ki, burada bu istiqamətdə ciddi işlər aparılır. Bu münasibətlə sizi təbrik edirəm və sizə yeni uğurlar arzulayıram.

* * *

**Y e g a n ə O s m a n o v a** *(rayon sakini)*: Əziz Prezident, bizim kəndimizə xoş gəlmisiniz! Çox sağ olun ki, bizim üçün belə şərait yaradırsınız. Siz bununla ikinci dəfədir ki, bizim kəndimizdə olursunuz. 2009-cu ildə orta məktəbin açılışında iştirak etmişdiniz.

Mən də bu müəssisədə çalışıram. Əvvəllər Ağstafa rayonunda işləyirdim. Yolum uzaq olduğu üçün burada işə düzəldim. Çox sağ olun. Kəndimizdə qazdan, işıqdan, sudan korluğumuz yoxdur. Kəndimiz şəhərə bənzəyir. Sağ olun, Sizdən çox razıyıq.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

**Y e g a n ə O s m a n o v a:** Yoldaşım da işləyir, özüm də işləyirəm, ailəmizi saxlayırıq. İş saatımız da çox əlverişlidir. Maaşımız da düzəlib.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. Neçə saat işləyirsiniz?

**Y e g a n ə O s m a n o v a:** Saat 9-dan 6-dək.

**İ l h a m Ə l i y e v:** Hər gün işləyirsiniz?

**Y e g a n ə O s m a n o v a:** Bəli, hər gün.

**İ l h a m Ə l i y e v:** Bu kənddə yaşayırsınız?

**Y e g a n ə O s m a n o v a:** Bəli, bu kənddə yaşayıram.

**İ l h a m Ə l i y e v:** İndi kənddə iş yeri yaradılıb. Əvvəllər Ağstafaya getməli olurdunuz.

**Y e g a n ə O s m a n o v a:** Çox sağ olun, Allah Sizi pənahında saxlasın.

**İ l h a m Ə l i y e v:** Mən görürəm ki, burada qadınlar da işləyir. Bu da çox vacibdir.

**E l n a r ə Q a s ı m o v a** *(rayon sakini):* Cənab Prezident, xoş gəlmisiniz! Sizi görməyimizə çox şadıq. Sevincimizin həddi-

hüdudu yoxdur. Çox sağ olun ki, belə bir şərait yaratmısınız. Bizim kəndin camaatı belə gözəl işlə təmin olunub.

**İlham Əliyev:** Sağ olun.

**Elnarə Qasımova:** Elə mənim özüm də əvvəllər işləmək üçün yoldaşımla Bakıda kirayədə qalırdım. İşləyə bilmədim, çətinlik çəkdik. İndi, şükür, öz kəndimizdə belə bir şərait yaranıb. Çox sağ olun, var olun. Allah Sizi, ailənizi qorusun. Allah Sizi bu millətə, bu xalqa çox görməsin.

**İlham Əliyev:** Çox sağ olun. Mən çox şadam ki, burada insanlar işə cəlb olunub. Qadınlar da işləyir. Burada iş şəraiti də yaxşıdır. Baxmışam, hər şey təmiz, səliqəlidir. Yəni iş şəraiti yaxşı olmalıdır ki, insanlar daha da böyük həvəslə işləsinlər.

**Kamal Aşkın** *(türkiyəli mütəxəssis):* Mən Türkiyədən gəlmişəm. Sizə Türkiyədən ehtiram və salamlar gətirmişəm. Burada kartofçuluq üzrə məsləhətçi olaraq işləyirəm. Mən 35 ildir bu sahədə çalışıram. Daha əvvəl də Azərbaycanda olmuşam. Həqiqətən, ölkənizin, xüsusilə Qazax bölgəsinin bol suyu və torpağı kartofçuluq üçün çox münasibdir. Çox gözəl bir yerdir.

**İlham Əliyev:** Kartofçuluq burada yaxşı inkişaf edir.

**Kamal Aşkın**: Burada hədəfimiz hər hektardan 60 ton kartof götürməkdir. İnşallah, buna nail olacağıq.

**İlham Əliyev:** İndi hektardan nə qədər yığılır?

**Kamal Aşkın**: Bu gün təxminən 40 tondur. Aqrotexnika, təkmilləşdirilmiş bu avadanlıq və suvarma sistemləri ilə buna nail olacağımıza inanıram.

**İlham Əliyev:** Çox yaxşı. Kartofçuluq çox faydalı kənd təsərrüfatı sahəsidir. Fermerlər üçün yaxşı gəlir gətirir və ölkəmiz üçün çox lazımdır. Düzdür, biz özümüzü kartofla təmin edirik və müəyyən dərəcədə ixrac da edirik. Ancaq az ixrac edirik. Daha çox ixrac edə bilərik. Bizdə ildə təxminən 1 milyon tona qədər kartof yığılır. Bəzən 1 milyon, bəzən 900 min ton, ildən-ilə dəyişir. Ancaq biz mütləq kartofun istehsalını artırmalıyıq. Çünki dünyada bu məhsula böyük tələbat var. İkincisi, bizim kartofumuzun keyfiyyəti çox yaxşıdır, təbiidir, insan orqanizmi üçün xeyirlidir və ətrafımızda bazarlar var.

**K a m a l A ş k ı n**: Çox böyük Rusiya bazarı var. Rusiya 40 milyon ton kartof istifadə edir.

**İ l h a m Ə l i y e v:** Bəli, biz də o bazarlara çıxmalıyıq. Biz Rusiyaya kartof ixrac edirik, amma az. Biz daha da çox ixrac edə bilərik. Bax, belə fermer təsərrüfatlarının təşkili bu imkanı yaradacaq.

Bir məsələ də var. Hər bir rayonda ixtisaslaşma aparılmalıdır. Misal üçün, Qazax rayonunda kartofçuluq çox gəlirli bir sahədir. Həm iqlim, həm də torpaq uyğundur. Ona görə bu sahəyə daha çox diqqət vermək lazımdır. İndi biz subsidiyalarda da dəyişikliklər edirik. Subsidiyalar son məhsula görə veriləcək. Əlbəttə, fermerlər də özləri müəyyən etməlidirlər ki, nə əkəcəklər, becərəcəklər. Eyni zamanda, dövlət bu məhsulların ixracı ilə də məşğuldur, kömək göstəriləcək. Bu yaxınlarda ərzaq məhsullarının tədarükü və təchizatı üzrə dövlət qurumu yaradılıb. Onun da işi fermerlərə kömək etməkdir. Çünki məsələn, burada, yaxud da ki, başqa bir rayonda fermer xarici bazarlara çıxmaq üçün əziyyət çəkir, problemlər yaranır. Fermer gərək məhsulunu tarlada satsın, pulunu alsın və yaxşı yaşasın.

**K a m a l A ş k ı n**: Bu soyuducu anbarları genişləndirsək, saxlama şəraitini yaxşılaşdırsaq, o zaman işlər daha da irəliyə gedəcək.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. İndi hər bir rayon üzrə xüsusi inkişaf planı tərtib edilməlidir. Düzdür, biz 3 dəfə regional inkişaf proqramı qəbul etmişik. Ancaq bu gün hər bir rayon öz imkanlarına, torpaq fonduna, su resurslarına, texniki təminatına daha da ciddi baxmalıdır ki, bir qarış boş torpaq qalmasın. İcra başçısı mənə məruzə edir ki, təxminən 30 min hektar suvarılmayan sahələr var. Biz buraya gərək su gətirək. İnsanlar daha çox işləyəcəklər, daha çox pul qazanacaqlar. Yəni bu işi dövlət görəcək. İndi Qazax rayonunda kənd təsərrüfatının inkişafı ilə bağlı işlər görülür. Ancaq bu işlər daha konkret plan – texnika, gübrələr, suvarma, toxumçuluq əsasında görülməlidir.

**R a h i d Q a s ı m o v** *(aqronom)*: Cənab Prezident, mən də kəndli (fermer) təsərrüfatında Sizi salamlayıram. Biz çox sevinirik.

Sizin kənd təsərrüfatına diqqətinizin nəticəsidir ki, belə bir təsərrüfat yaradılıb. Mən də burada öz ixtisasıma uyğun işlə təmin olunmuşam.

**İ l h a m Ə l i y e v:** Harada oxumusan?

**R a h i d Q a s ı m o v:** Kənd Təsərrüfatı Akademiyasının aqronomluq fakültəsini bitirmişəm. İndiyədək öz ixtisasıma uyğun iş tapa bilməmişdim.

**İ l h a m Ə l i y e v:** Sən hansı sahə üzrə mütəxəssissən?

**R a h i d Q a s ı m o v:** Meyvə-tərəvəz, üzümçülük. Qazax rayonunda da meyvə-tərəvəzçilik, üzümçülük geniş yayılıbdır.

**İ l h a m Ə l i y e v:** Bəli, düzdür. Çox yaxşı.

**R a h i d Q a s ı m o v:** Cənab Prezident, bu gözəl rayonumuzu inkişaf etdirdiyiniz üçün, bu sahəni yaratdığınız üçün Sizə öz minnətdarlığımızı bildiririk. İş yerləri ilə təmin olunmuşuq. Allah Sizi qorusun.

**İ l h a m Ə l i y e v:** Çox sağ ol. Belə təsərrüfatlar çox olmalıdır. Hər bir yaşayış məntəqəsində buna oxşar müəssisələr yaradılmalıdır. Bu müəssisə yox idi, bax, bu insanlar işsiz qalmışdılar.

**S a k i n l ə r:** Çox sağ olun. İndi işləyirik. Çox sevinirik, sevincimizin həddi-hüdudu yoxdur.

**İ l h a m Ə l i y e v:** Mən sizdən də çox sevinirəm. Sağ olun.

*Sonda xatirə şəkli çəkdirildi.*

## Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qazax Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının açılışını etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, 1984-cü ildə yaradılan muzey müasir tələblərə cavab verməyən birmərtəbəli binada fəaliyyət göstərirdi. Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının inşasına 2015-ci ilin*

*noyabr ayında başlanılıb və 2016-cı ilin oktyabrında tikinti işləri başa çatdırılıb.*

*Binanın tikinti sahəsi 432,6 kvadratmetr, ümumi sahəsi 1728 kvadratmetrdir. Muzeyin ikimərtəbəli binasında rayonun təbiətini və tarixini əks etdirən 2450 eksponat mühafizə olunur.*

*Binanın birinci mərtəbəsində ümummilli lider Heydər Əliyevin və Azərbaycan prezidenti İlham Əliyevin fəaliyyətini əks etdirən fotolardan ibarət guşələr yaradılıb. Həmçinin bu mərtəbədə muzey barədə ümumi məlumat, təbiət, arxeologiya, qədim Daş dövrü, Orta əsrlər və «bəy evi» bölmələri var.*

*Tarix-Diyarşünaslıq Muzeyinin ikinci mərtəbəsində «Qazax xalça məktəbi», «Etnoqrafiya və folklor», «Qazax XIX–XXI əsrin əvvəllərində», «Səməd Vurğun», «Görkəmli şəxsiyyətlər», «1929–1990-cı illər», «Müasir dövr» və «Azərbaycan XXI əsrdə» bölmələri yaradılıb. Burada Qazaxın qədimdən bu günədək keçdiyi inkişaf yolu, təbiəti, mədəniyyəti, adət-ənənəsi, məişəti, tanınmış insanları haqqında maraqlı məlumatlar və eksponatlar toplanılıb.*

*Binanın mansardasında isə iş otaqları, konfrans zalı, kitabxana, mətbəx və kafe yaradılıb.*

*Muzeyin binası müasir havalandırma sistemi və müşahidə kameraları ilə təchiz edilib.*

## AĞSTAFA RAYONUNA SƏFƏR

*19 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Ağstafa rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev prezident İlham Əliyevə ətrafda aparılan abadlıq-quruculuq və yenidənqurma işləri barədə məlumat verdi. Bildirildi ki, ərazidə geniş yaşıllaşdırma işləri aparılıb, müasir işıqlandırma sistemi qurulub.*

### Əsaslı şəkildə yenidən qurulan Heydər Əliyev Mərkəzində yaradılmış şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Ağstafada əsaslı şəkildə yenidən qurulan Heydər Əliyev Mərkəzində yaradılmış şəraitlə tanış olmuşdur.*

*Respublikamızda bütün sahələrin inkişafında, dövlətimizin beynəlxalq nüfuzunun artmasında, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında müstəsna xidmətləri olan ulu öndər Heydər Əliyevin zəngin irsi ölkəmizin bütün bölgələrində öyrənilir. Ümummilli liderin xalqımız qarşısındakı tarixi xidmətlərini daha dərindən öyrənmək məqsədi ilə ulu öndərin adını daşıyan muzeylər və mərkəzlər müstəsna əhəmiyyətə malikdir. Son dövrlərdə bir çox bölgələrdə belə mərkəz və muzeylər istifadəyə verilib. Bu baxımdan Ağstafada əsaslı şəkildə təmir edilərək, yenidən qurulan Heydər Əliyev Mərkəzi də xüsusi rola malikdir.*

*Ağstafada Heydər Əliyev Mərkəzinin inşasına 2008-ci ilin fevralında başlanılıb və həmin ilin sentyabrında prezident*

*İlham Əliyevin iştirakı ilə açılışı olub. Mərkəzin binasında 2016-cı ilin yanvar–fevral aylarında əsaslı təmir və yenidənqurma işləri aparılıb.*

*Əsaslı yenidənqurma işləri çərçivəsində Mərkəzin dam örtüyü, havalandırma sistemi təzələnib, 320 tamaşaçı yerlik açıq konsert meydanı yaradılıb. Dördmərtəbəli binanın foyesində ulu öndər Heydər Əliyevin barelyefi qoyulub. Mərkəzdə ümummilli liderin həyat və fəaliyyətini əks etdirən fotolardan ibarət ekspozisiya zalları yaradılıb. Zallarda dahi şəxsiyyətlə bağlı bir-birindən maraqlı fotolar, sənədlər və digər eksponatlar nümayiş olunur. Burada ulu öndərin uşaqlıq, gənclik, tələbəlik illərində, həmçinin müxtəlif vəzifələrdə çalışdığı dövr və Ağstafaya səfərləri, rayon zəhmətkeşləri ilə görüşləri zamanı çəkilən fotoları maraqla qarşılanır.*

*Aparılan əsaslı təmir işləri nəticəsində Mərkəzin funksionallığı daha da artırılıb. Mərkəzdə «Saloğlu» mebel və «Akkord» tikiş fabriklərinin sərgi salonları açılıb.*

*Burada yaradılan 400 yerlik akt zalı müasir akustika avadanlığı ilə təchiz olunub. Akt zalında rayon əhəmiyyətli mühüm tədbirlərin keçirilməsi üçün hərtərəfli şərait yaradılıb. Mərkəzdə nikah mərasimləri üçün otaq, memarlıq, incəsənət, reklam, xalçaçılıq studiyaları fəaliyyət göstərəcək. Bundan başqa, burada distant təhsil, ekoturizm, uşaq yaradıcılığı və informasiya mərkəzləri, rəqs studiyası, rəsm qalereyası və dil kursları da yaradılıb. Kiçik kinozalı, 30 və 70 yerlik konfrans zalları da rayon sakinlərinin ixtiyarına veriləcək. Mərkəzin bütün inzibati otaqları zəruri avadanlıqlarla təchiz olunub.*

## «Modern» mebel fabrikinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da «Saloğlu» mebel istehsalı müəssisəsinin nəzdində yaradılmış «Modern» mebel fabrikinin açılışında iştirak etmişdir.*

*Azərbaycanda qeyri-neft sektorunun inkişafına xüsusi diqqət göstərilir, yeni-yeni sənaye və emal müəssisələri yaradılır. Gö-*

*rülən bu işlər nəticəsində qeyri-neft sektorunun çəkisi və rolu son illərdə daha da artıb, yeni inkişaf mərhələsinə qədəm qoymuş ölkə sənayesində ənənəvi sahələr genişlənməklə yanaşı, digər müasir sənaye sahələri yaradılıb. Ağstafa rayonunda «Saloğlu» mebel istehsalı müəssisəsinin nəzdində «Modern» mebel fabrikinin yaradılması bunu bir daha təsdiqləyir.*

*Dövlətimizin başçısının müəyyən etdiyi sənayeləşmə siyasətinə uyğun olaraq həyata keçirilən tədbirlər nəticəsində son dövrlərdə yeni istehsal sahələrinin yaradılması ümumilikdə Azərbaycanın ixrac potensialına da müsbət təsir edir. Belə müəssisələrin istifadəyə verilməsi, onların ən müasir avadanlıqlarla təchiz edilməsi ölkəmizdə sənaye sahəsinin inkişafına əhəmiyyətli dərəcədə töhfə verir, daxili bazarın tələbatını ödəmək baxımından müstəsna əhəmiyyət daşıyır. Qeyri-neft sənayesinin şaxələndirilməsi, mövcud təbii və iqtisadi resursların dövriyyəyə cəlb edilməsi istiqamətində görülən işlər həm də yüzlərlə yeni iş yerinin açılmasına geniş imkan yaradır. Belə istehsal sahələrinin yaradılması həm də onu göstərir ki, dünyada hökm sürən iqtisadi böhrana baxmayaraq, ölkəmizin sənaye potensialının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər uğurla davam edir.*

*Dövlətimizin başçısı əvvəlcə «Saloğlu» mebel fabrikinin məhsullarına baxdı, müəssisənin yeni layihələri ilə tanış oldu.*

*Daha sonra prezident İlham Əliyev «Modern» mebel fabrikini işə saldı.*

*Şirkətin təsisçisi Tacəddin Mustafayev Azərbaycan Prezidentinə yeni fabrik barədə məlumat verdi. Bildirildi ki, fabrikin inşasına 2015-ci ilin dekabrında başlanılıb. 2 hektar ərazisi olan fabrik 7 istehsal sahəsindən ibarətdir. Ağac yonqarı lövhələrinin və laminatların kəsilməsi və quraşdırılması, mebellər üçün metal hissələrin və mexanizmlərin yığılması, yumşaq mebellər üçün taxta karkasların, dəri və parça üzlüklərin, döşəklərin, yataq və qonaq otaqları üçün mebel dəstlərinin istehsalı sahələri ən müasir səviyyədə qurulub. Fabrik Almaniya və İtaliyanın aparıcı şirkətlərinin avadanlıqları ilə təchiz olunub. Burada 200 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulub. Müəssisə yüksəkkeyfiyyətli məhsul*

*istehsal etmək üçün geniş texniki imkanlara malikdir. Belə müəssisənin istifadəyə verilməsi yalnız Ağstafa rayonunun deyil, ümumilikdə, regionun iqtisadi inkişafına mühüm töhfə verəcək.*

*Sonra prezident İlham Əliyevə «Saloğlu» mebel istehsalı müəssisəsinin nəzdində yaradılacaq «Venzana» mebel fabrikinin layihəsi barədə məlumat verildi. Bildirildi ki, bu fabrik 4 istehsal sahəsindən ibarət olacaq. İstehsal ediləcək məhsulların daxili bazarla yanaşı, Almaniyaya, Belçikaya, Fransaya, Hollandiyaya, İtaliyaya, İspaniyaya və İsveçə ixracı nəzərdə tutulur. İşçilərin istirahəti, onların məişət şəraitinin yaxşılaşdırılması üçün burada körpələr evi-uşaq bağçasının, əyləncə və ticarət mərkəzlərinin inşası planlaşdırılır. Bundan başqa, ərazidə Mebel Mərkəzi ilə yanaşı, «Yaşıl bazar» satış kompleksi və mehmanxana da tikiləcək. Layihə üzrə inşaat işlərinin 2017-ci ilin dekabrında başa çatdırılması nəzərdə tutulub. Layihənin icrası nəticəsində 2500 nəfər daimi işlə təmin ediləcək.*

*Dövlətimizin başçısı yeni fabrikin təməlini qoydu.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## Mədəniyyət Mərkəzində əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Ağstafa Rayon Mədəniyyət Mərkəzində əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Bu gün digər sahələr kimi, mədəniyyət sahəsi də dövlətimizin yüksək qayğısı ilə əhatə olunub.*

*Azərbaycanda mədəniyyət sahəsinə dövlət səviyyəsində gündən-günə güclənən qayğı bu gün özünü daha aydın büruzə verir. Bu sahədə çalışanların iş şəraitini günün tələbləri səviyyəsinə çatdırmaq üçün məqsədyönlü tədbirlər uğurla davam etdirilir. Ağstafa Rayon Mədəniyyət Mərkəzinin əsaslı şəkildə yenidən qurulması bu qəbildən olan tədbirlərdəndir. Bu cür layihələrin pay-*

*taxtla yanaşı, regionlarda da geniş vüsət alması, ümumilikdə respublikamızda mədəniyyət sahəsinin inkişafına töhfə verir.*

*Dövlətimizin başçısı Mədəniyyət Mərkəzinin binasında yaradılan şəraitlə tanış oldu.*

*Azərbaycan Prezidentinə məlumat verildi ki, Ağstafa Rayon Mədəniyyət Mərkəzinin yerləşdiyi bina 1950-ci ildə inşa edilib. Ötən müddətdə binada əsaslı təmir işləri aparılmadığından tikili köhnəlib və qəzalı vəziyyətə düşüb. Prezident İlham Əliyevin 2014-cü il 30 iyun tarixli Sərəncamı ilə başlanan əsaslı təmir işləri nəticəsində bina tamamilə yenilənib. Binada yenidənqurma və təmir işləri 2015-ci ilin dekabrında başa çatıb. Mərkəzin əsas tamaşa salonu tamamilə yenilənib və genişləndirilərək, 220 yerlik olub. Salonda müasir oturacaqlar quraşdırılıb və yüksək standartlara uyğun səhnə yaradılıb. Havalandırma sistemi ilə təchiz olunan binanın ümumi sahəsi 680 kvadratmetrdir. Burada kafe, inzibati, yardımçı və qrim otaqları, həmçinin kitabxana fəaliyyət göstərir. Mərkəzin yerləşdiyi Eyvaz Qələmçəli və Nüsrət Kəsəmənli küçələrində əsaslı təmir işləri aparılıb, müasir işıqlandırma sistemi yaradılıb, səkilərə dekorativ daş döşənib, asfalt örtüyü yenilənib.*

## Taxıl və Un məmulatları istehsalı kombinatının taxıl dəyirmanının təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da «Ağstafa Aqroservis» MMC-nin nəzdində yaradılacaq Taxıl və Un məmulatları istehsalı kombinatının taxıl dəyirmanının təməlqoyma mərasimində iştirak etmişdir.*

*«Ağstafa Aqroservis» MMC-nin Müşahidə Şurasının sədri Rəsul Orucov dövlətimizin başçısına məlumat verdi ki, Taxıl və Un məmulatları istehsalı kombinatının inşasına 2015-ci ilin martında başlanılıb, tikinti işlərinin başa çatdırılması 2017-ci ilin may ayına nəzərdə tutulub. Kombinat 3 zavoddan ibarət olacaq. Bunlar «Toxumluq taxıl emalı», «Taxıl emalı və un istehsalı» və «Çörək və yarımfabrikatlar istehsalı» zavodlarıdır.*

*Layihə çərçivəsində saatda 1 ton istehsal gücünə malik Çörək zavodu, 30 min tonluq taxıl, 2000 tonluq un rezervuarları, Mədəniyyət Mərkəzi, 300 yerlik konfrans zalı, hazır məhsul anbarı, ikimərtəbəli «fast food» iaşə obyekti, 140 yerlik yeraltı avtomobil dayanacağı, yem anbarı yaradılacaq. Ümumi sahəsi 2000 kvadratmetr olacaq «fast food» iaşə obyektində kompleksin istehsal etdiyi çörək, un və qənnadı məhsulları təqdim ediləcək. Kompleksin yaradılmasında Avropa, əsasən də Almaniya və İsveçrə texnologiyalarından istifadə olunduğu üçün kadr hazırlığı məqsədilə tədris kurslarının təşkil edilməsi nəzərdə tutulub.*

*«Ağstafa Aqroservis» MMC-nin ikinci layihəsi olan Taxıl və Un məmulatları kombinatının tərkibinə 6000 hektar torpaq sahəsini əhatə edən taxılçılıq təsərrüfatı da daxildir.*

*Təsərrüfatda 2016–2017-ci il üçün taxıl səpini işlərinə start verildi. Rayonun Ceyrançöl adlanan ərazisində «Ağstafa Aqroservis» MMC-nin istifadəsində olan 2729 hektar sahədə regiona uyğunlaşdırılmış sortun səpin işləri tədbir zamanı canlı yayımlandı.*

*Burada hektardan məhsuldarlığın 50–60 sentner təşkil edəcəyi gözlənilir. Taxıl təsərrüfatında Almaniyanın «DSV-Saaten» Toxumçuluq İnstitutuna məxsus «Akteur» buğda sortunun əkilməsi nəzərdə tutulub.*

*Dövlətimizin başçısına yeni yaradılacaq taxıl dəyirmanı barədə məlumat verildi.*

*Dəyirman müasir iqtisadiyyatın tələbinə uyğun olaraq, yeni texnologiyalarla təchiz ediləcək. Bu texnologiyaların tətbiqi dəyirmanda keyfiyyətli məhsul əldə etməyə imkan verəcək. Dəyirmanın emal gücü saatda 5 tondur. Qabaqcıl texnologiyaların tətbiqi buğdadan maksimum un əldə etməyə şərait yaradacaq. Beləliklə, həm yüksəkkeyfiyyətli un məhsulları əldə ediləcək, həm də mövcud tullantılardan səmərəli istifadə olunacaq. Bu dəyirmanın ən böyük əhəmiyyəti ondan ibarətdir ki, emala təqdim edilmiş taxıl yuyulmayacaq. Onun nəmləndirilməsi xüsusi texnologiya ilə həyata keçiriləcək ki, bu həm unun keyfiyyətli olmasına şərait*

*yaradacaq, həm də vaxt və məhsul itkisinin qarşısını alacaq. Emal zamanı yaranan kəpək və digər qırıntılardan yem istehsal ediləcək.*

*Prezident İlham Əliyev yeni dəyirmanın təməlini qoydu.*

*Dövlətimizin başçısı burada hazır məhsul anbarına da baxdı.*

*Ümumi sahəsi 5048 kvadratmetr olan anbarda satış üçün saxlanılan bir neçə çeşiddə un, qaba yem və hazır toxumlar barədə prezident İlham Əliyevə məlumat verildi.*

*Hələlik cəmiyyətin öz emal zavodları hazır olmadığından yetişdirilmiş buğda Şəmkir rayonuna nəql olunaraq, orada emal edilir.*

*Prezident İlham Əliyevə yerli undan hazırlanan qənnadı məhsulları təqdim olundu.*

*Dövlətimizin başçısına burada quraşdırılması nəzərdə tutulan toxum istehsalı xətti barədə də məlumat verildi. Qeyd edildi ki, layihə üzrə müəssisənin tərkibində saatda 25 ton emal gücü olan Almaniyanın «Petkus» şirkətinə məxsus toxum istehsalı xətti qurulacaq.*

## «KARVAN- L EKO» SƏNAYE PARKINDA İNŞASI BAŞA ÇATDIRILAN MÜƏSSİSƏLƏRİN VƏ İSTİXANA KOMPLEKSİNİN AÇILIŞINDA AĞSTAFA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*19 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Ağstafada «Karvan-L EKO» Sənaye Parkında inşası başa çatdırılan müəssisələrin və istixana kompleksinin açılışında iştirak etmişdir.*

*Şirkətin rəhbəri Əbülfəz Qafarov prezident İlham Əliyevə məlumat verdi ki, sənaye parkının istehsal sahəsi 11 müəssisə və 1 istixana kompleksindən ibarətdir. Hazırda 9 müəssisənin və istixana kompleksinin inşası başa çatdırılıb.*

*Prezident İlham Əliyevə «Karvan L» Elmi İstehsalat Birliyinin müəssisələrində hazırlanan məhsullar təqdim olundu.*

*Sonra dövlətimizin başçısı müəssisələrin və istixana kompleksinin açılışını etdi.*

*Prezident İlham Əliyev yeni müəssisələrlə tanış oldu.*

*Bu müəssisələrdə müxtəlif növ istehlak malları və inşaat materialları istehsal ediləcək. Parkda yaradılan orqanik kənd təsərrüfatı məhsulları yetişdirilən istixana kompleksi də müasir səviyyədə qurulub. Sənaye parkının ərazisində keramika dam örtükləri və şüşə qab istehsalı müəssisələrinin tikintisi davam etdirilir.*

*Müəssisə ilə tanışlıqdan sonra dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri və kompleksin işçiləri ilə görüşdü.*

**İlham Əliyev**: Bu gün çox gözəl, əlamətdar bir gündür. Biz Ağstafa rayonunda sənaye parkının açılışını qeyd edirik. Mən bu təşəbbüsü çox alqışlayıram. Şadam ki, burada bütün işlər düşünülmüş qaydada öz həllini tapır. Burada bir neçə müəssisə fəaliyyət göstərəcək. Yüzlərlə, bəlkə də minlərlə yeni iş yeri

yaradılacaq. Bu sənaye parkında son illər ərzində gördüyümüz işlər artıq əyani şəkildə özünü göstərir. Regionların inkişafı, sənaye potensialının gücləndirilməsi, yeni iş yerlərinin, ixrac potensialının yaradılması, kənd təsərrüfatının inkişafı – yəni bu sənaye parkında bizim siyasətimiz öz əksini tapıb. Bu sənaye parkının özəlliyi ondan ibarətdir ki, burada yerli biznes özü bu parkı yaradır.

Sənaye parklarının yaradılması indi Azərbaycanda geniş vüsət alıb. İndi ölkəmizin müxtəlif yerlərində yeni sənaye zonaları yaradılır, dövlət investisiya ayırır – Sumqayıt Kimya Sənaye Parkı, Mingəçevir Sənaye Parkı, Pirallahı Sənaye Parkı, Balaxanı Sənaye Parkı. Ancaq bu sənaye parkının yaradılması sahibkarlığın inkişafının göstəricisidir və sırf sahibkarlardan gələn təşəbbüsdür. Siz özünüz bu işləri görürsünüz, investisiya qoyursunuz. Buraya çox böyük həcmdə sərmayə qoyulur. Təxminən nə qədər?

**Ə b ü l f ə z Q a f a r o v** *(«Karvan L» şirkətinin rəhbəri):* 5 milyona qədər.

**İ l h a m Ə l i y e v:** Bu, böyük sərmayədir.

**Ə b ü l f ə z Q a f a r o v:** Bəli. Burada bir çox avadanlıqlar öz istehsalımız olduğundan bizə ucuz başa gəlib. Quraşdırma işlərini də şirkətimiz özü həyata keçirib.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. Burada kənd təsərrüfatının inkişafı geniş vüsət alacaq. Yaradılan bu istixanalarda çox gözəl məhsul yetişdiriləcək. Bu məhsul ixrac ediləcək, ölkəmizə valyuta gələcək. Yəni bu işlər bu gün bizim üçün prioritet məsələlərdir. Biz kənd təsərrüfatının, sənaye potensialının inkişafını təmin etməliyik ki, gələcəkdə həm daxili tələbatı yerli istehsalla təmin edək, eyni zamanda, bizim çox böyük ixrac imkanlarımız olsun. Burada istehsal olunacaq sənaye və kənd təsərrüfatı məhsulları həm daxili bazarı təmin edəcək, həm də xaricə satılacaq.

Şadam ki, bizim regionlarımızda belə gözəl işlər görülür. Əminəm ki, bu sənaye parkının çox gözəl gələcəyi var. Mən sizin təşəbbüsünüzü dəstəkləyirəm. Gələcəkdə də sizə öz dəstəyimi verəcəyəm. Ağstafa Rayon İcra Hakimiyyəti də bu təşəbbüslərə böyük təkan verir. Bu da çox gözəl hadisədir, əlamətdar haldır. Mən dəfələrlə bəyan etmişəm, rayonların icra hakimiyyətləri

çalışmalıdırlar ki, investorları cəlb etsinlər. Biz bunu Ağstafa rayonunda bu sənaye parkının yaradılmasında görürük. Bu gün yeni un dəyirmanının təməli qoyuldu. Burada kənd təsərrüfatı sürətlə inkişaf edir, investisiyalar cəlb olunur.

Əlbəttə ki, dövlət öz siyasətini aparır və sahibkarlığın inkişafı prioritet istiqamətdir. Sahibkarlara bu günə qədər 1 milyard manat məbləğində güzəştli kreditlər verilib. Ancaq hər bir rayonun rəhbər orqanları özləri çalışmalıdır, şərait yaratmalıdır, sahibkarları cəlb etməlidir və onların fəaliyyətinə buna görə qiymət veriləcək.

İndi Ağstafa rayonunda sosial obyektlər də yaradılır. Bu gün Musiqi Mərkəzinin açılışını qeyd etdik. Mədəniyyət evi ilə tanış oldum. Ağstafa rayonunda böyük Mebel fabriki fəaliyyət göstərir. Mən ilk dəfə 2004-cü ildə o fabrikdə olmuşam. İndi orada çox böyük quruculuq işləri aparılır. Yeni fabrikin təməli qoyuldu. Onlar da artıq sizin kimi, öz məhsullarını xaricə satırlar. Biz artıq nəinki kənd təsərrüfatı məhsullarını, hətta mebeli də xaricə, özü də Avropa ölkələrinə ixrac edirik. Bu bir göstəricidir. Belə müəssisələrin Bakıda yox, bölgələrdə yaradılması regional inkişaf proqramının tərkib hissəsidir.

Bizim gələcək üçün planlarımız çox böyükdür. Bu gün Azərbaycan reallıqları, sizin yaratdığınız bu gözəl müəssisələr onu göstərir ki, biz düzgün yoldayıq, inkişaf yolundayıq. Kənd təsərrüfatının inkişafı sürətlə gedəcək. Bu il artım 2,4 faizdir. Sənaye istehsalı bu il artıb, düzdür, az artıb, amma artıb. Belə müəssisələrin hesabına daha da artacaq və biz dünyaya öz məhsulumuzla geniş şəkildə çıxacağıq, ölkəmizə valyuta gələcək, insanlar işlə təmin olunacaqlar. Təkcə bu gün gördüyüm müəssisələrdə minlərlə yeni iş yeri yaradılır. İnsanlar yaxşı maaş alır və əlbəttə ki, rayonun inkişafına bunun böyük təsiri vardır.

Ağstafa rayonunda bir çox infrastruktur layihələri artıq icra edilibdir. 3 il əvvəl biz şəhərin içməli su layihəsinin açılışını qeyd etdik. Artıq təmiz, fasiləsiz içməli su gəlir. Qazlaşdırma 92 faizdir, yaxın gələcəkdə 100 faiz olacaq. Elektrik enerjisi ilə də vəziyyət normaldır. Kənd yollarının bərpası, tikintisi prosesi gedir. Yeni sosial layihələr icra ediləcək. Bu məsələyə biz daim diqqət

göstəririk. Ancaq indi deyə bilərəm ki, əsas infrastruktur layihələri başa çatıb. Əsas diqqət və sərmayə kənd təsərrüfatına, sənaye istehsalına yönəlməlidir.

Mən bilirəm, bölgələrdə tez-tez oluram, insanlarda da buna çox böyük həvəs var. İndi fermer olmaq yenə də şərəfli işə çevrilir. Xüsusilə dövlət dəstəyi, yaradılan imkanlar nəzərə alınır, subsidiyalar verilir, güzəştlər edilir. Bilirsiniz ki, fermerlər torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azaddırlar. Gübrə, yanacaq, texnika güzəştli şərtlərlə verilir. Bu, dövlət siyasətidir. Gördüyünüz işlər bu siyasətə sizin cavabınızdır. Hər bir sahibkar məsuliyyətli olmalıdır və Vətəni sevməlidir. Bax, mən bu sənaye parkının nümunəsində bunu görürəm. Bunu siz edirsiniz, mən bunu qiymətləndirirəm və sizə yeni uğurlar arzulayıram.

**Ə b ü l f ə z  Q a f a r o v:** Cənab Prezident, Ağstafa rayonunun əhalisi Sizi çox istəyir. Biz də bunların bu istəyinə qoşularaq, burada bu istehsalatı yaradırıq, təsərrüfatı artıracağıq. İnşallah, bunları işə cəlb edəcəyik, burada bir nəfər də işsiz qalmayacaq.

Sizə bir daha minnətdarlığımızı bildiririk. Sizin tapşırığınızla bütün dövlət orqanları bizə dəstək oldular. Cənab Prezident, biz bu işləri qısa zamanda – 3 ay müddətində həyata keçirdik, bu kompleksi sıfırdan qurduq. Bunlar hamısı Sizin dəstəyinizlə görülən işlərdir. Sizə dərin minnətdarlığımızı bildiririk.

**İ l h a m  Ə l i y e v:** Təbrik edirəm. Sağ olun.

**Ə b ü l f ə z  Q a f a r o v:** Sizin təbrikiniz bizə ən böyük nemətdir. Siz 2005-ci ildə bizim müəssisədə oldunuz. Mən Sizə söz verdim.

**İ l h a m  Ə l i y e v:** Bakıda.

**Ə b ü l f ə z  Q a f a r o v:** Bəli, cənab Prezident, mən dedim ki, Sizin siyasətinizi əməli işlərimlə dəstəkləyirəm.

**İ l h a m  Ə l i y e v:** Çox yaxşı.

**Ə b ü l f ə z  Q a f a r o v:** Ondan sonra bu, artıq üçüncü istehsalat müəssisəsidir. İstehsal etdiyimiz məhsullar dünyanın 25 ölkəsinə ixrac olunur – Yaponiya, Braziliya, Argentina, Rusiya və s. bazarlara. Bunlar hamısı Sizin nailiyyətlərinizdir, Sizin bizə

verdiyiniz stimuldur, gücdür. Biz Sizi çox sevirik və Sizin arxanızda daim varıq. Sizə minnətdarıq.

**İlham Əliyev:** Sağ olun.

**Xanlar Hüseynov**(*«Karvan-L EKO» şirkətinin əməkdaşı):* Cənab Prezident, kollektivimiz adından Sizi salamlayıram, Sizə təşəkkür edirəm. Nəzərinizə bir məsələni çatdırım ki, mən uzun illər idi işləmək məqsədilə xarici şəhərlərdə yaşayırdım. Bu gün Sizin siyasətiniz sayəsində açılmış belə bir şirkətdə işlə təmin olunmuşam.

**İlham Əliyev:** Buralısan?

**Xanlar Hüseynov:** Bəli, ağstafalıyam.

**İlham Əliyev:** Qayıtmısan vətənə, çox yaxşı.

**Xanlar Hüseynov:** Bəli, qayıtmışıq vətənimizə. İndi öz evimizdə işləyirik, öz evimizdə yaşayırıq. Cənab Prezident, mən şəhid qardaşıyam və ailənin tək övladıyam. Yəni daim anamın yanında olub, onun qayğısına qalmalıyam. Sizin sayənizdə bu vəzifəni də layiqincə icra edirəm. Odur ki, Sizə anamın xüsusi salamlarını və təşəkkürünü çatdırıram.

**İlham Əliyev:** Sağ ol. Məndən də salam söylə. Uğurlar.

**Yaylaq Abdullayeva** *(şirkətin işçisi)*: Ağstafa rayonuna xoş gəlmisiniz, cənab Prezident! Biz bu gün sevinirik ki, rayonumuzda belə gözəl müəssisələr tikilir, camaatımız işlə təmin olunur. Bu, əhalinin dolanışığına kömək edir. Mən də, oğlum da bu müəssisədə çalışırıq, xoşbəxt dolanırıq. Bu Sizin sayənizdədir. Biz Sizə təşəkkürümüzü bildiririk, minnətdarlıq edirik. Allah Sizə və bütün ailə üzvlərinizə uzun ömür, cansağlığı versin. Azərbaycan xalqı Sizin sayənizdə xoşbəxt dolanır. Allah Sizi qorusun. Biz öz adımızdan, xalqımızın adından Mehriban xanımı, Sizin bütün ailə üzvlərinizi salamlayırıq, minnətdarlığımızı bildiririk.

**İlham Əliyev:** Çox sağ olun.

**İbrahim Əliyev** *(rayon sakini):* Cənab Prezident, mən Sizə «Xoş gəlmisiniz!» – deyirəm və milli müstəqilliyimizin bərpasının 25 illiyi münasibətilə Sizi, Mehriban xanımı, övladlarınızı, nəvələrinizi ürəkdən təbrik edirəm.

**İlham Əliyev:** Mən sizi təltif etmişəm. Neçənci ildə?

**İ b r a h i m Ə l i y e v:** Keçən il, cənab Prezident.

Ağstafa ölkəmizdə ən gənc rayonlardan biridir. Gənc olmasına baxmayaraq, Ağstafa bu illərdə o qədər sürətlə inkişaf edib ki, bunu saymaqla qurtarmaq olmaz. Ən sürətli inkişafımız Sizin rayonumuza səfərinizdən sonra olub. O səfərdən sonra ötən illər ərzində təkcə Ağstafada 14 orta məktəb binası, 4 uşaq bağçası inşa edilib, 150 kilometr asfalt yol salınıb. Bizim Gürcüstan ilə sərhəd bölgəmizdə yerləşən Sadıqlı kəndinə asfalt yolun çəkilməsinə görə o yaşayış məntəqələrinə gedən adamlar Sizə çox alqış edirlər. Çünki əvvəllər o yol acınacaqlı vəziyyətdə idi. İndi çox rahatdır. Hamımız Sizə minnətdarıq.

Bizim rayonumuz əsasən kənd təsərrüfatı rayonudur. Bu sahəyə də çox böyük diqqət yetirilir. Bu sahənin inkişafının təməli hələ ulu öndərimizin rəhbərliyi vaxtında qoyulub. O illərdə rayonumuzda hər yer üzümçülük, taxılçılıq idi, onların suvarılmasında çox böyük çətinlik vardı. 1971-ci ildə Ağstafaçayın üzərində hidroqovşağın quraşdırılması bütün sahələrin suvarılmasını təmin etdi.

**İ l h a m Ə l i y e v:** Bu hidroqovşaq bizə indi də xidmət edir.

**İ b r a h i m Ə l i y e v:** Həm bizə, həm də qonşu rayonlara xidmət edir. Sizin bu gün kənd təsərrüfatına göstərdiyiniz diqqət və qayğı sayəsində indi adamlar torpağı həvəslə əkib-becərirlər.

Bu gün Ağstafada təkcə kənd təsərrüfatının yox, sənayenin də inkişafına böyük diqqət yetirilir. Son dövrlərdə rayonumuzda 5 böyük sənaye müəssisəsinin tikilməsi bunun göstəricisidir. Elə bu «Karvan-L EKO» şirkəti rayonun tarixinə düşən bir müəssisədir. 200-dən çox ailə buradan öz dolanışığını təmin edəcəkdir. Cənab Prezident, bəlkə də 5 ildən sonra Siz bir daha buraya gələndə görəcəksiniz ki, Ağstafa təkcə kənd təsərrüfatı yox, həm də sənaye rayonuna çevrilib.

Cənab Prezident, Siz bizim Prezidentimiz, Ali Baş Komandanımızsınız. Siz Azərbaycan xalqının arxasında duran dağsınız. Özü də uca zirvəsi olan dağ. Sizə, ailənizə xoşbəxtlik arzulayıram. Siz uşaqdan böyüyə kimi, hər bir azərbaycanlının fəxrisiniz. Bizim bir ağrılı problemimiz var, onu hamı bilir, bu, Dağlıq Qarabağ

məsələsidir. Siz onu sülh yolu ilə həll etmək istəyirsiniz. Biz əminik ki, Siz bunu edəcəksiniz. Çünki aprel hadisələri bunu göstərdi. Həmin günlərdə Ağstafada icra nümayəndəliyinin qarşısında çoxlu insan toplaşmışdı. Onların hamısı deyirdi ki, silah verin, biz gedirik döyüşə. Ancaq biz Sizin əmrinizi gözləyirik. Əminik ki, Siz bu məsələni sülh yolu ilə həll edəcəksiniz. Erməni xalqı da ayılacaq, indiki rəhbərliyini İrəvanda dar ağacından asacaq. Biz buna əminik, cənab Prezident. Bir daha Ağstafaya «Xoş gəlmisiniz!» – deyirəm.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

**MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB YANOŞ ADERƏ**

Hörmətli cənab Prezident!

Macarıstanın milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycanla Macarıstan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı və genişlənməsi bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Macarıstan xalqına daim sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 oktyabr 2016-cı il*

# «ROSSİYA SEQODNYA» BEYNƏLXALQ İNFORMASİYA AGENTLİYİNƏ MÜSAHİBƏ

*20 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də «Rossiya seqodnya» Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova «Sputnik Azərbaycan» üçün müsahibə vermişdir.*

**S u a l: Cənab Prezident, dövlətinizin böyük yubileyi münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. 25 il insan həyatı üçün püxtələşmə dövrüdür. Məhz hər şeyin bünövrəsi bu illərdə qoyulur. Bu illər necə keçib, müstəqil Azərbaycanın banisi Heydər Əliyevin və onun işinin davamçısı kimi, Sizin dövrünüzdə 25 yaşlı Azərbaycan necə görünür?**

**C a v a b:** Bu həqiqətən, əlamətdar tarixdir, 25 il böyük müddətdir. Bu müddət uğurlar, uğursuzluqlar, itirilmiş imkanlar barədə danışmağa əsas verir. Lakin bütövlükdə bu illər ərzində Azərbaycan çox böyük inkişaf, təşəkkül yolu keçib. Bu gün Azərbaycan, sözün tam mənasında, müstəqil, özünü təmin edən, milli köklərə əsaslanan, eyni zamanda, dünyəvi, çoxmillətli, çoxkonfessiyalı, uğurla inkişaf edən, yalnız öz gücünə arxalanan, qonşuları ilə yaxşı, mehriban münasibətlərə malik, dünya birliyinin etibarlı və layiqli üzvü olan dövlətdir. Yəni dövlətçiliyin inkişafı, təşəkkülü, möhkəmləndirilməsi üzrə başlıca vəzifələr əsasən yerinə yetirilib və qarşımızda gələcək inkişaf üçün çox yaxşı perspektivlər açılıb, ona görə ki, həm iqtisadi sahədə, həm də sosial məsələlərin həlli istiqamətində artıq həyata keçirilmiş və hələ həyata keçiriləcək proqramlar çoxdur. İqtisadi sahədə uğurlar barədə çox danışmaq olar. Bir faktı diqqətə çatdıraq: Davos Dünya İqtisadi Forumunun son hesabatına əsasən, Azərbaycan iqtisadiyyatı rəqabətqabliyyətliliyinə görə dünyada 37-ci yerdədir. Bu, MDB-də 1-ci yer və beynəlxalq arenada yetərincə ciddi yerdir. Buna görə də

bizim qarşımızda üfüqlər açılıb, biz inamla irəliləyirik və əminəm ki, növbəti 25 il də sürətli inkişaf illəri olacaq.

**S u a l: Əslində mən bu sualı axırda vermək istəyirdim, lakin mənə elə gəlir ki, Siz yəqin ki, bilərəkdən, ya da təvazökarlıq edərək, çox mühüm bir məqamın üstündən keçdiniz: Azərbaycan həm də gözəl ölkədir, bu illər ərzində Bakı sadəcə, təmtəraqlı, dəbdəbəli şəhərə çevrilib, çox böyük zövqlə tikilib və bərpa olunub. Hiss edilir ki, burada tamamilə düşünülmüş ardıcıl xətt var: ölkəni, onun paytaxtını həm öz vətəndaşlarına, həm də bütün dünyaya xüsusi bir görkəmdə təqdim etmək xətti. Həm də burada məsələ pulda deyil, çünki dünyada pul çoxdur, amma burada daha nə isə var. Bu nədir?**

**C a v a b:** Bilirsinizmi, bəlkə də bayağı görünə bilər, lakin fikrimcə, əsas məsələ öz şəhərinə sevgidir. Ona görə ki, biz – Bakıda, eləcə də Azərbaycanın istənilən hissəsində yaşayan insanlar Bakını çox sevirik. Bu, tarixi şəhərdir, tarixi memarlıq abidəsidir və təəssüf ki, uzun illər boyu bir qədər baxımsız qalmışdı. Nimdaş evlər, şəhərin köhnəlmiş infrastrukturu, necə deyərlər, «şəhər mebeli». Buna görə biz çox mürəkkəb bir məsələni həll etməli idik – şəhərin tarixi simasına xələl gətirmədən onu vətəndaşlar üçün rahat, daha gözəl etməli idik. Fikrimcə, biz buna nail olmuşuq, çünki Bakıda tarix və müasirlik çox ahəngdar şəkildə birləşir. Siz köhnə, orta əsr şəhərindən çıxıb, sözün həqiqi mənasında, yolun o tayına keçməklə 16 kilometr uzunluğunda sahili, geniş prospektləri, yaraşıqlı binaları olan müasir meqapolisə düşə bilərsiniz. Yəni tarix, keçmiş və müasirlik arasında bu harmoniyanı tapmaq asan deyildi. Lakin zənnimcə, biz buna nail olduq. Şəhərimizi belə qiymətləndirdiyinizə görə sizə təşəkkür etmək istərdim. Əlbəttə, Bakıya gələnlərdən belə rəylər eşitmək xoşdur. Bu bizi ruhlandırır. Amma digər tərəfdən, biz bunu əsasən özümüz üçün etmişik. Ona görə ki, klassiklərdən birinin dediyi kimi, mühit şüuru formalaşdırır və insanın ətrafındakı gözəllik onun əhvalını yüksəldir, dünyagörüşünü formalaşdırır, onu intizamlı edir. Şəhərdə təmizlik də bu dəyişikliyin nəticəsidir.

**S u a l: Neft və ümumiyyətlə, karbohidrogenlər Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edir. İndi itkilər çoxdurmu? Qiymətlərin düşdüyü şəraitdə Azərbaycanın strategiyası nədən ibarətdir? Bu strategiyanın xüsusiyyəti nədir?**

**C a v a b:** Biz uzun illər boyu neftdən asılılığı azaltmağa çalışmışıq və müəyyən dərəcədə buna nail olmuşuq. Biz özümüzü əmtəələrlə, ərzaqla praktiki olaraq, tam təmin edirik. Biz ərzaq mallarının ixracatçısıyıq, odur ki, kənd təsərrüfatının, regional infrastrukturun, turizmin inkişafına çox böyük sərmayə qoymuşuq, buna görə də neftdən asılılığımız ciddi şəkildə azalıb. Bir rəqəm göstərim: bizim ümumi daxili məhsulun tərkibində neft 30 faizdən bir qədər çoxdur, lakin o bizim ixracın əsas hissəsini təşkil edir. Bu gün başlıca vəzifə ixracı şaxələndirmək və bazarlara rəqabətqabliyyətli məhsullarla çıxaraq, neftin qiymətinin düşməsinə görə üzləşdiyimiz valyuta itkilərimizin yerini doldurmaqdır. Bu itkiləri hesablamaq asandır. Əgər neftin qiyməti 3 dəfə aşağı düşürsə – hərçənd ilin əvvəlində 4 dəfə düşən vaxtı da olub – təbii ki, gəlirlərimiz də bir o qədər azalır. Biz bu ilin büdcəsini yenidən nəzərdən keçirməklə, 1 barrel üçün 25 dollar qiyməti ilə hesablamışdıq və beləliklə, bu ili profisitlə başa vururuq. Gələn il 40 dollar nəzərdə tutacağıq. Güman edirik ki, neftin qiyməti bundan aşağı düşməməlidir, ona görə də bu bizim üçün prinsipcə əlavə çətinliklər yaratmır. İxtisar etdiyimiz yalnız dövlət investisiya layihələridir. Bu bəlkə də yaxşılığa doğrudur, çünki investisiyalar hədsiz çox idi və tələbat da həddən artıq idi. Bilirsiniz, pul çox olanda müxtəlif dövlət strukturlarından sifarişlər də çox gəlir. Buna görə neft qiymətlərinin bu böhranı bizi hətta bir qədər sağlamlaşdırdı, özümüzə gətirdi və göstərdi ki, vəsaitləri çox qənaətlə xərcləmək lazımdır. Biz belə də edirik.

**S u a l: İndi, noyabrın 30-da OPEC-in gözlənilən qərarları ərəfəsində Azərbaycan üçün nə daha yaxşıdır: neft hasilatının azaldılması, yoxsa indiki səviyyədə dondurulması? Bəlkə kvotalar tətbiq edilməsi, yaxud daha nə isə?**

**C a v a b:** Bilirsiniz, nəyin böyük səmərə verəcəyini demək və proqnozlaşdırmaq çətindir. Başlıcası, hədəfin nədən ibarət ol-

masıdır. Bu gün biz belə hesab edirik ki, həm istehsalçılar, həm də istehlakçılar sabitləşməyə, yəni artıma can atırlar. Çünki neftin qiymətinin aşağı olması istehlakçılara da zərbə vurub. Xüsusən iri, inkişaf etmiş dövlətlər belə sifarişlər üçün çoxlu pul ödəməyə vərdiş etmiş ölkələrdə öz sifarişlərini daha az yerləşdirməyə başlayıblar, yəni onların iqtisadiyyatı zərər çəkib. Əlbəttə, bu gün neftdən çox asılı olan neft hasil edən ölkələrin iqtisadiyyatları da ziyan çəkir. Buna görə də sabitləşdirmənin əsas amili OPEC üzvü olan ölkələrlə OPEC-in üzvü olmayan böyük ölkələr arasında vahid siyasət barədə razılaşma olardı. Hadisələrin inkişafından görünür ki, hamı buna yaxınlaşır. Düşünürəm ki, belə olmalıdır, lakin gərək bütün tərəflər maksimum səmimi, vicdanlı olsun və qəbul edilmiş qərarlar olarsa, onların yerinə yetirilməsinə təsirli nəzarət mexanizmi olsun. Neft aləmində ümumi əhval-ruhiyyə neftin qiymətinin artırılaraq 60, bəlkə də 70 dollara çatdırılmasına köklənib. Məncə, bu hamı üçün sərfəli olardı: həm şirkətlərə – bu onlara sərmayə yatırmağa imkan verərdi, həm istehsalçı ölkələrə – onlar müxtəlif layihələr üçün vəsait əldə edə bilərdi, həm də istehlakçılara – onlar nəticə etibarilə indi məhrum olduqları sifarişlərin yerləşdirilməsi hesabına qazanardılar.

**S u a l: Azərbaycan bunun tərəfdarıdır?**

**C a v a b:** Azərbaycan birmənalı olaraq bunun tərəfdarıdır və biz bunu dəfələrlə bəyan etmişik. Biz birtərəfli qaydada bəyan edirik ki, hətta hər hansı başqa qərarları gözləmədən neft istehsalını artırmayacağıq.

**S u a l: Yəni siz istehsalı dondurursunuz?**

**C a v a b:** Müəyyən mənada belədir. Artırmırıq.

**S u a l: Aydındır ki, bu mövzuda Azərbaycan üçün daha bir məsələ meydana çıxır – hazırda Rusiya və Türkiyənin razılığa gəldiyi «Türk axını» məsələsi. Azərbaycanın TANAP adlanan öz layihəsi var. Siz rəqabəti nə dərəcədə hiss edirsiniz, yoxsa bunlar paralel layihələrdir? Hazırda TANAP nə vəziyyətdədir?**

**C a v a b:** TANAP 4 hissədən ibarət olan iri «Cənub Qaz Dəhlizi» layihəsinin bir hissəsidir. Bu əslində dünyanın ən iri qaz-

kondensat yataqlarından biri olan «Şahdəniz»in işlənilməsinin ikinci mərhələsidir. Azərbaycandan Gürcüstana qədər uzanan «Cənubi Qafqaz» qaz kəmərinin tikintisi, onun genişləndirilməsidir. Əslində TANAP Türkiyənin Gürcüstanla şərq sərhədindən Yunanıstanla qərb sərhədinədək uzanan Trans–Anadolu qaz kəməridir. Daha sonra Türkiyə–Yunanıstan sərhədindən dənizin dibi ilə Yunanıstandan və Albaniyadan İtaliyaya gedib çıxan Trans–Adriatik qaz kəməridir. Bu, «Cənub Qaz Dəhlizi» layihəsidir. Təbii ki, digər layihələrlə vəhdət təşkil edən TANAP «Cənub Qaz Dəhlizi» layihəsinin bir hissəsidir. Digər layihələr olmadan, bu layihə natamamdır. Bu layihənin bütün xətti boyunca birinci mərhələdə nəql edəcəyimiz qazın həcmi barədə artıq kontraktlar bağlanıb, bu qaz artıq satılıb. Biz hasilatın artırılması barədə kontraktlar imzalamışıq. Hasilatın artımı 2018-ci ildən başlanacaq və 2020–2021-ci illərdə ən yüksək səviyyəyə çatmalıdır. Buna görə də hər hansı başqa regional enerji layihələri obyektiv olaraq, sadəcə, onunla rəqabət apara bilməz, çünki biz həmin qazı artıq satmışıq. Bu, birincisi.

İkincisi, biz onu əsas götürürük ki, əgər qonşularımız və dostlarımız tərəfindən həyata keçirilən hansısa layihələr varsa – indiki halda «Türk axını» – biz buna yalnız şad olarıq, çünki bu, regionda qarşılıqlı fəaliyyəti, əməkdaşlığı, təhlükəsizliyi möhkəmləndirir və ölkələrin regionda öz iqtisadi və enerji maraqlarını daha tam təmin etmələrinə imkan verir. Buna görə biz «Türk axını» layihəsini həmişə dəstəkləmişik və şadıq ki, müəyyən müddətdən sonra bu layihə yenidən dirçəldilib. Lap yaxın vaxtlarda İstanbulda mənim də iştirak etdiyim Ümumdünya Enerji Konqresi zamanı Türkiyə və Rusiya bu layihəni imzaladılar, bu münasibətlə rusiyalı və türkiyəli dostlarımızı təbrik edirəm.

**S u a l: Amma hər halda, bu layihənin imzalanması sadəcə, biznes deyil. Bu, Türkiyə ilə Rusiyanın barışmasının rəmzidir. Bu barışıqda Azərbaycan hansı rolu oynayıb? Yəqin ki, indi bəzi təfərrüatlar barədə danışmaq olar.**

**C a v a b:** Bu barədə mənim danışmağım yəqin ki, qeyri-təvazökarlıq olardı. Daha düzgün olardı ki, həmin dövrdə bizim

gördüyümüz işə birbaşa bu məsələyə cəlb edilmiş ölkələr qiymət versin.

**M ü x b i r: Siz nə olduğunu deyin, onlar qiymət verərlər...**

**C a v a b:** Əlbəttə, Rusiya ilə Türkiyə arasında baş verənlər bizi çox narahat edirdi. Bunun səbəbləri çoxdur. Əvvələn, Türkiyə və Rusiya bizim qonşularımızdır. İkincisi, bizə yaxın ölkələrdir. Demək olar ki, həm siyasətdə, həm də iqtisadiyyatda bizim əsas tərəfdaşlarımızdır. Buna görə də Rusiya ilə Türkiyə arasında yaranan münasibətlərə biz çox sevinirdik. Yadımdadır, 2015-ci ilin iyununda I Avropa oyunlarının açılışı mərasimində prezident Putin və prezident Ərdoğan Bakıda çox yaxşı görüş keçirdilər. Təəssüf ki, baş vermiş faciəli insident həmin münasibətləri korladı. Bu çox təşviş doğururdu. Bu həm Türkiyə, həm Rusiya, həm də onların dostları üçün pis idi, o cümlədən bizim üçün. Buna görə də biz öz tərəfimizdən, imkanlarımız daxilində, Rusiya və Türkiyə üçün məqbul olan dərəcədə onların münasibətlərinin normallaşdırılması işinə öz töhfəmizi verməyə çalışırdıq. Yenə çox ehtiyatla, bu məsələlərə əsla müdaxilə etmədən, lakin öz imkanlarımızı təklif etməklə, çünki biz hesab edirdik və hesab edirik ki, bizim imkanlarımız var.Hesab edirəm ki, vəziyyətin normallaşması ədalətin bərpa olunmasıdır. Mənim fikrimcə, bu, faciəvi anlaşılmazlığı aradan qaldırdı. Yəqin ki, səbəblər təhlil olunacaq. Bildiyimə görə, səbəblər artıq təhlil edilib. Bizdə olan məlumata görə, burada Rusiya və Türkiyənin yaxınlaşmasını narahatlıqla izləyən müəyyən qüvvələrin müdaxiləsi olmamış deyil.

**S u a l: Siz nəyə eyham vurursunuz?**

**C a v a b:** Mən sadəcə, müəyyən obyektiv müşahidələrə görə malik olduğumuz qiyməti verirəm.

**S u a l: Yəni bu, xaricdən olan təxribat idi?**

**C a v a b:** Bu, istisna olunmur. Hər halda, təyyarə ilə bağlı insident baş verəndə bizim ağlımıza gələn birinci fikir bu oldu ki, bu variantı istisna etmək olmaz. Ona görə ki, baş vermiş hadisə Türkiyənin maraqlarına əsla uyğun deyildi. Kiminsə qəsdən belə bir düşmənçilik aktına yol verməsini güman edə bilməzdik. Aydındır ki, belə faciəvi hadisədən sonra emosiyalar coşdu,

vəziyyət müəyyən dərəcədə gərginləşdi və orada nə baş verdiyini aydınlaşdırmaq çətin idi. Artıq emosiyalar üst-üstə yığılırdı, hər söz cavab doğururdu, zəncirvarı proses gedirdi, onu dayandırmaq lazım idi və dayandırıldı. İndi araşdırmaq lazımdır. Mən düşünürəm və demək olar, əminəm ki, burada təxribat olmamış deyil. Ona görə ki, Rusiya–Türkiyə münasibətlərinin ruhu və xarakteri Rusiya hərbi aviasiyasının uçuşlarına bu formada reaksiya verilməsini qətiyyən nəzərdə tutmurdu. Lakin bununla belə, çox təmkinli və səliqəli şəkildə, yaxın dostlarımızın dövlətlərarası münasibətlərinə müdaxilə etmədən, öz tərəfimdən bu cür müşahidələrimi bölüşmək və eyni zamanda, əlbəttə ki, bu məsələnin artıq keçmişdə qalmasından məmnunluğumu bildirmək istərdim. Oktyabrın 10-da İstanbulda keçirilən Ümumdünya Enerji Konqresində biz yanaşı oturmuşduq: prezident Putin, ondan sağda mən, ondan solda prezident Ərdoğan. Onların arasında rəsmi tədbirlər zamanı olduğu kimi, çox maraqlı söhbət gedirdi. Aşkar görünürdü ki, bütün anlaşılmazlıqlar keçmişdə qalıb. Biz buna çox şadıq.

**S u a l: Bu nümunə Azərbaycanın özünü reklam etmədən regionda nə dərəcədə xeyirxah və güclü rol oynamasını göstərir. Azərbaycan–İran–Rusiya üçbucağı da nəzərə çarpır. Hazırda bu çox davamlı siyasi konstruksiyadır. Keçən dəfə biz görüşəndə Siz deyirdiniz ki, bu məsələ üzərində çox işləyirsiniz, indi artıq nəticə var. Bəs indi həmin üçbucaq varmı?**

**C a v a b:** Siz çox mühüm mövzuya toxundunuz. İnkişaf üçün yaxşı potensiala malik olan bu konstruksiya gələcəkdə bizim regionda təhlükəsizliyin, əməkdaşlığın möhkəmləndirilməsi işində çox mühüm rol oynayacaq. Bu ilin əvvəlində mən İranda rəsmi səfərdə oldum və iranlı həmkarım prezident Ruhani ilə birlikdə İran, Rusiya və Azərbaycan arasında əməkdaşlığın üçtərəfli formatını təşkil etmək ideyasını irəli sürdüm. Bu təklif çox müsbət qarşılandı və mən İrandan qayıdandan sonra Vladimir Vladimiroviç Putinlə zəngləşdim, o da bu ideyanı çox müsbət qarşıladı. Biz bu istiqamətdə fəal işə başladıq, həmin hadisələrdən

düz 2 ay sonra Bakıda 3 ölkənin Xarici İşlər nazirlərinin görüşü keçirildi. Bu, ilk belə təcrübə idi. Görüş çox uğurlu oldu və sammitə hazırlıq başlandı. Həmin sammit avqustun əvvəlində Bakıda prezident Putinin, prezident Ruhaninin və mənim iştirakımla baş tutdu. Hesab edirəm ki, bu, tarixi sammitdir, əvvələn ona görə ki, 3 ölkənin rəhbərləri tarixdə ilk dəfə belə formatlı sammitdə görüşürdülər. İkincisi, ona görə ki, biz tarixə qayıdırıq. Bizim regiondakı ölkələr, imperiyalar arasında qarşılıqlı münasibətlərin tarixi sadə olmayıb, bunu hamımız yaxşı bilirik. Lakin bu gün biz görürük ki, xoş məram olduqda, tarixi yaddaş nə qədər ağır olsa da, öz yerini praqmatizmə və əməkdaşlığı möhkəmləndirmək istəyinə verir. Azərbaycan müxtəlif mərhələlərdə İran imperiyasının, Rusiya imperiyasının tərkibində olub, buna görə də həmin sammitin Bakıda təşkil olunması bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Biz bunu həm böyük qonşularımızın gördüyümüz işlərə hörməti kimi, həm də əməkdaşlığın yeni formatı kimi qiymətləndiririk. Bu, ciddi geosiyasi addımdır.

Biz nəqliyyat təhlükəsizliyi, energetika, investisiya məsələlərini, iqtisadi məsələləri müzakirə etdik. Gündəlik kifayət qədər geniş idi. Lakin ən başlıcası budur ki, biz regional əməkdaşlığın coğrafiyaya əsaslanan yeni formatını yaratdıq. Çünki həm Rusiya, həm də İranla həmsərhəd olan ölkə yalnız Azərbaycandır. Bu format həm də bizim maraqlarımıza əsaslanır. Müstəqil dövlət kimi, regionda təhlükəsizliyimiz təmin olunur. Bizim təhlükəsizliyimiz sərhədlərimizin ətrafındakı təhlükəsizlikdən birbaşa asılıdır. Buna görə də qonşularımız arasında sıx qarşılıqlı əlaqələr – biz indicə Rusiya–Türkiyə münasibətlərindən danışdıq, eyni sözlər Rusiya–İran münasibətlərinə də aiddir – bizim milli maraqlarımıza uyğundur. Biz belə bir görüşü təşkil edə bildiyimizə görə sevinirik və qürur duyuruq. Ümid edirik ki, gələcəkdə bu görüşün davamı olacaq.

**S u a l: Yəni bu üçbucaq artıq beynəlxalq siyasət faktı, kifayət qədər möhkəm dayaq nöqtəsidir?**

**C a v a b:** Sözsüz. Bu, artıq dünya siyasətinin, qlobal siyasətin faktıdır. Bu, regional format deyil, nəqliyyat formatı deyil – bu, ciddi xarici siyasət təşəbbüsüdür, geosiyasi təşəbbüsdür və artıq reallıqdır. Biz də bu formatı zənginləşdirmək üçün öz tərəfimizdən nə lazımdırsa edəcəyik. Biz görürük ki, rusiyalı və iranlı həmkarlarımız da məsələyə eynilə bu cür yanaşırlar.

**S u a l: Dünyada iki tendensiya arasında mübarizə gedir: biri dağıdıcı – «parçala və hökm sür» tendensiyası, digəri isə ölkələri birləşdirməyə və biri digərini tamamlayan sülh konstruksiyaları yaratmağa can atan tendensiyadır. Avrasiya İqtisadi İttifaqı belə konstruksiyalardan biridir. Azərbaycan bu İttifaqa qoşulmağı planlaşdırırmı?**

**C a v a b:** Bu mövzuda həm ciddi ekspertlər, həm də müxtəlif ölkələrin siyasi elitaları arasında çoxdan söhbət gedir. Mən belə deyərdim: bu gün biz indiki vəziyyətdə özümüzü prinsipcə kifayət qədər inamlı hiss edirik. Azərbaycanın xüsusən iqtisadi sahədə, elə siyasi sahədə də 25 illik inkişafının yekunu buna əyani misaldır. Son 13 ildə biz ÜDM-in həcmini 3 dəfə artıra bilmişik, yoxsulluq səviyyəsini 2003-cü ildəki 49 faizdən bu il 5 faizə endirə bilmişik. Əslində bizdə yoxsulluq sosial hadisə kimi artıq yoxdur. Eyni sözlər işsizliyə də aiddir – 5 faiz, bizim böyük valyuta ehtiyatlarımız var – hətta neftin qiymətinin düşdüyü bu il də biz Neft Fondunun valyuta ehtiyatlarını toplayırıq. Bu ehtiyatlar artır, çünki biz qənaətlə xərcləyirik və qazancımız artıq neftin hesabına deyil. Buna görə də həm iqtisadi, həm də siyasi vəziyyətimiz bizi qane edir. O başqa məsələdir ki, dünya dəyişir. Yeni təhlükələr, yeni təhdidlər yaranır, biz hər şeyin necə od tutub yandığını, sabitliyin pozulmasının yeni mənbələrinin, yeni potensial risk mənbələrinin yarandığını görürük. Əlbəttə ki, bu şəraitdə çox şey ənənəvi tərəfdaşlarla sıx qarşılıqlı əlaqələrdən asılıdır. Bu gün Avrasiya İqtisadi İttifaqının üzvü olan ölkələrlə bizim iqtisadi əməkdaşlığımızın, eləcə də siyasi əməkdaşlığımızın da formatı kifayət qədər möhkəmdir. Əlbəttə, inteqrasiya yolu ilə getmək üçün motivasiya lazımdır. Bu, iqtisadi, sosial, siyasi və hər hansı başqa motivasiya ola bilər. İndi biz bu istiqamətdə işləyirik.

Sözsüz, heç kəs üçün sirr deyil ki, Avrasiya İqtisadi İttifaqının üzvü olan ölkələrdən böyük qonşumuz Rusiya bizim üçün prioritet tərəfdaşdır. Avrasiya İqtisadi İttifaqının üzvü olan bütün başqa ölkələrə nisbətən Rusiya ilə əmtəə dövriyyəmiz daha çoxdur və qarşılıqlı münasibətlərin, qarşılıqlı etimadın səviyyəsi çox yüksəkdir. Rusiya ilə istər siyasi, istərsə də sosial-iqtisadi baxımdan heç bir problemimiz yoxdur. Avqust ayında prezident Putinin Bakıya sonuncu səfəri bunu bir daha təsdiq etdi – biz elə bir mövzu tapmadıq ki, orada nəyəsə düzəliş etməyə ehtiyac olsun. Xeyr, nə mənim tərəfimdən, nə də Rusiya tərəfindən belə mövzu yox idi. Azərbaycan ilə Rusiya arasında azad ticarət zonası haqqında müqavilə var, yəni belə məhdudiyyətlər də yoxdur. Lakin indi əlavə motivasiya axtarırıq. Biz Avrasiya məkanında proseslərin necə cərəyan etdiyini maraqla müşahidə edirik, çünki orada da hər şey rəvan deyil. Yəni orada da özünəməxsus çətinliklər və müəyyən dərəcədə iradlar var. Buna görə də biz hamımız təhlil aparmalı, inteqrasiya etməliyik. Azərbaycanın davranış üslubu şikayətlənməmək, problemlərini özü həll etmək və belə demək mümkündürsə, xarici bazara yalnız müsbət cəhətləri çıxarmaqdır. Buna görə də necə tendensiyalar yaranacağına hələ baxmaq lazımdır, əlbəttə, əgər ittifaq cəlbedici olarsa, oraya can atanlar çox olacaq. Buna görə də heç nəyi istisna etmək olmaz, lakin indiki mərhələni mən məhz bu cür səciyyələndirərdim.

**S u a l: Sizin dediyiniz kimi, «ətrafda hər şey od tutub yanır». Əlbəttə, Siz yəqin ki, radikal islam təhlükəsini də nəzərdə tuturdunuz. Azərbaycan bu təhlükəni öz üzərində nə dərəcədə hiss edir?**

**C a v a b:** Mən belə deyərəm: bizim ölkənin daxilində bu baxımdan təhlükə yoxdur. Bizim cəmiyyət milli ideya ətrafında sıx birləşib. Bu ideya bizim dəyərlərin prioritetindən, multikulturalizmin inkişafından ibarətdir. Yeri gəlmişkən, bu il Azərbaycanda «Multikulturalizm ili» elan edilib. Bizim cəmiyyət Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, həmçinin müstəqilliyimizin möhkəmlənməsi, bütün iqtisadi və sosial məsələlərin həlli ideyası ətrafında birləşir. Buna görə də bizdə radikallara yer

yoxdur: istər iqtisadi, istərsə də sosial baxımdan bu cür baza yoxdur. Çünki praktiki olaraq, yoxsulluq yoxdur. Onlar haradan özlərinə tərəfdarlar toplayır? Onlar əsasən yoxsul təbəqələrdən toplayır. Azərbaycanda savadlılıq 100 faizdir. Yenə də, radikalları haradan toplayırlar? Savadsız kütlədən. Bizdə belə mühit yoxdur. Amma bizim ətrafımızda belə deyil. Buna görə bizim üçün əsas məsələ özümüzü mənfi xarici təsirdən, o cümlədən dini ekstremizmin təsirindən qorumaqdır. Bizim cəmiyyət öz köklərinə – həm milli, həm mənəvi, həm dini köklərinə dərindən bağlıdır. Biz ziyarətgahlarımıza ehtiram bəsləyir və bu məsələyə çox qayğı ilə yanaşırıq. Lakin eyni zamanda, bizim cəmiyyət dünyəvi, müasir cəmiyyətdir. Zənnimcə, Azərbaycanın timsalında müasir dünyəvi müsəlman ölkəsinin nümunəsi hələ yetərincə öyrənilməyib, o çox ölkələr üçün yaxşı nümunə ola bilərdi. Buna görə də radikalizmə qarşı mübarizə baxımından bizim üçün əsas məsələ özümüzü mövcud kənar fiziki və informasiya təhlükələrindən qorumaqdır. Lakin bunun üçün müvafiq orqanlar var, onlar ölkəmizin təhlükəsizliyini təmin edirlər və buna görə də Azərbaycan ətrafda gördüklərimizin hamısının fonunda sabitlik, inkişaf və asayiş məkanı kimi qalır. Biz, vətəndaşlarımız bunu çox yüksək dəyərləndiririk. Onlar qaynar nöqtələrdə, Avropa ölkələrində, MDB məkanında, Yaxın Şərqdə nələr baş verdiyini hər gün görürlər. Müharibə, qan, dağıntılar. Bu bizim cəmiyyətimizi daha sıx birləşdirir. Bu, radikalizmə qarşı ən böyük «peyvənddir». Lakin bütün bunlara baxmayaraq, biz öz siyasətimizin – məhz müasirliyə, dünyəviliyə, xeyirin şər üzərində üstünlüyünə yönəlmiş siyasətimizin həyata keçirilməsi üzrə fəaliyyətimizi bir an belə, zəiflətməməliyik. Biz mütəmadi olaraq, bu istiqamətdə işləyirik.

**S u a l: Siz davam etdirilməsi tələb olunan bir neçə mövzuya toxundunuz. Bir qədər sonra biz həmin mövzulara qayıdacağıq, lakin bir halda ki, burada radikal islamdan başladıq, onda deyin, Sizin fikrinizcə, hazırda Suriyada nələr baş verir? Orada dinamika necədir? Bu barədə indi o qədər danışırlar. Fransua Olland az qala Rusiyanı beynəlxalq tribunala cəlb etmək istəyir, hamı guya orada törədilən hərbi**

**cinayətlərdən danışır. Eyni zamanda, Siz dediniz ki, beynəlxalq siyasətdə səmimi və vicdanlı olmaq lazımdır. Bütün bunlar necə uzlaşır?**

**C a v a b:** Bilirsiniz, Suriyada nələr baş verdiyi barədə açıq mühakimə yürütmək çətindir. Çünki bu ölkədən bizdə kifayət qədər informasiya mənbəyi yoxdur. Biz informasiyanı əsasən dünya mediasından alırıq və hər bir ölkə bu hadisələri özünəməxsus şəkildə interpretasiya edir. Lakin bir məsələ aydındır – əslində artıq bir neçə ildir ki, Suriya dağılır. Şəhərlər dağılır, dinc insanlar həlak olur. Onların iztirablarının sonu görünmür. Buna görə də mən bu barədə müxtəlif tribunalardan dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, terrorizmə yalnız bütün dünya birliyinin, terrora qarşı mübarizədə aparıcı ölkələrin səylərini birləşdirməklə qalib gəlmək olar. Təəssüf ki, bu gün bunu görmürük və indiki halda mən Rusiya tərəfinin yanaşmasını tamamilə haqlı hesab edirəm. Rusiya da belə deyir: ekstremistlərə, terrorçulara, radikallara qarşı səyləri birləşdirmək lazımdır. Onları yaxşıya və pisə bölmək olmaz. Sənə qarşı çıxış edən pisdir, sənin rəqibinə və ya əleyhdarına qarşı çıxış edən yaxşıdır demək olmaz. Bu bumeranq gec-tez qayıdacaq – tarix bunu dəfələrlə sübut edib. Lakin hələlik bu istiqamətdə konsensus görmürük və bu, əlbəttə, çox təşviş doğurur. Vəziyyət eskalasiya yolu ilə inkişaf edir. Ümid etmək istərdim ki, Suriyada tənzimləməyə dair aparılan danışıqlar öz nəticələrini verəcək. Lakin ən başlıcası – Suriya vahid dövlət kimi qalmalıdır, Suriyanın ərazi bütövlüyü təmin edilməlidir. İkincisi, Suriya xalqı öz taleyini özü müəyyən etməlidir. Bildiyimə görə, sizə də yaxın olan iki sadə tezis bunlardır. Biz bu fikirlə tam razıyıq. Məsələni bu kontekstdən həll etmək lazımdır, hərçənd gördüyümüz kimi, məsələnin həlli təəssüf ki, aybaay getdikcə daha da çətinləşir.

**S u a l: Siz Azərbaycanın milli ideyası barədə danışarkən onun bir hissəsi kimi, ərazi bütövlüyünün bərpasını xatırlatdınız. İndi biz çox ağrılı olan Dağlıq Qarabağ mövzusuna yaxınlaşdıq. Hamı kompromis arzusundadır. Kompromis mümkündürmü və hansı şərtlərlə mümkündür?**

**C a v a b:** Bilirsiniz, kompromis deyəndə nəyin nəzərdə tutulduğunu və hansı tərəfin onu necə yozduğunu dəqiq anlamaq lazımdır. Nə etmək lazım olduğunu demək üçün nə baş verdiyini bilmək lazımdır: əgər tarixi götürsək, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bu həmişə belə olub. Biz ermənilərin İrandan, Şərqi Anadoludan bu torpaqlara kütləvi şəkildə köçürülməsinin tarixini bilirik. Bütün tarix, bütün toponimlər, o cümlədən «Qarabağ» sözünün özü də Azərbaycan mənşəlidir. Sovet illərində orada artıq köçürülmüş erməni əhalisi olması ilə əlaqədar muxtar vilayət yaradılmışdı, bu heç respublika da deyildi, onun Ermənistanla inzibati sərhədi yox idi və hər şey normal idi, həyat öz axarı ilə gedirdi, ciddi problemlər yox idi. Sosial-iqtisadi inkişaf səviyyəsinə görə Dağlıq Qarabağ Azərbaycanın bir sıra başqa regionlarını qabaqlayırdı, yəni oraya diqqət yetirilməməsi barədə danışmaq ədalətsizlik olardı. Xüsusən ona görə ki, belə muxtariyyətlərə mərkəzi hakimiyyət orqanları da xüsusi münasibət bəsləyirdi. Lakin Sovet İttifaqının dağılması ərəfəsində orada separatçı meyillər üstünlük təşkil etdi, bütün bunlar qan tökülməsi ilə nəticələndi. Azərbaycanlıları əvvəlcə Dağlıq Qarabağdan qovdular, orada təxminən 30 faiz azərbaycanlı vardı. Sonra Azərbaycanın Dağlıq Qarabağa heç bir aidiyyəti olmayan 7 rayonunu işğal etdilər, həmin rayonlarda yalnız azərbaycanlı əhali yaşayırdı, orada hər şey dağıdıldı. ATƏT oraya 2 dəfə faktaraşdırıcı missiya göndərib, onların hesabatı lap dəhşətlidir: orada bircə bina da salamat qalmayıb, qəbiristanlıqlar, məscidlər hamısı yerlə yeksan edilib. Dağlıq Qarabağ hüdudlarındakı ərazilərdən 750 min, Dağlıq Qarabağdan 40 mindən çox, Ermənistandan 200 mindən artıq azərbaycanlı qovulub. 1993-cü ildə yoxsul ölkədə 1 milyondan çox qaçqın vardı. Praktiki olaraq, bütün beynəlxalq təşkilatlar düzgün qətnamələr qəbul edib. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində erməni işğalçı qüvvələrinin dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılması tələb edilir. Lakin 20 ildən çoxdur ki, bu qətnamələr icra edilmir. Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı» – hamısının mövqeyi identikdir: beynəlxalq hüquq

bizim tərəfimizdədir. Ermənistan da daxil olmaqla, dünyanın heç bir ölkəsi Dağlıq Qarabağı tanımır. Bütün bunlar belədir, lakin məsələ həll edilmir. Bunun nə üçün həll edilməməsinin əsas səbəbi odur ki, Ermənistan həll olunmasını istəmir. Çünki həll etmək nə deməkdir? Həll etmək Ermənistanın zəbt etdiyi ərazinin işğaldan azad olunması deməkdir. Ermənilər bunu etmək istəmirlər, onlar status-kvonu dəyişməz saxlamaq istəyirlər. Hərçənd nizamlanma ilə məşğul olan Minsk qrupunun həmsədr ölkələri – Rusiya, ABŞ və Fransa – bu ölkələrin prezidentləri şəxsində dəfələrlə deyiblər ki, status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Lakin təəssüf ki, məsələ bu cür bəyanatlardan uzağa getmir.

Biz münaqişənin həllini necə görürük: əlbəttə, Azərbaycanın ərazi bütövlüyü diskussiya mövzusu deyil və ola da bilməz. Biz Dağlıq Qarabağa müstəqillik verilməsinə heç vaxt razı olmayacağıq və erməni tərəfi bunu çox gözəl bilir. Lakin ağlabatan kompromis mümkündür: Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinin təmin edilməsi, Azərbaycan tərəfindən investisiya layihələrinin həyata keçirilməsi, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından kənardakı ərazilərin azad edilməsi şərti ilə iki xalq arasında dinc qarşılıqlı fəaliyyət – biz münaqişənin nizamlanmasını belə görürük. Bu bizim hazırda üzərində işlədiyimiz və vasitəçilərin irəli sürdüyü təkliflərlə həmahəngdir. Lakin münaqişənin nəyə görə nizamlanmamasının əsas səbəbi odur ki, Ermənistan artıq 24 ildir, Minsk qrupu yaradıldığı andan danışıqlar prosesinin azacıq da olsa irəliləməsinə müxtəlif yollarla mane olur. Bizim mövqemiz belədir ki, insanlar harada yaşayırdısa, orada da yaşamalıdırlar. Çünki onlar həmin yerlərdə çoxdan yaşayırdılar – erməni əhalisi 200 il, azərbaycanlı əhali isə çox-çox əvvəl. Lakin məsələ hətta bunda da deyil. Məsələn, Şuşada əhalinin 95 faizi azərbaycanlılar idi. Onların hamısı oradan qovulub. Onların evləri ya zəbt edilib, ya da dağıdılıb. İndi onların evlərində başqaları yaşayır. Buna son qoymaq lazımdır. Dağlıq Qarabağın erməni əhalisi orada necə yaşayırdısa, qoy yaşasın, biz bunun əleyhinə deyilik. Bəs Ermənistan bu münaqişədən nə qazanıb? Bəli, 1 milyondan çox azərbaycanlıya əzab-əziyyət

verilib. Məgər onlar özləri buna görə daha da xoşbəxt olublarmı? Məgər orada vəziyyət daha təhlükəsiz, daha firavan olub? Əlbəttə, yox! Azərbaycanla münasibətlər normallaşdırılmadan bu regionda inkişaf ola bilməz, onlar daim müəyyən təzyiq altında yaşayacaqlar, fikirləşəcəklər ki, birdən nə isə ola bilər. Biz regionda sülh istəyirik və bizim mövqemiz kifayət qədər konstruktivdir. Lakin biz öz ərazilərimizi istəyirik. Ermənistan sülh istəyir, amma o, işğal etdiyi əraziləri qaytarmaq istəmir. Fərq, bax, bundadır.

**S u a l: Yəni kompromis və sülhə doğru yol bundan ibarətdir?**

**C a v a b:** Sözsüz, biz bundan artıq kompromis təqdim edə bilmərik. Artıq dediyim kimi, Azərbaycanın ərazi bütövlüyü məsələsində kompromis ola bilməz, lakin Azərbaycanın tərkibində yerli özünüidarə, Dağlıq Qarabağın özünüidarəsi məsələlərinə dair kompromis ola bilər. Əgər razılığa gəlsək, bu, gələcəkdə muxtar respublika ola bilər. Ermənistan rəhbərliyi bunu çox yaxşı bilir, sadəcə, onlar ictimai rəylə manipulyasiya edir, düşmən obrazı yaradır, danışıqlar prosesinin mahiyyətini təhrif edir, məsələni elə təqdim edirlər ki, guya Azərbaycan erməni əhalini az qala məhv etmək və ya qovmaq istəyir. Bu belə deyil.

**S u a l: Nəyə ümid etmək olar? Real danışıqların nə vaxt başlana biləcəyi barədə oriyentirlər varmı, hansısa yol xəritəsini təsəvvür etmək olarmı, indi bu iş necə görülür? Hansısa zaman mərhələlərini göstərmək olarmı?**

**C a v a b:** Bu bizdən asılı deyil. Hər şey mənim dediklərimə gəlib çıxır. Danışıqlar formatı var, danışıqlar aparılır, Ermənistan hər vasitə ilə buna mane olur. Müəyyən mərhələdə elə şərtlər irəli sürür ki, onların bizim üçün qeyri-məqbul olduğunu dəqiq bilir. Buna görə də danışıqlar yenidən «non-stop» olur. Nə üçün? Çünki həll etmək istəmirlər, ya bacarmırlar, hansısa daxili siyasi səbəblərə görə cəsarətləri çatmır, ya da istəmirlər. Bəlkə də hər iki səbəbdən. Vasitəçilər, dünyanın aparıcı ölkələri, BMT Təhlükəsizlik Şurasının daimi üzvləri bizə deyirlər: məsələni sülh yolu ilə həll etmək lazımdır.

**S u a l: ATƏT-in beynəlxalq qrupunun iştirakçı ölkəsinin Dövlət katibi Con Kerri bu yaxınlarda dedi ki, bu münaqişənin həllinin vaxtı hələ yetişməyib. Bu nə deməkdir?**

**C a v a b:** Bu, ümumiyyətlə, diplomatik kazusdur və bizim Xarici İşlər Nazirliyi də, mən də bu yersiz bəyanata artıq münasibət bildirmişik. Elə oktyabrın 7-də Nazirlər Kabinetinin iclasında bu bəyanatla bağlı yetərincə dəqiq fikir bildirdim. Mən dedim ki, münaqişənin nizamlanmamasına görə təqsiri Azərbaycanın üzərinə atmaq ən azından vicdansızlıqdır. Axı bu bəyanat ABŞ-ın mövqeyinə tamamilə ziddir. Prezident Obama Fransa və Rusiya prezidentləri ilə birlikdə bəyan edib ki, status-kvo qəbuledilməzdir. ABŞ-ın Dövlət katibi isə bəyan edir ki, o, nizamlanmanı görmür. Üstəlik, o deyir ki, bu münaqişəni həll etmək Fələstin–İsrail münaqişəsindən də çətindir. Bu nə eyhamdır və kimə ünvanlanıb? O, Ermənistana işarə edir ki, Fələstin–İsrail münaqişəsi neçə il uzanırsa, siz də bu münaqişəni o qədər uzatmalısınız? Bu tamamilə qəbuledilməz bəyanatdır. Bu bəyanat bir daha göstərir ki, münaqişə nə üçün həllini tapmayıb. Bax, buna görə. Ona görə ki, beynəlxalq təşkilatların qərarları, qətnamələri var, amma onlar yerinə yetirilmir. Təcavüzkar ölkəyə təzyiq göstərilmir, əksinə, çox vaxt təcavüzkarın dəstəklənməsi siyasəti yürüdülür. Bunu da XX əsrin tarixi yaxşı bilir, əlbəttə, həmin miqyasda olmasa da, mahiyyəti təqribən eynidir. Bax, problemimiz bundadır.

Bizə deyirlər ki, sülh yolu, yalnız və yalnız sülh yolu, sülh yolundan başqa heç nə. Biz deyirik, yaxşı, gəlin həll edək, axı bu ədalətsizlikdir. Başqa dövlətin ərazisini zəbt etmək və oradan əhalini qovmaq, həmin işğal olunmuş ərazini nəzarət altında saxlamaq bütün beynəlxalq hüquqların pozulması deməkdir. Bu gün heç kəsə sirr deyil ki, Azərbaycan Ordusu bir çox məsələlərin həlli üçün ciddi potensiala malikdir. Bizə deyirlər sülh yolu, biz deyirik, yaxşı, biz gözləyirik. Amma təcavüzkara təzyiq göstərilməsi əvəzinə biz bu cür bəyanatlar eşidirik.

**S u a l: Siz dediniz ki, Azərbaycan Ordusu böyük potensiala malikdir. Həqiqətən də Azərbaycanın aldığı silahlara, Azərbaycan Ordusunun təchizatına, onun keçdiyi**

**təlimə görə Azərbaycanın hərbi potensialı güclü təsir bağışlayır. Bu yaxınlarda belə məlumat yayıldı ki, Azərbaycan Rusiyadan başqa, daha kimdənsə silah almaq niyyətindədir. Rusiya ilə hərbi-texniki əməkdaşlıq üçün bu nə deməkdir, belə innovasiyalar nə ilə bağlıdır?**

**C a v a b:** Hə, yəqin ki, siz Pakistanın Baş nazirinin Azərbaycana sonuncu səfərini nəzərdə tutursunuz. Amma məsələ ondadır ki, biz başqa ölkələrdən də silah alırıq və bu məlumdur. Silah biznesi belədir ki, burada heç nəyi gizlətmək mümkün deyil.

**S u a l: Yəni Siz digər ölkələrin silah bazarlarından da istifadə edəcəksiniz.**

**C a v a b:** Bəli, əlbəttə. Biz Rusiya ilə yanaşı, Türkiyədən, İrandan, Belarusdan, İsraildən və bəzi digər ölkələrdən də silah alırıq. Həm də kifayət qədər ciddi. Həmçinin Pakistandan silah almaq niyyətimiz var. Nəzərə almaq lazımdır ki, Pakistanın hərbi sənayesi kifayət qədər inkişaf edib, həm də o bizə çox dost və yaxın dövlətdir. Lakin bu məsələdə bizim əsas tərəfdaşımız Rusiyadır. Əgər səhv etmirəmsə, Rusiya ilə təxminən 5 milyard dollara qədər məbləğdə müqavilələr bağlanıb və bu müqavilələrin xeyli hissəsi artıq həyata keçirilib. Yəni bu gün Azərbaycan Ordusunun silahları əsasən Rusiyadandır. Biz bu əməkdaşlıqdan razıyıq və Rusiya silahının ən ciddi, ən iri alıcılarından biriyik. Əgər digər ölkələrə baxsaq, əməkdaşlıq səviyyəsi də yaxşıdır. Bizim digər yerlərdən silah almağımıza gəldikdə isə bu, yəqin ki, təbiidir.

**S u a l: Cənab Prezident, Siz ikili standartlardan danışdınız. Biz indicə Con Kerrinin sözlərini xatırlatdıq. Bu yaxınlarda isə Siz Avropa Parlamentinin deputatları qarşısında çıxış edərkən, bu mövzuya kifayət qədər geniş toxundunuz və hazırda Qərbdə mövcud olan ikili standartları Siz də xatırlatdınız. Bu Sizin üçün nə deməkdir?**

**C a v a b:** Bilirsiniz, bizim cəmiyyətimiz bunu ədalətsizliyin, qeyri-obyektivliyin və qərəzliliyin ifrat forması kimi qəbul edir. Amma əgər məsələnin mahiyyətinə baxsaq, Azərbaycanda bütün demokratik normalar istisnasız təmin olunur. Sərbəst toplaşma

azadlığı – referendum ərəfəsində müxalifət şəhərin mərkəzində mitinqlər keçirirdi. O başqa məsələdir ki, oraya maksimum 800 adam gəlmişdi, onlar da özlərinin yaxın dostları və qohumları idi. Lakin heç bir məhdudiyyət yox idi. Bizdə mətbuat azadlığı var: yüzlərlə qəzet, jurnal, çoxlu televiziya kanalları, senzurasız azad internet. Artıq əhalimizin 75 faizdən çoxu internet istifadəçiləridir. Yəni belə şəraitdə mətbuata təzyiqdən necə söhbət gedə bilər? Bu mümkün deyil. Bizim belə bir məqsədimiz də yoxdur. Bizdə bütün azadlıqlar təmin olunur. Lakin buna baxmayaraq, Azərbaycan daim əsassız hücumlar obyektinə çevrilir. Guya bizdə demokratiya yoxdur, azadlıqlar sıxışdırılır, insan hüquqları pozulur və s. Bütün bunlar real faktlara əsaslanmayan, siyasi baxımdan məqsədyönlü hərəkətlərdir, Azərbaycana qarayaxma, təzyiq və şantaj xarakteri daşıyır.

**S u a l: Siz bunu nə ilə izah edirsiniz? Bu onların nəyinə lazımdır?**

**C a v a b:** Bunun bir neçə səbəbi var. Bunlardan ən başlıcası odur ki, Azərbaycan öz yolu ilə gedir. Biz müstəqil siyasət yürüdürük və bu siyasət heç kəsə, o cümlədən bizə bu çirkin hücumları edənlərə qarşı yönəlməyib. Bizim Avropa İttifaqına üzv ölkələrlə, ABŞ-la olduqca geniş siyasi, iqtisadi, enerji əlaqələrimiz var. Siyasi əlaqələr səviyyəsində bizim tərəfdaşlıq münasibətlərimiz mövcuddur. Lakin görünür, həmin ölkələrin müəyyən dairələrinə bu, azlıq edir, onlar daha çox istəyirlər. Bəlkə bizim etibarlı olmağımıza əmin deyillər.

**S u a l: Nə istəyirlər?**

**C a v a b:** Hər yerdə nə istəyirlərsə, burada da onu. Yəqin təlimatların yerinə yetirilməsini. Biz isə bu rola yaramırıq. Biz bu rolu özümüz üçün heç təsəvvür də edə bilmirik. Biz ləyaqətli, özünü təmin edən dövlətik. Heç kəsdən heç nə istəmirik. Bizim xarici borcumuz çox azdır, heç bir ölkə qarşısında heç bir öhdəliyimiz yoxdur. Biz əməkdaşlıq etmək istəyirik, amma işlərimizə müdaxilə olunmasını, qeyri-hökumət təşkilatları adı altında siyasi partiyaların gizli maliyyələşdirilməsini, sabitliyin pozulması, daxili işlərimizə açıq müdaxilə olunması cəhdlərini qətiyyən istəmirik.

Təbii ki, biz bu cür fəaliyyətin qarşısını almaq üçün tədbirlər görürük. Azərbaycan müstəqil suveren dövlətdir və hamıdan buna hörmətlə yanaşmağı xahiş edirik. Amma görünür, onlar daha artığını istəyirlər. Səbəblərdən biri də Qərbdə, həm də təkcə Qərbdə yox, əksər ölkələrdə mövcud olan erməni lobbi qurumları ilə əlaqədar təşkilatların daimi antiazərbaycan fəaliyyətidir. Mən istisna etmirəm ki, səbəblərdən biri bəlkə də odur ki, Azərbaycan bizi vaxtaşırı olaraq, cəlb etmək istədikləri heç bir kampaniyaya qoşulmur. Mən hətta deyərdim ki, bunlar kampaniya yox, avantüradır. Biz özümüzə sərfəli olmayan yerə getmirik. Bir də, yəqin səbəblərdən biri budur ki, bir sıra hallarda digər ölkələrə təlimatlar vermək, onları idarə etmək, istiqamətləndirmək alındığı halda, bizdə bu alınmır.

**M ü x b i r: Burada isə niyyətləri baş tutmur.**

**C a v a b:** Yəqin elədir. Mən həmişə demişəm ki, biz rəqib deyilik, əksinə, biz yalnız əməkdaşlığa can atırıq. Bizim heç bir ölkəyə qarşı mənfi niyyətimiz yoxdur. Niyə də olmalıdır? Bizim enerji sektorunda dünyanın hər yerindən – Amerikadan, İngiltərədən, Fransadan, İtaliyadan, Yaponiyadan şirkətlər işləyir. Onlar bizim tərəfdaşlarımızdır, yaxşı işgüzar münasibətlərimiz var. Biz deyirik, xahiş edirik: bizim işlərimizə qarışmayın, lazım deyil, xeyri olmayacaq. Budur, 800 nəfərlik mitinq – bizim bütün müxalifətimiz budur. Həm də onlar bütün ölkədən toplamışdılar, bir neçə gün zəngləşmişdilər, maliyyələşdirilmişdilər. Daha nə istəyirlər? Bəli, bizim ölkəmizdə hökumət əleyhinə əhval-ruhiyyə yoxdur.

**S u a l: Ölkə Konstitusiyasına dəyişikliklər edilməsi ilə bağlı bu yaxınlarda keçirilmiş referendum tənqid hədəfinə çevrildi. Bununla əlaqədar çoxları soruşur ki, prezident seçkilərinin müddəti dəyişdiriləcəkmi, Siz seçkilərə gedəcəksinizmi?**

**C a v a b:** Xeyr, bizim prezident seçkilərinin müddətini dəyişmək niyyətimiz yoxdur. Mən həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda hansı söhbətlərin getdiyini bilirəm. Belə planımız yoxdur. Mən buna ehtiyac görmürəm. Mənim iştirak edib-etməməyimə gəlincə, növbəti prezident seçkiləri 2 ildən sonra

keçirilməlidir. Hər hansı nəticə çıxarmaq, yaxud qərar qəbul etmək üçün hələ kifayət qədər vaxt var. Əgər mən bugünkü kimi, əhalinin dəstəyini hiss etsəm, onda, əlbəttə ki, bu etimadı doğrultmağa çalışacağam. Yeri gəlmişkən, referendum bir neçə nöqteyi-nəzərdən nümunəvi oldu. Əvvəla, 2016-cı il iqtisadi nöqteyi-nəzərdən Azərbaycan üçün ən ağır ildir. Baxmayaraq ki, biz 2016-cı ili yaxşı göstəricilərlə başa vurmaqdayıq. Amma əvvəlki illərlə müqayisədə bu, ən ağır ildir. Məhz bu il biz Azərbaycan əhalisinin mütləq əksəriyyətinin dəstəklədiyi referendumu keçirdik. Axı bizi tənqid etməyə çalışanlar heç bir pozuntu, heç bir saxtakarlıq tapa bilmədilər, hətta həmişə bizi tənqid edən AŞPA kimi təşkilat da müşahidə edərək, maksimum müsbət rəy bildirdi, referendumun bütün standartlara uyğun, düzgün, şəffaf keçdiyini bəyan etdilər. Cəmi 20-dən bir qədər çox şikayət var idi. Bizdə 5000 seçki məntəqəsi var və cəmi 20 şikayət daxil olub. Bax, bu bizim açıq demokratik proses aparmağımızın daha bir göstəricisidir və əlbəttə, ən başlıcası odur ki, mühüm məsələlərin çox olduğu –29 məsələnin səsə qoyulduğu bu referendum həm də hakimiyyətə etimad votumu idi. Mən buna görə Azərbaycan vətəndaşlarına çox təşəkkür edirəm. Bu bizi daha da ruhlandırır və daha çox onu göstərir ki, biz doğru yoldayıq, bundan sonra da həmin yolla gedəcəyik.

**S u a l: Cənab Prezident, mən də öz növbəmdə, bizim «Rossiya seqodnya» agentliyinə verdiyiniz dəstəyə görə Sizə minnətdaram. Bu gün Azərbaycanda və bütün dünyada «Sputnik» brendi ilə çıxış edirik. Bizim jurnalistlərin işinə nə arzulayırsınız, hansı təəssüratlarınız var?**

**C a v a b:** Çox yaxşı təəssüratlarım var. Mən Azərbaycanda işləyən əməkdaşlarınıza bizim ölkədəki hadisələri işıqlandırdıqlarına görə təşəkkürümü bildirmək istərdim. Sizin agentliyin Azərbaycanda fəaliyyətə başlaması, fikrimcə, ölkələrimiz arasında mövcud olan etimadın yüksək səviyyəsinin nəticəsidir. Çünki həmin etimad olmasaydı, bu, mümkün olmazdı. Bu həmçinin bizim üçün öz həqiqətlərimizi sizin agentlik vasitəsilə bütün dünyaya çatdırmaq imkanıdır. Çünki obyektiv olaraq, bizim

informasiya imkanlarımız Rusiyanın imkanları qədər deyil. Amma sizin vasitənizlə biz ölkəmiz haqqında daha geniş söhbət aça, öz baxışlarımızı bölüşə bilərik. Buna görə də sizin agentliyinizin fəaliyyəti çox vacibdir. Şadam ki, siz burada işləyirsiniz. Əminəm ki, sizin agentliyiniz gələcəkdə də bizim ölkəmizin gerçəkliklərini indiki kimi obyektiv işıqlandıracaq.

**S u a l: Nəhayət, sonuncu sual. İndi dünyanın bir çox ölkəsi Rusiya Prezidentini iblis kimi qələmə verir: nə bilim, cizgi filmlərindən tutmuş, cürbəcür uydurmalara qədər, bütöv texnologiya işlənib və buna yönəlib. Siz Vladimir Vladimiroviç Putinlə sadəcə, tanış yox, həm də bildiyimə görə, onunla müntəzəm əlaqə saxlayan və öz siyasətini Rusiya siyasəti ilə razılaşdıran şəxslərdən birisiniz. Öz növbəsində, Rusiya da öz siyasətini Azərbaycanla razılaşdırır. Elə bizim ölkələrimiz arasında və şəxsən sizin aranızda dünyada çox ehtiyac duyulan dialoq var. Bir çox digər ölkələr arasında sadəcə, elə bu çatışmır. Həm də Siz onunla çox mürəkkəb və münaqişəli mövzular barədə söhbət edirsiniz. Sizin prezident Putinlə şəxsi münasibətləriniz necədir və Siz onun necə insan olması barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Vladimir Vladimiroviçlə şəxsi münasibətlərim çox yaxşıdır, deyərdim ki, etimada əsaslanan yoldaşlıq münasibətləridir. Biz kifayət qədər çoxdan tanışıq. Mən onun Rusiya Prezidenti kimi, Azərbaycana ilk dəfə gəlişini xatırlayıram. Bu, 2001-ci ildə olmuşdu. Yeri gəlmişkən, bu, Rusiya Prezidentinin Azərbaycana ilk rəsmi səfəri idi. SSRİ dağıldıqdan sonra Vladimir Vladimiroviçə qədər 10 il ərzində Rusiya Prezidenti bir dəfə də olsun Azərbaycana gəlməmişdi. Bu səfər müstəsna əhəmiyyətə malik idi. O, müharibədə həlak olanların məzarlarını, Şəhidlər xiyabanını ziyarət etdi. Bu da Azərbaycan ictimaiyyəti tərəfindən çox müsbət qarşılandı. Mən onun atam Heydər Əliyevlə keçirdiyi görüşlərdə də qismən iştirak edirdim. Onların arasında bildiyiniz kimi, yaxın münasibətlər var idi. Onlar əvvəlki işdə həmkar idilər, bir-birinə çox hörmətlə yanaşırdılar, lakin sonra mən prezident

olanda bizim əlaqələrimiz müntəzəm xarakter daşımağa başladı. Dediyim kimi, münasibətlərimiz qarşılıqlı etimada əsaslanır.

Sizə bir misal çəkim: son 3 ildə Rusiya Prezidenti Azərbaycana 3 dəfə səfər edib. Bunun özü çox mətləbdən xəbər verir. Lakin onun bir səfəri xüsusilə mühümdür – 2015-ci ildəki səfər. Onun nə vaxt gəldiyini deyən kimi, siz başa düşəcəksiniz. Bu, iyunun 12-də olmuşdu. «Rusiya Günü» ilə bağlı tədbirlərdən sonra o, təyyarəyə minərək, Bakıya gəldi və Avropa ölkələri liderlərinin əksəriyyətinin, bizdə olan məlumata görə, müvafiq təlimatlar alaraq, etinasızlıq göstərdikləri Avropa oyunlarının açılışına özünü çatdırdı. Bu faktın özü, həm də «Rusiya Günü»ndə gəlməsi onun Azərbaycana və bizim Rusiyaya xüsusi münasibətimizdən xəbər verir. Onun son səfəri avqustda olub: biz rəsmi görüşlərdən sonra bir neçə saat səmimi söhbət etdik. Bir insan kimi, o, böyük hörmətə layiqdir. Mən bunu sizə tamamilə səmimi deyirəm. Mən ona çox böyük hörmət bəsləyirəm, o, olduqca yüksək şəxsi keyfiyyətlərə malik, layiqli insandır. O çox səmimi insandır, həmişə sözünün üstündə durur. O, böyük ölkənin, iki super dövlətdən birinin rəhbəridir, lakin bununla belə, ünsiyyətdə çox sadə və çox səmimidir. Onunla işləmək mənim üçün çox rahat və asandır. Demək istəyirəm ki, Rusiyanın da, elə onun bütün dostlarının da bəxti çox gətirib. Belə ki, mən sizin proqramınız vasitəsilə, xüsusilə indi Prezidentə uğurlar arzulamaq istəyirəm. Mən bilirəm ki, bütün təzyiqlər və hücumlar ondan yan keçir. Buna görə də onların heç bir səmərəsi yoxdur və olmayacaq.

**M ü x b i r: Cənab Prezident, bu çox müfəssəl və açıq müsahibəyə görə Sizə təşəkkür edirəm.**

**İ l h a m Ə l i y e v:** Sağ olun.

## TÜRKİYƏ RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ERKAN ÖZORAL İLƏ GÖRÜŞ

*20 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Türkiyə Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Erkan Özoralın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Erkan Özoral Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Erkan Özoral etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Erkan Özoralın ölkəmizdə əvvəllər fəaliyyət göstərməsindən və bu dəfə Azərbaycanda səfir kimi fəaliyyətə başlamasından məmnun olduğunu bildirən dövlətimizin başçısı onun Azərbaycan–Türkiyə ikitərəfli münasibətlərinin gələcək inkişafı üçün səylərini əsirgəməyəcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla İstanbulda keçirilən Dünya Enerji Sammitində görüşünü məmnunluqla xatırlatdı. Tarixi bağlılıq və bugünkü reallıq baxımından dünya miqyasında Azərbaycan ilə Türkiyənin bir-birinə ən yaxın ölkələr olduğunu vurğulayan dövlətimizin başçısı bildirdi ki, bizim işimiz bu əlaqələri həm beynəlxalq müstəvidə, həm də ikitərəfli formatda daha da inkişaf etdirmək və bu birliyi daha da möhkəmləndirməkdən ibarətdir.*

*Türkiyə Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Erkan Özoral öz növbəsində, Türkiyə ilə Azərbaycan arasında çox gözəl münasibətlərin olduğunu vurğulayaraq, bu münasibətlərin strateji əməkdaşlıq xarakteri daşıdığını və qardaşlıq əlaqələrinə əsaslandığını dedi. O, Türkiyədə 15 iyul dövlət çevrilişinə cəhd zamanı ölkəsinə verdiyi dəstəyə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Səfir ölkəsinin*

*Azərbaycan ilə qardaşlıq əlaqələrinin hər zaman daha yüksək səviyyəyə qaldırılması üçün çalışdığını qeyd etdi. Türkiyəli diplomat Azərbaycanda səfir kimi fəaliyyətə başlamasından şərəf hissi keçirdiyini dedi və əlaqələrimizin bundan sonra daha da möhkəmləndirilməsi işində səylərini əsirgəməyəcəyini bildirdi.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən nəqliyyat, turizm, inşaat, kənd təsərrüfatı, səhiyyə və digər sahələrdə daha da inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# VENESUELA BOLİVAR RESPUBLİKASININ PREZİDENTİ NİKOLAS MADURONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*22 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduronun oktyabrın 22-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Venesuela Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduronu qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Venesuela Prezidentinə raport verdi.*

*Venesuelanın və Azərbaycanın Dövlət himnləri səsləndirildi.*

*Prezident İlham Əliyev və prezident Nikolas Maduro Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Venesuela Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Nikolas Maduroya, Venesuela nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim edildi.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.*

*Azərbaycan prezidenti İlham Əliyev və Venesuela prezidenti Nikolas Maduro rəsmi foto çəkdirdilər.*

## VENESUELA BOLİVAR RESPUBLİKASININ PREZİDENTİ NİKOLAS MADURO İLƏ GÖRÜŞ

*22 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev Venesuela Prezidentinin Azərbaycana səfərinin ikitərəfli əməkdaşlığın genişləndirilməsi və ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə inkişafı üçün yaxşı imkanlar yaratdığını vurğuladı.*

*Venesuela prezidenti Nikolas Maduro Azərbaycana səfərinin ikitərəfli əlaqələrin inkişafına yol açacağını dedi. O bunun hər iki ölkənin regionları üçün əhəmiyyətli olduğunu bildirdi.*

*Görüşdə ticarət, investisiya qoyuluşu, energetika sahələrində əməkdaşlıq əlaqələrinin araşdırılması barədə fikir mübadiləsi aparıldı.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Venesuela Prezidentinə məlumat verdi. Dövlətimizin başçısı münaqişənin beynəlxalq hüququn normaları çərçivəsində həllinin vacibliyini vurğuladı.*

*Söhbət zamanı dünya bazarında neftin qiymətinin sabitləşdirilməsi baxımından OPEC-ə üzv və üzv olmayan ölkələr arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Görüşdə beynəlxalq təşkilatlar, o cümlədən «Qoşulmama Hərəkatı» çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olundu.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*22 oktyabr 2016-cı il*

*Məhdud tərkibdə görüş başa çatdıqdan sonra oktyabrın 22-də Azərbaycan–Venesuela sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan Respublikası Prezidentinin və Venesuela Bolivar Respublikası Prezidentinin Birgə Bəyannaməsini Azərbaycan prezidenti İlham Əliyev və Venesuela prezidenti Nikolas Maduro imzaladılar.*

*«Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Venesuela Bolivar Respublikasının Xarici İşlər üzrə Xalq Hakimiyyəti Nazirliyi arasında siyasi məsləhətləşmələr mexanizminin yaradılması haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Venesuelanın siyasi məsələlər üzrə vitse-prezidenti, Xarici İşlər üzrə Xalq Hakimiyyəti naziri Delsi Rodrigez Qomes imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Venesuela Bolivar Respublikası Hökuməti arasında diplomatik, xidməti və rəsmi pasportlara malik şəxslərin viza tələbindən azad edilməsi haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Venesuelanın siyasi məsələlər üzrə vitse-prezidenti, Xarici İşlər üzrə Xalq Hakimiyyəti naziri Delsi Rodrigez Qomes imzaladılar.*

## VENESUELA BOLİVAR RESPUBLİKASININ PREZİDENTİ NİKOLAS MADURO İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*22 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro oktyabrın 22-də sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz! Biz Sizinlə bu ayın 10-da İstanbulda Dünya Enerji Konqresində görüşmüşdük. Bu bizim birinci görüşümüz idi. Mən Sizi Azərbaycana dəvət etdim. Çox şadam ki, Siz qısa bir müddətdən sonra ölkəmizə səfər edirsiniz.

Bu səfərin çox böyük əhəmiyyəti var. Əminəm ki, səfər Venesuela–Azərbaycan əlaqələrinin inkişafı üçün çox mühüm rol oynayacaq. Biz istəyirik ki, əlaqələrimizi genişləndirək. Biz istəyirik ki, ikitərəfli formatda çox etibarlı tərəfdaşlıq yaransın. Əminəm ki, buna nail olacağıq. Bizim bugünkü görüşümüzün xüsusi mənası var. Tarixdə ilk dəfədir ki, Venesuela Prezidenti Azərbaycana rəsmi səfərə gəlib. Bu səfərin tarixdə çox böyük rolu olacaq.

Bu gün 3 sənəd imzalandı. Onların arasında, əlbəttə ki, Birgə Bəyannaməni xüsusilə qeyd etmək istəyirəm. Bu çox sanballı və dəyərli bir sənəddir. Birgə Bəyannamədə bizim niyyətimiz ifadə olunur. Biz planlarımız haqqında öz niyyətimizi ifadə edirik. Birgə Bəyannamədə gələcək əməkdaşlıq üçün əsas istiqamətlər müəyyən

edilir – siyasi əlaqələrin inkişafı, iqtisadi sahədə əməkdaşlıq, sərmayə qoyuluşu, energetika sahəsində əməkdaşlıq, nəqliyyat, elm, təhsil, ətraf mühitin qorunması. Bu sənəddə, demək olar ki, bütün əsas istiqamətlər öz əksini tapır.

Birgə Bəyannamədə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müddəaları xüsusilə qeyd etmək istərdim. Bu Bəyannamədə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı əsasında həll olunması qeyd edilir. Bu ədalətli mövqeyə görə, cənab Prezident, Sizə öz minnətdarlığımı bildirmək istəyirəm. Əlavə etmək istəyirəm, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, əfsuslar olsun ki, 20 ildən çoxdur davam edir. Bizim beynəlxalq birlik tərəfindən tanınan ərazimizin bir hissəsi işğal altına düşüb. Torpaqlarımızın 20 faizi Ermənistanın işğalı altındadır. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşüb. Bütün əsas beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini birmənalı şəkildə dəstəkləyir. Onların arasında, əlbəttə ki, BMT-ni xüsusilə qeyd etmək istərdim. BMT-nin həm Baş Məclisi, həm də Təhlükəsizlik Şurası dəfələrlə qətnamələr qəbul edib. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edibdir. Bu qətnamələrdə açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan qeyd-şərtsiz və dərhal çıxarılmalıdır. Əfsuslar olsun ki, bu günə qədər bu qətnamələr icra edilmir.

Digər beynəlxalq təşkilatlar – İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası, ATƏT, «Qoşulmama Hərəkatı» oxşar qərar və qətnamələr qəbul ediblər. «Qoşulmama Hərəkatı»nın qətnaməsini xüsusilə qeyd etmək istərdim. Çünki biz «Qoşulmama Hərəkatı»na yeni üzv olmuşuq. Yəni «Qoşulmama Hərəkatı» bizi bir neçə il bundan əvvəl öz ailəsinə qəbul edib və buna görə Sizə minnətdaram. «Qoşulmama Hərəkatı» Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həmişə birmənalı mövqe göstərir və münaqişənin ölkəmizin ərazi bütövlüyü əsasında həllini tələb edir.

Söz düşmüşkən, bu yaxınlarda – sentyabr ayında Venesuelada «Qoşulmama Hərəkatı»nın Zirvə görüşünün uğurla keçirilməsi münasibətilə Sizi təbrik etmək istəyirəm. Azərbaycan da bu tədbirdə fəal iştirak edib. Biz bu təşkilatdakı fəaliyyətimizə xüsusi önəm veririk.

Biz bu gün ticarət əlaqələrinin inkişafı ilə bağlı fikir mübadiləsi apardıq. Qərara gəldik ki, müvafiq qurumlar hər iki ölkənin ixrac imkanlarını öyrənsin və ticarət dövriyyəsinin artırılması üçün əlavə tədbirlər görülsün. Venesuelada istehsal və ixrac olunan bəzi malları biz idxal edə bilərik. Həmçinin bizim istehsal etdiyimiz mallar Venesuelaya ixrac edilə bilər. Beləliklə, biz qarşılıqlı ticarətə də dəstəyimizi vermiş olarıq.

Biz sərmayə qoyuluşu ilə bağlı həm İstanbulda, həm də bu gün fikir mübadiləsi apardıq. Burada da çox gözəl imkanlar var. Sadəcə olaraq, bizim biznes qurumlarımız müəyyən dərəcədə məlumatsızdırlar. Yəni nə Azərbaycanın, nə də Venesuelanın iş adamları geniş bilgilərə malik deyillər ki, bizim ölkələrdə hansı imkanlar var, hansı işi görə bilərlər. Bu boşluğu aradan götürmək üçün, əlbəttə, ticarət missiyalarının qarşılıqlı səfərləri də çox müsbət rol oynaya bilər.

Bu gün biz cənab Prezidentlə çox geniş və səmimi şəkildə dünyanın enerji bazarında mövcud olan vəziyyəti müzakirə və təhlil etdik. Mən prezident Maduronun bu sahədə gördüyü işləri, göstərdiyi səyləri yüksək qiymətləndirirəm. Prezident Maduro regiona səfər edir. Bu turda neft hasil edən bir neçə ölkəyə səfər edəcəkdir. Birinci ölkə isə Azərbaycandır. Mən cənab Prezidentə dedim və eyni zamanda, Azərbaycan ictimaiyyəti bunu bilir. Mən bu yaxınlarda rəsmi qaydada bildirdim ki, dünyanın neft bazarının tənzimlənməsi, sabitləşdirilməsi və neftin qiymətinin qalxması üçün Azərbaycan öz neft hasilatını və ixracını artırmayacağını birtərəfli qaydada bəyan edir. Bu çox məsuliyyətli bir mövqedir. Bir daha demək istəyirəm ki, biz bunu birtərəfli qaydada elan edirik. Hesab edirik ki, digər neft ölkələri bu yanaşmaya dəstək verəcək və onlar da öz növbəsində, oxşar addımlar atacaqlar. Biz neft bazarını ancaq bu təqdirdə sabitləşdirə bilərik. Neftlə zəngin

olan ölkələr artıq öz təbii resurslarına görə ədalətli qiyməti də alacaq.

Əlbəttə, burada ölkələrarası koordinasiya işlərinə gərək bütün ölkələr çox diqqətlə yanaşsınlar, xüsusilə OPEC ölkələri və müstəqil hasilatçılar. OPEC-ə üzv olmayan ölkələr burada çox səmimi, açıq əməkdaşlıq etməlidirlər, birgə düzgün qərarlar qəbul olunmalıdır və qərarların icrası ilə bağlı çox güclü nəzarət mexanizmi işlənməlidir. Əgər bu olarsa, əminəm ki, yaxın gələcəkdə neftin qiyməti lazımi səviyyəyə qalxmalıdır. O səviyyəyə ki, həm hasilatçı ölkələri, neft kompaniyalarını, həm də istehlakçı ölkələri də qane etsin. Yəni burada balans olmalıdır. Bu gün bu balans pozulub və neftlə zəngin ölkələr böyük əziyyət çəkirlər. Bu ədalətsizlikdir və bu balans bərpa edilməlidir. Əminəm ki, belə olarsa, hər kəs ancaq mənfəət götürə və burada maraqlar balansı da təmin edilə bilər. Çünki artıq 2 ilə yaxındır ki, dünya bazarlarına neft ixrac edən ölkələr böyük itkilərlə üzləşir. O ölkələrin, o cümlədən Azərbaycanın gəlirləri azalır və bu, ədalətli deyil. Bu ədalət bərpa edilməlidir. Mən bu münasibətlə prezident Maduronun bu xüsusi missiyasını bir daha qeyd etmək istəyirəm. Prezident Maduro çox böyük səylər göstərir ki, OPEC və qeyri-OPEC hasilatçılarını bu ədalətin bərpa edilməsinə inandırsın. Mən bu missiyaya uğurlar arzulayıram. Azərbaycan artıq öz sözünü deyib. Siz bizə istinad edə bilərsiniz ki, artıq Azərbaycan bu öhdəliyi öz üzərinə götürüb və gözləyirik ki, digər ölkələr də oxşar addımlar atsınlar.

Bir daha qeyd etməliyəm ki, bu səfərin çox böyük əhəmiyyəti var. Bu gün Venesuela–Azərbaycan əlaqələrinin tarixində yeni səhifə açılır. Biz diplomatik əlaqələri 21 il bundan əvvəl qurmuşuq. Ancaq əlaqələrimizin fəal dövrü bu ildən başlanır. Əminəm ki, qarşılıqlı maraqlara, bir-birinə hörmətə əsaslanan bu əlaqələr yaxşı inkişaf edəcək, xalqlarımız bir-birinə daha yaxın olacaq və ölkələrimiz beynəlxalq arenalarda da həmişə bir-birinə dəstək verəcəkdir.

Cənab Prezident, xoş gəlmisiniz, bir daha Sizə uğurlar arzulayıram!

### Venesuela prezidenti Nikolas Maduronun bəyanatı

Hörmətli cənab Prezident!

Azərbaycan hökumətinin nazirləri!

İqtisadi məsələlər üzrə vitse-prezident!

Suverenlik, təhlükəsizlik və siyasi məsələlər üzrə xanım vitse-prezident, səfir!

Biz dünən axşam 15 saatlıq uçuşdan sonra gəlmişik. Amma bu yol bizə uzaq görünmədi.

XXI əsr davam etdikcə biz bir-birimizə get-gedə daha da yaxınlaşırıq. Bu ana qədər hörmətə və dostluğa əsaslanaraq, nümayəndə heyətimizi çox səmimiyyətlə qarşıladınız. Belə səmimi qəbula görə Sizə olduqca minnətdarıq, cənab Prezident.

Bakıda gəzintiyə çıxdıq. Əfsanəvi Xəzər dənizi çox gözəldir. Şəhər çox möhtəşəmdir. Azərbaycan xalqının qəhrəman şəhidlərinin xatirəsini yad etdik. Siz Vətən üçün həyatından keçmiş oğul və qızlarınızın adını uca tutursunuz, dəyərlərinizə sadiqsiniz. Biz bunun şahidi olduq. Simon Bolivarın, prezident Çavesin irsinə bağlı insanlar kimi, biz ölkənizə vurulduq, səmimi qəbula görə təşəkkür edirik.

Prezidentlə çox maraqlı və əhatəli müzakirələrimiz oldu. «Qoşulmama Hərəkatı»nda tərəfdaşıq. 3 ildən sonra – 2019-cu ildə yenidən buraya, Azərbaycana səfər edəcəyik. Əlbəttə, həmin vaxta qədər çox səfərlərimiz olacaq. Lakin 2019-cu ildə Bakıda «Qoşulmama Hərəkatı»nın Sammiti keçiriləcək. Şəhərin gözəlliyini nəzərə alaraq, bilirik ki, bu Zirvə görüşü çox uğurlu olacaq. Marqarita adasında keçirilmiş toplantıda «Qoşulmama Hərəkatı» daxilində daha fəal olmaq, yeni əlaqələr, yəni ölkələrimiz arasında mədəniyyət, humanitar, iqtisadi sahələrdə əsl dərin münasibətlər qurmaq qərarına gəlmişik.

Hazırda ölkəmiz üçillik müddət ərzində təşkilatın sədridir. Azərbaycan isə 2019–2022-ci illərdə təşkilatın sədri olacaq. Buna görə də həmrəyliyin qurulmasında ümumi məsuliyyət daşıyırıq. Biz dünyanın inkişaf edən ölkələriyik. XXI əsr bizim əsrimizdir.

Bu əsr ərzində mədəniyyətlərimiz, dəyərlərimiz, sülh və inkişaf şəraitində yaşamaq arzumuz hamıya məlum olacaq. 500 il ərzində bir-birimizi tanımamışıq. Lakin bundan sonra bir-birimizi tanıyacağıq. Bakı və Karakas, inkişaf edən iki dövlətimiz inkişafda olan digər ölkələrlə yanaşı, bəyan etmək istəyirik ki, biz xalqlarımız üçün sülh və rifah arzu edirik. Məhz bu məqsəd üçün çalışırıq. Xalqlarımızın xoşbəxtliyi üçün əlaqələr qururuq. İqtisadi sahədə bir sıra tədbirlərin görülməsi ilə bağlı razılığa gəldik. İqtisadi məsələlər üzrə vitse-prezident buradadır. Yaxın vaxtlarda Xarici Ticarət və Sərmayələr naziri Xesus Farias ticari münasibətlərin stimullaşdırılması, təmasların qurulması və məlumat mübadiləsi istiqamətində zəruri addımların atılması üçün Bakıya səfər edəcək.

Bizim iki güclü neft şirkətimiz iqtisadi, maliyyə, texnoloji, ticari və praktiki mübadilələr üçün yaxın vaxtlarda əməkdaşlığa başlayacaq. Prezident Əliyev bildirmişdir ki, Azərbaycan neftinin 95 faizi dənizdə hasil olunur. Bu, Venesuela üçün lazım olan zəngin təcrübədir. Texniki mütəxəssislərimiz təkmilləşə, dövlətlərimiz və şirkətlərimiz arasında enerji sahəsində münasibətlər daha da dərinləşə bilər.

İstanbulda qeyd etdiyimiz kimi, biz kənd təsərrüfatı sahəsində irəliləyiş əldə edə bilərik. Mən Pablo Peres Alfonsoya istinad etmək istərdim. Həmin müdrik adam OPEC-in yaradıcılarından biridir. XX əsrin əvvəlində o belə bir nəticəyə gəldi ki, neft bəla da gətirir və Venesuelada iqtisadiyyatımızın şaxələndirilməsinin qarşısını alır. XIX əsrin sonunda – XX əsrin əvvəllərində Venesuelada bu cür sistem quruldu. Ölkə 1922–1970-ci illər ərzində çox böyük həcmdə neft hasil və ixrac edirdi. Bakı həmin vaxt Hitleri məğlub etmək məqsədilə sovet ordusunu neftlə təmin edirdi. Biz isə Amerika və Avropanın birləşmiş silahlı qüvvələrinə Avropa cəbhəsində neft verirdik. Bu faktı biz yaxın zamanlarda müəyyən etmişik. Venesuelada həmin zaman «neft gəlirlərinə» əsaslanan sistem qurulmuşdu. Lakin həmin sistem artıq çoxdan çöküb. Bu səbəbdən biz iqtisadiyyatımızın şaxələndirilməsi üçün yeni inkişaf sahələrini müəyyən etdik. Bu, böyük səylər,

texnologiyalar tələb edir. Neft hasil edən ölkə olaraq, mən iqtisadiyyatlarımızın şaxələndirilməsində təcrübə mübadiləsi vasitəsilə bu səylərin birgə göstərilməsini Prezidentə təklif etdim.

Biz həmçinin OPEC və qeyri-OPEC ölkələri arasında razılaşma haqqında danışdıq. Bu razılaşmanın əldə olunmasına, yekun sazişin imzalanmasına çox yaxınıq. Bu, neft bazarında sabitliyin bərqərar olunması mərhələsi, real qiymətin qurulması üçün elan edilə bilər. İstanbulda da Prezident bildirdi ki, neft sənayesi üçün dünyada ədalətli və real qiymətlər olmalıdır. Son 2 ildə dünyanın neft sərmayələri üzrə rəsmi statistikası ilə tanış olmuşuq. Son 45 illik müddəti götürsək, axırıncı 22 ay ərzində neftin ən aşağı qiymətlərini müşahidə etdik. Proses 2014-cü ilin oktyabrından başlandı. Həmin vaxt neft sərmayəsi dünya miqyasında 700 milyarddan 520 milyarda düşmüşdü. Qarşımızda duran sual ondan ibarətdir ki, 1 barrelin 20–30 dollara olması dünya iqtisadiyyatı və sabitliyi üçün məqbuldurmu? Neft sektorunda sərmayələr artıq kifayət deyil. Halbuki bəzi illərdə neftin qiyməti 150 dollar təşkil edib. Bu, düzgün deyil. Nail olmağa çalışdığımız razılaşma OPEC ilə qeyri-OPEC ölkələri arasında siyasi iradə tələb edir. Azərbaycanı da buraya aid etmək olar. Biz həmin sazişə çox yaxınıq. Çox nikbin baxıram ki, bu razılaşma lap yaxın vaxtlarda əldə olunacaq və elan ediləcək. Bu, sabitlik və sərmayələr, gəlirlər və rifah, sabit hasilat və neftin qiymətinin yeni düstur dövrünə yol açacaq. Bu, OPEC və qeyri-OPEC ölkələri arasındakı razılaşmaya söykənəcək. Bir sözlə, Azərbaycandan başladığımız bu səfər çox uğurlu olacaq. Mən Prezidentə verdiyi məsləhətə, rəyə və nümayiş etdirdiyi iradəyə görə bir daha minnətdaram. Ümid edirəm ki, gələn günlər ərzində səfərimizi uğurla davam etdirəcəyik. Əməkdaşlığımız nəinki «Qoşulmama Hərəkatı» daxilində, o cümlədən dünyada sülhün bərqərar olunması naminə davam edəcək.

Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin həyata keçirilməsi məsələlərində iradəmizə, dəstəyimizə hər zaman arxalana bilər. Biz bir çox dünya ölkələrinin dəstəyi ilə Təhlükəsizlik Şurasına üzv seçilmişik. Təhlükəsizlik Şurasının

daxilində əlimizdən gələni edəcəyik ki, beynəlxalq hüquq tətbiq olunsun. Azərbaycan öz milli maraqlarının qorunmasında çox aydın fəaliyyət göstərib. Venesuela Sizin yeni, etibarlı dostunuzdur. Cənab Prezident, Venesuela xalqının, dövlətinin, vətənimiz Bolivarın adından bir daha bildirirəm ki, bizə arxalana bilərsiniz. Biz dostuq. Bir-birimizə etibar edirik. Dövlətlərimizin rifahını və dünyada sülhü təmin etmək əzmindəyik.

Çox sağ olun.

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ CEYMS UORLİK, İQOR POPOV, PYER ANDRE VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ ANJİ KASPRŞİK İLƏ GÖRÜŞ

*23 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də ATƏT-in Minsk qrupunun həmsədrləri Ceyms Uorliki, İqor Popovu, Pyer Andreni və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**AVSTRİYA RESPUBLİKASI MİLLİ ŞURASININ SƏDRİ XANIM DORİS BURESƏ**

Hörmətli xanım Sədr!

Avstriya Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Avstriya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 oktyabr 2016-cı il*

## TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA

Hörmətli Qurbanqulu Məlikquliyeviç!

Türkmənistanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərinin, qarşılıqlı faydalı əməkdaşlığın inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Türkmənistan xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 oktyabr 2016-cı il*

## XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM KOLİNDA QRABAR-KİTAROVİÇİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*24 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin oktyabrın 24-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Xorvatiya Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçi qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Xorvatiya Prezidentinə raport verdi.*

*Xorvatiyanın və Azərbaycanın Dövlət himnləri səsləndirildi.*

*Prezident İlham Əliyev və prezident Kolinda Qrabar-Kitaroviç Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Xorvatiya Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Kolinda Qrabar-Kitaroviçə, Xorvatiya nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim edildi.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.*

*Azərbaycan prezidenti İlham Əliyev və Xorvatiya prezidenti xanım Kolinda Qrabar-Kitaroviç rəsmi foto çəkdirdilər.*

# XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ KOLİNDA QRABAR-KİTAROVİÇ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*24 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə oktyabrın 24-də rəsmi qarşılanma mərasimindən sonra təkbətək görüşü keçirilmişdir.*

*Görüşdə Xorvatiya Prezidentinin Azərbaycana səfərinin əhəmiyyəti vurğulandı. Dövlətimizin başçısı bu ilin əvvəlində Londonda keçirilən «Suriyaya və regiona dəstək» konfransı çərçivəsində prezident Kolinda Qrabar-Kitaroviç ilə görüşünü və Xorvatiyaya səfərlərini xatırlatdı, ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin yüksək səviyyədə olduğunu dedi.*

*Azərbaycana səfər etməkdən məmnunluğunu bildirən Xorvatiya Prezidenti səfər çərçivəsində keçiriləcək biznes-forumun önəmini vurğuladı. Prezident Kolinda Qrabar-Kitaroviç Xorvatiya şirkətlərinin Azərbaycanda fəaliyyət göstərməkdə maraqlı olduqlarını qeyd etdi.*

*Söhbət zamanı ikitərəfli əlaqələrin müxtəlif sahələrdə genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi. Münasibətlərimizin bundan sonra da inkişaf etdiriləcəyinə əminlik ifadə olundu.*

*Görüşdə ikitərəfli və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*24 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə oktyabrın 24-də təkbətək görüş başa çatdıqdan sonra geniş tərkibdə görüşü keçirilmişdir.*

**İlham Əliyev:** Xanım Prezident!

Əziz qonaqlar!

Azərbaycana xoş gəlmisiniz! Sizi ölkəmizdə görməyə şadıq. Xorvatiya Prezidentinin ölkəmizə səfəri böyük əhəmiyyət kəsb edir. Bizim bir qədər əvvəl ikitərəfli, regional və təhlükəsizliklə bağlı məsələlər barədə fikir mübadiləsi aparmaq imkanımız oldu. Gördüyümüz kimi, mövqelərimiz üst-üstə düşür. Biz ikitərəfli əməkdaşlığı inkişaf etdirmək istəyirik. İndi bunun üçün yaxşı imkan var. Bizim müxtəlif sahələrdə yaxın siyasi əlaqələrimiz var. Xanım Prezidentin səfəri bunu bir daha nümayiş etdirir. Sabah biznes dairələrinin çox maraqlı toplantısı keçiriləcək. Biz ticarət mübadiləsinin səviyyəsini və investisiyaları necə artıra biləcəyimizə və digər imkanlara nəzər salmalıyıq.

Əlbəttə ki, enerji sahəsində əməkdaşlıq olduqca böyük əhəmiyyət kəsb edir. Biz cədvəl üzrə icra edilməkdə olan «Cənub Qaz Dəhlizi»ndə tərəfdaşıq. Bizim çox geniş gündəliyimiz var. Əlbəttə ki, Xorvatiyanın mühüm rol oynadığı Avropa İttifaqı–Azərbaycan əməkdaşlığı var və biz bu istiqamətdə və bütün digər sahələrdə daha çox irəliləyiş görmək istəyirik.

Düşünürəm ki, ölkələrimiz bir sıra sahələrdə çox yaxın tərəfdaşlıq əlaqələri qurublar. Biz xüsusilə ticarət, iqtisadi inkişaf, şirkətlər arasında əlaqə sahələrində daha nələr edə biləcəyimizə nəzər salmalıyıq. Çünki qeyd etdiyim kimi, siyasi əlaqələr çox yaxşıdır və Sizin səfərinizdən sonra daha da yaxşı olacaq. Mən

əminəm ki, səfər çox uğurlu keçəcək və dostluq əlaqələrimizin inkişafında daha bir mühüm addım olacaq.

Xanım Prezident, bir daha xoş gəlmisiniz!

**Kolinda Qrabar-Kitaroviç:** Təşəkkür edirəm, cənab Prezident. Bu səhər burada olmaqdan çox məmnunuq. Çox səmimi qarşılanmaya görə təşəkkür edirəm.

Bizim artıq ötən gecə Bakıda və Azərbaycanın digər yerlərində yaşayan Xorvatiya icmasının üzvləri ilə görüşmək imkanımız oldu. Mən şadam ki, milli futbol komandanızın baş məşqçisi Prosineçki ilə yanaşı, xüsusilə iqtisadi sektorda, əczaçılıq, həmçinin nəqliyyat, mühəndislik və digər sahələrdə çalışan bir çox başqa insanlar var.

Sizin 2013-cü ildə Zaqrebə səfərinizdən və bu il Suriya ilə bağlı Londonda keçirilən konfrans çərçivəsində görüşümüzdən sonra bu gün əlaqələrimizi daha da inkişaf etdirməklə bağlı müzakirələr aparmaq üçün yaxşı imkan var.

Cənab Prezident, qeyd etdiyiniz kimi, bizim aramızda açıq qalan məsələlər yoxdur. Siyasi əlaqələrimiz çox yaxşıdır. Lakin bu əlaqələri inkişaf etdirmək üçün daha çox imkanlar var. Xüsusilə iqtisadiyyat, mübadilə, investisiya və ticarət sahələrində əməkdaşlığımızı, həmçinin xalqlar arasında, mədəniyyət, təhsil, müdafiə və təhlükəsizlik sahələrində əlaqələri və bizim hamımıza təsir edən regional və qlobal təhlükəsizliklə bağlı hərtərəfli əməkdaşlığı, əlaqələndirməni və məsləhətləşmələri dərinləşdirmək və genişləndirmək üçün çoxlu imkanlar var. İki ölkə arasında strateji tərəfdaşlıq və dostluqla bağlı Zaqreb Bəyannaməsinin imzalanmasından sonra düşünürəm ki, hökumətlərarası birgə Komissiyanın görüşüb hərtərəfli əməkdaşlığa, daha çox irəliləyişə nail olmağın təfərrüatları ilə bağlı müzakirələr aparması baxımından atılmalı olan konkret addımlar var.

* * *

*Görüşdə iqtisadi, yüksək texnologiyalar, ticarət dövriyyəsinin genişləndirilməsi, gəmiqayırma, nəqliyyat, enerji, kənd təsərrüfatı, ərzaq sənayesi, turizm, əczaçılıq sahələrində əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə Xorvatiya Prezidentinə məlumat verdi.*

*Prezident Kolinda Qrabar-Kitaroviç Xorvatiyanın Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini bir daha ifadə etdi.*

*Söhbət zamanı Azərbaycan–Xorvatiya əlaqələrinin Azərbaycan–Avropa İttifaqı əməkdaşlığı çərçivəsində önəmi qeyd olundu.*

# XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ KOLİNDA QRABAR-KİTAROVİÇ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*24 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç oktyabrın 24-də mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Xanım Prezident!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Xanım Prezident, bir daha Sizi ölkəmizdə salamlamaq istərdim. Çox şadam ki, dəvətimi qəbul edib Azərbaycana rəsmi səfərə gəlmisiniz. İlin əvvəlində Londonda keçirilən konfrans zamanı bizim ikitərəfli məsələləri müzakirə etmək imkanımız oldu. Bu gün biz qarşılıqlı maraq kəsb edən mühüm ikitərəfli, regional, təhlükəsizlik, əməkdaşlıq, ticarətlə bağlı məsələlər barədə geniş müzakirələr apardıq. Düşünürəm ki, bizim aramızda əməkdaşlığı inkişaf etdirməklə bağlı çox yüksək səviyyədə qarşılıqlı anlaşma mövcuddur. Əməkdaşlığımız üçün möhkəm hüquqi baza var. 3 il bundan əvvəl mənim Xorvatiyaya rəsmi səfərim zamanı biz strateji tərəfdaşlıq və dostluq barədə Bəyannamə imzaladıq. Bu, əsas sənəddir və bu sənədin adı onun nə dərəcədə əhəmiyyətli olduğunu göstərir. Beləliklə, biz strateji tərəfdaş və dostlarıq.

Xorvatiya bizim üçün uzun illərdir əməkdaşlıq etdiyimiz dost ölkələrdən biridir. Strateji tərəfdaşlıq və dostluq barədə Bəyannamə əməkdaşlığımızın bütün sahələrini əhatə edir. Bizim çox yaxşı siyasi əlaqələrimiz var. Xanım Prezidentin bugünkü səfəri

bizim beynəlxalq təşkilatlar – BMT, ATƏT, Avropa Şurası çərçivəsində fəal əməkdaşlıq etdiyimizi göstərir.

Bu gün biz xanım Prezidentlə Avropa İttifaqı–Azərbaycan tərəfdaşlığını geniş müzakirə etdik. Mən Avropa İttifaqı ilə Azərbaycan arasındakı yaxınlaşmanı dəstəklədiyinə görə Xorvatiyaya minnətdarlığımı bildirirəm. Hazırda biz Avropa İttifaqı–Azərbaycan əməkdaşlığının gələcək formatı üzərində işləyirik. Biz artıq Avropa İttifaqının üzvü olan 9 ölkə ilə strateji tərəfdaşlıq bəyannamələri imzalamışıq. Düşünürəm ki, bu, Avropa İttifaqı–Azərbaycan razılaşması üçün yaxşı potensial əsasdır.

Biz iqtisadi əməkdaşlığımızla bağlı məsələləri geniş müzakirə etdik. Əlbəttə ki, sabah biznes-forumda bu daha geniş müzakirə olunacaq. Lakin biz əsas sahələri, prioritetləri müəyyən etdik. Düşünürəm ki, bunlar ticarət və nəqliyyat sahələridir. Ticarət dövriyyəsinin səviyyəsini artırmalıyıq. Nəqliyyat sahəsində əlaqələri inkişaf etdirmək üçün yaxşı imkanlar var. Bu, təkcə Xorvatiyadan gəmilərin satın alınmasında deyil – baxmayaraq ki, biz bundan çox razıyıq, çox gözəl gəmilərdir, bizə Xəzər dənizində yükdaşımalarını artırmağa imkan verir – həmçinin Azərbaycandan keçən, şirkətlərə və ölkələrə vaxta qənaət etməyə şərait yaradacaq Şərq və Qərb arasındakı dəhliz – yeni İpək yolu nəqliyyat sahəsində əməkdaşlıq baxımından biznes dairələri üçün də yeni imkanlar açacaq.

Biz həmçinin regional təhlükəsizliklə bağlı məsələləri müzakirə etdik. Mən xanım Prezidentə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Ermənistan ilə Azərbaycan arasındakı danışıqların hazırkı vəziyyəti barədə məlumat verdim. Bizim torpaqlarımız təəssüf ki, uzun illərdir işğal altındadır. Azərbaycan ərazisinin 20 faizi – təkcə Dağlıq Qarabağ deyil, həm də keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafındakı 7 rayon işğal olunub. Bu işğal nəticəsində bizim 1 milyondan artıq qaçqın və köçkünümüz var. Xalqımız Ermənistan tərəfindən etnik təmizləmə siyasətinə məruz qalıb. Beynəlxalq təşkilatlar mühüm qərar və qətnamələr qəbul edibdir. Xüsusilə BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını

tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələr 20 ildən artıqdır ki, kağız üzərində qalır. Avropa Parlamenti, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı» kimi digər təşkilatlar da oxşar sənədlər qəbul edib. Lakin təəssüf ki, münaqişə həll olunmur, çünki Ermənistan sülh istəmir. Onlar status-kvonu dəyişməz olaraq saxlamaq istəyirlər. Onlar ATƏT-in Minsk qrupu həmsədr ölkələrinin – ABŞ, Rusiya və Fransa prezidentlərinin status-kvonun qəbuledilməz olması ilə bağlı bir neçə dəfə açıq şəkildə etdikləri bəyanatlara qulaq asmaq istəmirlər. Bu, status-kvonu dəyişməz olaraq saxlamaq istəyən və təkcə BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, beynəlxalq davranış normalarına deyil, həm də dünyanın 3 aparıcı ölkəsinin liderlərinin bəyanatlarına məhəl qoymayan Ermənistan rəhbərliyinə birbaşa mesajdır. Status-kvo qəbuledilməzdir və dünya ictimaiyyəti Ermənistanı beynəlxalq hüquqa əməl etməyə və onlara məxsus olmayan, bizə məxsus olan əraziləri heç bir şərt irəli sürülmədən azad etməyə məcbur etmək üçün ciddi tədbirlər görməlidir. Münaqişənin həlli Azərbaycanın bütün dünya tərəfindən tanınmış ərazi bütövlüyünə əsaslanmalıdır. Dünyada heç bir ölkə, o cümlədən Ermənistan Dağlıq Qarabağın oyuncaq rejimini tanımır. Azərbaycanın ərazi bütövlüyü hər hansı digər ölkənin ərazi bütövlüyü ilə eyni əhəmiyyətə malikdir.

Bu gün biz, həmçinin enerji sahəsində əməkdaşlığa dair çox ümidverici olan məsələləri müzakirə etdik. Biz artıq tərəfdaşıq. Xorvatiya bu ilin fevralında Bakıda keçirilən «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının ikinci toplantısında iştirak edib və Avropaya qaz nəqli ilə bağlı layihə üzrə ölkələrimiz arasında Anlaşma Memorandumu var. «Cənub Qaz Dəhlizi» layihəsi qlobal enerji təhlükəsizliyi layihəsidir. Azərbaycan bu layihədə lider ölkə olaraq çox mühüm rol oynayır. Yeri gəlmişkən, bu rol Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq Memorandumunda qiymətləndirilir və qeyd olunur.

«Cənub Qaz Dəhlizi» artıq reallıqdır. Layihənin həyata keçirilməsi qrafik üzrə gedir. Ümidvaram ki, sonrakı mərhələdə Xorvatiya və digər Balkan ölkələri bu mühüm enerji təhlükəsizliyi,

şaxələndirmə və əməkdaşlıq layihəsinə qoşulacaqlar. Artıq 7 ölkə, belə demək mümkündürsə, komandanın üzvüdür. Düşünürəm ki, bir neçə ölkə, o cümlədən Xorvatiya tezliklə bu komandaya qoşulacaq.

Bizim iqtisadiyyatın digər sektorlarının, kənd təsərrüfatının, turizmin, həmçinin xalqlar arasında əlaqələrin inkişafı ilə bağlı çoxlu planlarımız var. Düşünürəm ki, xalqlar arasında əlaqələrin və Xorvatiyanın Azərbaycanda təbliğinin yaxşı nümunəsi böyük işlər görən Robert Prosineçkinin mükəmməl fəaliyyətidir. Bu qədər uzun illər gözləyəndən sonra biz indi komandamızla fəxr edirik. Çünki onun rəhbərliyi altında komandamız hazırda qrupda ikinci yerdədir. 3 oyundan sonra onların hesabında 7 xal – 2 qələbə və 1 heç-heçə var. Bu, mühüm nailiyyətdir. Əlbəttə, onun burada etdikləri təkcə futbol fanatları tərəfindən deyil, həm də xalqımız tərəfindən yüksək qiymətləndirilir və təbii ki, hamı onun Xorvatiyadan olduğunu bilir. O sizin ölkənin yaxşı səfiridir və mən fürsətdən istifadə edərək, ona uğurlu işinə görə təşəkkür etmək istərdim. Bu da bizim əməkdaşlığımızın yaxşı nümunəsidir və xanım Prezidentin səfəri sözsüz ki, bunun üçün yeni imkanlar açır. Xanım Prezident, bir daha Azərbaycana xoş gəlmisiniz!

## Xorvatiya prezidenti Kolinda Qrabar-Kitaroviçin bəyanatı

Çox sağ olun, cənab Prezident!

Xanımlar və cənablar, sabahınız xeyir!

İlk növbədə, icazənizlə, prezident Əliyevə bizi Azərbaycanda belə səmimi qarşıladığı üçün təşəkkürümü ifadə edirəm. Bu gün və sabah Bakıda olmaq məndə böyük məmnunluq hissi doğurur.

Əvvəla, futbol üzrə yığma komandanızın əldə etdiyi nailiyyətlərə görə Sizi təbrik etmək istəyirəm. Bu, xüsusilə milli qürur hissi və ölkənizdə birlik üçün çox vacibdir. Gəlin idmanın və xüsusilə futbolun əhəmiyyətinə lazımınca qiymət verək. Cənab Prosineçki həqiqətən də bizim Azərbaycanda ən böyük təmsilçilərimizdən biridir. Eyni zamanda, ötən gecə Bakıda və Azərbaycanın digər

bölgələrində çalışan Xorvatiya icmasının nümayəndələri ilə də görüşmək fürsətim oldu. Onların iki ölkə arasında əməkdaşlıq, dostluq və tərəfdaşlıq münasibətlərinin genişlənməsinə və dərinləşməsinə böyük ruh yüksəkliyi ilə yanaşmasını müşahidə etmək də mənim üçün çox sevindiricidir.

Cənab Prezident, 2013-cü ildə Xorvatiyaya səfərinizdən, həmçinin Suriya ilə bağlı London konfransı çərçivəsində görüşümüzdən sonra və xüsusən də ölkəmizə həmin səfəriniz zamanı dostluq və tərəfdaşlıq üzrə imzaladığımız razılaşmaya əsasən, düşünürəm ki, münasibətlərimizin inkişaf etməsi üçün qoyulmuş möhkəm təməl üzərində bizi qarşıda hələ çox işlər gözləyir. Siyasi münasibətlərimiz çox yaxşıdır. Aramızda açıq qalan məsələlər yoxdur. Lakin hesab edirəm ki, əlavə əməkdaşlıq üçün bir çox sahələr mövcuddur. Cənab Prezident, zənnimcə, bu səfərdən, bu gün Sizinlə və digər hökumət rəsmiləri ilə aparılan danışıqlardan sonra biz ölkələrimiz, xalqlarımız və iş adamlarımız arasında spesifik və konkret əməkdaşlığın əsasını qoya bilərik.

Ortaq marağımızda olan bir çox məsələlər, o cümlədən regional və qlobal təhlükəsizlik məsələləri var. Əlbəttə ki, Avropa İttifaqı, NATO, BMT və digər təşkilatlar kontekstində birgə əməkdaşlığımıza dair məsələlər də mövcuddur. Bizim Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqemiz çox aydındır. Biz Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirik və hesab edirik ki, bu münaqişə sülh və siyasi yolla həll olunmadır. Biz Minsk qrupu prosesini tamamilə dəstəkləyirik. Həmçinin Avropa İttifaqı ilə münasibətlərinizə gəlincə, Strateji Tərəfdaşlıq Razılaşmasının imzalanması və həyata keçirilməsi üçün Xorvatiyanın simasında Sizə hər zaman dəstək olacaq dostunuz var. Düşünürəm ki, təhlükəsizliklə bağlı yeni çağırışların artdığı və eyni zamanda, iqtisadi, enerji və digər sahələrdə, o cümlədən mədəniyyət, mədəni irs, millətlər və dinlər arasında anlaşma üzrə əməkdaşlıq fürsətlərinin üzə çıxdığı bir vaxtda və bu mənada qlobal təhlükəsizlik üçün perspektivləri münasib səviyyədə saxlamaq məqsədilə həmin razılaşmanın əhəmiyyəti daha da artacaq.

Sabah keçiriləcək biznes-forumla bağlı çoxlu gözləntilərim var və onun başlanmasını səbirsizliklə gözləyirəm. Həmin forum bu səfərdə məni müşayiət edən bir neçə Xorvatiya şirkəti üçün Sizin şirkətlərlə danışıqlar aparmaq və şəxsən mənim üçün əlaqələrin daha da inkişaf etdirilməsi potensialının müzakirəsi baxımından əla fürsət olacaq.

Əlbəttə, enerji sektoru çox böyük əhəmiyyət kəsb edir. Xorvatiya bir və ya bir neçə enerji mənbəyindən asılılığa son qoymaq istəyir. Bu həm neftə, həm də təbii qaza şamil olunur. Biz TANAP, TAP və digər enerji layihələrinin tamamlanmasını və İon–Adriatik kəmərinin bu şəbəkəyə qoşulmasını səbirsizliklə gözləyirik. Bununla da mənim şəxsi təşəbbüsüm olan 3 dənizin birləşməsi – yəni nəqliyyat, enerji və rəqəmsallaşdırma infrastrukturu və digər imkanlar vasitəsilə Adriatik, Baltik və Qara dənizlərin birləşdirilməsi təşəbbüsünün reallaşmasını gözləyirik ki, bizim bizneslər iqtisadiyyatımızın rəqabətliliyinə öz töhfəsini verə bilsin. Enerji daşınması nöqteyi-nəzərindən və eyni zamanda, məhsullarınızın Qərbi Avropaya çatdırılması üçün Xorvatiyadan və xüsusilə ölkəmizin limanlarından istifadə edilməsi baxımından Xorvatiya və Azərbaycan arasında yaxşı əməkdaşlıq perspektivlərini görürəm. Şimali Atlantika marşrutları ilə müqayisədə bu marşrut, əlbəttə ki, nəqletmə vaxtını azaldacaq. Enerji və nəqliyyat sahələrindən savayı, infrastrukturun yaradılması sahəsində əməkdaşlıq üçün bir çox imkanlar vardır. Fiziki infrastrukturun yaradılmasına gəlincə, bizim Azərbaycanda iş görmək marağında olan çoxlu inşaat şirkətimiz var. Həmçinin qatarlardan tutmuş gəmiqayırmayadək nəqliyyat vasitələri istehsal edən şirkətlərimiz də var. Müxtəlif təyinatlar üzrə sifariş verən müştərilərin ehtiyaclarına görə layihələrini uyğunlaşdıran, gəmiqayırmanın keyfiyyəti və səmərəliliyi baxımından qlobal bazarda ən səriştəli şirkətlərdən biri olan «Uyanik» ilə sizin iş təcrübəniz var. Lakin, əlbəttə ki, təkcə böyük bərələr və yükdaşıyan gəmilər deyil, başqa gəmilər də var. Xəzər dənizində sərhəd mühafizəsini, sülhü və təhlükəsizliyi təmin etmək üçün önəmli olan səyyar gəmilərin hazırlanması imkanları da var.

Bundan başqa, bizim mülki inşaat, kənd təsərrüfatı, ərzaq emalı müəssisələrimiz var. Xorvatiya şirkətlərinin əksəriyyəti «Halal» sertifikatına malikdir. Bu da həmçinin turizmlə bağlıdır. Biz bütün dünyadan, o cümlədən Azərbaycandan turistlərə öz qapılarını açan inklüziv bir ölkə kimi, turizmi inkişaf etdiririk. Ümidvaram ki, Azərbaycandan Xorvatiyaya səfər edən turistlərin sayında artım müşahidə edəcəyik. Buna Xorvatiyanın Avropa İttifaqı ilə tətbiq etdiyi viza rejimi də öz töhfəsini vermişdir.

Ümid edirik ki, biz sabah sizin şirkətlərlə kommunikasiya, informasiya texnologiyaları, innovasiyalar, əczaçılıq, tibb, humanitar, minaların təmizlənməsi sahələri üzrə spesifik və konkret müzakirələr aparacağıq. Düşünürəm ki, bu səfərdən sonra həmin sahələrdə biz konkret əməkdaşlıq layihələrinə başlaya bilərik. Ümidvarıq ki, hər iki ölkənin biznes dairələri birgə iş görəcək və bu istiqamətdə fəaliyyətlərini davam etdirəcəklər.

Cənab Prezident, bizi səmimi qarşıladığınız üçün Sizə bir daha təşəkkürümü bildirirəm. Həmçinin Mərkəzi və Cənubi Asiya regionlarının sabitləşməsində oynadığınız rola görə Sizə təşəkkürümü ifadə edirəm. Əfqanıstanda və dünyanın münaqişələrdən əziyyət çəkən digər ölkələrində oynadığınız rola görə Sizə «Çox sağ olun!» – deyirəm. Biz çıxış yollarını tapmaq və sülh proseslərinə dəstək olmaq üçün birlikdə çalışmağa davam edəcəyik. Keçən əsrin 90-cı illərində müharibə və işğaldan əziyyət çəkən bir ölkə kimi, biz yenidən inteqrasiya və sülh təcrübəmizi Sizinlə paylaşmağa hazırıq.

Cənab Prezident, mən Sizə, ailənizə, Azərbaycan xalqına sülh, firavanlıq və uğurlar arzu edirəm. Bizi səmimi qarşıladığınız üçün Sizə bir daha «Çox sağ olun!» – deyirəm.

**İlham Əliyev:** Çox sağ olun.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏT

*24 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından oktyabrın 24-də Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin və həyat yoldaşı Yakov Kitaroviçin şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Dövlət başçıları ziyafətdə çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Xanım Prezident!

Cənab Kitaroviç!

Əziz qonaqlar!

Bir daha Azərbaycana xoş gəlmisiniz! Sizi ölkəmizdə qəbul etmək bizim üçün çox xoşdur. Bu gün bizim çox yaxşı görüşümüz, müzakirələrimiz olub. Hesab edirəm ki, qarşılıqlı marağımızda olan bütün məsələləri, o cümlədən ikitərəfli siyasi əlaqələri, regional təhlükəsizliyi, Avropa İttifaqı ilə əməkdaşlığımıza dair məsələləri, iqtisadi əməkdaşlığı əhatə etdik. Əlbəttə ki, sabah biznes-forumun açılışı olacaq. Orada iqtisadi əməkdaşlığın perspektivləri daha geniş müzakirə ediləcək. Həmçinin mədəniyyət, idman sahələrində əməkdaşlıq məsələlərini müzakirə etdik və bizim baxışlarımız üst-üstə düşür.

Görüşümüzdə qeyd etdiyim kimi, biz regional təhlükəsizlik məsələlərinə eyni yanaşmanı tətbiq edirik, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq aparırıq və bu səfər, əlbəttə ki, bizim yaxın əlaqələrimizin yaxşı göstəricisidir.

Biz Xorvatiyanı dost və tərəfdaş ölkə hesab edirik. Biz 3 il bundan əvvəl strateji tərəfdaşlıq və dostluq üzrə mühüm sənəd

imzalamışıq. Bu sənəd gələcəyə doğru yolumuzu göstərir. Biz qarşılıqlı hörmətə, dostluğa, Azərbaycan və Xorvatiya xalqları arasında bir çox oxşarlıqlara əsaslanan bu münasibətlərə önəm veririk. Bizim ortaq məqsədlərimiz var. Biz istəyirik ki, ölkələrimiz inkişaf etsin. Biz ölkələrimizin daxilində və ətrafında təhlükəsizliyin təmin olunmasını və regionlarımız arasında əməkdaşlığın gücləndirilməsi üçün atacağımız addımları müəyyənləşdirmək istəyirik. Balkanlarda, Avropada, Qafqazda, Xəzər regionunda ticarət, sərmayə qoyuluşu, enerji sahələrində çoxlu imkanlar var və bunlar bizim müzakirələrimizin və əməkdaşlığımızın vacib bir hissəsidir.

Əlbəttə ki, biz yaxın gələcəkdə Avropa enerji bazarında önəmli tərəflərə və yaxın tərəfdaşlara çevriləcəyik. Bu tərəfdaşlıq onilliklərlə davam edəcək. Çünki Azərbaycanın təbii qaz ehtiyatları ən azı 100 il ərzində bizim üçün və istehlakçılar üçün kifayət edəcək. Buna görə də enerji təhlükəsizliyində əməkdaşlıq uzunmüddətli və strateji xarakter daşıyacaq.

«Strateji xarakter» sözləri artıq ikitərəfli münasibətlərimizdə adət etdiyimiz bir ifadədir. Çox şadam ki, ölkəmizə səfər edirsiniz. Sizin proqramınız çox zəngindir. Ümidvaram ki, sabah Azərbaycan haqqında daha da çox məlumat toplamaq imkanınız olacaq.

Bir daha Sizi və nümayəndə heyətinizi ölkəmizdə salamlamaq istəyirəm. Sizə və Xorvatiya xalqına uğurlar və rifah arzu edirəm.

## Xorvatiya prezidenti Kolinda Qrabar-Kitaroviçin çıxışı

Bu gün Bakıda, Azərbaycanda olmaq mənim üçün çox xoşdur və bu səfəri indi həyata keçirə bilmək məndə məmnunluq hissi doğurur. Bu gün çox yaxşı danışıqlarımız oldu. Biz çoxlu məsələləri əhatə etdik. Dediyim kimi, mən bir çox məsələlərlə bağlı sabahkı biznes-forumu səbirsizliklə gözləyirəm. Çünki bizim mükəmməl siyasi əlaqələrimiz var. Lakin hesab edirəm ki, biz hər iki ölkənin xalqları və biznes qurumları arasında əlaqələri daha da inkişaf etdirmək üçün bundan da çox səy göstərə bilərik. Hesab edirəm ki, sabahdan etibarən biz hər iki ölkənin biznes

qurumlarının bir-biri ilə daha da yaxından işləməsi üçün möhkəm zəmin yaradacağıq.

Xorvatiya Azərbaycanı Qafqaz regionunda və eyni zamanda, Avropa, Avroatlantika və qlobal təhlükəsizlik məsələləri üzrə önəmli tərəfdaş hesab edir. Biz Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün Sizin göstərdiyiniz səylərə dəstək olmağa davam edəcəyik və bu məsələdə Sizə uğurlar arzu edirəm. Hamımız sülh razılaşmasının BMT Təhlükəsizlik Şurasının qətnamələrinə və Minsk qrupunun fəaliyyətinə əsaslanacağına ümid edirik. Biz həmçinin Avropa İttifaqında da sizin yanınızda olacağıq. Sizi yenə də əmin etmək istəyirəm ki, həm NATO-da, həm də Avropa İttifaqında dostunuz var. Biz strateji tərəfdaşlıq razılaşmasının məqsədyönlü və həqiqətən də strateji olması üçün fəal çalışacağıq. Ölkələrimiz arasında strateji tərəfdaşlıq və dostluq razılaşması üzrə Zaqreb Bəyannaməsinə gəldikdə isə, düşünürəm ki, gələcəkdə birgə komissiyalar və ya başqa qurumlar vasitəsilə əsasını qoyduğumuz dostluq və tərəfdaşlıq çərçivəsinə önəm vermək üçün hər iki ölkənin hökumətinin bir-biri ilə daha da yaxından çalışmasını təmin edəcəyik.

## AZƏRBAYCAN–XORVATİYA BİZNES-FORUMUNDA İŞTİRAK

*25 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç oktyabrın 25-də Bakıda Azərbaycan–Xorvatiya biznes-forumunda iştirak etmişlər.*

*Biznes-forumda Azərbaycan və Xorvatiya tərəfindən rəsmi şəxslərlə yanaşı, gəmiqayırma, nəqliyyat, maşınqayırma, qida sənayesi, kimya, tekstil, əczaçılıq, tikinti, energetika, informasiya-kommunikasiya texnologiyaları, səhiyyə, turizm, daşınmaz əmlak, konsaltinq və digər sahələrdə fəaliyyət göstərən 150-dən çox iş adamı iştirak edirdi.*

*Prezidentlər biznes-forumda çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Sabahınız xeyir!

Xanım Prezidentin Azərbaycana səfəri yekunlaşmaq üzrədir. Artıq biz nəticələr barədə danışa bilərik. Nəticələr olduqca müsbətdir. Dünən çox gözəl müzakirələrimiz oldu. Bütün mühüm məsələləri müzakirə etdik. Regional məsələlər ikitərəfli əlaqələr baxımından müzakirə edildi. Təbii ki, biz bu müzakirələrdə iqtisadi əməkdaşlığımıza böyük əhəmiyyət verdik. Məmnun qaldığımızı bildiririk ki, bir qrup xorvat iş adamı xanım Prezidenti Azərbaycana səfərində müşayiət edir və bu gün bu biznes-forumda iştirak edir.

Bu səfər çox uğurlu olmuşdur. Biz strateji tərəfdaşlığımızı bir daha vurğuladıq. Əməkdaşlığımızın əsas istiqamətlərini müəyyənləşdirdik və çox müsbət əməkdaşlıq etdiyimizi bir daha təsdiqlədik. Biz dostuq, tərəfdaşıq.

Siz iş adamları, bu gözəl imkanlardan istifadə edərək, əlaqələrinizi genişləndirməlisiniz. Çünki sərmayə qoyuluşu, birgə fəaliyyət böyük əhəmiyyət kəsb edir. Bizim gözəl siyasi əlaqələrimizi nəzərə alsaq, burada çox yaxşı perspektivlər var. Bizim çox gözəl siyasi əlaqələrimiz var və ümidvaram ki, işgüzar dairələr də bu nümunədən istifadə edəcək. Bizim keçmişdə də birgə layihələrimiz olub. Amma bu gün biz ticarət dövriyyəmizə nəzər salsaq görərik ki, burada iki element mövcuddur və onlar bu dövriyyənin artmasına və azalmasına təsir edir. Biri Azərbaycandan Xorvatiyaya neft satışıdır. Digəri isə Xorvatiya gəmilərinin Azərbaycana satışıdır. Bu çox gözəl əməkdaşlıqdır. Burada idxal-ixrac əməliyyatlarından söhbət gedir. Amma düşünürəm ki, artıq zamanı yetişib ki, biz iqtisadi əməkdaşlığımızı şaxələndirək və idxal-ixrac əməliyyatlarımızı genişləndirək.

Dünən müxtəlif formatda nümayəndə heyətləri görüşdülər və bir sıra istiqamətlər qeyd edildi. Bizim iqlim şəraitimizdən istifadə edilməsi təklif olundu və Xorvatiyadan müəyyən məhsulların idxalı müzakirə edildi. Əminəm ki, bu gün burada daha geniş şəkildə müzakirələr aparılacaq. Burada qarşılıqlı faydalı əməkdaşlıqdan söhbət gedir. Çünki biz Xorvatiyanın ixracından xəbərdarıq və siz də bilirsiniz ki, Azərbaycan hansı məhsulları ixrac edir. Odur ki, düşünürəm bu forum öz diqqətini məhz bu istiqamətə yönəltməlidir.

Burada qarşılıqlı sərmayə qoyuluşu da müzakirə edilməlidir. Biz çox maraqlıyıq ki, ölkəmizdə yeni sahələr yaradılsın. Burada əczaçılıqdan söhbət gedir. Xorvatiyanın bu sahədə böyük təcrübəsi var. Biz bu baxımdan idxaldan asılı ölkəyik və düşünürəm ki, məhz əczaçılıq – dərmanların istehsalı sahəsində birgə müştərək müəssisələrin yaradılması bizim üçün faydalı olar. Çünki bizim bazar genişlənir, əhalimiz artıq 10 milyon nəfərə çatır və əhalinin sayı ildən-ilə artır. Bu səbəbdən bu sahə çox maraqlı ola bilər.

Azərbaycanın həm dövlət, həm də özəl şirkətləri ölkənin hüdudlarından kənarda sərmayə qoyuluşu ilə məşğuldur. Regionumuzdakı dövlətlərə milyardlarla ölçülən sərmayələr qoyulub. Eyni zamanda, Xorvatiyanın yerləşdiyi regiona, Avropanın müxtəlif

ölkələrinə SOCAR, Dövlət Neft Fondu və digər özəl şirkətlərimiz tərəfindən sərmayələr yatırılıb. Bu sahədə də imkanlar nəzərdən keçirilməlidir və əminəm ki, iş adamları bunu da müzakirə edəcəklər.

Digər sahələrdən biri bizim şirkətlərin Xorvatiyada infrastruktur layihələrinin icrasında iştirakı ola bilər. Biz eyni zamanda, xorvat şirkətlərini buraya dəvət edə bilərik. Bu gün demək olmaz ki, o qədər çox xorvat şirkəti Azərbaycanda fəaliyyət göstərir. Amma bu sahədə dinamik inkişafı nəzərə alsaq, biz böyük məmnuniyyətlə xorvat şirkətlərini buraya dəvət edərdik.

Turizm sahəsində təbii ki, Xorvatiyanın çox böyük təcrübəsi var. Dünən xanım Prezidentlə söhbət edəndə mənə turistlərin sayı ilə bağlı maraqlı məlumat verdi. Biz də ölkəmizdə bu sahəni inkişaf etdirmək əzmindəyik. Bu bizim üçün ənənəvi sektor olmamışdır. Amma indi şaxələndirmə siyasətini həyata keçirdiyimiz üçün biz də bu sahəni genişləndirməyə maraqlıyıq və artıq turistlərin artımını müşahidə edirik. Bu səbəbdən bu da müzakirələrin mövzusu ola bilər.

Azərbaycan hazırda kənd təsərrüfatı sahəsinə böyük sərmayə yatırır. Bildiyiniz kimi, biz geniş çeşiddə kənd təsərrüfatı məhsullarını ixrac edirik. İnformasiya-kommunikasiya texnologiyaları, təhsil sahələri də müzakirə edilə bilər. Ümumiyyətlə, gündəliyimizdə bir sıra məsələlər vardır. Amma düşünürəm ki, ticarət, idxal-ixrac əməliyyatları, sərmayə sahələri və şirkətlərimizin Xorvatiyada layihələrdə iştirakı bizim üçün olduqca maraqlıdır.

Enerji siyasəti ilə bağlı bir neçə məqamı diqqətinizə çatdırıram. Çünki bu, artıq getdikcə bizim birgə gündəliyimizə daxil olan məsələdir. Azərbaycan ilə Xorvatiya arasında Anlaşma Memorandumu imzalanıb. Bu sahədə «Cənub Qaz Dəhlizi»nin genişləndirilməsi, İon və Adriatik dənizləri arasında kəmərin inşası Azərbaycana imkan yaradacaq ki, biz xorvat bazarına, eyni zamanda, geniş Balkan bazarına daxil ola bilək və həmin ölkələr də Azərbaycandan təbii qaz alaraq, yeni mənbə əldə etsinlər.

Bizim təsdiq edilmiş qaz ehtiyatımız 2,5 trilyon kubmetrdən çoxdur. Bu ehtiyatlar artacaq. Çünki biz hələ də kəşfiyyat işləri ilə

məşğul oluruq. Bu ehtiyatların şaxələndirilmiş şəkildə ixracına nail olmaq üçün bizim müxtəlif istiqamətlərdə qazı nəql edən bir neçə kəmərimiz var. Əsas marşrut isə hazırda inşa edilir. Bu ümumi layihə «Cənub Qaz Dəhlizi» adlanır. Buraya 4 layihə daxildir və hər biri hazırda icra mərhələsindədir. «Şahdəniz-2» qaz yatağında – bu, dünyanın ən böyük qaz yataqlarından biridir – hasilat artırılıb və biz burada ikinci fazanın icrasına başlayacağıq. Bununla yanaşı, Avropa istiqamətində 3 qaz kəməri inşa edilir. Onun sonuncu mərhələsi Trans–Adriatik qaz kəməri sizin regiona yaxındır. Həmin qaz kəmərinin Xorvatiyaya və digər qonşu dövlətlərə uzadılması ilə məşğul ola bilərik. Bunu müzakirə edəcəyik. Ümid edirəm ki, artıq biz tezliklə danışıqların fəal fazasına başlayacağıq. Bu, təhlükəsizlik, enerjinin şaxələndirilməsi layihəsidir. Burada bütün tərəflər qazanacaq. Çünki biz Avropa bazarına çıxış əldə edirik. Avropa istehlakçıları isə əlavə mənbələr əldə edir. Bilirik ki, bu gün Avropanın tələbatı artır. Biz isə yeni mənbəyik və yeni nəqliyyat marşrutu təklif edirik. Bu da bizim üstünlüyümüzdür.

Bununla yanaşı, biz artıq 5 il bundan öncə Avropa Komissiyası ilə birlikdə enerji sahəsində strateji tərəfdaşlıq haqqında Memorandum imzalamışıq. Bildiyiniz kimi, biz artıq Avropa İttifaqı ilə Azərbaycan arasında strateji Tərəfdaşlıq Sazişi ilə bağlı danışıqlara başlayırıq. Bu sahədə böyük fəallıq var. İon–Adriatik dənizləri arasında qaz kəmərinin inşası yeni iş yerləri yaradacaq və onun tikintisinə yeni şirkətlər cəlb olunacaq. Bununla da bizim Xorvatiya ilə strateji tərəfdaşlığımız enerji sahəsini də əhatə edəcək. Bu, onilliklər boyu məhz belə olacaq. Bu, Avropa, Avropa təsisatları və üzv dövlətlərlə bizim əməkdaşlığımızın mühüm hissəsidir. Təbii ki, Avropa İttifaqının üzvü olmayan qonşularımız da bu layihədə fəal iştirak edirlər.

Azərbaycanda ümumi vəziyyətlə bağlı bir neçə kəlmə söyləmək istərdim. Bildiyiniz kimi, neftin qiymətinin kəskin şəkildə düşməsi bizim gəlirlərimizi azaltmışdır. Eyni zamanda, biz builki büdcəmizdə neftin 1 barrelinin qiymətini 25 dollar səviyyəsində təsbit etmişik. Bu gün artıq qiymət 2 dəfə bahadır. Düşünürəm ki, biz bu vəziyyətdən minimal ziyanla çıxacağıq.

Bildiyiniz kimi, bizim şaxələndirmə siyasətimiz var. Uzun illərdir bunu həyata keçiririk. Bunun sayəsində məhz neft bizim ümumi daxili məhsulumuzun 33 faizini təşkil edir. Biz ümumi daxili məhsulumuzu şaxələndirməyə nail olmuşuq və neftin qiymətlərindən asılılığımızı azaltmışıq. Biz bu gün ixracımızın şaxələndirilməsi ilə məşğuluq. Artıq mən bununla bağlı fikirlərimi söylədim. Biz istərdik ki, Avropa bazarlarına qeyri-neft sahəsinə aid, rəqabətqabliyyətli məhsullarla daxil olaq.

Azərbaycanda çox münbit sərmayə mühiti var. Bildiyiniz kimi, biz postsovet məkanında ümumi daxili məhsulun adambaşına düşən göstəricilərinə görə 1-ci yerdəyik. Bu günə qədər Azərbaycana, ümumiyyətlə, 200 milyard dollar sərmayə yatırılıb ki, onun yarısı xarici sərmayədir. Bu gün Avropada, dünyanın digər bölgələrində böhrana baxmayaraq, biz yenə də neft-qaz sahəsinə və digər sahələrə sərmayələr yatırmaq iqtidarındayıq.

Biz işsizliyi kəskin şəkildə azalda bilmişik. Bu gün bu rəqəm 5 faizdir. Regional infrastruktur proqramları həyata keçirilir. Bunun sayəsində ölkədə yoxsulluq da 5 faizə enib. Biz böyük həcmdə qızıl və valyuta ehtiyatlarını toplamağa müvəffəq olmuşuq. Neftin qiyməti kəskin aşağı düşəndə biz bunun sayəsində müəyyən manevr qabiliyyəti əldə etmişik.

Ümumiyyətlə, ölkəmizdə iqtisadi artımla bağlı çox müsbət abhava var. Biz qonşularımızla olduqca fəal şəkildə çalışırıq. Müxtəlif nəqliyyat layihələrinin həyata keçirilməsi nəticəsində biz qlobal nəqliyyat qovşağına çevriləcəyik. Bildiyiniz kimi, bunların biri artıq yekunlaşır. Mən Şərq–Qərb nəqliyyat dəhlizindən danışıram. Həmin dəhliz Xəzər dənizindən, Azərbaycan ərazisindən keçməklə, Çindən Avropaya uzanır. Ümidvaram ki, biz bir neçə aydan sonra həmin layihənin başa çatmasını qeyd edəcəyik. Bu, Asiyadan Avropaya ən qısa nəqliyyat marşrutu olacaq. Təbii ki, biz bu layihədə də bərabər çalışa bilərik.

Digər layihənin icrasına bu il başlanılıb. Artıq bu istiqamətdə sərmayələrin qoyuluşu başlanmışdır. Bu, Asiyadan, yəni Hindistandan, Pakistandan, Fars körfəzindən, İrandan, Azərbaycandan, Rusiyadan Şimali Avropaya uzanan Şimal–Cənub nəqliyyat

dəhlizi layihəsidir. Bu da bizə imkan verəcək ki, on milyonlarla ton yükü öz ərazimizdən nəql edək. Bu da hazırda mövcud olan marşrutlardan ən qısasıdır. Təbii ki, bu, gözəl imkanlar açır. Təbii ki, Xəzərdən keçən bu nəqliyyat dəhlizində Xorvatiyanın təklif edə biləcəyi gözəl gəmi-bərələrdən istifadə oluna bilər. Biz uzun illərdir bu gəmilərdən istifadə edirik. Yəni bu layihə də bütün iştirakçılar üçün davamlı inkişaf və davamlı gəlir mənbəyi olacaqdır.

Hazırda Azərbaycandakı mövcud sərmayə mühiti, bütün sərmayələr dövlət tərəfindən qorunur. Ölkəmizdə olduqca sabit iqtisadi vəziyyət var. Neftin qiyməti ilə bağlı böhrana baxmayaraq, bu, yaxşı göstəricidir ki, siz bu gün də Azərbaycana inamla sərmayə yatıra bilərsiniz. Azərbaycan özünü təmin edən, öz ehtiyatlarına arxalanan və davamlı inkişafı bərqərar edən ölkədir. Biz neftin qiymətlərini unutmaq əzmindəyik.

Ölkəmizdə yaxşı inkişaf var, amma görüləcək işlər də çoxdur. Mən prezident olaraq, ölkəmizdə xorvat sərmayələrini daha çox görmək istərdim. Amma bir daha qeyd edirəm ki, bu, qarşılıqlı maraq və qarşılıqlı fəaliyyət üzərində qurulan bir prosesdir. Sərmayələr, şirkətlər bizim iqtisadi əməkdaşlığımızın aparıcı qüvvəsi olmalıdır. Əminəm ki, bizim biznes dairələrinin əlaqələri də gözəl siyasi əlaqələrimizə uyğun formada inkişaf edəcək. Sağ olun.

## Xorvatiya prezidenti Kolinda Qrabar-Kitaroviçin çıxışı

Cənab Prezident, təşəkkür edirəm!

Hörmətli iş adamları, hər birinizi salamlayıram. Bakıda olmağımdan və bu gün sizin qarşınızda çıxış etməyimdən çox məmnunam. İlk növbədə, cənab Prezident, bir daha şəxsən Sizə və xanımınıza, Sizin bütün heyətinizə minnətdaram ki, ölkənizdə bizə bu qədər qonaqpərvər ab-hava yaratmısınız. Həyat yoldaşım və mən özümüzü evdəki kimi hiss edirik. Eyni zamanda, cənab Prezident, təşəkkür edirəm ki, Siz Azərbaycan ilə biznes

əlaqələrinin qurulması üçün bizə imkan yaradırsınız və ölkənizin perspektivləri haqqında ətraflı məlumat verdiniz. Yəni burada sadəcə, enerji və nəqliyyat sektorundan söhbət getmir. İqtisadiyyatın digər sahələrində böyük imkanlar var və xorvat şirkətləri bundan bəhrələnməlidir.

Mən bunu bir neçə dəfə qeyd etmişəm və dünən ADA Universitetindəki çıxışımda da dedim ki, bizim gözəl siyasi əlaqələrimiz var. Təəssüflər olsun ki, işgüzar dairələr həmin səviyyədə fəaliyyət göstərə bilmir. Eyni zamanda, bunu Azərbaycana da şamil etmək olar. Bizim çox gözəl siyasi əməkdaşlığımız var. Heç bir açıq qalan məsələmiz yoxdur. Sizi əmin edirəm ki, Avropa İttifaqında və NATO-da Xorvatiya Sizin dostunuz və tərəfdaşınız olaraq qalacaqdır. Ümid edirəm ki, tezliklə Avropa İttifaqı ilə strateji tərəfdaşlıq Sazişinin müzakirəsi başa çatacaqdır. Ümidvaram ki, bizim Zaqrebdə imzaladığımız strateji tərəfdaşlıq və dostluq haqqında Bəyannamə də buna təkan verəcək. Bildiyiniz kimi, mənim irəli sürdüyüm «3 dəniz» təşəbbüsü vardır – Adriatik, Baltik və Qara dənizlərin birləşdirilməsi layihəsi. Biz görürük ki, iqtisadi əməkdaşlığımız neftin qiymətindən və ya Azərbaycanın sifariş etdiyi gəmi-bərələrin sayından asılı olur. Düşünürəm ki, biz iqtisadi əməkdaşlığımız üçün daha güclü zəmin yaratmalıyıq.

Mən çox şadam ki, bu gün burada böyük sayda iş adamları iştirak edir. Məni Azərbaycana rəsmi səfərimdə 50-dən artıq xorvat şirkətinin nümayəndəsi müşayiət edir. Bunlar olduqca təcrübəli şirkətlərdir. Xorvatiyada son 6 ildə müşahidə edilən tənəzzüldən sonra bizim iqtisadiyyatımız inkişaf mərhələsinə qədəm qoyub. Bizim ümumi daxili məhsulumuzun həcmi artır və həmin prosesə məhz bu şirkətlər öz töhfələrini vermişlər. Bu gün bu şirkətlər həm Avropada, həm də qlobal bazarda bizim iqtisadiyyatımızın aparıcı qüvvəsidir. Mənim məqsədim məhz orta və kiçik şirkətlərimizin iqtisadi artımın generatoruna, aparıcı qüvvəsinə çevrilməsidir ki, onlar da bizim Azərbaycan ilə əlaqələrimizə əlavə töhfə verə bilsin.

Bildiyiniz kimi, bir neçə gün bundan öncə Xorvatiyada yeni hökumət formalaşıb. Bu, iş yerlərinin artırılması və ölkədə sərmayə

qoyuluşu üçün daha yaxşı mühitin yaradılması istiqamətində olduqca iddialı bir hökumətdir. Biz ölkələrimiz arasında müştərək İqtisadi Komissiyanın fəaliyyətinə də təkan verməliyik. İlk iclasın keçirilməsi üçün lazımi işlər görülməlidir. Həmin Komissiya ölkələrimizin biznes dairələri arasında əməkdaşlığı genişləndirəcəkdir. Ümidvaram ki, bizim burada ticarət nümayəndəliyimiz də tezliklə tamhüquqlu səfirlik statusu əldə edəcəkdir. Biz çalışacağıq ki, səfirliyimiz burada daha fəal olsun.

Cənab prezident, biz siyasi məsələləri bu səhər də müzakirə etdik. Düşünürəm ki, bizim münasibətlər regionda, daha geniş regionda – Avrasiya məkanında sülh və sabitliyin bərqərar olunmasına xidmət edəcək.

Xorvatiya enerji sektorunda əməkdaşlığa sadiqdir və bu sahəyə diqqəti yönəltməyə davam edəcəkdir. Bildiyiniz kimi, enerji təhlükəsizliyi təkcə bizim üçün deyil, bütün qonşularımız üçün olduqca vacibdir. Mənim irəli sürdüyüm «3 dəniz» təşəbbüsü də cənub-şərqi Avropada olduqca vacibdir. Orada qaz şəbəkələrinin yaradılması da ümumi sabitliyə öz töhfəsini verəcəkdir və insanların yaşayış səviyyəsini artıracaqdır. Əminəm ki, İon–Adriatik dənizi layihəsi, Krk şəhərində maye qaz terminalının inşası – bunlar perspektivli layihələrdir. Bunlar da Azərbaycan şirkətlərinin bizimlə əməkdaşlıq etmələri üçün gözəl imkandır.

Mənim bu səhər sizin neft-qaz şirkətiniz SOCAR-ın rəhbəri ilə faydalı görüşüm oldu. Digər sahələrdə də insanlar arasında təmaslar baxımından maraqlı layihələr var. Cənab Prezident, Siz artıq bunu vurğuladınız. Mən gəmiqayırma sahəsini vurğulamaq istərdim. Yəni burada böyük gəmi-bərələrdən söhbət getmir. Olduqca kiçikhəcmli, mobil kater və gəmilərdən söhbət gedir. Onlar regional təhlükəsizlik baxımından çox əhəmiyyətli ola bilərlər. Biz artıq mühəndislik, turizm, informasiya texnologiyaları, kənd təsərrüfatı sahələrini qeyd etdik. Bizim qida məhsullarının emalı sahəsində böyük təcrübəmiz var və digər sahələri də qeyd etmək olar.

Mən çox məmnunam ki, bu gün bizim iş adamlarımız birbaşa əlaqələr yaradacaqlar. Xorvatiya Ticarət Palatasını bir daha təbrik

edirəm və təşəkkür edirəm ki, şəxsən məni və bizim işgüzar dairələri dəstəkləməkdə davam edir. AZPROMO-ya öz təşəkkürümü bildirirəm ki, bu tədbiri təşkil edib. İnanıram ki, biz qarşılıqlı mübadilələr sahəsində işgüzar fəaliyyətin daha çox genişləndirilməsinin şahidi olacağıq. Eyni zamanda, biz müxtəlif innovasiyaların və texnologiyaların mübadiləsinin şahidi olacağıq. Bizim müxtəlif sahələrdə təklif edə biləcəyimiz təcrübələrimiz var. Ərazilərin minalardan təmizlənməsi sahəsində də böyük təcrübəmiz var. Bildiyiniz kimi, biz bu sahədə qabaqcıl texnologiyaya malik bir ölkəyik. Təəssüflər olsun ki, Azərbaycanın da bu sahədə müəyyən problemləri var və biz bu işdə də sizə yardım etməyə hazırıq. Ola bilsin, bəzi sahələri qeyd etmədim. Buna görə hər birinizdən üzr istəyirəm. Cənab Prezident əczaçılıq sahəsini qeyd etdi. Bu, olduqca vacib məsələdir.

Bir daha hər birinizə təşəkkür edirəm və sizə uğurlar diləyirəm. Sağ olun.

* * *

*Sonra Azərbaycanın biznes və investisiya imkanları xorvat iş adamlarına təqdim edildi, həmçinin Xorvatiyanın biznes mühiti və iş adamları arasında əlaqələrin genişləndirilməsi istiqamətlərinə dair məlumat verildi, iş adamları qarşılıqlı fəal əməkdaşlığa dəvət olundu.*

*Biznes-forumda Azərbaycan və xorvat iş adamları arasında ikitərəfli görüşlər keçirildi, energetika, tikinti, turizm, informasiya-kommunikasiya texnologiyaları, kənd təsərrüfatı, qida sənayesi və s. sahələrdə əməkdaşlıq, eləcə də yerli istehsalda istifadə olunan müxtəlif xarici komponentlərin ölkəmizdə istehsalına dair Xorvatiya ilə birgə müəssisələrin yaradılması, gəmiqayırma sahəsində bir sıra ehtiyat hissələrinin birgə istehsalına dair müzakirələr aparıldı. Azərbaycanda kənd təsərrüfatı məhsullarının emalı üçün əlverişli şəraitin olduğu diqqətə çatdırıldı və Xorvatiya iş adamları bu sahədə fəaliyyət göstərməyə dəvət edildi.*

*Diqqətə çatdırıldı ki, hazırda Azərbaycanda müxtəlif sahələr üzrə ixtisaslaşan sənaye parkları yaradılıb. Xorvat iş adamları bu-*

*rada investorlar üçün yaradılmış əlverişli imkanlardan yararlana bilərlər. Əczaçılıq sahəsində Xorvatiyanın təcrübəsi nəzərə alınaraq, bu istiqamətdə birgə əməkdaşlıq həyata keçirilə bilər.*

*Biznes-forumda iş adamları arasında əsas müzakirə mövzularından biri də ticarət əlaqələrinin genişləndirilməsi oldu. Azərbaycanın kənd təsərrüfatı məhsullarının, xüsusilə də meyvə şirələrinin, kimya sənayesi məhsullarının Xorvatiyaya ixracı, Xorvatiyadan gübrə idxalı məsələlərinə dair fikir mübadiləsi aparıldı.*

**QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ**
**ƏLAHƏZRƏT ŞEYX**
**TƏMİM BİN HƏMƏD ƏL-TANİYƏ**

Əlahəzrət!

Qətər Dövlətinin keçmiş Əmiri, babanız şeyx Xəlifə bin Həməd əl-Taninin vəfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, ailənizin üzvlərinə, bütün Qətər xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 oktyabr 2016-cı il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB MƏMNUN HÜSEYNƏ**

Hörmətli cənab Prezident!

Kvetta şəhərindəki polis kollecində törədilmiş terror aktı nəticəsində çox sayda insanın həlak olması və yaralanması xəbəri məni olduqca kədərləndirdi.

Biz bu terror aktından son dərəcə hiddətlənir, terrorizmin bütün təzahürlərinə qarşı hamılıqla, qətiyyətlə və ardıcıl mübarizə aparılmasını vacib və zəruri hesab edirik.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Pakistan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 oktyabr 2016-cı il*

## ÇEX RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİLOŞ ZEMANA

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Çexiya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. İnanıram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq əlaqələri bundan sonra da xalqlarımızın mənafelərinə uyğun olaraq inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 oktyabr 2016-cı il*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HERBERT SALBERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gedən proseslər müzakirə edildi, Ermənistanın qeyri-konstruktiv mövqe tutaraq, bu münaqişənin həllinə daim əngəl yaratdığı vurğulandı.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində həmsədrlərin və beynəlxalq birliyin rolu ətrafında fikir mübadiləsi aparıldı.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Qardaş Türkiyənin milli bayramı – Respublika Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Türkiyə Respublikası iyulun 15-də Konstitusiyasına, dövlətçiliyinə və demokratiyasına qarşı yönəlmiş çevriliş cəhdinin sınağından mərdliklə çıxaraq, müstəqillik və demokratiya yoluna sadiq olduğunu bir daha parlaq şəkildə nümayiş etdirdi və qəhrəmanlıqlarla zəngin olan tarixinin ən şərəfli səhifələrindən birini yazdı. Həmişə Türkiyənin yanında olan Azərbaycan o dəhşətli gecənin bütün ağrı-acısını da, qardaş xalqın zəfərini də Sizinlə birlikdə yaşadı.

Əminəm ki, daim möhkəmlənən Azərbaycan–Türkiyə müttəfiqliyi və tərəfdaşlığı, qardaşlıq münasibətlərimiz bundan sonra da ölkələrimizin tərəqqisinə, xalqlarımızın rifahına, regionumuzda sülhün və sabitliyin bərqərar olmasına xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə bir daha təbriklərimi yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 oktyabr 2016-cı il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BİNƏLİ YILDIRIMA**

Hörmətli cənab Baş nazir!

Qardaş Türkiyənin milli bayramı – Respublika Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Türkiyə bu gün özünün iqtisadi yüksəlişi və beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsi ilə dünyada böyük nüfuz qazanmışdır. Dövlətçiliyinə qarşı yönəlmiş çevriliş cəhdinin sınağından mərdliklə çıxması Türkiyənin bir dövlət kimi qüdrətini, eləcə də ölkədəki sarsılmaz dövlət–xalq vəhdətini bir daha əyani şəkildə nümayiş etdirdi.

Azərbaycanla Türkiyəni möhkəm dostluq və qardaşlıq telləri, ortaq mənəvi dəyərlər və həmrəylik birləşdirir. İnanıram ki, ölkələrimizin birliyi və müttəfiqliyi bundan sonra da xalqlarımızın rifahına, qarşıya qoyduğumuz vəzifələrin həllinə, beynəlxalq məsələlərdə qarşılıqlı dəstəyimizin möhkəmlənməsinə xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 oktyabr 2016-cı il*

## CİBUTİ RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MƏHƏMMƏD ƏLİ KAMİL İLƏ GÖRÜŞ

*26 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Cibuti Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Məhəmməd Əli Kamilin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Məhəmməd Əli Kamil Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Məhəmməd Əli Kamil etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Cibuti Respublikası arasında ikitərəfli münasibətlərin çox yaxşı səviyyədə olduğunu bildirdi. Azərbaycanın islam ölkələri ilə əməkdaşlığa böyük önəm verdiyini vurğulayan prezident İlham Əliyev Azərbaycan ilə Cibutinin dost ölkələr olduğunu dedi. Dövlətimizin başçısı ölkələrimizin xüsusilə beynəlxalq təşkilatlarda həmrəylik göstərərək, uğurlu əməkdaşlıq etmələrinin və bir-birilərinə daim dəstək vermələrinin önəmini qeyd etdi. Siyasi əlaqələrimizin səviyyəsinin razılıq doğurduğunu deyən dövlətimizin başçısı bu əlaqələri digər sahələrdə də genişləndirməyin vacibliyini bildirdi. İkitərəfli əlaqələrin inkişafında səfirlərin rolunu qeyd edən prezident İlham Əliyev səfir Məhəmməd Əli Kamilin Azərbaycanın müvafiq qurumları ilə iqtisadi sahədə əməkdaşlıq imkanlarının araşdırılması üçün müzakirələr aparacağına ümidvar olduğunu bildirdi.*

*Səfir Məhəmməd Əli Kamil Cibuti Respublikasının Prezidenti İsmayıl Ömər Qellenin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Bakıya səfər edərkən, ölkəsinin prezidenti*

*ilə görüşdüyünü vurğulayan Məhəmməd Əli Kamil dedi:* «Cənab Prezident, mən Bakıya gələrkən cənab İsmayıl Ömər Qelle ilə görüşdüm. O mənə şəxsən bildirdi ki, Azərbaycan bizim üçün böyük əhəmiyyət kəsb edən mühüm ölkədir».

*Dövlətimizin başçısı prezident İsmayıl Ömər Qellenin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Cibuti Prezidentinə çatdırmağı xahiş etdi.*

# BANQLADEŞ XALQ RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ALLAMA SİDDİKİ İLƏ GÖRÜŞ

*26 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Banqladeş Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Allama Siddikinin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Allama Siddiki Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Allama Siddiki etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycan ilə Banqladeş arasında çox yaxşı siyasi əlaqələrin olduğunu deyən dövlətimizin başçısı ölkələrimizin bir-birini beynəlxalq təşkilatlar çərçivəsində dəstəkləməsinin önəmini qeyd etdi. Hər iki ölkənin BMT və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində sıx əməkdaşlıq etdiyini vurğulayan prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının bu il İstanbulda keçirilən Sammitində Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair Kontakt Qrupunun təsis edilməsinə göstərdiyi dəstəyə görə Banqladeş tərəfinə minnətdarlığını bildirdi. Azərbaycan ilə Banqladeş arasında iqtisadi sahədə əməkdaşlığa toxunan dövlətimizin başçısı qarşılıqlı ticarətin həcminin artırılması üçün çoxlu imkanların mövcud olduğunu qeyd etdi, iş adamları arasında əlaqələrin, eləcə də bu sahədə mövcud imkanların araşdırılmasının əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı iki ölkə arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün mütəmadi təmaslar qurulmasının vacibliyini bildirdi.*

*Səfir Allama Siddiki Banqladeş Xalq Respublikasının Prezidenti Abdul Hamidin salamlarını və ən xoş arzularını prezident İlham*

*Əliyevə çatdırdı. Banqladeşin Azərbaycana qardaş ölkə olduğunu deyən səfir Azərbaycana, Azərbaycan xalqına və mədəniyyətinə ölkəsində məhəbbətlə yanaşıldığını bildirdi, ölkəmizin qədim tarixi, həmçinin tarixən oynadığı rol barədə məlumatlı olduqlarını qeyd etdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevi ehtiramla yad edən səfir Allama Siddiki onun Azərbaycan xalqının milli ruhunun formalaşmasındakı rolundan danışaraq, ulu öndərin rəhbərlik etdiyi illərin ölkəmizin tarixində yaddaqalan bir dövr olduğunu dedi. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə toxunan səfir ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğuladı. Səfir Allama Siddiki prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın gələcəkdə daha da inkişaf edəcəyinə, geostrateji mövqeyini möhkəmləndirəcəyinə və daha vacib rol oynayacağına əminliyini ifadə etdi.*

*Prezident İlham Əliyev Banqladeş Xalq Respublikasının Prezidenti Abdul Hamidin salamlarına və ən xoş arzularına görə minnətdarlığını bildirdi, onun da salamlarını Banqladeş Prezidentinə çatdırmağı xahiş etdi.*

## CƏNUBİ AFRİKA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ PULE İSAAK MALEFANE İLƏ GÖRÜŞ

*26 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Cənubi Afrika Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Pule İsaak Malefanenin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Pule İsaak Malefane Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Pule İsaak Malefane etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycan Respublikası ilə Cənubi Afrika Respublikası arasında siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimizin iqtisadiyyat və ticarət sahələrində də əməkdaşlığı genişləndirməsinin zəruriliyini qeyd etdi.*

*Artıq bir neçə ildir Azərbaycanın Cənubi Afrika Respublikasında səfirliyinin fəaliyyət göstərdiyini bildirən prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi və biznes nümayəndələri üçün imkanların yaradılması baxımından səfirliklərin rolunu vurğuladı.*

*Səfir Pule İsaak Malefane ölkələrimiz arasında mövcud əlaqələrin gücləndirilməsi işində səylərini əsirgəməyəcəyini bildirdi.*

## ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ YAKUPİTİYA KURUPPU ARAÇÇİC ROHANACİT İLƏ GÖRÜŞ

*26 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Şri-Lanka Demokratik Sosialist Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Yakupitiya Kuruppu Araççic Rohanacitin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Yakupitiya Kuruppu Araççic Rohanacit Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Yakupitiya Kuruppu Araççic Rohanacit etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Səfir Yakupitiya Kuruppu Araççic Rohanacit Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti Maytripala Sirisenanın və Baş nazir Ranil Vikramasinqhanın salamlarını prezident İlham Əliyevə çatdırdı. Ölkələrimiz arasında mədəni sahədə əlaqələrin mövcud olduğunu deyən səfir bu sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsinin önəmini vurğuladı.*

*Azərbaycan ilə Şri-Lankanın dost ölkələr olduğunu deyən dövlətimizin başçısı hər iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq etdiyini qeyd etdi. Prezident İlham Əliyev ölkələrimiz arasında qarşılıqlı maraq doğuran bir sıra sahələrdə ikitərəfli əlaqələrin inkişaf etdirilməsinin vacibliyini vurğuladı. İqtisadi sahədə əməkdaşlığa toxunan dövlətimizin başçısı bu istiqamətdə ticarət dövriyyəsinin həcminin artırılmasının qarşıda duran ən mühüm məqsəd olduğunu dedi. Prezident İlham Əliyev Azərbaycan–Şri-Lanka əlaqələrinin inkişaf*

*etdirilməsi baxımından səfirin ölkəmizdəki diplomatik fəaliyyətinin uğurlu olacağına ümidvar olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti Maytripala Sirisenanın və Baş nazir Ranil Vikramasinqhanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Şri-Lanka Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## URUQVAY RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ENRİKE DELQADO XENTA İLƏ GÖRÜŞ

*27 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Uruqvay Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Enrike Delqado Xentanın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Enrike Delqado Xenta Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Enrike Delqado Xenta etimadnaməsini təqdim etdikdən sonra prezident İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycan ilə Uruqvay arasında əlaqələrin inkişafında son vaxtlar müsbət irəliləyişlərin olduğunu deyən dövlətimizin başçısı Bakı Beynəlxalq Humanitar Forumunda Uruqvay nümayəndə heyətinin fəal iştirakının önəmini vurğulayaraq, Uruqvay nümayəndə heyəti ilə görüşünü məmnunluqla xatırlatdı. Uruqvay nümayəndə heyətinin bu Forumda ənənəvi olaraq iştirak etdiyini bildirən prezident İlham Əliyev bunun ikitərəfli münasibətlərin inkişaf etdirilməsi üçün də yaxşı imkanlar yaratdığını dedi. Son vaxtlar Azərbaycan–Uruqvay əlaqələrinin inkişafında yaxşı dinamikanın olduğunu vurğulayan dövlətimizin başçısı münasibətlərimizin möhkəmləndirilməsində səfirin fəaliyyətinin də çox böyük əhəmiyyət daşıdığını bildirdi.*

*Səfir Enrike Delqado Xenta Uruqvay Respublikasının Prezidenti Tabare Vaskesin salamlarını dövlətimizin başçısına çatdırdı. O həmçinin ölkəsinin prezidentinin Azərbaycan ilə əlaqələrin inkişaf etdirilməsinə böyük önəm verdiyini dedi. Uruqvaylı*

*diplomat kifayət qədər yeni olan ikitərəfli əlaqələrimizi daha da inkişaf etdirmək niyyətində olduqlarını vurğuladı.*

*Dövlətimizin başçısı Uruqvay Respublikasının Prezidenti Tabare Vaskesin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Uruqvay Prezidentinə çatdırmağı xahiş etdi.*

## QANA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ KODZO KPOKU ALABO İLƏ GÖRÜŞ

*27 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Qana Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Kodzo Kpoku Alabonun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Kodzo Kpoku Alabo Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Kodzo Kpoku Alabo etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Kodzo Kpoku Alabo Qana Respublikasının Prezidenti Con Dramani Mahamanın salamlarını prezident İlham Əliyevə çatdırdı və bildirdi ki, Qana Prezidenti səfirə Azərbaycan Respublikası ilə Qana Respublikası arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi ilə bağlı tapşırıq verib. Kodzo Kpoku Alabo ilk olaraq Azərbaycan ilə Qana arasında siyasi məsləhətləşmələr haqqında Sazişin imzalanması, diplomatik və xidməti pasport sahiblərinin viza rejimindən azad olunması üzərində iş aparılmasının vacibliyini qeyd etdi.*

*Kodzo Kpoku Alabo Azərbaycandakı diplomatik fəaliyyəti müddətində ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi işində səylərini əsirgəməyəcəyini bildirdi.*

*Görüşdə ölkələrimiz arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən enerji və idman sahələrində inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı.*

*Dövlətimizin başçısı Qana prezidenti Con Dramani Mahamanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qana Prezidentinə çatdırmağı xahiş etdi.*

## CƏNUBİ SUDAN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ TELAR RİNQ DENQ İLƏ GÖRÜŞ

*27 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Cənubi Sudan Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Telar Rinq Denqin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Telar Rinq Denq Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Telar Rinq Denq etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycanın Cənubi Sudanla əlaqələrinin başlanğıc mərhələdə olduğunu deyən dövlətimizin başçısı ikitərəfli əməkdaşlığımızın inkişaf etdirilməsi istiqamətində təşəbbüslərin nəzərdən keçirilməsinin əhəmiyyətini vurğuladı.İkitərəfli əlaqələrimizin müxtəlif istiqamətlərdə, xüsusilə iqtisadi, enerji, ticarət, səhiyyə sahələrində inkişafı üçün imkanların olduğunu deyən prezident İlham Əliyev bu istiqamətdə imkanların araşdırılmasının önəmini qeyd etdi.*

*Azərbaycanda səfir təyin olunmasından məmnunluğunu ifadə edən Telar Rinq Denq bunun ölkəmiz ilə daha yaxından tanış olmaq üçün yaxşı fürsət yaratdığını bildirdi.Azərbaycana ilk dəfədir səfər etdiyini deyən səfir Bakının gözəl şəhər olduğunu vurğuladı. Cənubi Sudanın dünya xəritəsində ən yeni ölkələrdən biri olduğunu xatırladan səfir Telar Rinq Denq ölkəsinin Azərbaycan ilə yaxşı ikitərəfli əlaqələr quracağına ümidvar olduğunu bildirdi.*

## KANADANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ KRİSTOFER CON KUTER İLƏ GÖRÜŞ

*27 oktyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Kanadanın ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Kristofer Con Kuterin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Kristofer Con Kuter Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Kristofer Con Kuter etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Səfir Kristofer Con Kuter paytaxtımızın inkişafının onda dərin təəssürat yaratdığını məmnunluqla qeyd etdi. Kristofer Con Kuter Kanadanın bir sıra mühüm şirkətlərinin Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən yüksək texnologiyalar, nəqliyyat, turizm sahələrində fəaliyyət göstərdiklərini qeyd etdi. Azərbaycanlı tələbələrin Kanada universitetlərində təhsil aldıqlarını məmnunluqla qeyd edən Kristofer Con Kuter ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığın daha da genişləndirilməsinin önəmini vurğuladı.*

*Kanadalı diplomat ölkələrimiz arasında əlaqələrin gücləndirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirdi.*

*Kanada şirkətlərinin uzun illər Azərbaycanda fəaliyyətinə toxunan dövlətimizin başçısı həyata keçirilən birgə layihələrin əhəmiyyətini qeyd etdi.*

*Prezident İlham Əliyev Bakıda fəaliyyət göstərən Kanada şirkətlərinə məxsus beşulduzlu iki hotelin – «Four Seasons» və «Fairmont» hotellərinin regionda ən yaxşı hotellərdən olduqlarını bildirdi. Dövlətimizin başçısı «Fairmont» hotelinin yerləşdiyi müasir*

*memarlıq üslubunda inşa edilən «Alov qüllələri» kompleksinin Bakının yeni simvollarından biri olduğunu dedi.*

*Prezident İlham Əliyev Kanada şirkətləri ilə əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**

Hörmətli cənab Prezident!

Əlcəzair Xalq Demokratik Respublikasının milli bayramı– İnqilab Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Əminəm ki, Azərbaycan ilə Əlcəzair arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əlcəzair xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 oktyabr 2016-cı il*

## VII AZƏRBAYCAN–RUSİYA REGİONLARARASI FORUM İŞTİRAKÇILARINA

Hörmətli dostlar!

Bakıda keçirilən VII Azərbaycan–Rusiya Regionlararası Forumun işə başlaması münasibətilə sizi ürəkdən təbrik edirəm.

Əlamətdar haldır ki, növbə ilə Azərbaycanda və Rusiyada keçirilən bu forumlar ölkələrimiz arasında strateji tərəfdaşlığın möhkəmlənməsinə müsbət töhfə verir, qarşılıqlı faydalı əməkdaşlığın genişlənməsinə şərait yaradır. Aktual məsələlərin geniş spektrini əhatə edən bu forumların iştirakçılarının nüfuzlu tərkibi və zəngin proqramları onlara yüksək marağın parlaq sübutudur. Bu da tamamilə qanunauyğundur, çünki həmin forumlar məkanında birbaşa dialoq aparılır, yeni işgüzar əlaqələr qurulur, Azərbaycan–Rusiya münasibətlərinin dərinləşdirilməsinə yönəlmiş konstruktiv təşəbbüslər və innovasiya layihələri yaranır.

Şübhə yoxdur ki, növbəti görüşün tam konkret gündəliyi sizə ticari-iqtisadi əməkdaşlığın genişləndirilməsi yollarını cızmağa, turist axınlarının artırılması perspektivlərini müzakirə etməyə, sənaye və kənd təsərrüfatı sahələrində təcrübə mübadiləsi aparmağa, ikitərəfli əlaqələrin mədəni-humanitar tərkib hissəsinin inkişaf dinamikası barədə söhbət etməyə imkan verəcək. Hər iki ölkənin güclü iqtisadi potensiala və birgə iş sahəsində zəngin təcrübəyə malik olmasını nəzərə alaraq, gələcəkdə səylərimizi daha sıx birləşdirmək və regionlarımız arasında əməkdaşlığı daha da fəallaşdırmaq zəruridir. Qlobal böhranın bütün dünya miqyasında ciddi dəyişikliklərə gətirib çıxardığı bugünkü mürəkkəb dövrdə bu çox vacibdir.

Ümidvaram ki, siz iqtisadiyyatın və investisiyaların, mədəniyyətin və təhsilin müxtəlif məsələlərinə dair mövqelərimizi uzlaşdırmağa, qarşılıqlı fəaliyyətin prioritetlərini müəyyənləşdirməyə və

onun daha təsirli formalarını işləyib hazırlamağa müvəffəq olacaqsınız. Əminəm ki, budəfəki Forum konstruktiv şəraitdə keçəcək, maraqlı layihələr və məzmunlu diskussiyalarla yadda qalacaq, başlıcası isə ölkələrimizə real fayda verəcək.

Bütün iştirakçılara səmərəli iş və praktiki nəticələr, möhkəm cansağlığı diləyir, ən xoş arzularımı bildirirəm!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 oktyabr 2016-cı il*

## QEYDLƏR

**1. Heydər Əliyev,** H e y d ə r  Ə l i r z a  o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 5, 6, 19, 43, 46, 51–58, 59, 72, 102, 159, 193, 223, 231, 232, 233, 234, 255, 256, 290, 342.

**2. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 17, 72, 127, 258.

**3. Türkiyə,** T ü r k i y ə C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 17, 76, 87, 89, 90, 201–213, 273–274, 292–293, 337, 338.

**4. Füzuli,** M ə h ə m m ə d S ü l e y m a n o ğ l u (1494–1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan,

fars və ərəb dillərində qəzəl, poema, qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 21.

**5. Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 1949-cu ildə yaradılmışdır. AŞPA-ya 47 Avropa ölkəsi daxildir. – 29–30, 36–37, 114, 179, 181, 282, 289.

**6. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 31, 90, 116–118, 128–129, 134–135, 184, 185, 194, 197, 205, 216, 252.

**7. İ l y a s U m a x a n o v** (d.1962) – Rusiya siyasətçisi. 2010-cu ildən Rusiya Federal Məclisinin Federal Şurası Sədrinin müavinidir. «Vahid Rusiya» siyasi partiyasının üzvüdür. – 31.

**8. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək

üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 33, 84, 107, 121, 133, 140, 144, 153, 154, 158, 161, 162, 164, 165, 173, 174, 243, 244, 246.

**9. Avropa Xalq Partiyası** – Ümumavropa məkanında böyük nüfuza malik partiya. Müasir Avropa dəyərlərinin formalaşmasında mühüm rol oynayır. Avropa Xalq Partiyasının deputatları Avropanın əsas beynəlxalq təşkilatlarında – Avropa Parlamentində, Avropa Şurasında, ATƏT və NATO Parlament Assambleyalarında hər hansı məsələ ilə bağlı qərarların qəbul edilməsi zamanı həlledici rol oynayır. Avropa Xalq Partiyası

demokratik prinsiplərə əsaslanan sağ mərkəzçi siyasi partiyadır. – 34–35.

**10. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağın işğalına başladılar. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni silahlı qüvvələrinin tapdağı altındadır. – 34, 40, 105, 109, 122, 148, 149, 155, 182, 185, 218, 222, 224, 225, 228, 231, 232, 235, 268, 281, 282,283, 295, 298, 312, 314, 315, 322, 336, 342.

**11. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min $km^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 36, 90, 140–141, 184, 258, 280, 283, 288.

**12. Belarus,** Belarus Respublikası – Avropada dövlət. Sahəsi 207,6 min $km^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 38–39, 89, 286.

**13. Aleksandr Lukaşenko** (d.1954) – Belarusun dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 39.

**14. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 40–41, 89, 223–229, 286, 334.

**15. Məmnun Hüseyn** (d.1940) – iş adamı. 2013–2018-ci illərdə Pakistan İslam Respublikasının Prezidenti olmuşdur. – 40, 334.

**16. Kəşmir** – Asiyada tarixi vilayət. Qədimdə və orta əsrlərdə Hindistan ərazisində yaranmış müxtəlif dövlət birləşmələrinin tərkibində olmuşdur. 1846-cı ildə ingilislər Kəşmiri işğal edib 7,5 milyon rupi ödənclə Sammi knyazlığına vermişlər. 1947-ci ilin avqustunda yaradılan müstəqil Hindistan dövləti Kəşmiri öz ərazisinə qatmağa çalışır. Hal-hazırda Kəşmirin şimal-qərb hissəsi Pakistanın, qalan hissəsi isə Hindistanın (1949) nəzarəti altındadır. 1956-cı ildə Kəşmir «Hindistan İttifaqının tərkib hissəsi» elan edildi. Hindistanla Pakistan arasında bir neçə dəfə hərbi münaqişə baş versə də, bu problem hələ də öz həllini tapmamışdır. – 40, 222, 224, 228.

**17. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 42, 197, 211.

**18. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyasi Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXR Mərkəzi Hərbi Şurasının Sədridir. – 42.

**19. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ; beynəlxalq adı SOCAR – State Oil Company of Azerbaijan) – Azərbaycan Respublikası ərazisindəki neft sərvətlərindən istifadəni vahid siyasəti əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq-enerji kompleksinin inkişafını təmin edən şirkət. ARDNŞ respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. ARDNŞ 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə hasilatın pay bölgüsü sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 70, 72, 73, 74, 76.

**20. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmış, 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 71.

**21. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 87, 202, 205, 210, 211, 213, 292, 337.

**22. Zakir Həsənov,** Z a k i r  Ə s g ə r  o ğ l u (d.1959) – general-leytenant. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 88.

**23. Latviya,** L a t v i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. –88, 154–155.

**24. Milli Azərbaycan Tarix Muzeyi** – 1920-ci ildə yaradılmışdır. Muzeyin müxtəlif fondlarında Vətən tarixini yaşadan 300 minədək maddi-mədəniyyət nümunəsi qorunur. Muzeyin kitabxanasında 80 mindən artıq XIX–XX əsrlərin əvvəllərində nəşr olunmuş nadir kitab, jurnal və qəzet toplanmışdır. Muzeyin 10 otağında Azərbaycan xalqının görkəmli oğlu Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətinə həsr olunmuş materiallar qorunub saxlanılır. – 90.

**25. Müstəqil Dövlətlər Birliyi**(MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil

cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 92–97, 270, 280.

**26. Aleksandr Bortnikov** (d.1951) – Rusiyanın dövlət xadimi, ordu generalı. 2008-ci ildən Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin direktoru, Milli Antiterror Komitəsinin sədri, MDB dövlətlərinin xüsusi xidmət və təhlükəsizlik orqanları rəhbərlər Şurasının sədridir. Rusiya Federasiyası Təhlükəsizlik Şurasının daimi üzvüdür. – 96–97.

**27. İsrail** (İsrail Dövləti) **–** Yaxın Şərqdə dövlət. Sahəsi 22,1 min km$^2$, əhalisi 8,7 milyon nəfərdir (1948–49-cu illərdə işğal edilmiş ərazi daxil olmaqla). İsrail dövləti BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (Knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. Paytaxtı Yerusəlim şəhəridir. – 98, 136, 286.

**28. Reuven Rivlin** (d.1939) – İsrailin dövlət və ictimai xadimi. 2014-cü ildən İsrail Dövlətinin Prezidentidir. – 98.

**29. Şimon Peres** (1923–2016) – İsrail siyasətçisi və dövlət xadimi. 2007–2014-cü illərdə İsrailin prezidenti olmuşdur. «Avoda» Partiyasının yaradıcısı və lideri, Nobel mükafatı laureatı. – 98, 136.

**30. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər

Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 99, 131, 133, 146, 154, 173, 174, 175.

**31. Tacikistan,** T a c i k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 143,1 min $km^2$, əhalisi 9 milyon nəfərdir. İnzibati ərazisi Bədəxşan Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 100–101.

**32. Emoməli Rəhmon,** E m o m ə l i Ş ə r i f o ğ l u (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin Sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 100, 101.

**33. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon $km^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 102, 184, 283, 285, 287, 288.

**34. ABŞ-da Simon Vizental Mərkəzi** – qeyri-hökumət təşkilatı. Fəaliyyəti insan hüquqlarının müdafiəsi, terrorizmlə, antisemitizmlə mübarizə aparmaqdır. 1977-ci ildə Los-Ancelesdə (ABŞ) yaradılmışdır. Mərkəzi ravvin Marvin Xier yaratmışdır. Mərkəzin adı məşhur ictimai xadim, Avstriyada vəhşicəsinə öldürülmüş yəhudilərin sənədləşdirilməsini aparan və «nasistlərin axtarışına» çıxmış Simon Vizentalın adı ilə adlandırılmışdır. – 102.

**35. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilat. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı 2 ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 102, 121, 123–125.

**36. Çili,** Ç i l i R e s p u b l i k a s ı – Cənubi Amerikanın cənub-qərbində dövlət. Sahəsi 756, 9 min km$^2$, əhalisi 18 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı ikipalatalı parlamentdir. (Senat və Deputatlar Palatası). Paytaxtı Santyaqo şəhəridir. – 103.

**37. Uruqvay,** U r u q v a y Ş ə r q R e s p u b l i k a s ı – Cənubi Amerikada dövlət. Sahəsi 178 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. İnzibati ərazisi 19 departamentə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlament (Senat və Nümayəndələr Palatası), paytaxtı Montevideodur. – 105–106, 346–347.

**38. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə

Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 109, 147, 154, 298, 315.

**39. Şamaxı Cümə məscidi** – 743–744-cü illərdə inşa edilmiş dini mərkəz. Cənubi Qafqazda Dərbənd Cümə məscidindən sonra ən qədim məsciddir. Orta əsrlərdə bərpa edilmiş məscid 1856 və 1902-ci illərdə Şamaxı zəlzələləri zamanı dağılmış, birinci dəfə Qasım bəy Hacıbababəyov, ikinci dəfə isə İosif Ploşko tərəfindən bərpa edilmişdir. 1918-ci ildə ermənilər tərəfindən tamamilə yandırılmışdır. 2010–2013-cü illərdə prezident İlham Əliyevin sərəncamına əsasən, əsaslı surətdə təmir edilmişdir. Məscid Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən tarixi mədəniyyət abidəsi kimi qeydiyyata alınmışdır. – 110, 146.

**40. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 109, 114, 147,182, 224, 229, 282, 298, 315.

**41. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 113, 114, 148, 282.

**42. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin əsas orqanlarından biri. BMT-nin üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə tövsiyələr vermək səlahiyyəti var.

Baş Məclisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var. – 114, 149, 298.

**43. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 114, 122, 184, 224, 225, 228, 235, 282, 298, 315.

**44. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 116, 135, 205, 210, 211, 276, 290.

**45. Olqa Qolodets** (d.1962) – Rusiya siyasətçisi və iqtisadçısı. 2012-ci ildən Rusiya Federasiyası Hökumətinin Sədr müavinidir. – 116–118, 128–129.

**46. Pan Gi Mun** (d.1944) – peşəkar diplomat. 2007–2016-cı illərdə Birləşmiş Millətlər Təşkilatının Baş katibi olmuşdur. – 118–119, 130.

**47. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. Azərbaycan İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 121, 131.

**48. Yoahim Qauk** (d.1940) – Almaniyanın siyasi xadimi. 2012–2017-ci illərdə Almaniya Federativ Respublikasının Prezidenti olmuşdur. – 127.

**49. Argentina,** Argentina Respublikası – Cənubi Amerikanın cənub-şərqində dövlət. Sahəsi 2,780 min km$^2$, əhalisi 43,4 milyon nəfərdir. Argentina Federasiyası tərkibinə 22 əyalət, 1 milli ərazi (Odlu Torpaq) və 1 Federal (paytaxt) mahal daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Buenos-Ayres şəhəridir. – 132–133.

**50. Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutu –** Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin ali təhsil müəssisəsi. Əsası 1944-cü ildə qoyulmuşdur. Yüksək səviyyəli peşəkar diplomatlar, tədqiqatçılar, jurnalistlər, siyasi və ictimai xadimlər hazırlayır. – 134–135.

**51. Fransisk,** əsl adı Jorqe Mario Bergoglio (d.1936) – 266-cı Roma Papası, indiki Vatikan hökmdarı. Cənubi amerikalı və Yezuit ordenindən ilk Papa. 2013-cü ildə Roma Papası seçildikdən sonra Fransisk adını qəbul etmişdir. – 142–153.

**52. Vatikan** – Avropada Papa dövləti. Monte-Vatikano təpəliyində, İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsindədir. Roma-Katolik kilsəsinin siyasi, inzibati və ideoloji mərkəzidir.

Vatikan teokratik monarxiyadır. Dövlət başçısı Roma Papasıdır. – 142–153.

**53. Atəşpərəstlər məbədi** – Suraxanı qəsəbəsində atəşpərəst məbəd. Beşguşəli daxili həyəti əhatə edən hücrələrdən və həyətin ortasında tikilmiş üstü günbəzlə örtülən dördbucaqlı «od məbədindən» ibarətdir. Atəşgahın əsası, şübhəsiz ki, qədim zamanlarda qoyulmuşdur. Lakin indiki binanı XVIII əsrdə Hindistanın Multan vilayətindən gələn atəşpərəst tacir və zəvvarlar tikdirmişlər. Hücrələrin üzərindəki hind dilində yazılmış kitabələrdə 1713-cü ildə tikildiyi göstərilir. – 146.

**54. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 113, 148, 225.

**55. Suriya,** S u r i y a Ə r ə b R e s p u b l i k a s ı – Yaxın Şərqdə dövlət. Sahəsi 185,2 min km$^2$, əhalisi 17,7 milyon nəfərdir. İnzibati ərazisi 10 mühafazaya (qubernatorluğa) və Dəməşq munisipalitetinə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Xalq Şurasıdır. Paytaxtı Dəməşq şəhəridir. – 122, 281.

**56. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 156–157, 170–171, 189, 240–241, 276, 286.

**57. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 156, 157, 170, 171, 240–241.

**58. Rəşid Behbudov**, Rəşid Məcid oğlu (1915–1989) – görkəmli Azərbaycan müğənnisi. Azərbaycan və SSRİ Xalq artisti. Müstəsna gözəl səsə malik olan Rəşid Behbudov Azərbaycan vokal məktəbinin görkəmli nümayəndələrindəndir. Dünyanın bir çox ölkələrində uğurla keçən qastrol səfərlərində olmuşdur. SSRİ Dövlət mükafatı laureatı və Sosialist Əməyi Qəhrəmanıdır. – 158–165.

**59. Firəngiz Əlizadə,** Firəngiz Əliağa qızı (d.1947) – pianoçu, bəstəkar. Azərbaycan Respublikasının Xalq artisti. 2007-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının sədridir. 2008-ci ildə «YUNESKO-nun sülh naminə artisti» adına layiq görülmüşdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 161–162.

**60. Müslüm Maqomayev,** Müslüm Məhəmməd oğlu (1942–2008) – görkəmli Azərbaycan müğənnisi. Azərbaycan Respublikası və SSRİ Xalq artisti. Bəstəkar Müslüm Maqomayevin nəvəsi. Keçmiş SSRİ məkanında və bir çox xarici ölkələrdə müvəffəqiyyətlə çıxış etmişdir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 161.

**61. Üzeyir Hacıbəyli,** Üzeyir Əbdülhüseyn oğlu (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 161.

**62. Leyla Bədirbəyli,** Leyla Ağalar qızı (1920–1999) – görkəmli səhnə ustası, Azərbaycanın Xalq artisti. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Azərbaycan Akademik Milli Dram Teatrında fəaliyyət göstərmişdir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 161.

**63. Xuraman Qasımova,** X u r a m a n Ə k r ə m q ı z ı (d.1951) – Azərbaycanın Xalq artisti. Azərbaycan Dövlət mükafatı laureatı. 1976–2006-cı illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. Bir sıra kinofilmlərə çəkilmişdir. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 162–163.

**64. Fidan Qasımova,** F i d a n Ə k r ə m q ı z ı (1947) – Azərbaycan müğənnisi. SSRİ və Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan Dövlət mükafatı laureatı, Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 163.

**65. Qətər,** Q ə t ə r D ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 11,5 min km$^2$, əhalisi 2,6 milyon nəfərdir. Dövlət başçısı əmirdir. – 168–169, 333.

**66. Şeyx Təmim bin Həməd əl-Tani** (d.1980) – 2013-cü ildən Qətər Dövlətinin Əmiridir. – 168, 169, 333.

**67. Avropa Parlamenti,** A v r o p a r l a m e n t – Avropa İttifaqının (Aİ) fövqəlmilli institutlarından biri. 1957-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır. Seçmək və seçilmək hüququndan Aİ vətəndaşları istifadə edir. Deputat mandatlarının ümumi sayı (2007) 785-dir. Plenar iclasları Strasburqda, komissiyaların işi Brüsseldə keçirilir. Avroparlamentin bütün çağırışlarında başlıca mövqe Avropa Xalq Partiyasına və Avropa Sosialist Partiyasına məxsusdur. Avroparlament məcburi xarakter daşımayan qərar verir. Avroparlament beynəlxalq problemlərin müzakirəsi zamanı öz səlahiyyətlərindən geniş istifadə edir, qəbul olunan qətnamələr məcburi qüvvəyə malik deyildir. Avroparlament Azərbaycan Respublikasının Milli Məclisi ilə əməkdaşlıq edir. – 182, 183, 282, 286, 298, 315, 336.

**68. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-preziden-

ti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 173, 174, 175.

**69. Füzuli rayonu** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 183, 238.

**70. Cəbrayıl** — Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 km$^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 183, 238.

**71. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir – 196, 208, 209, 211, 236, 274, 310, 315, 316, 325, 326.

**72. Dünya İqtisadi Forumu,** Davos İqtisadi Forumu – İsveçrənin kurort şəhəri Davosda hər il Dünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 187, 270.

**73.** ***bp,*** «British Petroleum» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən

Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 203.

**74. Robert Dadli** (d.1955) – mühəndis. 2009-cu ildən *bp*-nin icraçı direktoru, 2010-cu ildən isə baş direktorudur. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 203.

**75. Venesuela,** V e n e s u e l a B o l i v a r R e s p u b l i k a s ı – Cənubi Amerikanın şimalında dövlət. Sahəsi 916,4 min km$^2$, əhalisi 30,7 milyon nəfərdir. Ərazisi 23 ştata bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir (Deputatlar palatası və Senat). Paytaxtı Karakas şəhəridir. – 204, 205, 206, 207, 294–304.

**76. Nikolas Maduro** (d.1962) – Venesuelanın siyasi və dövlət xadimi. 2013-cü ildən Venesuela Respublikasının Prezidentidir. – 204, 205, 206, 207, 294–304.

**77. Binəli Yıldırım** (d.1955) – Türkiyənin siyasi xadimi, 2015–2016-cı illərdə Nəqliyyat naziri, 2016–2018-ci illərdə isə Baş nazir olmuşdur. 2018-ci il iyul ayından Türkiyə Böyük Millət Məclisinin Sədridir. – 206, 338.

**78. Bakı–Tbilisi–Ərzurum** – «Cənubi Qafqaz» qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Türkiyə ərazisindən keçir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 208, 236.

**79. İspaniya,** İ s p a n i y a K r a l l ı ğ ı – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 506 min km$^2$, əhalisi 47,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı Korteslərdir (ikipalatalı parlament –

Konqres və Senat). Mərakeş sahilindəki Seuta və Melilya anklav şəhərləri İspaniyanın mülküdür. Paytaxtı Madrid şəhəridir. – 214, 258.

**80. VI Felipe** (d.1968) – 2014-cü ildən İspaniya kralıdır. – 214.

**81. Antonio Quterreş** (d.1949) – Portuqaliyanın dövlət xadimi. 1995–2002-ci illərdə Portuqaliyanın Baş naziri, 1999–2005-ci illərdə Sosialist İnternasionalının sədri, 2005–2015-ci illərdə BMT-də Qaçqınların işi üzrə Baş Komissar olmuşdur. 2017-ci il yanvarın 1-dən BMT-nin Baş katibidir. – 218.

**82. 1990-cı il 20 Yanvar hadisələri –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 231.

**83. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili

elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 231.

**84. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min $km^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 231.

**85. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 231, 232.

**86. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər.

Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 231, 232, 283.

**87. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 233.

**88. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 242.

**89. Səməd Vurğun,** Səməd Yusif oğlu Vəkilov (1906–1956) – böyük Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın Xalq şairi. Yaradıcılığı XX əsr Azərbaycan şeirinin inkişafında mühüm rol oynamışdır. Səməd Vurğun Azərbaycan Yazıçılar İttifaqının məsul katibi, sədri, Azərbaycanın Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyətinin sədri, Azərbaycan MEA-nın vitse-prezidenti olmuşdur, 2 dəfə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. – 254.

**90. Fransua Olland** (d.1954) – Fransanın dövlət xadimi. 2012–2017-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 280.

## Şəxsi adlar göstəricisi

**Abdullahi Aişə** – 104
**Abdullayeva Yaylaq** – 266
**Ader Yanoş** – 269
**Axundova Mehriban** – 8, 15, 18
**Albayrak Berat** – 206
**Akıncı Mustafa** – 206
**Alabo Kodzo** – 348
**Andre Pyer** – 305
**Angelo Farrugia** – 36–37
**Amarilya Xerardo** – 105–106
**Aşkın Kamal** – 251, 252
**Avcı Nəbi** – 87
**Babaşov Rəcəb** – 243
**Babayev Muxtar** – 69–73
**Bayramov Niyazi** – 5, 21
**Behbudov Rəşid** – 158–165
**Berdıməhəmmədov Qurbanqulu**– 307
**Bədirbəyli Leyla** – 161
**Bortnikov Aleksandr** – 96–97

**Bures Doris** – 306
**Buteflikay Ədbüləziz** – 352
**Cahangirzadə Cavad** – 170–171
**Camalov Yavər** – 88
**Ceferin Aleksander** – 138–139
**Cəfərov Fərid** – 73–75
**Cəfərov Xəyal** – 75–77
**Dadli Robert** – 203
**Denq Telar** – 349
**Enqida Qetaçyu** – 123–125
**Əl-Sai Yusif** – 168–169
**Əl-Tani Şeyx Təmim** – 168, 169, 333
**Əl-Tani Xəlifə** – 333
**Əl-Tüveycri Əbdüləziz** – 121–123, 131
**Ələkbərov Anar** – 173
**Əli Kamil Məhəmməd** – 339–340
**Əliyev Heydər** – 5, 6, 19, 43, 46, 51–58, 59, 72, 102, 159, 193, 223, 231, 232, 233, 234, 255, 256, 290, 342
**Əliyeva Leyla** – 173, 174, 175
**Əliyeva Mehriban** – 33, 84, 107, 121, 133, 140, 144, 153, 154, 158, 161, 162, 164, 165, 173, 174, 243, 244, 246
**Əliyeva İradə** – 27
**Əliyev İbrahim** – 267
**Əlizadə Firəngiz** – 161–162
**Əmirov Fikrət** – 163
**Ərdoğan Rəcəb Tayyib** – 87, 202, 205, 210, 211, 213, 292, 337
**VI Felipe** – 214
**Fərəcov Zakir** – 43, 59–65
**Fəzli Əbdülrza** – 156–157
**Fransisk (*Roma Papası*)** – 142–153

**Füzuli Məhəmməd** – 21
**Hacıbəyli Üzeyir** – 161
**Hamid Abdul** – 341, 342
**Həsən Navid** – 242
**Həsənov Zakir** – 88
**Hussai Rana** – 40–41
**Hüseynov Xanlar** – 266
**Hüseyn Məmnun** – 40, 334
**Hitler Adolf** – 302
**Xenta Enrike** – 346
**Ximenez Patrisia** – 132–133
**Xudabəxş Məcid** – 240–241
**İbrahimov İbrahim** – 27–28
**II İohan Pavel** – 152
**İşıq Fikri** – 87
**İanku Dan** – 166–167
**Kalyulayd Kersti** – 172
**Kerri Con** – 285, 286
**Kasprşik Anji** – 305
**Kim Yanqhun** – 205
**Kuper Abraham** – 102
**Kuter Kristofer** – 350
**Kiselyov Dmitri** – 270–291
**Qafarov Əbülfəz** – 263
**Qarayev Qara** – 163
**Qasımov Rahid** – 253
**Qasımov Ramil** – 28
**Qasımova Elnarə** – 251
**Qasımova Xuraman** – 162–163
**Qasımova Fidan** – 163
**Qauk Yoahim** – 127
**Qolodets Olqa** – 116–118, 128–129
**Qomes Delsi** – 296
**Qrabar-Kitaroviç Kolinda** – 308–332
**Quliyev Məhərrəm** – 255

**Quterreş Antonio** – 218
**Qorbaçov Mixail** – 193
**Lukaşenko Aleksandr** – 39
**Maduro Nikolas** – 204, 205, 206, 207, 294–304
**Maqomayev Müslüm** – 161
**Mahmudov Arif** – 18–20
**Makri Maurisio** – 132, 133
**Malefane Pule** – 343
**Mansel Jan** – 140–141
**Mario David** – 34
**Məhərrəmov Nadir** – 79–81
**Məmmədov Rasim** – 215
**Məmmədov Saleh** – 243
**Məmmədyarov Elmar** – 296
**Məmmədyarova Türkan** – 46
**Məmmədyarova Zeynəb** – 46
**Moreyra İvan** – 103
**Murnietse İnara** – 154–155
**Musayev Sahib** – 77–79
**Mustafayev Şahin** – 8, 65–69
**Mustafayev Tacəddin** – 257
**Mustafazadə Xəyyam** – 165
**Nikolski Aleksandr** – 29–30
**Obama Barak** – 285
**Olland Fransua** – 280
**Osmanova Yeganə** – 250
**Özoral Erkan** – 292
**Pak Kın He** – 126
**Pan Gi Mun** – 118–119, 130
**Peres Şimon** – 98, 136
**Popov İqor** – 305
**Popova Marqarita** – 99
**Prayut Çan-Oçay** – 219
**Preda Florin** – 29

**Putin Vladimir** – 116, 135, 205, 210, 211, 276, 290
**Rəhmon Emoməli** – 100, 101
**Ravkov Andrey** – 38–39
**Rivlin Reuven** – 98
**Rohanacit Yakupitiya** – 344–345
**Ruhani Həsən** – 156, 157, 170, 171, 240–241
**Rzayev Baba** – 244
**Salayev Fuad** – 158
**Salber Herbert** – 336
**Səməd Vurğun** – 254
**Si Cinpin** – 42
**Siddiki Allama** – 341–342
**Stav Dan** – 136
**Sultanoğlu Cihan** – 118–121, 130
**Şahverdiyev Kamil** – 164
**Şennak Stefan** – 29–30
**Şərif Nəvaz Məhəmməd** – 41, 220–229
**Şirməmmədov Namis** – 81–84
**Tağıyev Mübariz** – 162
**Torkunov Anatoli** – 134–135
**Umaxanov İlyas** – 31
**Uorlik Ceyms** – 305
**Vaskes Tabare** – 106, 346–347
**Yohannis Klaus** – 166, 167
**Yıldırım Binəli** – 206, 338
**Zeman Miloş** – 335
**Zəkiyev İlham** – 26–27
**Zuxurov Şukurcon** – 100–101

## Coğrafi adlar göstəricisi

**Abşeron** *(yarımada)* – 196, 197
**Adriatik dənizi** – 318
**Ağdərə** – 183, 238
**Ağstafa** – 250, 255–268
**Albaniya** – 274
**Almaniya** – 17, 72, 127, 258
**Amerika Birləşmiş Ştatları** – 102, 184, 283, 285, 287, 288
**Anadolu** – 274
**Aralıq dənizi** – 208
**Argentina** – 132–133
**Asiya** – 197, 226
**Avrasiya** – 120
**Avroatlantika** – 322
**Avropa** – 16, 24, 25, 76, 112, 120, 143, 166, 178, 179, 181, 226, 280, 291
**Avstriya** – 306
**Balaxanı** – 189
**Baltik dənizi** – 318
**Banqladeş** – 341–342
**Belarus Respublikası** – 38–39, 89, 286
**Belçika** – 258
**Bolqarıstan** – 99
**Bosniya və Herseqovina** – 36
**Ceyhan** – 208
**Cəbrayıl** – 183, 238
**Cənubi Afrika Respublikası** – 343
**Cənubi Qafqaz** – 10, 14, 39, 57–58, 242, 336

**Cənubi Sudan** – 349
**Cibuti** – 339–340
**Çex Respublikası** – 88, 335
**Çili** – 103
**Çin** – 42, 197, 211
**Dağlıq Qarabağ** – 34, 40, 105, 109, 122, 148, 149, 155, 182, 185, 218, 222, 224, 225, 228, 231, 232, 235, 268, 281, 282,283, 295, 298, 312, 314, 315, 322, 336, 342
**Estoniya** – 88, 172
**Əfqanıstan** – 122
**Əlcəzair** – 352
**Ərdəbil** – 240–241
**Ərzurum** – 208
**Fələstin** – 122
**Fransa** – 36, 90, 140–141, 184, 258, 280, 283, 288
**Füzuli** – 183, 238
**Gəncə** – 10, 14
**Gürcüstan** – 216
**Hollandiya** – 258
**Xəzər dənizi** – 208, 234, 301
**Xorvatiya** – 88
**Xocalı** – 113, 148, 225
**İmişli** – 248
**İraq** – 122
**İran** – 156–157, 170–171, 189, 240–241, 276, 286
**İspaniya** – 214, 258
**İsrail** – 98, 136, 286
**İstanbul** – 201–213
**İtaliya** – 36, 258, 288
**Kanada** – 89, 350–351
**Karakas** – 302

**Kəşmir** – 40, 222, 224, 228
**Koreya Respublikası** – 75, 76, 126
**Kür çayı** – 14
**Kvetta** – 334
**Qafqaz** – 18, 110, 146, 152
**Qana** – 348
**Qətər** – 168–169, 333
**Qazax** – 243–254
**Qara dəniz** – 76, 208, 318
**Qəbələ** – 14
**Qobustan** – 74
**Laçın** – 231, 232
**Latviya** – 88, 154–155
**Macarıstan** – 269
**Malta** – 36
**Masallı** – 66, 189
**Meksika** – 144
**Mingəçevir** – 5–21
**Monteneqro** – 88
**Mutan** – 227
**Naxçıvan Muxtar Respublikası**– 231
**Neftçala** – 189
**Nyu York** – 119, 120
**Orta Şərq** – 120
**Pakistan** – 40–41, 89, 223–229, 286, 334
**Paris** – 140
**Pirallahı** – 189
**Rumıniya** – 36, 166–167
**Rusiya** – 31, 90, 116–118, 128–129, 134–135, 184, 185, 194, 197, 205, 216, 252, 270–291
**Serbiya** – 36
**Somali** – 122
**Sumqayıt** – 43–86
**Suriya** – 122, 281

**Şamaxı** – 110
**Şəki** – 110
**Şərqi Anadolu** – 282
**Şri-Lanka** – 344–345
**Şuşa** – 231, 232, 283
**Tacikistan** – 100–101
**Tailand** – 219
**Tokio** – 28
**Türkiyə** – 17,76, 87, 89, 90, 201–213, 273, 274, 292–293, 337, 338
**Türkmənistan** – 307
**Ukrayna** – 89
**Uruqvay** – 105–106, 346–347
**Vatikan** – 142–153
**Veliko Tırnovo** – 99
**Venesuela** – 204, 205, 206, 207, 294–304
**Yaxın Şərq** – 111, 178, 197, 211, 280
**Yalama** – 195
**Yaponiya** – 16, 17, 287
**Zaqreb** – 311

# MÜNDƏRİCAT

MİNGƏÇEVİR ŞƏHƏRİNƏ SƏFƏR

*21 sentyabr 2016-cı il.............................................................................5*

MİNGƏÇEVİR SƏNAYE PARKININ TƏMƏLQOYMA MƏRASİMİNDƏ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMA-YƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*21 sentyabr 2016-cı il.............................................................................7*

II AZƏRBAYCAN BEYNƏLXALQ MÜDAFİƏ SƏRGİSİNİN İŞTİRAKÇILARINA

*22 sentyabr 2016-cı il...........................................................................22*

XV YAY PARALİMPİYA OYUNLARINDA İŞTİRAK ETMİŞ İDMANÇILARLA GÖRÜŞ

*23 sentyabr 2016-cı il...........................................................................23*

ALEKSANDR NİKOLSKİNİN RƏHBƏRLİK ETDİYİ AŞPA-nın REFERENDUMU DƏYƏRLƏNDİRMƏ MİSSİYASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*25 sentyabr 2016-cı il...........................................................................29*

RUSİYA FEDERAL MƏCLİSİNİN FEDERASİYA ŞURASININ SƏDR MÜAVİNİ İLYAS UMAXANOV İLƏ GÖRÜŞ

*25 sentyabr 2016-cı il...........................................................................31*

ÜMUMXALQ SƏSVERMƏSİNDƏ İŞTİRAK

*26 sentyabr 2016-cı il...........................................................................32*

AVROPA XALQ PARTİYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 sentyabr 2016-cı il*......................................................................*34*

AVROPA SEÇKİLƏRİN MÜŞAHİDƏSİ AKADEMİYASI MİSSİYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 sentyabr 2016-cı il*......................................................................*36*

BELARUS RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ ANDREY RAVKOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 sentyabr 2016-cı il*......................................................................*38*

PAKİSTAN İSLAM RESPUBLİKASININ MÜDAFİƏ SƏNAYESİ NAZİRİ RANA TANVİR HUSSAİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 sentyabr 2016-cı il*......................................................................*40*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

*27 sentyabr 2016-cı il*......................................................................*42*

SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*27 sentyabr 2016-cı il*......................................................................*43*

HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ SUMQAYIT ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*27 sentyabr 2016-cı il*......................................................................*51*

TÜRKİYƏ RESPUBLİKASININ MÜDAFİƏ, MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLƏRİNİN BAŞÇILIQ ETDİKLƏRİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 sentyabr 2016-cı il* ........................................................................ *87*

«ADEX–2016» II AZƏRBAYCAN BEYNƏLXALQ MÜDAFİƏ SƏRGİSİ İLƏ TANIŞLIQ

*27 sentyabr 2016-cı il* ........................................................................ *88*

MDB-nin ÜZVÜ OLAN DÖVLƏTLƏRİN TƏHLÜKƏSİZLİK VƏ XÜSUSİ XİDMƏT ORQANLARI RƏHBƏRLƏRİ ŞURASININ BAKIDA KEÇİRİLƏN İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*27 sentyabr 2016-cı il* ........................................................................ *92*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB REUVEN RİVLİNƏ

*28 sentyabr 2016-cı il* ........................................................................ *98*

BOLQARISTAN RESPUBLİKASININ VİTSE-PREZİDENTİ MARQARİTA POPOVA İLƏ GÖRÜŞ

*28 sentyabr 2016-cı il* ........................................................................ *99*

TACİKİSTAN RESPUBLİKASI ALİ MƏCLİSİNİN NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ ŞUKURCON ZUXUROVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 sentyabr 2016-cı il* ........................................................................ *100*

ABŞ-da SİMON VİZENTAL MƏRKƏZİNİN RƏHBƏRİNİN MÜAVİNİ RAVVİN ABRAHAM KUPER İLƏ GÖRÜŞ

*28 sentyabr 2016-cı il* ........................................................................ *102*

ÇİLİ RESPUBLİKASI SENATINDA AZƏRBAYCAN İLƏ DOSTLUQ QRUPUNUN SƏDRİ İVAN BARROS MOREYRA İLƏ GÖRÜŞ

*28 sentyabr 2016-cı il* ........................................................................ *103*

AFRİKA İTTİFAQININ SİYASİ MƏSƏLƏLƏR ÜZRƏ KOMİSSARI AİŞƏ ABDULLAHİ İLƏ GÖRÜŞ

*28 sentyabr 2016-cı il*..........................................................................*104*

URUQVAY PARLAMENTİ NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ XERARDO AMARİLYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 sentyabr 2016-cı il*..........................................................................*105*

V BAKI BEYNƏLXALQ HUMANİTAR FORUMUN RƏSMİ AÇILIŞI MƏRASİMİ

*29 sentyabr 2016-cı il*..........................................................................*107*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ XANIM PAK KIN HEYƏ

*29 sentyabr 2016-cı il*..........................................................................*126*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YOAHİM QAUKA

*29 sentyabr 2016-cı il*..........................................................................*127*

RUSİYA HÖKUMƏTİNİN SƏDR MÜAVİNİ OLQA QOLODETSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 sentyabr 2016-cı il*..........................................................................*128*

BMT BAŞ KATİBİNİN MÜAVİNİ CİHAN SULTANOĞLU İLƏ GÖRÜŞ

*29 sentyabr 2016-cı il*..........................................................................*130*

İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ OSMAN ƏL-TUVEYCRİ İLƏ GÖRÜŞ

*29 sentyabr 2016-cı il*..........................................................................*131*

ARGENTİNA MİLLİ KONQRESİNİN DEPUTATLAR PALATASININ VİTSE-SPİKERİ PATRİSİA XİMENEZİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 sentyabr 2016-cı il* ......................................................................*132*

MOSKVA DÖVLƏT BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNUN REKTORU ANATOLİ TORKUNOV İLƏ GÖRÜŞ

*29 sentyabr 2016-cı il*...........................................................................134

İSRAİL DÖVLƏTİNİN ÖLKƏMİZDƏKİ SƏFİRLİYİNDƏ

*29 sentyabr 2016-cı il*...........................................................................136

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

*30 sentyabr 2016-cı il*...........................................................................137

UEFA PREZİDENTİ ALEKSANDER ÇEFERİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 sentyabr 2016-cı il*...........................................................................138

FRANSADA AZƏRBAYCANIN DOSTLARI ASSOSİASİYASININ PREZİDENTİ JAN FRANSUA MANSELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 sentyabr 2016-cı il*...........................................................................140

ROMA PAPASI FRANSİSKİN AZƏRBAYCANA PASTORAL SƏFƏRİ

*2 oktyabr 2016-cı il* ..........................................................................142

ROMA PAPASI FRANSİSK İLƏ GÖRÜŞ

*2 oktyabr 2016-cı il* ..........................................................................143

ROMA PAPASI FRANSİSK İLƏ HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ İCTİMAİYYƏT NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*2 oktyabr 2016-cı il* ..........................................................................145

LATVİYA RESPUBLİKASI SEYMİNİN SƏDRİ İNARA MURNİETSENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 oktyabr 2016-cı il* ..........................................................................*154*
İRAN İSLAM RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ ƏBDÜLRZA RƏHMANİ FƏZLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 oktyabr 2016-cı il* ..........................................................................*156*

DÜNYA ŞÖHRƏTLİ MÜĞƏNNİ RƏŞİD BEHBUDOVUN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİ

*4 oktyabr 2016-cı il* ..........................................................................*158*

RUMINİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ DAN İANKU İLƏ GÖRÜŞ

*5 oktyabr 2016-cı il* ..........................................................................*166*

QƏTƏR DÖVLƏTİNİN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ YUSİF BİN HƏSƏN ƏL-SAİ İLƏ GÖRÜŞ

*5 oktyabr 2016-cı il* ..........................................................................*168*

İRAN İSLAM RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ CAVAD CAHANGİRZADƏ İLƏ GÖRÜŞ

*5 oktyabr 2016-cı il* ..........................................................................*170*

ESTONİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ XANIM KERSTİ KALYULAYDA

*6 oktyabr 2016-cı il* ..........................................................................*172*

XƏTAİ RAYONUNDA YENİ YARADILAN PARK-KOMPLEKSİN AÇILIŞI MƏRASİMİ

*6 oktyabr 2016-cı il* ..........................................................................*173*

NƏSİMİ RAYONUNDA YENİ SALINAN «QIZILGÜL BAĞI» PARKI İLƏ TANIŞLIQ

*6 oktyabr 2016-cı il* ..........................................................................*175*

NAZİRLƏR KABİNETİNİN 2016-cı İLİN 9 AYININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK

*7 oktyabr 2016-cı il ........................................................................177*

YEKUN NİTQİ

*7 oktyabr 2016-cı il.........................................................................186*

TÜRKİYƏ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*9 oktyabr 2016-cı il ........................................................................201*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*9 oktyabr 2016-cı il ........................................................................202*

*bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*10 oktyabr 2016-cı il ......................................................................203*

VENESUELA RESPUBLİKASININ PREZİDENTİ NİKOLAS MADURO İLƏ GÖRÜŞ

*10 oktyabr 2016-cı il ......................................................................204*

23-cü DÜNYA ENERJİ KONQRESİNİN AÇILIŞINDA İŞTİRAK

*10 oktyabr 2016-cı il ......................................................................205*

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN «SPACE» TELEVİZİYASININ MÜXBİRİNİN SUALINA CAVABLARI

*10 oktyabr 2016-cı il ......................................................................213*

İSPANİYA KRALI ƏLAHƏZRƏT VI FELİPEYƏ

*10 oktyabr 2016-cı il ......................................................................214*

BAKIDA OKSİGEN ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*13 oktyabr 2016-cı il ..........................................................................215*

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ YENİ SEÇİLMİŞ
BAŞ KATİBİ ZATİ-ALİLƏRİ
CƏNAB ANTONİO QUTERREŞƏ

*14 oktyabr 2016-cı il ..........................................................................218*

TAİLAND KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
GENERAL PRAYUT ÇAN-OÇAYA

*14 oktyabr 2016-cı il ..........................................................................219*

PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ
MƏHƏMMƏD NƏVAZ ŞƏRİF İLƏ GÖRÜŞ

*14 oktyabr 2016-cı il ..........................................................................220*

PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ
MƏHƏMMƏD NƏVAZ ŞƏRİF İLƏ MƏHDUD TƏRKİBDƏ
GÖRÜŞ

*14 oktyabr 2016-cı il ..........................................................................221*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*14 oktyabr 2016-cı il ..........................................................................222*

PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ
MƏHƏMMƏD NƏVAZ ŞƏRİF İLƏ BİRGƏ MƏTBUATA
BƏYANATLARLA ÇIXIŞLAR

*14 oktyabr 2016-cı il ..........................................................................224*

AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏR-
PASININ 25-ci İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ RƏSMİ
QƏBULDA İŞTİRAK

*17 oktyabr 2016-cı il ........................................................................230*

İRAN İSLAM RESPUBLİKASININ ƏRDƏBİL ƏYALƏTİNİN VALİSİ MƏCİD XUDABƏXŞİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 oktyabr 2016-cı il* ............................................................................240

DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ REGİONAL DİREKTORU MERSİ TEMBON VƏ BANKIN AZƏRBAYCAN ÜZRƏ YENİ TƏYİN OLUNMUŞ ÖLKƏ MENECERİ NAVİD HƏSƏN İLƏ GÖRÜŞ

*18 oktyabr 2016-cı il* ............................................................................242

QAZAX RAYONUNA SƏFƏR

*19 oktyabr 2016-cı il* ............................................................................243

«BİRİNCİ ŞIXLI KƏNDLİ (FERMER) TƏSƏRRÜFATI»NIN KOLLEKTİVİ VƏ QAZAX RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*19 oktyabr 2016-cı il* ............................................................................246

AĞSTAFA RAYONUNA SƏFƏR

*19 oktyabr 2016-cı il* ............................................................................255

«KARVAN- L EKO» SƏNAYE PARKINDA İNŞASI BAŞA ÇATDIRILAN MÜƏSSİSƏLƏRİN VƏ İSTİXANA KOMPLEKSİNİN AÇILIŞINDA AĞSTAFA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*19 oktyabr 2016-cı il* ...........................................................................262

MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YANOŞ ADERƏ

*20 oktyabr 2016-cı il* ............................................................................269

«ROSSİYA SEQODNYA» BEYNƏLXALQ İNFORMASİYA AGENTLİYİNƏ MÜSAHİBƏ

*20 oktyabr 2016-cı il* ...........................................................................270

TÜRKİYƏ RESPUBLİKASININ AZƏRBAYCANDA
YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ERKAN ÖZORAL İLƏ
GÖRÜŞ

*20 oktyabr 2016-cı il* ...........................................................................*292*

VENESUELA BOLİVAR RESPUBLİKASININ PREZİDENTİ
NİKOLAS MADURONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*22 oktyabr 2016-cı il* ...........................................................................*294*

VENESUELA BOLİVAR RESPUBLİKASININ PREZİDENTİ
NİKOLAS MADURO İLƏ GÖRÜŞ

*22 oktyabr 2016-cı il* ...........................................................................*295*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*22 oktyabr 2016-cı il* ...........................................................................*296*

VENESUELA BOLİVAR RESPUBLİKASININ PREZİDENTİ
NİKOLAS MADURO İLƏ BİRGƏ MƏTBUATA BƏYANAT-
LARLA ÇIXIŞLAR

*22 oktyabr 2016-cı il*...............................................................................*297*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ CEYMS
UORLİK, İQOR POPOV, PYER ANDRE VƏ ATƏT-in HAZIRKI
SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ
ANJİ KASPRŞİK İLƏ GÖRÜŞ

*23 oktyabr 2016-cı il* ...........................................................................*305*

AVSTRİYA RESPUBLİKASI MİLLİ ŞURASININ SƏDRİ
XANIM DORİS BURESƏ

*24 oktyabr 2016-cı il* ...........................................................................*306*

TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA

*24 oktyabr 2016-cı il* ...........................................................................*307*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM KOLİNDA QRABAR-KİTAROVİÇİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*24 oktyabr 2016-cı il ..........................................................................308*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ KOLİNDA QRABAR-KİTAROVİÇ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*24 oktyabr 2016-cı il ..........................................................................309*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*24 oktyabr 2016-cı il ..........................................................................310*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ KOLİNDA QRABAR-KİTAROVİÇ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*24 oktyabr 2016-cı il ..........................................................................313*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏT

*24 oktyabr 2016-cı il ..........................................................................320*

AZƏRBAYCAN–XORVATİYA BİZNES-FORUMUNDA İŞTİRAK

*25 oktyabr 2016-cı il ..........................................................................323*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİYƏ

*25 oktyabr 2016-cı il ..........................................................................333*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ

*25 oktyabr 2016-cı il ..........................................................................334*

ÇEX RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİLOŞ ZEMANA

*25 oktyabr 2016-cı il* ..........................................................................*335*
AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HERBERT SALBERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 oktyabr 2016-cı il* ..........................................................................*336*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*26 oktyabr 2016-cı il* ..........................................................................*337*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB BİNƏLİ YILDIRIMA

*26 oktyabr 2016-cı il* ..........................................................................*338*

CİBUTİ RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MƏHƏMMƏD ƏLİ KAMİL İLƏ GÖRÜŞ

*26 oktyabr 2016-cı il* ..........................................................................*339*

BANQLADEŞ XALQ RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ALLAMA SİDDİKİ İLƏ GÖRÜŞ

*26 oktyabr 2016-cı il* ..........................................................................*341*

CƏNUBİ AFRİKA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ PULE İSAAK MALEFANE İLƏ GÖRÜŞ

*26 oktyabr 2016-cı il* ..........................................................................*343*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ YAKUPİTİYA KURUPPU ARAÇÇİC ROHANACİT İLƏ GÖRÜŞ

*26 oktyabr 2016-cı il* ..........................................................................*344*

URUQVAY RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ENRİKE DELQADO XENTA İLƏ GÖRÜŞ

*27 oktyabr 2016-cı il* .......................................................................... *346*

QANA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ KODZO KPOKU ALABO İLƏ GÖRÜŞ

*27 oktyabr 2016-cı il* .......................................................................... *348*

CƏNUBİ SUDAN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ TELAR RİNQ DENQ İLƏ GÖRÜŞ

*27 oktyabr 2016-cı il* .......................................................................... *349*

KANADANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ KRİSTOFER CON KUTER İLƏ GÖRÜŞ

*27 oktyabr 2016-cı il* .......................................................................... *350*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA

*28 oktyabr 2016-cı il* .......................................................................... *352*

VII AZƏRBAYCAN–RUSİYA REGİONLARARASI FORUM İŞTİRAKÇILARINA

*31 oktyabr 2016-cı il* .......................................................................... *353*

*QEYDLƏR* .......................................................................................... *355*

*Şəxsi adlar göstəricisi* ........................................................................ *385*

*Coğrafi adlar göstəricisi* ..................................................................... *389*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.